Әзизә Чәфәрзадә
Анамын нәғмәләри

Əzizə Cəfərzadə

Anamın nağılları. — Bakı. Gənclik, 1982.

«Anamın nağılları» kitabında yazıçının danışdığı nağıllar əsasən bir nəfərin — onun anasının vaxtilə söylədiyi, yazıya köçürülmədən hafizədən yazılan, lakin kökləri ilə xalq yaradıcılığına bağlı nağıl və əfsanələrdən ibarətdir. Orta və böyükyaşlı uşaqlar üçün nəzərdə tutulmuşdur.

Rəssamı İ.Quliyev

Əzizə Cəfərzadə

Anamın nağılları.

Gənclik,
BAKI 1982

ƏCƏL MACAL VERSƏYDİ...

Biri varmış, biri yoxmuş... Bu sehrli nağıl qapısını Böyükxanım ana nə qədər açıb-örtmüşdü! Hər açanda ətrafındakılara açılı-şirinli bir dünya bəxş etmişdi: bu qapıları hər qapayanda eşidənlər «birini də, birini də» deyə yalvarmışdılar sinəsi söz dünyamızın «əttar dükanı» olan ağbirçək nənəmizə. O da: «qalsın sabah axşama» ümidilə oğul-uşağı, nəvə-nəticəni birtəhər ovundurmuşdu. Eh, kim bilir, bəlkə də «vədə axşamına» özündən yeni nağıl quraşdırması üçün vaxt qazanırmış, əcəldən möhlət istəyirmiş...

Biri varmış, biri yoxmuş... Dünyanın etibarı budur: «biri varmış» da var deyilmiş, yoxmuş. Burası var ki, o unudulmaz «bir vaxt varmış» ananın bir kitablıq nəfəs gözərtisi — inamımca uzunömürlü ibrətli nağılları bizə yadigar qalıb.

* * *

Bu nağıllarda mənim həsəd gözüm var. Onları mən yazacaqdım. Məndən yan keçən qismət Əzizə xanımın uğuruna çıxıb. Deyimmi necə oldu?..

Ağız ədəbiyyatı nümunələrini acgözlüklə axtarırdım. Eşitdim ki, Böyükxanım ananın yaddaşı yazıya köçürülməmiş bayatı, düzgü, lətifə, yanıltmac, əfsanə və rəvayətlərlə doludur. İşə bax ki, özü də Bakının qoynunda. Ona görə «işə bax» deyirəm ki, adətən, folklor materiallarını toplamaq üçün rayonlara, ucqar dağ kəndlərinə pənah aparırıq. Demə, aqil bir ağbirçəyi gözümüzün qabağında qoyub dağadaşa düşürmüşük...

Bu da tanış ünvan — Əzizə Cəfərzadənin evi. Böyükxanım ana divanda kənarları qırçınlı-büzməli qədim bir mütəkkəyə söykənmişdi. Yad adam görən kimi qəddini dikəldib oturdu. İpək lələfinə oxşayırdı. Bəyazlanmış saçları bir quçaq pambıq idi. Bu pambığın arasında nurdan yoğrulmuş bir sima

qarılığında belə bulaq kimi dupduru mehriban gözləri ilə dünyamıza heyrətlə tamaşa eləyirdi.
Qarı yaşındaydı, qarı deyildi. Üstündən gah mülayim,
gah qasırğalı keçən 75 il yanaqlarının təravətini apara bilməmişdi. Qaşlar nağılvarı. Kirpiklər bir zərrə də ölgünləşməmiş... saçlar, eləcə saçlar vaxt-vədənin hökmunə baş əymişdi. Bir də ürək namərdlik eləyirdi. Ayrı heç nə. Mənə gülməyin, dünya qarılarının gözəllik sərgisi keçirilsəydi, Böyükxanım anamız, sözsüz, birinni yeri qutardı.
Əzizə xanım mənə anasının nağıl dünyasına yol tapmaq üçün «açar» vermişdi. «Bir-iki tutarlı bayatı çək, işdir «bəh-bəh» desə, bir-ikisini də döşə, gerisi ilə işin yoxdu, özü səni söhbətinə münasib bilib başlayacaqdı...»

Oturan kimi başladım:

Mən aşıq, düşən ağlar,
Atlanıb düşən ağlar.
Düşsün əğyar gözünə
Saçına düşən ağlar.

Üzünün nuru aydınca sayrışdı. Üst kirpikləri gedib qalın qaşlarına qarışdı. Dodaqları tərpənməmiş o «bəhbəh»ləri neçə pıçıldadı, bilə bilmədim. Sonra da sol əlini qaldırıb gözlərini xəfifcə qapadı. Bayatıda çəkilən lövhənimi xəyalında canlandırmağa çalışırdı?
Dərin bir dəryanı dalğalandırdığımdan qürrələnib ikinci addımımı atdım:

Mən aşıq, gülə damlar,
Şeh yağa, gülə damlar.
Bu damlar o damlardı,
Hanı o gül adamlar?!

Əlini üzündən çəkdi. Gözü bizə baxırdı, amma deyəsən, heç birimizi görmürdü. Öz aləmindəydi. Bu aləmə elə qapılmışdı ki, «bəh-bəh» deməyə, duyğularının bütövlüyünü pozmağa ürəyi gəlmirdi. Handan-hana xəyalına çöksəmiş buludları üstündən daradı. İndi ananın lal marağı dil açmışdı: «birini də...»

Mən aşıq, qana daqlar,
Ox titrər, qanad ağlar.
Ovum yaralı getdi,
Boyandı qana dağlar.

— Bəsdi, a bala, bərdi, — dedi. — Səni bu Əzizə öyrədib. Ürəyimi qana döndərdin, bəsdi...

Bayatıdan belə kövrəlirdi. Sözdən beləcə alınırdı. İnsanın məziyyətlərini sözə həssaslığı ilə ölçmək qoca Şərqin sışanmış inamlarındandır.

Böyükxanım ana həsrətli, niskilli ömür yola salmışdı. Anası Rübabə xanım şair xəyallı idi. Yaslarda sinədən «toxuduğu» ağılar ürək parçalayardı. Ömrün ixtiyar çağında qardaşı uşaqlarını görmək arzusu ilə Cənubi Azərbaycana getmişdi. Böyükxanım ananın «qayıt» fəryadlı çağrışlarına «hələ doğmalarımdan doymamışam» yanğısı ilə cavablar yola, salırdı. Sonuncu məktubu bircə həsrət bayatısıydı:

Apardılar gülümü,
Elədilər zülümü.
Gəl çıx dağlar başına,
Deyim dərdi-dilimi.

Əcəl macal vermədi, Rübabə xanım qürbətdə qaldı. Bu, həssas ürəkli Böyükxanım anaya ömürlük işgəncə oldu.

Böyükxanım ana mükəmməl Şərq savadı görmüşdü. Şəfiqə

xanım Əfəndiyevanın məktəbində oxumuşdu. Nəriman Nərimanovun qardaşı qızı Asiya xanım Nərimanovadan, Həsən bəy Zərdabinin ömür yoldaşı Hənifə xanım Zərdabidən dərs almışdı. Hər halda, ən çox oxuduğu «çarıqlı filosofların» sinələri idi. Bu «oxu» anaya çox şey vermişdi. Bircə gəlməsində böyük mətləblər gizlənmiş xalq müdriki idi. Nəsə...

Gördüm, gözüm qırıldı. Əvvəla, bu anadan bildiklərini yerli-dibli qopartmaq çətindi. Sonra da, ağız ədəbiyyatı toplamaq axı təkcə məzmun «götürmək» deyil, gərək nağılcının isti nəfəsini yazıya köçürəsən, dilinin şirəsini bütünlüklə saxlayasan. Yoxsa bunsuz quruca məzmun əxz eləyərsən; belə deyək ki, özündən bir az da üstünə qoydun, lap yaxşı bir əsər çıxdı, yeni alınan örnək səninkidir, xalqınkı deyil. Yeri gəlmişkən, çap olunan folklor materiallarında məhz bu xalq nəfəsi çatışmır. Toplayıcı topladığı adamla ötəri görüşür, bir-iki kəlmə ilə məzmunu qeyd edir... sonra başlayır öz bildiyi kimi xalq adına «toxumağa».

Bu hisslərin təsiri altında Əzizə xanıma pıçıldadım:

— Ananızın bildiklərinə niyə «mirzəlik» eləmək istəmirsiz?

Əzizə xanım dediyindən qorxurmuş kimi uçundu:

— Dilim-ağzım qurusun, elə bilirəm, bu məqsədlə əlimə qələm alsam, anamın ölümünü yaxınlaşdıraram. Yazılar bitincə onun da ömrü tükənər. Görürsən ki, bir otun titrəməsindən zağ-zağ əsən adamdır. Hərəkətim qəlbinə toxunar, Elə bilər onu yola salmağa hazırlıqdı bunlar... Aman allah, ömrümüz boyu bizə nağıl danışıb, əfsanə söyləyib, bircəsini də təkrar eləməyib. Bəlkə bunları özü yaradır?! Hələ görəsiniz bunları hansı məqamda, hansı mətləb üstündə söyləyir. Sağlıq olsun, indi gələrsiz, eşidərsiz...

26 dekabr, 1976-cı il. Eşitdim... Amma Böyükxanım ananın ömür nağılının sona yetdiyini eşitdim.

Ötən beş ildə ananın özüylə torpağa gömdüyü söz sərvətinə heyfsilənə-heyfsilənə onu yad etdik.

Bir gün də... Əzizə xanım məni anasından yadigar nağıllara qulaq asmağa çağırdı. Birini oxudu. İkincisini dinləmək həvəsi qəlbimi doldurdu. Üçüncüsünü... birini də... birini də... Beləcə bir kitab nağılın ilk qonağı oldum.

— Nə gözəl nağılçıymışsınız, Əzizə xanım?

— Məm yox, anam. Bu kitabın əsl müəllifi anamdır. Əvvəldən axıra çiynimin üstündə dayanıb öz dili, əz ifadəsi ilə, şirin pıçıltıları ild mənə kömək eləyib. İnana bilərsən ki, bircə kəlməsi də mənim deyil. Qaibanə şəkildə mənə nə deyibsə, onu da yazıya gətirmişdi.

Beləliklə, mənə qalan bir həsəd oldu, bir də unudulmaz nağılçı ananın xatirəsinə yazdığım bu beş-on cümlə.

Bircə bunu demək qaldı ki, Əzizə xanımın qələmə aldıqları o yox olmuş söz dəryasından olsa-olsa bir damladır. Əcəl macal versəydi...

Məmməd Aslan.

ÇÖRƏK

Biri var idi, biri yox idi, allahın bəndəsi çox idi. Lap qədim zamanlarda öz əlinin zəhməti ilə çörəyini qazanan Etibar adında bir kişi var idi. Bu kişinin gülərüz, mehriban arvadı, on iki də bir-birindən xırda balası var idi. Etibar kişi hər gün səhər gün çıxmamışdan yerindən durub cütünü qoşar, yer şumlar, taxıl əkər, sular, alnının tərini tökə-tökə qızmar yayda biçin biçər, xırman döyərdi. Bu ağır zəhmətnən başa gələn çörəyin də qədir-qiymətini, hörmətini yaxşı bilərdi Bir dəni çöldə qoymaz, bir tikə çörəyin ayaq altına düşməyinə razı olmazdı. Odur ki, binbərəkət də ondan qaçmaz, nemət başından yağardı. Təkcə canıynan işləsə də, on dörd baş gülfəti firavan saxlayırdı. Şahın vergisini, xanın-bəyin tələbini ödəyirdi. Hələ bir seyid, molla, kovxa, dərviş də onun xırmanından ruzi aparırdı. Arvada tapşırmışdı özü evdə olmayanda arzadın, olanda da özünün işi-peşəsi uşaqların ardınca gəzib, yerə düşən çörək tikələrini yığmaq idi.

Günlərin birində bu ölkənin padşahı ovdan qayıdanda yolu Etibar kişinin evinin yanından düşdü. Gördü səliqəsahmanlı həyətdə bir dəstə uşaq oynaşır. Hamısı da böyüklü-kiçikli bir-birinə oxşayır. Deyəsən, bacı-qardaşdılar. Hamısının da yanağından qan damır. Elə bil ölkədəki qıtlıqdan heç bunların xəbəri yoxdur. Şah darğanı çağırtdırıb elə atüstü hal-əhval tutdu, soruşdu:

— Bu ev kimindi, bu külfət, bu çolma-çocuq kimindi?

Darğa qorxa-qorxa dedi:

— Qibleyi-aləm, cütçü Etibar kişinin həyətidi. On iki də xırda-xırda uşağı var. Ən böyüyü hələ çomaq götürən olmayıb.

Şahı heyrət götürdü:

— Yaxşı, bu qıtdıq zamanədə o bu külfəti neçə dodandırır? Yəqin ki, vergi-zad almırsız?

Darğa bir az cürətləndi:

— Təsəddüqün olum, qibleyi-aləm, necə ki almırıq? Alıram! Artıqlamasıynan verir. Fitrəsin, zəkatın, imammalısın,

seyidmalısın da ötürmür.

Şahın təəccübü daha da artdı:

— Yəqin başqa yerdən gəliri, ya da dədə-baba irsi-zadı var.

— Xeyr, qibleyi-aləm, bircə cütü var. Dəxi heç nəyə gümanı gəlmir.

Şah danışdıqca onun ağılbənd vəziri həyətə, burda, oynaşan uşaqlara göz qoymuşdu. Nə fikrə gəldisə, birdən cözə qarışdı:

— Qibleyn-aləm, darğa haqlıdı. Bunun bircə sirri var. Mən, deyəsən, o sirri tapmışam.

Şah maraqla soruşdu:

— Nədi?

Vəzir gözünü həyətdən çəkmədən cavab verdi:

— Bu evdə çörəyə hörmət var, hökmdarım! Bir bax, o qədər uşaq olan həyətdə ayaq altında bir qırıq çörək yoxdu.

— Ana, qoğal, ana, kökə...

Arvad heç aldırmadı; körpələrinə tərəf əyilmədi də. Başındakı tabağı yerişinə həmahəng yelləyə-yelləyə evə doğru irəlilədi və uşaqlara belə cavab verdi:

— Gedin əlinizi tərtəmiz yuyun, mən də evdə süfrə salım, gəlin oturun çörəyi orda yeyin.

Bunu eşidən vəzir dedi:

— Görürsünüzmü, qibleyi-aləm, bu evdə çörəyin qədirqiyməti böyükdü.

Şah dedi:

— Yaxşı bax! Ola bilməz ki, çörəkdən bir qırıq ayaq altına düşməsin, axı onlar uşaqdı...

— Yox, hökmdarım. Görünür ki, ana onlara təndir çörəyini qədəriycən verir. Təndir çörəyi ovulmur. Uşaqlar da elə tərbiyə alıblar ki, artıq dişdəmi, loğmanı yerə atmırlar.

Padşah saraya qayıtdı. Nə düşündüsə, səhər belə bir əmr verdi: ölkədə heç kəs təndir çörəyi bişirməsin. Hamı yalnız yuxa, nazik lavaş, sac çörəyi bişirsin yesin.

Bir müddət sonra padşah vəzirinə dedi:

— Vəzir, bilmirsən o cütçü necədi?

— Soruşdum qibleyi-aləm, darğa deyir ki, bu il də buğdası yaxşı gəlib, bərəkət başından yağır.

Şah atlandı:

— Gedək, vəzir, öz gözümlə görməsəm, inanmaram. Axı sənin sözünə qalsa yuxa-lavaş yeyəndə kövrək qırıntılar uşaqların əlində ovxalanıb aləmə dağılmalıdı. Ayaq altı çörəknən dolu olmadı, nemət də o yurddan qaçmalıdı. Yoxsa fərmanıma əməl eləməyib yenə də təndir çörəyi bişirtdirir? Dərisinə saman təpdirrəm.

Onlar söhbətləşə-söhbətləşə Etibar kişinin həyətinə çatdılar. Gördülər ki, həyətdə oynaşan uşaqların hər birinin boynundan ağ, təmiz parçadan tikilmiş kiçik bir torba asılıb. Uşaq, lavaş-yuxa yemək istəyəndə ağzını torbaya tutub yeyir və qırıntılar da ora tökülür. Bunu görən vəzir dilləndi:

— Gördünmü, hökmdarım? Bu yurddan çörək əskik olmaz. Burda onun qədrini də bilirlər, hörmətini də. Ayaq altına düşməyə qoymurlar onu.

İLDƏ BİR YALAN DANIŞAN

Nə zamandan deyim olsun həlal, dəvə dəllal olanda, siçanlar padşahı cəlal olanda, mənim onbeşim tamam olanda, anam atamın nənnisini yırğalayanda... qəssab olsaydım kəsməz idim hatırı, nalbənd olsaydım nallamazdım qatırı, tacir olsaydım yığmaz idim yatırı, çörək diləsəm çağırmazdım şatırı... Dərədən sən gəl, təpədən mən, dağları sən aş, çayları mən, anasın sən sev, qızın mən, dərdini sən çək, nazını mən, tütəyin sən çal, sazını mən, ördəyin sən yol, qazını mən, itini sən bəslə, tazını mən, mollanı sən öynələ, qazını mən, qışına sən döz, yazına mən... gəl gedək, yol gedək, al gedək, yal gedək... yolumu kəsdi pəri qızlar, yadıma düşəndə ürəyim sızlar, gölündə xırdaca qazlar... az getdik, üz getdik, iynə yarım

yol getdik, göründü Çinü Maçin bağları, başı qarlı dağları, sinəmə çəkdin dağları, qırdın, tükətdin sağları, yad etməyin o çağları... Gözüm, qızım, nazım, mələyim bir qulaq as sözümə, gözünü dik gözümə, üzünü qoy üzümə, dizin söykə dizimə, dinlə. Biri var idi, biri yox idi, tanrının qulu çox idi... Çox-çox qədim zamanlarda iki qonşu qəbilə iki kənd yaşayırdı, aralarından bircə çay keçirdi, ürəklərindən bircə dərd, bircə qəm keçmirdi. Bir-birinə qız alıb qız verir, bir-birnnin dərdinə qalır, vayı da, toyu da, xeynr-şəri də çiyin-çiyinə yola verirdilər. Bu qəbilələrin ağsaqqalları da bir-birinə can deyib can eşidirdi.

Qəbilənin birinin adı Şamlıydı, o birinin adı Rumlu. Şamlının başçısı qızını vermişdi rumlunun başçısının oğluna. Olmuşdular qohum-quda. Day aralarından su da keçmirdi.

Günlərin birində Şəki-Şirvan ipəyi aparıb Bağdadda ticarət eləyən rumlu kürəkən Samirədəki qul bazarına getmişdi, istəyirdi ki, özüyçün də, qaynatasıgilçün də bir neçə qul alsın. Samirə bazarında o vaxtlar dünyanın hər tərəfindən qul gətirilib satılırdı. Qərəz tacir bazara girdi, xeyli gəzdi, gördü ki, bir qul taciri çox güclü, qüvvətli bir qulu, bazardakı məzənnədən xeyli aşağı qiymətə satır. Yaxınlaşdı, bir az baxdı-baxdı, öz-özlüyündə fikirləşdi ki, «a tanrı, görəsən bu qulu niyə belə ucuz qiymətə satırlar? Ayıbı nədi?»

Qul taciri də ipək tacirinin ona çoxdan bəri göz qoyduğunu duymuşdu. Qərəz hər iki tacirin sözü tutdu. Tacir dedi:

— Qardaş, səni and verirəm nəyə inanırsan ona, de görüm bu qulun nə ayıbı var ki, onu belə ucuz qiymətə satırsan?

—Əyşi, alansan al, almırsan çıx get, nədi istəyin axı?

— Belə genə səni and verirəm, kimi çox istəyirsən onun canına, mənim gözüm bu qulu tutub. Ayıbını desən də alacam, deməsən də, amma de görüm, qabaqcadan bilim ki, ayıbı nədi?

Çox çənə-boğazdan sonra tacir əvvəlcə qulun pulunu aldı,

sonra da dedi:

— Kişi, indi ki məni dara qısnamısan, deyəcəm. Bil və agah ol ki, bu qulun tayı-bərabəri heç yerdə yoxdu, güclüdü, qulluqbazdı, biləcəklidi, amma bircə ayıbı var ki, ildə bir yalan danışır.

Tacir güldü, ürəyində fikirləşdi: «Sən öl, elə sən dedin, mən də inandım, tacir tayfasının işi-peşəsi səhərdən axşamacan malını tərifləyəndə yalan toqquşdurmaqdı. İndi nə oldu ki, sən bu qulu ildə bircə yalanına görə ucuz satasan? Yox, görəsən ayrı nə var». Bərkdən dedi:

— Əyşi biz elə səhərdən axşamacan on yalan toxuyuruq özümüz...

Qul satan dedi:

— Mən dedim, sən eşitdin. İndi bundan beləsi sənin öz işindi. Özün bil.

Tacir qulu bazardan evə gətirdi. bir neçə müddət Bağladda qalıb satmalısını satdı, almalısını aldı. Bu vaxt ərzində qul ona qardaşdan yaxın oldu. Elə fəhmli, elə sözü tez başa düşən, hər əmri hiccə-piccəsinəcən yerinə yetirən qul idi ki, tacirin tərifdən dili ağzına sığmırdı. Deyirdi «Sən öl, bəkməz almışam — bal çıxıb». İş gücünü qurtarandan sonra yığıldı, yığışıldı, düşdü vətəninə sarı yola. Gəldi günlərin bir günündə çıxdı vətəninə. Qul yolda səfərin bütün ağır işləriii özü gördü, ağasını ağzında dili kimi saxladı. Tacirin yadından da çıxdı ki, qulsatan ona demişdi, qulun ayıbı nədi. Elə hey fikirləşirdi ki, bu qulu almaqdan naxışı işləyib.

Ay keçdi, il dolandı, qulun yalan danışmaq məqamı gəldi çatdı. Yalanı deməsəydi, bədənini bir dəli qaşınma tuturdu ki, gəl görəsən. Nəysə...

Bir gün qul dükanın qabağında oturmuşdu. Ağası onu çağırıb tapşırdı ki, nahar vaxtıdı, gedib evdən xörəyi gətirsin.

•

Qul evə gəldi, bədənini yalan gicişməsi tutmuşdu.

Xanımdan xörək bağlanmış bağlamanı alanda, həsrətlə üzünə baxıb dərindən ah çəkdi. Xanım da qulun xətrini çox istəyirdi. Ahını eşitcək, fikirləşdi ki, «qəribdi, bədbəxtdi, bəlkə bir dərdi var, əlacı məndədi». Qula yazığı gəldi, soruşdu:

— Nədi, niyə ah çəkirsən, nə dərdin var?

— Sənin mərhəmətindən heç bir dərdim yoxdu, xanım.

— Bəs onda ah niyə çəkirsən?

— Sənə heyfim gəlir.

— Mənə nə olub ki?

— Sən belə gözəl, sən belə mehriban, amma ağa...

Xanımın ürəyinə qısqanclıq düşdü:

— Ağa neynir ki?..

— Yox, ay xanım, qorxuram...

— Qorxma, mən ağana heç nə deməərəm, de görüm nə qələt qarışdırıb?

— Ağamın ayrı arvada gözü düşüb, xanım! İstəyir bir çarəyiən səni boşayıb onu alsın.

Bu sözləri deyəndən sonra qul, bağlamanı götürüb evdən çıxdı, getdi. Gəldi dükana. Bağlamanı ağanın qənşərnnə qoyanda xeyli fikirliydi. Bu, ağanın gözündən yayınmadı. Axı qulu çox istəyirdi, soruşdu:

— Hə, nə fikirlisən belə? Səni kim incidib? Yoxsa xanım xətrinə dəyib? De, kim olsa cəzasını verrəm. Bilirsən ki, səni çox istəyirəm.

Qul bu sözü eşidən kimi diz üstə ağasının qabağında yerə sərildi, ağlaya-ağlaya dedi:

—Mən bədbəxtəm, ağa! Mən sənin çörəyini yeyirəm, amma namusunu qoruya bilmirəm.

Tikəsi ağanın ağzından yerə düşdü, qeyzlə bağırdı:

— Nə sarsaqlayırsan, qul? Mənim namusuma nə gəlib ki? Kimdi onu ləkələyən? Mən ölmüşəm ki, namusumu sən qoruyasan? De, kimdi?

Qul gözüiün yaşını leysan kimn tökə-tökə dedi:

—Xanım...
— Nə?..
— Bəli, ağa, xanımın adamı var. İstəyir ki, şamlıların əliynən, həmin şamlı cavanın köməyiynən səni öldürtsün. Qəbilənizin arvadlarını saxlasınlar, kişilərini də qırıb torpağınızı, mal-madarınızı özlərinkinə qatsınlar.

Tacir bu xəbərdən özünü itirdi, məsələnin böyüklüyü onu dəhşətə saldı, əlləri, dodaqları əsdi. Qul dedi:
— Sən bir az ehtiyatlı ol, ağa, özünü gözlə. Mən hər şeyi yeri-yerində öyrənib sənə xəbər verərəm, sən də o vaxtacan fikirləşib çarə taparsan.
Qul burdan durub özünü birbaşa evə çatdırdı. Xanım təşviş içindəydi. Qul tələm-tələsik dedi:
— Hə, xanım, hər şey mənə gün kimi aydın oldu. Ağa doğrudan da səni boşamaq istəyir.
Xanımı ağlamaq tutdu:
— Ay tanrı, bəs mənim balalarım? Mən onlarsız ölləm!
— Xanım, cəza-fəzə çarə eləməz, iş görməliyik.
— Get, atamgilə xəbər elə.
— Atangil neynəyə bilər? Talaq hökmü kişinin əlindədi.
— Bəs mən neyniyə billəm?
— Qoy gedim, qonşuya bir cadugər gəlib bu yaxınlarda. O taydan. Gedim ona bir rəml atdırım.
Xanım qula rəmmal-cadugər üçün xeyli pul verdi. Qul getdi, bir azca keçmiş, qayıtdı, dedi:
— Xanım, cadugər deyir ki, çarə elərəm, amma bir çətin iş buyurub, gərək ağanın boğazının altından saqqalının dibindən ülgücnən üç-dörd tük kəsəsən. Onda nə dua yazsa yerini alacaq. İşin də düzələcək.

Qul xanıma bir iti ülgüc verdi. Özü buradan birbaşa dükana ağasının yanına gəldi:

Ağa, hər şeyi dürüst öyrəndim. Qərar qoyublar ki, sən günortadan sonra dincələndə xanım boğazını ülgücnən kəsəcək.

Ağanın səbri tükəndi. Day heç bir iş görə bilmədi, tez durub dükandan evə gəldi. Sübutu xanımın əlində tutub onu yerindəcə öldürməyi öz-özünə söz vermişdi. Evə gircəyin gördü ki, arvad təşviş içindədir; onunla əvvəlki kimi danışıb gülmür. Yalandan yorulmuşam deyib, pal-paltarlı yatacağı taxtın üstünə uzandı. Xanım da ağanın əzvayışını ayrı cür görüb fikirləşdi: «Hə, elə qul deyən düzdü. Ayrı arvad alacaq ki, mənə belə baxır. Allah özü köməyim olsun». Yavaşca ülgücü, kəsəcəyi tükləri bükmək üçün kağız hazırladı. Ərinin yuxuya getməsini gözlədi.

Bu yandan kişi də işin əslini öyrənmək üçün yanına sıyırma xəncər qoydu. Özünü yalandan yuxuya verib, xoruldamağa başladı. Onda gördü ki, arvad xorultu həniri alıb yavaş-yavaş barmaqlarının ucunda otağa girdi. Ehtnyatından nəfəs də almırdı. Pəncələri üstündə ərinin taxtına yaxınlaşdı, ülgücü açıb əlini kişinin boğazına uzadanda, kişi cəld yerindən sıçrayıb durdu:

— Hə! Çəpəl, məni öldürmək istəyirsən? — arvadın qorxudan dili tutuldu, bir söz deyə bilmədi. Kişi onun xəyanətinə əmin oldu. Biləyindən tutub yerə yıxdı, xəncəri qarnına soxub öldürdü.

Qul bütün bunları pəncərədən görürdü. Arvad canını təslim eləyən kimi qul cəld özünü şamlı qəbiləsinnn başçısına yetirdi:

— Nə durmusan, rumlu kürəkən qızını öldürdü...

Şamlılar öz qəbilə başçılarının qızının qanını almaq üçün hərə əlinə gələn kərəntini, qılıncı, xəncəri qapıb atanın dalınca düşdülər. O yandan qul özünü rumlulara yetirdi. Qəbilə başçısını görcəyin ağlaya-ağlaya dedi:

— Nə durmusan, şamlılar sənin oğlunu öldürməyə gedirlər...

Rumlular da əllərinə silah alıb başçılarının ardınca oğlanın evinə tərəf cumdular. İki-qəbilənin gözləri qızmış cavanları qan-qan deyə bir-birini heç nə soruşub bilmədən qırmağa başladılar. Qan su yerinə axırdı. Gəlinin anası qızının

meyiti üstündə başını yolurdu. Necə oldusa birdən tacirin gözü aralıda dayanmış qula sataşdı. Qul alverçisinin sözləri yadına düşdü, qəfil dikdirin üstünə çıxıb bağırdı:

— Dayanın, qardaşlar, dayanın! Mənim sizə bir sözüm var, onu eşidin, sonra da nə bilirsiniz mənə eləyin, çünki günahkar mənəm.

Hamı əlini vur-yıxdan çəkib qulaq asmağa başladı. Tacir qulun yaxasından tutub dikdirin üstünə çıxartdı,
dik gözlərinin içinə baxıb gördü ki, qul gözlərinin ondan gizləyir:

— Düzünü de, — deyib əmr elədi.

Qul ona yalan satdığını boynuna alanda, tacir üzünü hər iki qəbilədən sağ qalanlara tutub hadisənn məi sizə nağıl eləyən kimi onlara danışdı, sonra dedi:

— Qul taciri mənə demişdi ki, bu qul ildə bir yalan danışır, amma mən yadımdan çıxartmışdım. Ulular deyib ki, dörd şeyin kiçiyi olmaz: borcun, yanğının, xəstəliyin, düşmənin. Mən ona yalanı da əlavə eləyərəm. Yalan da elə düşməndir. Onun da böyük-kiçiyi yoxdur. Mənim həmvətənlərim, mən bu yalançının cəzasını belə verirəm.

Tacir bunu deyib qulu xəncərlə öldürdü. Sonra üzünü yenə də donub durmuş camaata, qəbilədaşlarına tutdu:

Günahkaram, çoxunuzun ailəsinə qan salmışam. Qəbilələrinizə yalan gətirmişəm. Mənim də cəzamı siz verin.

Qəbilə ağsaqqaları fikirləşdilər ki, anası ölmüş dörd yetimi atasız da qoymasınlar. Oğlan yaşasın, balalarını böyütsün, amma yalansız böyütsün.

Hərə öz yaralısını götürüb evinə tərəf düzəldi. Qəbilə ağsaqqaları ölənləri kəfn-dəfn elədilər. Yalana, yalançıya lənət oxudular.

Görürsünüzmü, mənim balalarım, yalan nələrə səbəb olur. Heç vaxt yalan danışmayın, yalan deməyə məcbur olduğunuz yerdə susun! Yalandansa dinməmək yaxşıdı.

Xoşbəxt olun, balalarım, nənənin bu nağılı qulağınızda sırğa olsun..

YUMURTA ƏHVALATI

Dünyada düzlükdən, pak iəfsdən yaxşı şey yoxdur, mənim balalarım! İndi sizə danışmaq istədiyim əhvalat çoxdan, lap çoxdan, qədim zamanlarda baş varib. O vaxtlar nəinki mən, heç babam da bu dünyada yoxuymuş.

Deyirlər o çağlar bizim el-camaat çox pak nəfsli xalqıymış. Birinin bir qarış torpağında, bir yoluq cücəsində, bir axsaq keçisində gözü olan yoxuymuş. Axşamdan bir tabağa mer-meyvəni dər, qoy səhərə, bir uşaq dənəsini götürməzmiş. Nə bostan oğrusu, nə bağ oğrusu, nə ev oğrusu bilərmişlər; yoxuymuş yanı. Bir sini qiymətli ləl-cəvaahiri yığ, ver sinini uşağın əlinə, göndər bazar içiynən şəhərin bu başından o biri başına, bir amərd tapılmazmış ki, sinidən bir daş, ya bir sıxma pul götürsün.

Elin ağsaqqalı, ağbircəyi camaatı hər şeydən əvvəl nəfsdən qoruyurmuşlar. Deyirmişlər: «İnsan öz nəfsinə dayan deməyi bacarmalıdı, dayan deyə bilmirsə—insanlıqdan çıxır». Uşaqları da körpəlikdən bu tiynətdə böyüdürmüşlər.

Odu ki, bizim elimizə-camaatımıza heç kəsin gücü çatmırmış, bir yağının dişi batmırmış, bir padşahın qəzəbi keçmirmiş. Axı nəyçün də keçsin? Hər işlər» düzdüzünəqulu. Şahdan nə fərman çıxırmışsa, ədalət yoluynan dübbədüz, öz vaxtında öz saatında yerinə yetirirmişlər. Amma o çağlarda bir ədalətsiz, zalım padşah hökumətliyə gəlib çıxıbmış. Qaşınmayan yerdən də qan çıxarmaqdan xoşu gələrmiş. İl keçir, ay dolanır, padşah baxıb görür ki, heç bu eldən bircə adam boğazlaya bilməyib, bir göz çıxartdırmayıb, bir əl kəsdirməyib... Belə də şey olar? Bir şeytana papış tikə bilən

vəziri var imiş. Bir dəfə söhbət vaxtı ondan soruşub:

— Vəzir, yəni bu camaatın heç cəzaya layiq olanı yoxdur?

Vəzir eli yaxşı tanıyırmış. Padşahın cavabını əlüstü verir:

— Qibleyi-aləm, yoxdu.

— Ola bilməz, vəzir! Yaxşı baxmamısan.

— Baxmışam, qibleyi-aləm, lap yaxşı baxmışam. Onları lap xəlbirdən keçirmişəm. Düyü kimi arıtmışam, vala un kimi ələmişəm. Günahkar yoxdu ki, yoxdu.

— Yəni heç elə xalq olar?

— Olarmış, qibleyi-aləm! Mən də inanmırdım, amma olarmış. Bütün ətraf qəbilələr, xalqlar bunlara «pak nəfslilər» deyirlər. Çünki bunlar bir kəsin bir tikə haramını indiyəcən nəinki yeməyiblər, hətta haram tikəyə əl də uzatmayıblar. Odu ki, nəfsləri pakdı, alqışları-qarğışları tez yerini alır. Deyirlər haram yeməyiblər, ondandı.

— Vəzir, sabah hər evdən bir nəfər tut, at zindana.

Vəzir padşahın fərmanını can-başla qəbul edir. Sə-
hərə də qoymur: «Kişi olan şəxs, — deyir, — bu günün işini sabaha qoymaz». Hər evdən sannı qoz kimi bircə nəfər tutub saldırır zindana.

Evlərə müsibət ayaq açır. Ana oğlunu, uşaq atasını, arvad ərini deyib ağlayır. Camaat yığılıb ağsaqqalları dövrələyir: «Gedin padşahdan gedənimizin getmək səbəbini soruşun» deyirlər. Ağsaqqallardan biri ağır-ağır dillənir:

— Övladlarım, mən bu gecə sübhü diri gözlə açmışam. Fikirləşmişəm görüm padşah niyə bizim adamları tutub?

— Axı biların günahı nədi? Görmüşəm ki, padşah, qəzəbinə nahaq zor verib. Bizim heç bir taxsırımız yoxdu. Mən hamı-
mız adından onu haqqa-ədalətə tapşırmışam. Qoy allah onunla ədalət divanı eləsin. Siz ki düzsünüz, əyri yanına gedib əyilməyin. Haqq yerini tutacaq. Haqqa yalvarın!

Camaatın nifrinindən, qarğışından o gecə padşahın çox istəkli oğlu—vəliəhdi azarlayır, partdam-partdama düşür, yıxılıb ölür.

Vəzir padşaha deyir:

— Qibleyn-aləm, bu onların nəfəsindəndi. Onların qarğışı da, alqışı da tez yerinn alır. Özünü bundan da bədtərindən qoru!

Padşah qorxuya düşür:

— Tez onların adamların burax getsin.

Tutulanlar buraxılır. Padşah deyir:

— Vəzir, tədbir tök! Gör neyniyək.

Vəzir deyir:

— Padşah gərək bu elin tikəsi dəyişsin, tikəsinə haram qatılsın.

— Qat da-a... Nə durmusan?

— Qoy bir fikirləşim, qibleyi-aləm!

— Sənə üç gün möhlət verirəm, vəzir! Üç günəcən çarə qanmasan başın bədənindən ayrılacaq. Özündən küs. Sonra demə ki, bilmədim.

Vəzir padşahın xasiyyətinə bələd idi. Bilirdi ki, dediyini eləyən şahdı. İllah da ki, belə şey ola.

Qərəz vəzir gecə-gündüz fikirləşib çarə axtardı ki, görsün bu elin halal tikəsinə haramı necə qatsın? Hansı yolla qatsın ki, alqış-qarğışları pak nəfslərii kəsərdən düşsün. Amma özləri də bilməsinlər. Axı bilsəydilər, razı olmazdılar, qoymazdılar.

Nə başınızı ağrıdım. Üçüncü gündə vəzir padşahın adından bütün elə, elata, qonşu diyarlara fərman yazdı ki, bəs bu ilin töycüsü, bütün vergi rüsumu əhaliyə bağışlanır. Amma bir şərtlə: hər evdən bircə dənə yumurta gətirilsin, padşahlıq anbarına təhvil verilsin.

Bəli səhər oldu, gün üzünüzə xeyirliyə açılsın. Carçılar küçələrə çıxdılar. Padşahın fərmanını küçələrdə, bazarlarda, çarşılarda, meydanlarda, karvansaralarda oxudular. Hamı verginin götürülməyinə sevindi. Bir yumurta adını eşidəndə

güldü. Çoxları dedi: «Şükür allaha, padşahımız ədalətə gəlib, rəhm eləyib təbəəsinə. Yumurtanı da ya zarafatcan camaatını güldürməkçin istəyir, ya da ki, məsciddən, karvansaradan tikdirəcək, səməndavad elətdirəcək, onuyçun istəyib».

Dünyagörmüş ağsaqqallar, ağbircəklər dedilər:

— Allah axırını xeyrə calasın. Yumurtanı aparın. Amma padşahdan ədalət hələ ki görməmişik.

Hər evdən bir yumurta götürüb gəldilər padşahlıq anbarının qapısına. Qapıda anbardar dayanmışdı. Yumurta gətirənlərə deyirdi:

— Aparın öz əlinizlə qoyun anbarda istədiyiniz yerə.

Qərəz ki, yumurta yığma qurtardı. O birisi gün şahdan fərman çıxdı: «Daha yumurta lazım olmadı, gəlin, yumurtalarınızı aparın». Bəli, istəyəni də, istəməyəni də qabaqlarına qatıb anbara-gətirdilər, içəri qatdılar, əmr etdilər:

— Hərə gətirdiyi yumurtanı götürsün.

Yumurta-yumurtadı da, mənim balalarım, hamısı da birbirinə oxşayır. Anbarda dəyişik düşmüşdü. Heç kəs öz gətirdiyini tapa bilməzdi hərənin əlinə keçən bir yumurtanı aparmağa məcbur elədilər. Tikələr dəyişdi. O boyda eldəelatda, o qədər qonum-qonşu tayfada, camaatda bir oğru bir əyri, bir haramxor olmamış olmazdı. Halal harama qarışdı. Pak ağızlara napak, haram tikə dəydi. Nəfslər kəsərdən düşdü. Elin alğışı da, qarğışı da heç nəyə əsər eləmədi. Zalım padşahın əl-qolu açıldı. Atını sola da çapdı, sağa da. El lənətnndən qorxub-hürkmədi. Bildiyi zülmü xalqa elədi.

İndi, mənim balalarım, çalışın dilinizə haram tikə dəyməsin. İnsan ana bətnindən dünyaya pak gəldiyi kimi pak da köçə gərək bu dünyadan. Bax elə onda deyərlər ki: Hayıf, dünyadan nə yaxşı adam.köçdü.

ƏN BÖYÜK DƏRD

Dost dünyada ən qiymətli şeydi, dostluğun, dostun qədrini bilin, mənim balalarım, dostluğun dostun qədrini bilin. Qədimdə ağılbəndlər deyiblər ki, dünyada üç cür dost var: çörək dostu, dil dostu, ürək dostu. Çörək dostundan çörəyi əsirgəmə, bəs deyincə ver, sal yola getsin; amma ona arxayın olub, arxa çevirmə. Dil dostunu da «can, qadan alım»la qapından o tərəfə salıq ver, ötür, dil tavazanı əsirgəmə, «can deməklə candan can əskik olmaz, dostu birbirinə mehriban eylər»—deyiblər. Ona da arxayın olub, arxa çevirmə, dil pəhləvanıdı, ondan sənə əsl dost olmaz. Əsl dost nə çörəyə baxar, nə dilə baxar, gözü gözündə, qəlbi qəlbində, canı canında olar. Əsl dost sənin üçün malından da keçər, gərək olsa canından da.

Mənim balalarım, dünyada dost qədri bilən bir igid haqqında sizə bir əhvalat danışmaq istəyirəm. Köhnənin sözüdü. Nənəm deyərdi ki, Ənuşirəvan padşahın zamanında bizim bu yerlər ov quşu, ov heyvanı ilə dolu olarmış. Kökünü kəsən peyda olmayıbmış, hərə cınağına bir sadaq taxıb, əlinə bir kaman alarmış. Ovu da ərəbi dava kimi açıq-açığına göz görə-görə kişilik, mərdlik meydanında ovun dalıycan qaça yüyürə vurarmış: kamanın çilləsinə sadaqdan bir ox alıb mindirməyiynən ovunu nişan almağı bir olarmış. Beləcə Ənuşirəvan padşah da çox ov sevənmiş deyirlər. Bir gün ova gedibmiş, yalçın qayalarda ayağı xınalı boz kəklik axtarırmış. Amma gördüyün də vurmurmuş... Çünki aralıda böyük, qara daşın üstündə oturmuş bir igid görmüşmüş... Əvuşirəvan padşah cavana yaxınlaşır. Görür ki, ilahi, bu bir oğlandı, bu bir oğlandı, tayı-bərabəri yer üzündə yoxdu. Qəddi-qamət çinardan uca, sərvdən mütənasib... döşü-başı pəhləvan cüssəli... Geniş alim alınlı, kaman kimi baş-başa çatılmış qoşa çatma qaşlı, aslan biləkli, pələng pəncəli... Amma bu cavan daşın üstündə oturub, nə ovçuların hay-huyunu eşidir, nə qabağında durub

ona baxan padşahı görür. Gözlərindən bahar buludu kimi yaş tökür, yayı, oxu, sadağı böyründə, daşın dibinə düşüb qalıb. Allah bilir, neçə gündü özü də daş heykələ dönüb qalıb bu yerlərdə... Gündən kölgələndiyi yox, yağışdan daldalandığı... Pərvərdigarialəmin xoş gündə, xoş saatda, kefinin duru vaxtında həvəsiyib yaratdığı, bircə işgil qoymadığı bu igid qəm dəryasına qərq olub... bata-batdadı...

Padşahı fikir götürdü, görəsən bu igidə nə olub? Dərdi nədi? Səri nədi? Cavana yaxınlaşdı, əlini onun çiyninə qoydu:

— Kimsən, nəçisən, igid? — deyib soruşdu.

Oğlan kimliyini dedi.

— Dərdin nədi, oğlan, ürəyimə yatmısan, mən Ənuşirəvan padşaham, de görüm dərdin-sərin nədi? Dərdinə əlac eləyim...

Padşahın adını eşidən igid yerindən qalxdı, əlini sinəsində çarpazladı, ədəb məqamında dayandı, başını köksünə əydi, bir söz deyə bilmədi. Ənuşirəvan padşah soruşdu:

— Utanma, igid, dərdini de!.. Bəlkə silahını itirmisən, sənə cılxa poladdan Dəməşqdə tökülmüş qılınc verim, tükdən nazik, ülgücdən iti. Düşmənin təpəsindən endirəndə, tər xiyar kimi bölsün, kəmərində əyləşsin...

İgid dinmədi, yalnız «yox» işarəsi bildirən bir hərəkətlə başını tərpətdi. Ənuşirəvan padşah sözünə davam etdi:

— Həya səni üzməsin! Bəlkə sevdiyin gözəli əlindən alıblar, sənə saysız qoşun verim, hər biri bir Rüstəm, hər biri bir İsfəndiyar... Dağ aş, dərə keç, qəniminp əz, namusunu qaytar...

Cavan dinmədi, yenə də «yox» işarəsi bildirən bir hərəkətlə başını tərpətdi. Ənuşirəvan padşah qızışmışdı, maraq onu üzürdü. Bilməsəydi, cavanın dərdinə yetik olmasaydı, yuxu tapmazdı bu gecə. Dedi:

— Yoxsa qəsbkara, oğruya düçar olmusan, yağı gəlib, evini yağmalayıb, qısılma igid, sənə nəsilbənəslimin xəzinəsindən xəzinə ayırım. Ləl verim qaz yumurtasıycan. İncimirvari verim — hər birm bir peyvənd fındıqcan. Cəvahirat verim misli

görünməmiş... Al, apar, təki qüssə çəkmə...

Oğlan yenə də dinmədi, yalnız «yox» bildirən işarətlə başını tərpətdi. Ənuşirəvan padşahın əli hər yerdən üzülmüşdü. Onun anlayışınca dünya nemətləri yalnız xəzinə, qılınc və gözəldən ibarət idi, artıq söz tapa bilmirdi. Ətrafına baxındı. Ovu buraxıb cavanla söhbət edən padşahı əhatə etmiş saray adamlarına baxdı, elə bil vəzirindən, vəkilinndə, saray ağıl-bəndlərindən imdad istəyirdi. Yaxşı, bu cavanın dərdi nə ola bilər? Ağıl sahibi vəzirlərdən biri irəli durub izn istədi, padşahın icazə işarəsini görüncə cavana üz tutdu:

— Bəlkə al qanadlı əzrayıl gəlib ağsaqqal atanı, ağbircək ananı, ya arxa-köməyin qardaşını əlindən alıb, onun üçün qəmlisən, igid?

İgid yenə dinmədi, «yox» bildirən işarətlə başını tərpədəndə hamı bir səslə dilləndi:

— Bəs nə, nə olub sənə, igid? Niyə ağlayırsan?

— Mən dost, əsl can dostumu itirmişəm, hökmdar, bu gün onu anam torpağa tapşırmışam, — deyə cavab verdi.

ÜÇ ÖPÜŞ

Dəvələr karvanı döngə gedəndə, qatırın dırnaq saldığı, quşun uçsa qanad saldığı bir ölkə var idi. Bu ölkənin də qanı qannan yuyan, dindirəndə qan-qandan başqa bir şey bilməyən, dilində də «cəllad» çağırmaqdan başqa sözü olmayan bir padşahı var idi. Adamların bu yerlərdə üzü gülməz, gözü-könlü açılmazdı. Dəryalar mürəkkəb meşələr, qələm, mollalar yazdıqca dərdi vardı elin. Bu zalım padşah çox binamus adam idi, elin qızını-gəlinini, xalqın kəbinli arvadını evindən çəkib aparmaqdan utanmazdı, abır-həya bilməzdi.

Bu şəhərdə bir odunçu, vardı. Odunçunun bir qızı vardı. Suya deyərdi sən axma, mən axım, laləyə deyərdi sən

boylanma, mən boylanım. Saçı göllərimizin qarğısı, yanaqları küz alması, ceyran baxışlı, maral duruşlu... Qərəz təkcə ata-anası yox ha, bütüi qonum-qonşu, bütün el-camaat adı özündən gözəl, özü adından gözəl bir qızı zalım, həris padşahdan qoruyurdu. Gündən kölgələyir, yağışdan daldalayır, həris padşahın çıxmış gözündən qorğalayırdı. Qız həftə demirdi, ay demirdi, gündə böyüyür, gündən-günə gözəlləşirdi.

Bir gün çuğul darğa caramana car çəkdi, kovxaya xəbər apardı... Qızın gözəlliyi dillərə düşdü. Əllər göyə qalxdı, allaha dua elədi ki, qız padşahın yadına düşməsin. Amma düşdü, nə düşdü... Aparıb özünə arvad eləsəydi, aparıb saraylarda halal kəbinli hərəm eləsəydi, bəlkə də heç kimi yandırmazdı. Amma odunçu qızı hara, padşaha hərəm oldu hara?!

Padşah zornan qızı çəkib apartdırdı; üç-dörd ay gününü xoş keçirtdi. Genə qızdan bir mehribanlıq görsəydi, dərd yarı idi, bəlkə də şah onu, gözəlliyinə görə bir-iki il sarayda saxlatdırardı. Amma qız gecəli-gündüzlü gözlərinə güc verdi. Bahar buludu kimi doldu, yaz yağışı kimi leysan tökdü. Dırnaqladı padşahın bəyəndiyi al yanaqlarını. Qaysaqladı zalımın xoşuna gələn dodaqlarını... Sərv dediyi qəddini bükdü, kaman dediyi qaşlarını yoldu. Qərəz qız özünə bir üsul biçdi ki, şahın ondan zəndeyizəhləsi getdi. Qovdurdu saraydan, «aparıb qızı çölə buraxın» —dedi. Cəllad padşah belə dedi, amma nökərlərin qıza yazığı gəldi. Axı qız hamiləydi! Xəcalətindən ata evinə, qonum-qonşu üzünə qayıda bilməzdi. Guya bu işdə özü günahkarmış. Odu ki nökərlər onu şəhərin qırağına-aparıb boş, ala-uçuq bir daxma vardı, atdılar içinə. Öldürmədilər, necə deyərlər, öldürməkdən betər elədilər. Qız bir gün qaldı, iki gün qaldı daxmada, amma adam ac qala bilməz, hamilə olduğuyçun özünü öldürə də bilmədi. Cırımcındır bir çadra tapdı. Birtəhər büründü ki, görən tanımasın. Yiyəsiz görüb namərd gözünə ilişməsin, dilə-dişə düşməsin, əldən-ələ keçməsin, namusunu qorusun, bundan oyama. Qapı-qapı gəzdi, gündüz yığdığın gecə

yedi, əlinə keçən ipdən-iplikdən corab toxudu, dəlləzəndə satdı, puluna yenə yun aldı, yenə toxudu... Güzəranını düzəltməyə başladı... Hər gecə ağır yükün altında inləyirdi... Bir axşam başa düşdü ki, bar-həmlini yerə qoymaq vaxtıdı. Daha evdən çıxmadı. körpəsi üçün tikib hazırladığı pal-paltarı səliqəynən yanına qoydu, yatağını sərib üstündə oturdu, üzünü çöllərə tutub istixarə elədi:

— Ay gözə görünməyən böyük tanrı, ucadan uca tanrı, yaratdığı yeri-göyü hər bir işi haça tanrı... Birini dövlətli, birini kasıb eləyən tanrı, birini alşan imarətdə, birini xərabələr küncündə inlədən-sızıldadan tanrı!.. İndi saraylarda, dövlətli arvadı, şah, hərəmi doğanda başının üstünü kəsdirirlər, arxasını mama, qənşərini maşı kəsdirir. Çiyinlərinii üstünü qohum-əqrəba kəsdirir. Əlinin altına çuvalnan un qoyurlar ki, əl bassın — xatası-bəlası getsin, salamat qurtarsın — unu füqəraya paylasınlar... Min nəzir-niyaz deyirlər. Pir-övliya çağırırlar. Mən isə bu nəm komada tək-tənhayam. Dərdimi anam da bilmir, haradayam, haçan gətirib bu xərabəyə atıblar — atam da bilmir. Bu gün dünyaya gələn balamın zalım atası da bilmir... Bircə pənahım sənsən... ey yeri-göyü, bütün canlı məxluqları yaradan allah, mənim balama sən özün kömək ol! Qoy o sağ-salamat dünyaya gəlsin, mənə oğul ver, ilahi! O mənim qisasımı alsın, mənim günahsız olduğum sənə əyandır. Mənim qanımı yerdə qoyma, ilahi! Oğlum qanımı yerdə qoymasın, əzablarıma son axır ver, allahım!

Qız bu dualarını eləyincə ağrı bütün bədənini qovurdu, yazıq kimsəsiz gözəl huşunu itirdi, özündən getdi.

Elə bu vaxt evin düz divarı müşəqq olub aralandı, içindən üç gözəl pəri qız çıxdı, Elə bu vaxt da zahının bir-birinin dalınca üç oğlu oldu. Onlar cəld su qaynatdılar, qızılgül iylətdilər, üzünə-gözünə gülab səpdilər. Çağaları yuyundurdular, gəlinin hazırladığı paltarı geyindirdilər. Əllərini nəyə vururdularsa dəyişirdi, çit ipək olurdu, ipək

məxmər, məxmər kimxa olurdu, mis gümüş. gümüş qızıla çevrilirdi. Otağı gül ətri, gülab qoxusu başına götürmüşlü. Pəri qızları tavana ip bağlayıb nənni asdılar, çağaları nənniyə qoydular. Amma bu pəri qızlarında hikmət vardı, onların birincisi təzə doğulan çağanın alnından öpsəydi—uşaq böyüyəndə ağıl dəryası bir insan, ağzından öpsəydi — böyüyəndə ya səsi gözəl, ya da canlı nəfəsi ölüyə can verən, gözəl danışmaq qabiliyyəti, üçüncüsü əlindən öpsəydi — uşaq böyüyəndə ya əvəzsiz qılınc vuran bir qəhrəman igid, ya gözəl işləmələr tikən, düzəldən sənətkar, rəssam, zərgər olardı... Hansı bəxtəvər uşağın başı üstünə bu üç pəri qızı gəlsəydi — biri öpərdi onu, biri bəxşeyiş verərdi yəni. Amma bu gün qəzadan qüdrət hər üçünün kimsəsiz anaya da, onun kimsəsiz-kimsənəsiz doğulan uşağına da rəhmi gəldi... Üçü də nənninin başına yığışdılar. Birincn pəri qızı əvvəlcə doğulan uşağın alnından öpdü:

— Sənə ağılda-kamalda üstün gələn olmasın... Adını Çinçələbi qoydum. Yaşını allah versin, — dedi.

İkinci pəri qızı əyildi ortancıl doğulan oğlan uşağını götürdü, incə bir təbəssümlə körpənin gül qoxuyan zərif dodaqlarından öpdu:

Nəfəsin uğurlu, sözün kəsərli, dilin baldan şirin, ülgücdən iti, fikirdən yüyrək olsun. Adını Maçinçələbi qoydum. Ömrün uzun olsun.

Pəri qızları güldülər:

— Çox demədik, çox olmadı?

— Yox, azdı, hələ azdı...

Onda üçüncü pəri qızı lap axırda doğulan oğlanı qaldırdı. Sağ əlinin düz ortasından öpdü:

— Azdısa çox olsun, əlinin üstə əl olmasın. Əlinii arxası yerə dəyməsin, titrəməsin, hədəfinə bircə zərbə vursun. Mən də sənin adını Ağabağdad qoydum.

Zahı azacıq özünə gəlmişdi deyin, bütün bunları eşidirdi.

Pəri qızları gedəndə bir də zahının üzünə gülab səpdilər, gəldikləri kimi də səssizcə divarın dalında qeyb oldular, dirar yenə dübbədüz oldu.

Bir az keçdi, ana lap yaxşı-yaxşı özünə gəldi, dərin yuxudan ayılan, təki elə bil heç canında ağrı-acı olmamışdı, gözlərini açıb otağına göz gəzdirdi. Əvvəl onu heyran qoyan gülab ətri oldu, evi başına götürmüşdü bu ətir. Sonra da evin səliqə-sahmanına baxdı, üstündəki yorğanın üzü zərxara, altındakı döşəyin üzü məxmər. Beşik də qiymətli ipəklərdən düzəlib. Ağır-ağır yerindən qalxdı, əşyalarına göz gəzdirdi, qabları da dəyişmişdi. Gümüşdən idi, başının altında bir sıxma pul vardı. Gəlin heyrətdən donub qaldı; «bu nə işdir, yoxsa mənn genə o bərbad saraya aparıblar, yox ev həməndi... Mən elə bilirdim o pəri qızlarını yuxuda görmüşəm. Yox elə deyil». Beşiyə baxdı, üç ayüzlü bala gördü. Sevincindən bütün vücudu əsdi, döşlərinin ucu gizildədi. Damarlarından məməsinə süd axdı, beşiyin üstünə əyilib körpələrinə həyat dadızdırdı — süd verdi.

Yazıq ana bir tərəfdən sağ-salamat qurtardığına, balalarının sağlam, buz baltası kimi olmasına sevindisə, o biri yandan üç körpəni necə saxlayacağını düşünürdü. Düzdü, innən belə o çörək dərdi, pul dərdi çəkməyəcəkdi. Uşaqlar əmrazaya gələnəcən pəri qızlarının qoyub getdikləri çatardı. Amma necə də olsa üç uşaq, bir ana... Qərəz nağıl dili yüyrək olar, uşaqlar aynan-ilnən deyil, günnən, həftəynən böyüyürdü. Uşaqlar yeddi yaşa çatanda ana onları aparıb məhəllə mollaxanasına qoydu ki, oxusunlar çox zəki uşaqlar idilər. Heç bir il çəkməmiş üçü də quranı tamamlayıb qatlayıb qoydular ciblərinə. Molla analarına dedi:

— Bacı, bunlardan molla olmayacaq, oxuduqları bəsdi, amma yaxşı sənətkar olarlar. Sən apar bunları qoy usta yanına.

Ana evinə qayıtdı, oğlanlarını başına yığıb məsləhətləşməyə başladı:

Çinçələbi dedi:

— Ana, mən həkim olmaq istəyirəm Bilirsənmi, elə yolunan gedəndə ayağımızın altındakı bütün otlar, çəməndəki güllər-çiçəklər məniynən dil olub danışırlar, deyirlər ki, mən filan dərdin dərmanıyam... mən filan bəlanın şəfasıyam.

Ana dedi:

— Nə eybi var. Yaxşı sənətdi. Sabahnan aparıb səni Əttar Yusifə şəyird verrəm.

Maçinçələbi dedi:

— Can ana, mən xanəndə olmaq istəyirəm. Bax tək qaldım, dam içində oldum tafovutu yoxdu, elə bil ürəyimin içində kimdisə oturub, elə hey mahnı oxuyur. Çalıb-çağırır...

Anası gülümsümüş dedi:

— Nə deyirəm ki, oğul?! Mən özüm də fikir vermişəm, səsin var. Xanəndəlik də gözəl sənətdi. Atalar dediyi kimi xanəndənin meyli həmişə xeyrədi, toyadı. Xeyirli olsun. Bəs sən, bala?

Ağabağdad utancaqlıqla dilləndi:

— Bilmirəm, ana! Amma mən çoxlu buğda əkmək istəyirəm, dünyada ac qalan qalmasın.

—Lal yaxşı, məmim balalarım. Hamınızın işi uğurlu olsun.

Səhər ana uşaqlarını yanına salıb Çinçələbini bazardakı əttar dükanına, Maçinçələbini xanəndə yayına, Ağabağdadı da qonşu kənddə əmisi vardı, onun yanına aparıb qoydu. Bərk-bərk tapşırdı ki, balalarım, ustadınızdan muğayat olun, ulular deyib ki, «ustadına kəm baxanın gözlərinə qan damar». Nə sənət öyrəndiz əməlli öyrənin.

Bəli... Nağıl dili yüyrək olar, könül kimi tələsər. Gün keçdi, ay dolandı, uşaqlar öyrənmək istədikləri sənətləri bircə-bircə, dərindən-dərinə öyrəndilər, bütün sirlərinə vaqif oldular. Qayıdıb gəldilər analarının yanına dedilər: «Day bəsdi, bu vaxtacan sən bizi saxlamısan, ev dolandırmısan, bundan belə day növbət bizimdi. Sən otur, istirahətini elə!»

Ana oğlanlarının boyuna, əl qabiliyyətinə baxıb fərəhlənirdi. Allahın verdiyindən tapıb yeyirdilər. Heç kimə minnətləri yox idi. Oğlanlar öz sənətləri ilə el-camaat arasında bir şöhrət qazanmışdılar ki, day nə deyim. Çinçələbi mahir həkim idi. Maçinçələbi bütün el-oba toylarının yaraşığı, bilici xanəndəydi. Ağabağdad da hər nə toxum əkirdi yerə, birə-min bəhər verirdi. Əli dəyən toxum qızıla çevrilirdi. Özü də nə yetirib-bitirirdisə, hamısını acayalavaca paylayırdı. Kənddə-kəsəkdə bir ac, bir fuğara eşitdimi, day gecəni sübhəcən gözünü yuma bilmirdi. Ta gərək gedib onu tapaydı, ehtiyacını öyrənəydi, köməyini də eləyəydi, ondan o yana rahatlıq, dinclik tapırdı.

Günlərin birində xəbər çıxdı ki, bəs padşah ÇiniMaçin sultanının qızını aşıqlayıb, elçi düşüb, nişan taxıb. Özünə toy elədiyi yerdə qolları qıçları quruyub, qulaqları da kar olub. Öz həkimləri bir iş görə bilmir, cadukər, pitikçi, rəmmal, kitababaxan, tasquran, falçı qalmayıb tökülüb gəlib saraya, heç bir əlac eləyə bilmiyib. Vəzir car çəkdirib ki, kim gəlib padşahı bu bəlalardan xilas eləsə, onu dünya malından qəni eləyəcək. Uzaq-uzaq ölkələrdən də həkimlər, təbiblər gətirdilib, əlac eləyən olmayıb. Qərəz bir gün bu xəbəri ana da eşitdi. Oğlanlarına dedi ki:

— O padşahdı, biz rəiyyət. Gedin saraya, balalarım, əlinizin suyunu padşaha göstərin. Qoy görsün ki, şahın da rəiyyətə işi düşər. Qoy görsün ki, rəiyyət balaları şaha da üstün gələr. Qoy görsün ki, rəiyyət padşahdan xoş tinətdi, rəhmlidi, aqildi. Amma məbada-məbadə pul-pənə alasız ha!.. Südümü sizə haram elərəm. Bizə sarayın bircə axçası da gərək deyil.

Oğlanlar analarının əlindən öpdülər. Maçinçələbi dedi:

— Çinçələbi!

— Nə deyirsən, Maçinçələbi?

— Yapış Ağabağdad qardaşın əlindən, yolumuz sarayadı.

Qardaşlar əl-ələ verib saraya gəldilər. Gördülər bəli,

burda mərəkədi. Şah taxtın üstündə quru ağac kötüyü kimi uzanıb ufuldayır. Sarayın qabağında bir dəstə cadugər, pitikçi, rəmmal, falçı, arahəkimi yığılıb. Dərman qaynadan kim, cadu, dua yazan kim, rəml atan kim, tas qurub fala baxan kim...

Qardaşlar vəzirin yanına gedib niyyətlərini ona açdılar. Vəzir oğlanları ağılbənd adama oxşadıb, razılıq verdi, həyətdən bütün cadu-pitikçiləri çıxartdılar. Qardaşlar padşahın taxtına yaxın gəldilər. Maçinçələbi dedi:

— Çinçələbi!

— Nə deyirsən, Maçinçələbi?

— Növbə səniidi.

Çinçələbi xəstəni yoxladı, baxdı, sonra da özüylə gətirdiyi dərmanlardan padşahın ayaqlarına, əllərinə, bütün bədəninə sürtdü. O saatdaca padşah qalxıb oturdu, ayaqları bədəni dübbədüz... əvvəlki kimi oldu, amma nə əlləri işlədi, nə qulaqları eşitdi. Onda Çinçələbi üzünü ortancıl qardaşa tutdu, dedi:

— Maçinçələbi!

— Nə deyirsəi, Çinçələbi?

— Növbə sənindi, qardaş!

Maçinçələbi tütəyini çıxardıb bir hava çalmağa başladı, sonra da əlini qulağının dibinə qoyub oxudu, nə oxudu? Daşlar dilə gəldi, ağaclar yarpaq açdı, quşlar fəğanını kəsdi. Çöldə mal-qara ağzını yemindən çəkdi. Padşahın top atılsa eşitməyən qulaqları açıldı, huş-kuşnan oğlanın mahnısına qulaq vardi. Sevincindən gözləri yaşardı, nə olar? Olanda, olur da!.. Zalımın da ağladığı gün olur...

Amma qulaqları açıldı, əlləri elə qoynunda bükülü qaldı. Onda ortancıl qardaş dilləndi:

— Çinçələbi!

— Nə deyirsən, Maçinçələbi?

— Yapış Ağabağdad qardaşın əlindən, növbə indi onundu.

Bəli, böyuk qardaş kiçik qardaşın əlindən tutub onu lap

xəstənin yanına gətirdi. Ağabağdad xeyli baxıb fikirləşdi, birdən uzunu vəzirə tutub dedi:

— Şəhərdə nə ki ac-yalavac var, əmr elə yığılsın şahlıq xəzinəsinin qənşərinə.

Ağabağdadın dediyini elədilər. Onda oğlan padşahın tərpənməz qolundan tutdu, onu xəzinənin yanına gətirdi, xəzinədən bir sıxma qızıl götürüb verdi padşahın əlinə, sonra da füqəradan birini işarəylə irəli çağırdı. Köməkləşib padşahnan birlikdə qızılı tökdülər fəqirin əlinə. Aha, padşah gördü ki, deyəsən biləyinə istilik gəlir. Həhə, hə-hə... hər sıxmaynan padşahın əli açıldıqca payyığanın, ac-yalavacın sayı azalırdı. Fağırın sayı azaldıqca, padşahın əli açılırdı. Belə-belə... fağır şəhərdən qurtaranda padşahın əli tamam-kamal açıldı. Hamısı sevincək saraya qayıtdı. Padşah dedi:

— Oğlanlar, istəyin, məndən nə istəyirsiz. Nə desəz, yerinə yetəcək.

— Ey padşah, bizim heç bir istəyimiz yoxdur, özümüzçün, amma sən öz gözünlə gördün ki, ölkəndə nə qədər ac-yalavac var. Cəhd elə, bir də olmasın.

Padşah öz-özünə fikirləşdi ki, yaxşı oldu, gözəl səsi olan bu oğlanın burda olmağıynan toyum day da şən keçər. Əmr verdi, oğlanların qənşərinə ən ləziz yeməklər qoyuldu, yarımçıq qalmış toy təzədən vurulmağa başladı. Oğlanlar da oturub çalıb-oynayana, oxuyana tamaşa eləyirdilər. Birdən nökərlərdən biri Maçinçələbiyə bir parça kağız gətirib verdi: Maçinçələbi kağızı açdı, gördü ki, anası yazıb. Özü də bütün mən sizə bayaqdan danışdığım mətləbləri başa salıb ki, bəs padşah sizin doğmaca atanızdı. Maçinçələbi kağızı oxuyub qurtaran kimi qardaşını səslədi:

— Çinçələbi!

— Nə deyirsən, Maçinçələbi!

— Yapış Ağabağdad qardaşımızın əlindən, şah babamızın toyudu.

Sonra da məktubu heyrətə gəlmiş padşaha uzatdı. Onlar əl-ələ tutub saraydan çıxmaq istəyəndə padşah da məsələdən hali oldu. Hökmdar bildi ki, bu gözəl oğlanlar onun rəiyyət qızından olan oğlanlarıdı ki, bir zaman analarını uçuq daxmaya atdırmışdı. Hövlank yerindən qalxıb oğlanlara sarı cumdu:

— Dayanın, oğlanlarım, dayanın. Gəlin, innən belə birlikdə yaşayaq.

Çinçələbi dedi:

— Yox, ey padşah! Rəiyyətdən padşaha boyunduruq yoldaşı olmaz! Anamız bizi bu el-oba üçün böyüdüb. Biz də nə qədər canımızda can var, el-camaatımızın qulluğunda duracağıq. Sən sağ, biz salamat!

Oğlanlar oradan çıxıb birbaşa analarının qulluğuna gəldilər, əlindən öpüb qulluğunda dayandılar. Onlar xoş gün görüb yerə köçdülər, siz də yüz yaşayın, ağ günlər görüb, ağbəxt olun, mənim balalarım!

YAXŞI QONŞU

Atalar deyib ki, dişin ağrıdı—çək qurtar, qonşun pisdi — köç qurtar. Yaxşı da deyiblər, mənim balalarım. Yaxşı qonşunu dünyada heç bir kəs və heç bir şey əvəz eləyə bilməz. Odu ki, babalar deyib «Yaxşı qonşu qardaşdan da irəlidi». Bir də deyiblər ki: «Ən yaxın qohumun kimdi? deyib:—yaxın qonşum». Dünyada yaxşı qonşunun yerini heç kim verə bilməz, hətta baməzələr deyiblər ki, «qonşum qonşu olsa, kor qızım ərə gedər». Bunlar əbəs deyilməyib, tarixin təcrübələrindən çıxıb. İnsanlar baxıb görüblər ki, işin əyəndə, dara düşəndə ən əvvəl köməyinə kim gəlir? Qonşu! Bir yerə getmək istəyirsən, evini, uşağını kimə tapşırırsan? Qonşuya. Xeyrində, şərində-sənlə çiyinçiyinə kim əlləşir? Qonşun. Bir əyər-əskiyin oldu kim düzəldir? Qonşun! Haqqında ən dürüst, yaxşı sözü kim deyər?

Yenə də qonşun! Odu ki, mənim balalarım, qonşu ilə can deyib can eşitmək dünyaya dəyər. Yaxşı müsahibin atar, dərdini bölüşənin olar, sevincinə şərik olar, sənə qahmar çıxar, yaxşı da dolanasan gərək onuynan.

İndi sizə bir əhvalat danışacam, biləcəksiz ki, babalar, atalar illərin təcrübəsindən çıxmış sözləri bica yerə deməyiblər.

Deyir Şəki şəhərində bir tacir var imiş. Varlıhallı. Yaxşıca da bir qonşusu varıymış. Dostluqda möhkəm. Tacirin alış-verişi yaxşıymış. Bir dəfə necə olursa bunun Qəndahar tərəflərdən gələn karvandakı mallarını quldurlar soyur. Kişi sınıq çıxır. Əl altında nəyi varsa yığır, yığışdırır. Satıb-sovur. Amma borclarını ödəyib, özünü, işini düzəldə bilmir. Əli gətirmir ki, gətirmir. Çox adlı-sanlı, var-dövlətinin şöhrəti hər yerə yayılmış adam olduğundan sınıq çıxdığını, işlərini tarazlaya bilmədiyini heç kimə deyə bilmir, utanır, üzü gəlmir. Qorxur üzünəcə deyərlər ki, sən necə tacirsən ki, ehtiyatda, qara gün üçün bir şey saxlamamısan? Qorxur ki, adı batar, etibardan düşər. Day heç onu sayan olmaz. Axı tacir arasında qədim bir ərəb məsəli də gəzirdi: «Bir kişinin ki, birillik un azuqəsi başının altında olmadı, onuynan məsləhətləşmək də doğru deyil». Bax, elə buna görə də kişi dərdini heç kimə açıb deyə bilmir. Heç kəsdən də kömək istəmir. Əlacı lap üzülür. İstəyir ki, evini, bağını, qeyri əmlakını satıb əlaltıycan borclarını ödəsin, sirri bilinməmiş bəlkə bu yolnan özünü düzəltsin. Gizlincə müştəri axtarıb tapır. Ev müştərisi gəlir, hər yeri gəzir, baxır, bəyənir. Görür ki, evlər əlşan imarətdir, bağ İrəm bağçasıdır. Gül bülbülü, bülbül gülü çağıran yerdir. Hovuzlarda əlvan, əcaib-qəraib ölkələrin balıqları üzüşür. Həyətdə tovuz quşundan tutmuş ürəyin istəyən hər, cür lələkəli var. Tövlələr atla, qaramalla, ağıllar yeməli şişəklərlə, öyəclərlə doludur. Qərəz dünya tamından nə istəsən bu tacirin evində tapa bilərsən. «Lap bir ay darvazanı açma, bayıra çıxma, dolan. Nə başını ağrıdım, tacirlə ev müştərisi qiymət kəsdi, əl-

ələ vurdular. Müştəri cüzdanını çıxarıb evin haqqını ödəyəndə tacir dedi:

— Qardaş, yaxşı, bu, evin haqqı. Çox gözəl! Amma mən sənə canlara dəyən qonşu da satıram, bəs onun haqqı!

Təəccübdən müştərinin gözü kəlləsinə çıxdı. Dedi bəs fağır tacir dəli olub. Soruşdu:

— A kişi, dəli olmamısan ki; qonşunu da satarlar?

Tacir dedi:

— Qardaş, vallah bu bir qonşudu ki, misli-bərabəri yoxdu. Evi satmağımdan çox, ondan ayrılmağıma vaysınıram. Sən sonra özün görəcəksən. Gəl bir on-on beş qızıl da qonşuyçun əlavə elə.

Alıcı lap hirslənib özündən çıxdı. Dəllalı çağırdı, söz uzandı, səs-küy qalxdı. Səsə tacirin həmin qonşusu gəldi. Qonşusunu pərt görüb soruşdu:

— Ay qonşu, nə olub? Niyə səs-küy salmısız?

Alıcı hirsli-hirsli çığırmağa başladı:

— Ay kişi, sən olasan səni yaradan allah, bizim şərtimizi sən kəs! Bax bu tacir evini satır, dəllal salıb, mən də gəlmişəm, baxmışam, evi bəyənmişəm, düzəlmişik, pulunu verirəm, indi də başlayıb ki, qonşum üçün də əlavə elə. Heç belə də şey olar?.Bu harda görüküb?

Qonşusu tacirdən soruşdu:

— Qardaş, sən niyə evini satırsan?

Tacir qısaca başına gələnləri qonşusuna danışdı. Qonşu soruşdu:

— Bəs mənə niyə deməmisən?

Tacir utana-utana başa saldı ki, vallah, işimin əyilməyindən, etibardan düşməyimdən utanmışam. Evi satıb ziyanımı ödəmək istəyirəm. Qonşu dedi:

— Sən evi satma. Mən bu saat sənin borcunu ödəyərəm. Bunu deyib evinə getdi, bir az keçmiş qayıtdı. Əlində bir xeyli pul, bir də halalının boyun-qulaq qızıllarını

gətirmişdi. Dedi:

— Qonşu, al bunları apar ziyanını ödə. Borcuna-xərcinə ver. Amma evini satma. Sən onu nə eşqnən abad eləmisən?

Tacirin gözləri yaşardı, qonşusunu öpdü. Alıcıya dedi:

— Bax, qardaş, mən sənə belə bir qonşu satırdım. Bəxtin gətirmədi. Mənim bəxtim üzdəymiş. Şükür kərəminə! Bəs sən bilmirdin ki, yaxın qonşu qardaşdan da irəlidi?

PONZABIĞIN NAĞILI

Bir vardı mərdəhər, hünü gəldi səhər-səhər, dad milçək əlindən, durun qaçaq əlindən. Milçək mindim, Kürü keçdim, yabaynan dovğa içdim. Atovun goru yanmasın, heç belə yalan görməmişdim!

Yalanların sağı budu ki, günlərin bir günündə Məmmədnəsir tinində, göy məscidin dibində dünya malından bir pişiyə də güman gəlməyən bir kişi-yaşayırdı. Bu kişinin iri ponza bığlarından başqa bir arvadı, birdə bir çətən uşağı vardı. Hələ bu bığlarına görə də ona Ponzabığ deyərdilər. Kişi gündə it qurddan seçilməzdən də qabaq yerindən durub, patavalarını ayağına dolayar, xam göndən, bərkiyib buynuza dönmüş, yırtıq çarıqlarını geyər, şoppu çomağını çiyninə qoyub qapıları gəzər, elin inəyini, öküzünü qabağına, qatıb örüşə aparardı: otarardı, axşam azanında naxırı qaytarıb obaya gətirərdi. Hər gün kimin nobatına gedirdisə ona bir-iki cad fətiri, bir az da şor verərdi. Kişi bunlarnan külfətini zor-güc dolandırardı.

Bir gün Ponzabığ naxırı örüşə buraxıb göy otların üstündə oturdu, kürəyini daşa dayayıb fnkirləşdi, öz-özünə dedi:

Ay gözə görünməz tanrı, bu nə gündü, nə uruzgardı mən çəkirəm? Mənim günahım nədi? Niyə məni köç-külfət yanında xar-zəlil eləyir bu allah? Yox, gərək gedəm, allahı tapam, özündən soruşam, görəm axı bunun illəti nədi ki, Hacı Qulamın

dövlət başından yağır, mən fağır bir cad əppəyini də onun-bunun qapısından min zəlalətlə qazana bilmirəm?

Ponzabığ bu fikrə gələndən sonra bir az ürəyi toxtadı. Axşam düşən kimi naxırı obaya qaytardı, hərənin malını özünə tapşırdı, dedi:

— Sabahdan day naxıra getməyəcəyəm, özünüzə naxırçı tapın.

Evinə gəldi, yannığında gətirdiyi cad əppəklərini uşaqlarına verdi, yedilər, içdilər başlarını qoyub yatdılar. Səhər arvad, obaşdan Ponzabığı yuxudan oyatdı:

— Kişi, dur, naxırın çıxan vaxtıdı.

Kişi dedi:

— Arvad, mən day naxıra getməyəcəyəm. Səfərim var.

Arvad az qaldı dəli olsun:

— Ay qara geymiş, bu nə hoqqadı çıxardırsan? Səfərin haradı?

Ponzabığ dedi:

— Gedirəm allahı tapıb dərdimi ondan soruşum? Görüm mənim günahım nədi ki, bir öynə ac, bir öynə yarımqarın dolanıram? Balalarım əppək üzünə tamarzıdı.

Arvad bu sözləri eşidəndə elə bildi ki, əri dəli olub. Başladı ağlamağa. Ponzabığ dedi:

— Arvad, ağlayıb-sıtqamaqdan bir şey çıxmaz, dur qonşuların birindən bir fətir al, gətir, yola çıxım.

Arvadın əlacı kəsildi, durdu qonşulardan bir fətir alıb gətirdi. Ponzabığ fətiri yaylığına düyümləyib, şoppu çomağının başına keçirtdi, çarıq bağlarını bərkidib, yola düzəldi.

Kişi bir gün getdi, iki gün getdi, dərə bilmədi, düz bilmədi, dağ keçdi, aşırım endi. Gecəni gündüzə qatıb yol elədi. Gəldi bir səhraya çatdı. Səhra nə səhra? Ucu yox, bucağı yox, düz-dünya sapsarı qum dəryası. Bu qumluq səhranın ortasında bir bulaq gördü, bulağın dörd bir tərəfi yamyaşıl çəmənzardı. Amma bulağın üstündə, bir ağac bitib, bircə

yarpağı da yoxdu. Ağac qupquru quruyub, elə bil dibindən su yox, zəhər axır.

Kişi bulağın başında əyləşdi, əl-üzünü yudu, bulağın dupduru, səpsərin, qənd kimi şirin suyundan sirab oldu:

— Şükür kərəminə, tanrı? Ay bu qumları göyərdən, bulağın üstündəki ağac görəsən niyə quruyub?

Kişi dincini alandan sonra qalxıb yoluna düzəldi, elə heç bulaqdan beş addım aralammamışdı ki, qalağına bir səs gəldi:

— Kişi, allahın yanına gedirsən, mənim də şikayətimi elə!

Kişinin matı-qutu qurudu. Dayanıb dörd tərəfikə baxdı ki, görsün onuynan danışan kimdi. Amma heç kəsi görmədi. Dedi: «Yəqii qulağıma səs gəlir, qeybdəndi». Yenə yoluna düzəldi. Heç beş addım atmamışdı ki, həmin səsi bir də eşitdi:

— Kişi, allahın yanına gedirsən, mənim də şikayətimi elə!

Ponzabığ yenə də dayandı, yenə də dörd tərəfinə baxıb, bir ins-cins görmədi. Canı üşəndi, fikirləşdi ki, yəqin dəli oluram! Qorxa-qorxa addımını yeyinlətmək istəyəndə gördü bulağın başındakı quru ağac əyildi, elə səs də ordan gəldi, yenə də dedi:

— Kişi, alahın yanına gedirsən, mənim də dərdimi ona de!

Kişi başa düşdü ki, səs ağacdan gəlir, bir az ürəklənib dedi:

— Baş üstə, deyərəm.

Ponzabığ day orda dayanmadı, yola düşdü. Ağac da əvvəlki təki düzəlib durdu yerində.

Kişi az getdi, üz getdi, dərə-təpə düz getdi, qumluq səhranı keçib qurtardı. Elə səhra qurtaran kimi qabağına bir dərya çıxdı. Ponzabığ dayandı dəryanın qırağında, fikirləşdi ki, bu dəryanı necə keçəcəm? Elə bu xəyalda idi ki, birdən gördü dəryanın qırağına bir nəhəng balıq yavuqlaşdı. Qulağına da bir səs gəldi:

— Kişi, allahın yanına gedirsən, mənim də dərdimi ona ərz elə, de ki, başımda bir ağrı var, dözə bilmirəm, çarəsi nədi?

Əgər desən, mən də səni dəryadan keçirdərəm.
Bu dəfə Ponzabığ o qədər də qorxmadı. Çünki day öyrəncəli idi. Odu ki dedi:
— Baş üstə, can üstə, deyərəm, niyə demirəm ki!

Onda balıq da işarə elədi ki, gəl min dalıma. Ponzabığ mindi balığın dalına. Elə hə-hə eləyənəcən bir də gördü ki, dəryanın o biri üzündədi. Düşdü qırağa. Getmək istəyəndə balıqdan bir də səda gəldi:
— Kişi, yadından çıxmasın ha! Allahı, tapsan, mənim də dərdimi ona de.
— Baş üstə, yadımdan çıxmaz. Deyərəm.

Ponzabığ balıqla sağollaşıb yoluna düzəldi. Xeyli getmişdi ki, bir düşərgəyə rast oldu. Burda çadırlar qurulmuşdu. Çadırların qənşərində süfrələr açılmışdı. Əsgərlər qılınclarını, qalxanlarını çatıb kölgəlik düzəltmişdilər. Süfrələrə kabab, şərab, mer-meyvə düzülmüşdü. Əsgərlər onların böyüklərn bir-birinə qarışmışdı. Deyən-gülən kim, yeyib-içən kim, xorna çəkib yatan kim. Heç kəsin bir-birindən xəbəri yoxdu. Bir özbaşınalıq vardı ki, day nə deyim. Hə, Ponzabığ süfrələrdən birinin yanında əyləşdi. Bir az kababdan, meyvədən yedi, toqqanın altını bərkitdi. Sonra fikirləşdi ki, axı bunlar kim ola? Birdən çadırların tən ortasında al ipəkdən tikilmiş gözəl bir çadır gözünə dəydi, dedi:
— Sən ölməyəsən, bax nə sirr varsa bu çadırdadı. Gərək gedəm bir xəbər tutam, görəm bu nə qəzyədi?

Ponzabığ durub al ipək çadırın qənşərinə gəldi. Gördu yox, heç buna «Abdal, eşşəyin hanı?» deyən yoxdu. «Niyə gəlmisən, kimsən, nəçisən, buralarda nə qayırırsan?»—soruşan yoxdu. Ürəkləndi, girdi çadıra. Gördü ki, ipək çadırın da ortasında əla bir süfrə salınıb. Yemək-içmək-bəs deyincəndi. Kim süfrə başında yeyibsə, elə orda da dirsəklənib xorna vurur.

Amma yuxarı başda qızıl taxt üstündə bir cavan əyləşib, bir cavan əyləşib, aya deyir sən çıxma, mən çıxım, günə deyir

sən baxma, mən baxım. Aydan arı, sudan duru. Üstündə bir aləm ləl-cəvahirat. Çoxunu Ponzabığ heç yuxusunda da görməmişdi. Qərəz, cavan adam Ponzabığı görən kimi salam elədi, əl işarəsiynən yaxınına çağırdı, Oturmağa yer görkəzdi. Ponzabığ əyləşdi.

Cavan dedi:

— Qardaş, deyəsən yol adamısan, aclığın varsa, süfrəyə buyur.

Ponzabığ dedi:

— Çox sağ ol, çox razıyam, bayırdakı süfrələrdən yemişəm. Amma, əgəm rəva bilsən, de görüm bu nə sirdi, bu nə əcaib-qəraib qoşundu?

Cavan dedi:

— Aldahdan gizlin deyil, bəndəsindən nə gizlədim? Qardaş, bil və agah ol, mən bu gördüyün qoşunun və bu diyarın padşahıyam. Amma böyük bir dərdim var...

Cavan sözünün dalını gətirmədi, gözləri doldu. Ponzabığ bir bu cah-cəlala, bir də cah-cəlal sahibi cavan padşaha baxdı. Ürəyində dedi:

— Sübhanallah, bunun da dərdi var? Onda dünyada dərdsiz kimdi görəsən?

Padşah soruşdu:

— Kişi, bəs sən kimsən? Hardan gəlib, hara gedirsən?

Ponzabığ əvvəldən axıracan, mən sənə danışdığım kimi, başına gələnlərin hamısını cavan padşaha nağıl elədi. Padşah dedi:

— Kişi, bu süfrələrdən nə könlün istəyir götür, yolda ac qalma, yol azuqəni sənə mən verirəm. Amma sən allahı tapsan, mənim də pünhan dərdimi ona de.

— Baş üstə, can üstə, başuva dönüm, niyə demirəm, deyərəm. Dərdli bilir dərdlilər nə çəkir.

Qərəz, Ponzabığ burdan yol azuqəsi sarıdan yükünü tutdu. Gecəni çadırlardan birində gecələyib, yorğunluğunu çıxartdı.

Səhər üzünüzə xeyirə açılsın, səhər olan kimi yerindən durub yola düzəldi.

Bəli, indi day qarnı doldu, yeməyi, yavanlığı bol idi, yaxşı yeyin gedirdi, üzülüb əldən düşmürdü. Bir müddət gedəndən sonra bir əkənəcəyə, rast oldu. Gördü baho! Bu nədi, burda nə əcaib işlər baş verir? Bir xeylaq adamdı, bir əldən yeri şumlayır, bir əldən toxum səpirlər. Mərzin başına çatmamış, toxum göyərir, taxıl olur, üzü bəri başa qayıdanda biçir, xırman döyür, sovruq atır, qırmızı buğdanı, ağqılçığı, qaraqılçıq sarıbuğdanı əmbizə vururlar. Adamlar bir an dayanıb dincəlmirdilər: elə hey bir ucdan əkir, bir ucdan biçir, xırman salır, əmbiz vururlar. Çox çətinlikiən də olsa Ponzabığ bu adamlardan birinin ətəyini əlinə ilişdirdi, soruşdu:

—Qardaş, səni-məni yaradana and verirəm, de görüm bura haradı, siz kimsiz ki, belə işləyirsiniz?

O adam tələm-tələsik cavab verdi:

— Bura talahlar-baxtlar diyarıdı. Biz də hərəmiz dünyadakı adamların birinin bəxtiyik. Nə qədər ki, biz işləyirik, onların da bəxti gətirir. Biz yatsaq pisləşir. Eşitməmisən deyirlər ki, «filankəsin bəxti ayaq üstədi? Filankəsin bəxti yatıb?»

Ponzabığ soruşdu:

— Bəs mənim bəxtim hardadı?

Kişi boş qalmış, alaq-qanqal basmış bir parça yeri göstərib dedi:

— Bax, odey mərzin başındakı arxa yıxılıb yatıb! Gör nə xorna vurur? Ətəyimi burax, qardaş, mən işləməliyəm. Ponzabığ onsuz da «öz torpağının» mərzindəki suyu qurumuş arxda yatıb xorna vuran bəxtini görəcəyin cini başına vurmuşdu. Kişinin ətəyini ta bayaq buraxıb öz bəxtinə tərəf yüyürdü. Yatmış bəxtin belinə şobbu çomağıynan bnr əndərdi:

— Hey, lənətə gəlmiş, mən köç-külfət yanında üzüqara qalım, sən burda yat, xorulda?

Ponzabığ bəxtin belinə dalbadal çomaq əndərirdi. Bəxt

ufultuynan yerindən qalxdı, amma Ponzabığ ondan əl çəkməyib neçə illərin acığını ondan çıxırdı. Birdən Allah göydən bunu gördü, Cəbrayıla dedi:

— Ya Cəbrayıl, en aşağı! Yoxsa Ponzabığ bəxtin belini sındıracaq.

Cənab Cəbrayıl endi yerə, dedi:

— Ay kişi, day bəsdi, sındırma bəxtin belini!

Ponzabığ soruşdu:

— Yaxşı, sən kimsən, nəkarasan mənimnən bəxtimin işinə qarışırsan?

Cəbrayıl dedi:

— Mən allaham!

Ponzabığ qəzəbləndi:

— Hə? Allah sənsən? — Bunu deyib istədi ki, çomağı endirsin Cəbrayılın təpəsindəi. Cəbrayıl ta bayaq qanadlanıb qalxdı yuxarı, kişinin başı üstündə dayandı. Ponzabığ çomağını bulayıb bağırdı:

— Ay allah, çəkilib durdun göyün üzündə; en aşağı, bu çomaqdan bir dənə ilişdirim qulağuvun dibindən, onda gör ki, külfət yanında xar olmağın dadı nədi?

Cəbrayılınan Ponzabığ əlləşəndə, bəxt onun çomağının altından sivişib çıxdı, işləməyə başladı. İndi o da başqa bəxtlər kimi bir əldən şumlayır, bir əldən malalayır, bir əldən toxum səpir, dən hasilə gələn kimi xırman döyüb, sovruq atır, buğda əmbizə vururdu.

Cəbrayıl dedi:

— Yaxşı, kişi, mən allah deyiləm, sənlə zarafat eləyirdim. Mən Cəbrayılam, bil ki, day sənin bəxtin oyandı. İndi arın-arxayın gedə bilərsən öyünə, öz iş-gücünə.

Ponzabığ dedi:

— Dayan, ay Cəbrayıl, dayan! Öz müşkülüm düzəldi, başqalarının da sifarişi var, deməsəm kişilikdən deyil.

Allahın əmrilə Cəbrayıl dedi:

— Hə, izindi, kişi, de?!

— Bayaqdan özünə allah deyirdin, hər şey sənə əyandısa bil, yolda bir quru ağaca rast oldum, altında bulaq axır, dörd yanı gül-gülzar, amma ağac quruyub...

— Hə, məlum oldu! O ağacın dibində qızıl xəzinəsi yatır, onun həlalətindən ağac quruyur, su işləmir kötüklərə. Get, allah o xəzinəni sənə bağışlayır; çıxart apar, ağac da göyərsin.

Ponzabığ əlini bığlarına çəkib dedi:

— Bir də, dəryada bir nəhəng var, başağrısından şikayətlənir.

Cəbrayıl cavab verdi:

— O da məlum. Bir zamanlar. Süleyman peyğəmbərin sehirli üzüyü dəryaya düşmüşdü. Balıq bilməyib, üzüyü udub, gedib ilişib qulağına yaxın yerdə—cəhəngində qalıb. Çomağınan bir əndər qulağının dibindən, üzük düşsün. Allah o üzüyü də sənə, bağışlayır. Üzük düşər, balığın baş ağrısı keçib gedər.

Ponzabığ gözaltı bir bəxti tərəfə baxdı, gördü, yaman əlləşir, öz-özünə fikirləşdi: «Hə, üzük də! Bəxtim yaman durub deyəsən». Sonra üzünü yenə də yuxarı tutub başından azca yuxarıda dayanmış Cəbrayıla dedi:

— Hə, ya Cəbrayıl, qaldı bircə o cavan padşahın dərdi.

Cəbrayıl bir anlığa gözdən itdi, tez də qayıtdı. Əlində bir vərəq yazılı kağız vardı, dedi:

— Kişi, bil və agah ol! O cavan padşah, gözəl bir qızdı. Atasının oğul övladı olmurdu deyin, ona uşaqlıqdan kişi libası geyindirib böyütmüşdü. Padşah öləndən sonra camaat atası yerində onu özlərinə padşah tikdilər. Qızın ağzının kəsəri yoxdu: odu ki, vəzir-vəkil, qoşun sözünə baxmır. İndi qızın ərgən vaxtıdı. Allahın əmri, peyğəmbərin şəriətilə onun kəbini sənə kəsilir. Get, onu al, özün də yerində padşah ol!

Ponzabığ ürəkdən elə bir qəhqəhə çəkib güldü ki, bəxtlər dik atıldılar. Ponzabığ dedi:

— Mən ha!.. Sən nə danışırsan, ay Cəbrayıl? Onda görünür allah, özü yaratdığı arvadımı tanımır. Vallah, arvad cəhəngimi ayırar, dədəmi də, babalarımnan birgə dalıma səriyər. Mən o boyda qələti eləyə bilmərəm. Məndən xatanı sovuşdur.

Cəbrayıl güldü, dedi:

— Onda özün bilərsən. Qayıdanda qıza de ki, tanıdığı sərkərdələrdən kimi bəyənirsə, birinə ərə getsin. Özünü də öz yerində padşah qoysun. İşləri düzəlsin.

Ponzabığ dedi:

— Bu ayrı məsələ. Di sadamat qal.

Sonra Ponzabığ öz mərzinə gəldi, bəxtinə şoppu çomağını göstərib dedi:

— Bax, yaxşı yadında saxla! Bir də yatsan, Cəbrayılazada baxmaram. İndi yolu yaxşı tanıyıram. Birbaş gəlib bu çomaqla kələyini kəsərəm.

Ponzabığ bəxtinin dərsini verəndən sonra, çarıqlarının bağını bərkidib geri üz qoydu. Gəlib cavan padşahın ölkəsinə çatdı. Gördü burda köhnə hamam, köhnə tasdı, yeyən yeyən yerində, yatan yatan yerindədi. Al ipək çadıra girdi. Cavan onu görcək soruşdu:

— Kişi, allahı tapdın? ^

— Tapdım, xanım!

Cavan acıqlandı:

— Xanım kimdi?

Onda Ponzabığ yerli-yataqlı nə görmüşdüsə cavana nağıl elədi:

— Sən ərgən qızsan, get sərkərdələrindən hansı yaxşıdı, igiddi, birinə. Özün də otur onun üçün uşaq saxla.

Qız sevindi, Ponzabığa xələt, yol azuqəsi verib yola, saldı. Ponzabığ dəryanın kənarına gəldi. Burada nəhəng balıq dayanıb onun yolunu gözləyirdi. Kişini görən kimi soruşdu:

— Allahı tapdın?

— Tapdım.

— Dərdimi dedin?
— Dedim.
— Əlacı nədi?
— Məni suyun o biri üzünə keçirt, deyim.

Balığın işarəsi ilə Ponzabığ onun belinə mindi, bir göz qırpımında o biri sahilə keçdi. Nəhəngin belindən düşdü. Balıq bir də soruşdu:

— Hə, dərdimin dərmanı nədi?

Ponzabığ dedi:

— Yaxşı eşitmədim, yaxına, lap yaxına gəl, görüm nə deyirsən?

Balıq lap suyun qırağına çatanda, Ponzabığ, şoppu çomağıynan onun qulağının dibindən necə ilişdirdisə, balığın başı gicəlləndi, Süleyman peyğəmbərin sehrli üzüyü sıçrayıb qırağa düşdü. Kişi tez onu götürüb, barmağına keçirtdi. Nəhəngin ağlı üstünə qayıtdı, başının ağrısı yox oldu:

— Oxay!—dedi,—allah səndən irazı olsui, canım dincəldi.

Ponzabığ buradan qumlu səhranın ortasına yol aldı. Gəlib bulağın başına çatdı. Ağac onu görən kimi əyildi:

— Allahı tapdın?
— Tapdım.
— Dərdimi dedin?
— Dedim.
— Çarəsi nədi?
— İndi görərsən.

Ponzabığ bunu deyib ağacın dibini qazmağa başladı. Bir xeyli qazandan sonra qızıl küpünü tapıb çıxartdı. heybəsinə doldurdu. Sonra çalanı torpaqladı. Elə o saatdaca su ağacın köklərinə yol tapdı. Ağac su içdi, sərinlədi, dedi:

— Kişi, allah səndən razı olsun.

Ponzabığ bulaqda əl-üzünü yudu, şeylərini də götürüb öz obalarına tərəf yola düşdü. O gəlməkdə olsun, sənə kimdən deyim, kimdən danışım, kişinin külfətindən.

Bəli... Kişi gedəndən sonra arvad-uşağın günü day göy əskiyə düyüldü. Yaman hala düşdülər. Obanın ağsaqqalları yığışdı, dedilər:

— Bizimçin ayıbdı, axı ömrü uzunu naxırçımız olub Ponzabığ. İndi başına hava gəlib, külfətini atıb gedib, düşüb bərri-biyabana, qeyrəti bizə düşür. Gərəkməz ki, biz onun külfətindən göz olaq?!

Ağsaqqallar məsləhət gördülər ki, obanın buzovlarını versinlər. Ponzabığın böyük oğluna, otarsın. Hər süd günü inəyi sağılanlar südü ona verərlər.

Qayda buydu. Ayda da bir az undan-zaddan alırdı. Uşaqlar dolanırdı.

Arvad sevindi. Təzəcə qamqalaqlanmış böyük oğluna yannıq hazırladı, içinə cad qoydu, buzovları da özü yığıb qatdı-qənşərinə, ötürdü örüşə. Hərdənbir gedib baş çəkirdi, üstündə göz olurdu.

Bir dəfə uşaq buzovları gətirəndə bir qotur keçi də sürdü qapıya, dedi:

— Ana can, bu keçini dağdan tapmışam. Obada soraq elədim, heç kim mənimdi demədi. Qapıdan qovdular ki, malımıza qoturluq düşər. Mən də gətirdim özümüzçün.

Arvad sevindi, keçini tənbəki suyuynan yuyundurdu, yaralarını xələfi nöyütnən dərmanladı. Bir-iki gündən sonra keçi cana gəldi, qoturluğu çıxıb getdi. Oldu sappasağ. Sən demə, keçi boğazıymış, bir həftə keçməmiş yükünü yerə qoydu, bir cüt dişi çəpiş doğdu. İndi külfətin südü də, çörəyi də var idi. Alababat dolanırdılar. Günü-gündən keçi südü artırır, balaları da altı ayın başında hərəsi bir cüt əkiz, dişi çəpiş doğdu (Axı Ponzabığın bəxti oyanmışdı). İndi qapılarına bir sürü keçi gəlirdi. Qonum-qonşu, ağsaqqallar sevinirdilər ki, bir fağır da ağ günə çıxdı.

Elə bu vaxt günlərdən bir xoş gündə Ponzabığ qayıdıb obasına gəldi. Evdəki büsatı görəndə ponza bığlarının altında

bir güldü, bəxtini yadına saldı:

— Namərd çıxmayıb deyəsən, hələ işləyir. Vay o günə ki, yata.

Qərəz, Ponzabığ evinə, külfətinə qovuşdu, gətirdiyi xəzinədən bir yaxşı ev tikdirdi, arvad-uşağına pal-paltar aldı. Xoş günlərlə yaşamağa başladılar. Sizin də üzünüzə xeyirli qapı açılsın, inşallah...

Mətləb budu ki, dünyada gərək heç kimə umud olmayasan, öz bəxtini özün öz əllərinlə qurasan. Öz xoşbəxtliyini özün axtarıb, özün tapasan. Yoxsa «Allahdan buyruq-ağzıma quyruq»dan iş aşmaz.

ARTIQ TAMAH BAŞ YARAR

Balalarım, babalar deyib ki, «artıq tamah baş yarar». Neyçün deyiblər bunu? Gəlin indi sizə bir nağıl danışım, görün niyə deyiblər? Boş yerə deməyiblər. Ulların hər sözü, dərindən fikirləşsən, min illərnən yaranıb. Yoxlasan, hər birinin dürüst olduğunu görərsən.

Deyirlər bir zamanlar bu diyarda bir padşah varmış, özündən çox bədgümanmış. Elə hey bilmək istərmiş görsün bu vilayətdə, ya o biri vilayətdə onun barəsində nə deyirlər, nə danışırlar. Tez-tez təğyiri-libas olub, yəni palpaltarını dəyişib bazarları, küçələri, evləri gəzərmiş, kimin nə danışdığını, nə fikirləşdiyini öyrənərmiş. Bir dəfə bu padşah öz vəziriynən oturub söhbət eləyirmiş. Birdən ağlına nə gəlirsə deyir:

— Vəzir, sabahdan müharibə olmağını car çəkdir.

Vəzir təəccüblənir:

— Qibleyi-aləm, allah eləməmişkən dava-zad yoxdu axı...

— Mən də bilirəm yoxdu. Amma bilmək istəyirəm, görüm rəiyyətim dava olsa özünü necə dolandıracaq, neynəyəcək?

Qərəz, səhər olur, Hər yerə sur düdüyü çaldırılır, car çəkdirilir ki, bəs hal-qəziyyə belə; filan ölkənin bizim padşahlığa qoşun

çəkmək xəbəri çıxıb, hamı atını, əsləhəsini götürüb filan səhraya gəlsin. Özüynən üçgünlük də azuqə götürsün.

Bütün ölkəyə car çəkildi, caramana car, kovxaya xəbər oldu. Əsgər yaşı çatan cavandan tutmuş, əsgər yaşı qurtaran qocayacan hamı atını yəhərlədi, əsləhəsini götürdü, üç günlük azuqə cəmləyib yola düşdü. Hamı carçının nişan verdiyi səhraya gəldi. Nizələri baş-başa çatdılar, altında kölgəlik qayırıb gözləməyə başladılar ki, görək padşahdan nə əmr çıxacaq, hara gedək, kimiynən vuruşacağıq? Bir gün belə, iki gün: belə qoşun gözləməkdə olsun. O yandan padşah vəziriynən təğyiri-libas olub gəldilər qoşunun içinə, gecə düşən çağıydı. Gəlib çatdılar bir dəstəyə, burda üç cavan oğlan yanlarını yerə verib bikarçılıqdan gileylənirdilər. Birinin adı Həmid, birinin Əhməd, o birinin də adı Məmməd idi. Padşahnan vəzir gəlib azca aralıdan bunların sözlərinə-söhbətlərinə qulaq verirdilər. Cavanlar bikarçılıqdan danışandan sonra keçdilər arzuya.

Həmid dedi:

— Nə olaydı, allahın altında sabah padşahımızdan hökm çıxaydı, qoşunkeşdilik qurtaraydı, harəmizə bir at, beş yüz axça da pul verəydi padşah, çıxıb qoyub gedəydik evimizə, ev-eşik olaydıq.

Əhməd dedi:

— Tək atnan, puldan nə olacaq, ay gic, nə olaydı, padşahımız sabah məni çağıraydı, qızlarından birini verəydi mənə, olaydım şah kürəkəni.

Məmməd dedi:

— Əh, allah kəssin padşahdan gələn xeyri! Mən ki hələm «padşahdan xeyir gördüm» deyən adama rast olmamışam. Qadam onun özünə də, xeyrinə də. Nəvermişəm bu əllərimə. Halalca zəhmətimnən qazanam, cansağlığı, ağız-ləzzətiynən də yeyəm.

Padşah vəziriynən cavanların sözlərini eşitdi, bir az da ora-buranı gəzib qayıtdı, getdi imarətinə. Səhər qırmızı geyib

taxta çıxdı, qoşunkeşliyi ləğv elədi. Amma o üç cavanın ki, söhbətini eşitmişdi, üçünü də çağırtdırdı saraya. Cavanlar gəlib şahın hüzurunda baş əydilər, yer öpdülər, fərmanını gözlədilər. Padşah vəziriynən oturmuşdu. Oğlanlara baxdı-baxdı, Həmiddən soruşdu:

— Adın nədi?

— Həmiddi, qibleyi-aləm!

— De görüm dünən gecə yoldaşlarınnan nə danışırdın?

Oğlan qorxdu, əvvəl istədi deməsin, sonra hərçi bada-bad eləyib dedi:

— Qibleyi-aləm, bir şey ki allaha əyandı, səndən nə gizlin? Arzu eləmişdim ki, qoşunkeşdilik qurtarsın, sən də hərəmizə bir at, beş yüz axça da pul bağışlayasan, buraxasan evimizə, gedək ev-eşik olaq. Padşah dedi:

— Düz deyirsən! Vəzir, əmr elə mənim xas tövləmdən xas atlarımdan birini, beş yüz axça da pul versinlər buna, çıxsın getsin evinə.

Oğlan sevinə-sevinə nökərlərdən biri ilə bayıra çıxdı, atı alıb mindi, pulları qoydu cibinə. Saraydan bir az aralanıb dayandı, görsün o biri yoldaşlarının başına nə gəlir.

Bu dəfə bu yandan padşah üzünü tutdu Əhmədə:

— Adın nədi?

— Əhməddi, başına dönüm, qibleyi-aləm!

— De görüm dünən gecə sən nə arzulamışdın?

Əhmədin qorxudan ürək-göbəyi düşdü. Necə deyəydi? Axı, böyük qələt eləmişdi! Qaldı məəttəl. Padşah hirslə qışqırdı:

— Düzünü de, köpəy oğlu, yoxsa dərinə saman təpdirrəm.

Əhməd başa düşdü ki, kimdisə bunnarı satıb, padşah onsuz da hər şeyi bilir. Yaxşısı budu, xoşluqla boynuna alsın, dedi:

— Bir qələtdi eləmişəm, cavanlıqdı, ağlım kəsməyib, şahım! Demişəm ki, nə olaydı, sabah qoşunkeşidlik qurtaraydı, şah da

məni çağırıb qızlarından birini verəydi mənə, olaydım şah kürəkəni.
— Day ayrı.heç nə arzulamamısan ki?
— Yox... heç nə.
Padşah hirslə səsləndi:
— Vəzir, çağır qazını, qızım Pərixan xanımın kəbinini kəsdir buna! İkisinə də bir at ver. Çıxsın getsin görüm şah qızını necə saxlayacaq?
Bəli! Şahın əmriylə saray qazısı hazır oldu, Pərixan xanımın kəbinini kəsdilər Əhmədə, ikisinə də bir at verib, saldılar yola. Bu da atını bir az gendə saxlayıb gözlədi ki, görsün Məmmədin başına nə gələcək.
Padşah Məmmədin adını da soruşmadı, nə dediyini, onu necə söyüb yamanladığını yaxşı bilirdi. Odu ki qəfil soruşdu:
— Hə... qoçaq, indi sən de görüm, sən nə arzuladın dünən gecə?
Məmməd gördü ki, hər şey padşaha əyandı, kimsə bu gecə onlara qulaq asıb, hamısını da bittə-bittə padşaha çuğullayıb. Odu ki, fikirləşdi: «Ölmək ölməkdi, xırıldamaq nə deməkdi?» — dedi:
—Şahım! Mən heç nə arzulamadım. Eləcə dedim ki, padşahın verdiyi mənə gərək deyil, adam gərək öz əlinin əməyiynən dolana.
— Yox! Sən çox qələt qarışdırdın, köpəy oğlu! Əlin başına dəysin, hələ məni yamanladın da. Cəllad!..
Cəllad hazır oldu, xəncərini çəkib dedi:
— Xəncərim qan istəyir!
Padşah fərman verdi:
— Cəllad, bu gün qan lazım deyil! Amma apar bu köpəy oğlu uzundili meydanın tən ortasında yıx yerə, kürəyinin ortasına otuz... Yox, qırx!.. Yox, əlli çubuq vur, qoy çıx gəl! Görüm yaradan tanrının verdiyi əllər onun necə köməyinə gəlir!?

Cəllad padşahın hökmüynən Məmmədi meydana çıxartdı, köynəyini soymaladı, üzüqoylu yıxdı yerə, sonra da kürəyinin tən ortasına əlli çubuq çəkdi. Qoydu çıxdı getdi.

Məmmədin o biri yoldaşları aralıdan bunu görürdü, heç biri də haraya gələsi deyildi. Atlarının başını çevirib hərə öz yolunu tutdu. Qabaqcan Həmid at sürürdü. Onun dalıycan Əhməd bir beş-altı yüz addım daldan gedirdi. Lap axırda da Məmməd cırıq köynəyi əlində, kürəyinin qanı axa-axa yeriyirdi.

Həmid yol gedə-gedə öz-özünə fikirləşirdi: «Hə... Mən gör nə axmağam ki, padşahdan nə istədim, nə istədim, bir at, bir də beş yüz dinar pul! Bundan nə çıxar? Ağıl odey Əhməddədi ki, şah qızını istədi — aldı, oldu padşahın kürəkəni. İndi padşahın başı açılan kimi çağıracaq kürəkənini yanına, sərkərdədən, qoşun böyüyündən-zaddan eləyəcək onu. Yaxşısı budu mən atın yerişini yavaşıdım. O gəlib mənə çatanda qəfil xəncəri soxum böyrünə, qıza sahiblənim. Kim-kimədi bu qarmaqarışda?» Həmid dediyi kimi də elədi, atın yerişini yavaşıtdı.

Bu yandan Əhməd də atı sürə-sürə fikirləşirdi: «Yaxşı, qız tərkimdə gedirəm, özü də padşah qızı! Cibimdə də siçan oynayır. Padşah demişkən mən bunu necə, nəynən saxlayacam? Gör bir, səi allah, məndə heç ağıl var? Ağıl odey Həmiddə. Həm şahın xas töyləsnidən xas ata yiyələndi, həm də beş yüz dinar pula. Mən nə nadanlıq elədim? Yaxşısı budu atın yerişinə haram qatım, tələsib Həmidə çatım, qəfil xəncəri soxum böyrünə. Quluyluyum getsin, iki at, padşahın qızı, beş yüz dinar da pul, olum bəy kimi! Qızı da saxlamağa pulum olsun, hələm ona layıq ev-eşik düzəltməyə də! Yoxsa evdə yel əsir, yengələr oynayır. Mən nə ağılsız adamam?»

Əhməd də dediyi kimi elədi, atım yerişini artırdı, dabanlarını atın qarnına necə vurdusa at götürüldü. Həmid dala qalmaqda, Əhməd atı səyirtməkdə qafil bir-birinə çatan kimi,

ikisi də xəncəri soxdular bir-birinin böyrünə. Zərbdən elə dəydilər yerə km, elə oradaca hər iki xain yoldaş cəhənnəmə vasil oldu.

Pərixan xanım atdan düşdü. Gördü o yandan Məmməd bala-bala gəlir özüyçün. Gəlib çatanda hər iki yoldaşını ölmüş gördü. İstədi qoya xainləri çıxa gedə qız dedi:

— Məmməd, sən məni qoyub hara gedirsən?

Məmməd padşahın əlindən yanıqlıydı deyə qızına da məhəl qoymadı:

— Neynim səninçün?

— Necə yanı neynim? İnsan deyilsən bəyəm? Adam da ölünü çöldə qoyar? Gəl köməkləşib, bunnarı basdıraq.

Məmməd gördü ki, qız ağlabatan söz deyir, başladı xəncərinən qəbir qazmağa.

Qız dedi:

— Gəl pulu götürək Həmidin cibindən.

Məmməd dedi:

— Yox, o pul mənə lazım deyil. Mənə verilməyib.

O yandan qız ağlını uduzmadı, Həmidin cibindən beş yüz dinarı çıxartdı, yavaşca qoydu cibinə. Köməkləşdi Məmmədnən, ölüləri quyuladılar ordaca. Qız çox ayıq-sayıq qız idi, fikir verirdi Məmmədə. Saraydan çıxandan sonra Əhmədin tərkində ondan öyrənmişdi bütün olub-keçəni. Gözaltı oğlanın meydanda döyülməyin də görmüşdü. Baxdı ki, bu bir şəkilli oğlandı, ağılsız da döyül. Xain yoldaşlarına da bənzəmir. Həm də qız onu yoldan ötənin birinə verən atasından bərk incimişdi. Odu ki, Məmmədə mehribanlıq göstərməyə başladı; çarqatının yarısını cırıb onun yaralarını sarıdı. Yaxasından iynə çıxartdı, oğlanın köynəyinin cırığını tikdi, verdi geydi əyninə. Dedi:

—Yaxşı, ay Məmməd, indi biz neynəyək?

— Nəyi neynəyək, xanım? Sən atı min çıx get dədənin evinə. Mən də çıxım gedim öz yer-yurduma. Vəssalam!

— Bəs mənə yazığın gəlmir?

— Yazığım gəlib neynəyəcəm səniyçin? Kəbinii kəsilib Əhmədə, o da ölüb. İndi qayıt evinizə.

Qız ağlamsındı:

— Əvvələn, dədəm məni belə ərə verməyindən inciyəm. İkimci də, mən bu tezlikdə saraya qayıtsam, hamı deyəcək ki, görəsən nə ayıbı vardı ki, üzüqaranı belə tez qaytardılar dədəsi evinə. Heç kəs də bu olub-keçənə inanmayacaq. Mənə olmazın qara-yaxacaqlar. Elə dədənin də yanına qayıtmağı heç istəmirəm. Mənə sahiblən.

— Yox, ay qız, mən elə şey eləmərəm. Sən mənim bacımsan.

— Bəs onda bacının rüsvay olmağına necə razı olursan? Onda apar məni evinizə — bacı kimi də saxla.

Oğlanın qıza doğrudan da yazığı gəldi. «Elə dəlisov dədədən belə ağıllı qız?» — deyib təəccübləndi, dedi:

— Yaxşı, sən oldun mənim axirət dünya bacım. Dur min atların birini, birini də mən minim, bunları mənə allah yetirib. Gedək evimizə. Gücüm nəyə çatacaq, bax onuynan da dolalacağıq ha!.. Dah məndən dədən öyündəki güzəranı istəmə!

Qız da «baş üstə» dedi. Pərixan xanım atın birinə, Məmməd də o birinə minib yola düzəldilər. Axşamüstü gəlib çıxdılar Məmmədgilin şəhərinə. Məmmədin şəhərin qırağında bir yarıuçuq damı var idi, ata-anası öləndən sonra elə burda yaşayırdı. Gündüz gedib hamballıqdan, suçuluqdan, odunçuluqdan bir iş görürdü, axşam tapdığını gətirib yeyir, içir, başını atıb yatırdı. Qızı gətirdi həmin bu evə. Axşamı birtəhər keçirdilər. Səhər oldu, Məmməd durub getdi şəhərə, bazara iş axtarmağa. Bu yandan Pərixan xanımın cibində pulu, başında ağlı var idi. Qonşu arvadlardan birini yanına çağırdı, bir az pul verib əhəng tapdırdı, bir usta gətirtdi, Məmməd gələnəcən evin uçuqsöküyünü tutdurdu. Divarlarını ağartdırdı. Pal-paltarı, yorğan-döşəyii üzünü yudurtdu. Özü də qollarını çırmalayıb işə girişdi, əlindən gələni elədi. Qonşu arvad soruşdu:

— Bacı, sən kimsən, axı mən səni heç buralarda görməmişəm.

Pərixan xanım dedi:

— Mən Məmmədin əmisi qızıyam, ayrı şəhərdə olurduq. Əmimin ölməyini, Məmmədin tək qalmağını bilmirdim. Elə mənim də dədəm-nənəm yoxdu, Məmməd gəldi, mən də qoşuldum ona gəldim.

Qərəz, axşam Məmməd gəlib evi tanımadı, soruşdu:

— Bu nə həngamədi, ay qız, bu işləri kim görüb?

Qız dedi:

— Bacardığımı özüm eləmişəm, kişi işlərini də qonşudan adam çağırtdırıb elətmişəm.

— Bəs pulunu hardan tapmısai?

Pərixai xanım dedi:

— Necə yanı hardan tapmışsan? Bəyəm anam da atam kimi məndən əl üzmüşdu? Qapıdan çıxarılanda anam cibimə bir qədər pul qoymuşdu ki, gərəyim olar.

— Özüvə qismət olsun. Day belə işlər tutma. Mən özümə iş tapan kimi, nə lazımdı özüm eləcəyəm.

Bunu deyib bazardan gətirdiyi azuqəni qoydu ortalığa Bir az yük daşımışdı, ətdən, çörəkdən, göyərtidən alıb gətirmişdi. Qız durdu ət asdı; xörək bişirdi, ağız ləzzətiynən yedilər. Yıxılıb yatdılar.

Belə-belə hər gün Məmməd bazara gedib işdən-gücdən axtarırdı. Fərri bir şey tapmayanda yükdən-zaddan daşıyırdı, dolanırdılar.

Günlərin bir günü bu şəhərdə məşhur karvansaralar sahibi Hacı Salah gəlib çıxdı Məmmədgilin öyünün həndəvərinə. Gördü ev-eşik xeylağ abadlaşıb. Darvaza tərəfə boylananda gördü, sən öl, həyətdə bir nazənin sənəm var, yemə-içmə xətt-xalına, gül camalına tamaşa elə. Dedi: «İlahi, bu yerin adamı deyil, behiştdən gəlmiş huridi». Kişi imanını verdi əldən. Qayıtdı bazara. Elə birdən qabağına kim çıxsa yaxşıdı —

Məmməd. Soruşdu:
Bala, Məmməd, mən sənin dədən rəhmətliyi yaxşı tanıyırdım. Elə ürəyimdən də keçirdi səni bir yoxlayım, getmişdim sizə. Bir tanımadığım zənən gördüm. Naməhrəm adam kimi soruşmadım nə fəddəsən, nə işdə, nə gücdəsən?

Məmmədin ürəyi kövrəldi:

— Əmi, — dedi, — elə iş axtarıram, əlimə keçən işdəngücdən görürəm. Amma tutarlı bir şey yoxdu. Hələ ki, tapa bilmirəm. Əvvəl təkiydim, indi bacım da yanımdadır, gərək bir tutarlı işdən yanışam ki, dolanaq.

«Bacı» sözünü eşidən kimi Hacı Salah sevindi. Fikirləşdi ki, lap yaxşı oldu, mən buna elə bir iş verrəm ki, mənə borclu düşər, bacısını da əlindən alaram. Bu fikirnən dedi:

— Bala, Məmməd, iş məndə. Köhiə bir karvansaram var, çoxdandı işlətmirəm, şəhərin günbatanındadı, yol üstə. Get təmizlə, qaydaya sal, hesab elə ki, verdim sənə icarəyə. İldə yüz axça icarə haqqı. Razısan?

Məmməd sevindi, çox şad oldu, dedi:

— Çox sağ ol, əmi! Allah imanuvu kamil eləsin. Günü bu gündən işə başlaram. Əllərim iş üçün gicişir.

Məmmədnəi Hacı Salah əl tutuşdular. Bağlaşdılar. Ayrıldılar. Məmməd birbaşa Hacı Salahın nişan verdiyi karvansaraya üz qoydu. İşi sabaha da qoymadı. Amma bilmirdi ki, on il var, Hacı Salah gəlir gətirməyən, çoxdan karvan yolu düşməyən bu karvansaranı atıb, şəhərin ayrı gur meydanlarındakı başqa karvansaralarını işlədir. Qərəz Məmməd özünü çatdırdı köhnə karvansaraya. Başladı uçuğunu yamadı, yerini şirələdi, zir-zibildən təmizlədi. Hücrələrini əhəngnən ağartdı. Hovuzunu doldurdu. Ocaqlarını, kürələrini işə saldı. Samavar, çaydan, piyala, piti bardaqları irahladı. Çörək bişirən — şatır tapdı. Axşam azanından da xeyli sonra yorulub əldən düşmüş evə qayıtdı. Pərixan xanım nigaran idi, soruşdu:

— Ay Məmməd, hardaydın indiyəcən?

Məmməd sevinə-sevinə başına gələnləri, gördüyünü qıza danışdı. İştahnan yedi-içdi, yorulub əldan düşmüşdü, toyuqlar tara çıxan kimi başını atdı yerə yatdı. Səhər sübh azanından da xeyli irəli durdu yerindən, gərəyi olan həməsalahdan-zaddan götürüb özünü karvansaraya yetirdi. Günortaüstü karvanın ağzı açıldı. Sən demə, bu karvan Buxara vilayətindən gəlirmiş. Özü də on il əvvəl elə bu karvansaraya düşübmüş. Şəhərə soraq yayıldı ki, bəs günbatandakı köhnə Hacı Salah karvansarasına çoxlu karvan gəlib. Bədəxşandan, Qəndahardan, Hindistandan, BəlxdənBuxaradan üzü belə bütün o tərəflərin karvanları da onlara qoşulub gəlib. Çoxlu da əcaib-qəraib mallar gətiriblər. Bəli, bütün tacirlər axışdılar Məmmədin icarə elədiyi karvansaraya. Hücrənin biri ayrı yerdə bir axçayaydısa, burda qalxdı beş axçaya. Məmmədin gəliri qalxdı, hücrə kirayəsi, yemək-içmək haqqı, al-verdən rüsum... Qərəz ki, iki günün içində Məmmədin gəliri elə oldu ki, qabaqcadan Hacı Salahın birillik icarə haqqını da ödədi, üstəlik özünə də xeyli qaldı. Hacı Salahın dərddən, paxıllıqdan bağrı çatlayırdı. Neynim, necə eliyim deyib fikirləşirdi ki, birdən ağlına bir şey gəldi. İcarə haqqını Məmməddən alıb dedi:

— Oğul, Məmməd, indi ki allah sənin naxışını verib, gəl sən məndən bir Karvansaranı da icarəyə götür.

Məmməd soruşdu:

— O hansıdı?

— Şəhərin gündoğan səmtində bir köhnə karvansaram da var. Neçə ildi gedib-gələni yoxdu, bəlkə sənin ayağın düşdü, əlin gətirdi, o da bu ayağa çıxdı? Özü də sənə ucuzca, lap əlli axçaya verəcəm, çox köhnədi deyin.

Məmməd zəhmətsevən adamıydı. Bilirdi ki, nə çətinlik olsa içindən çıxacaq. Razılaşdı. Bu təzələdiyi karvansaranı özü kimi kasıblığın acısını görmüş bir cavan oğlana tapşırdı, «ya Mədəd» deyib üz tutdu, şəhərii gündoğanında Hacı Salahın nişan verdiyi xaraba karvansaraya.

Sən demə, Hacı Salahın kələyi varmış. O karvansara çoxdan bəri tilsimliymiş. İçində bir əjdaha peyda olubmuş. Onun qorxusundan heç kəs xaraba qalmış karvansaraya ayaq basmırmış. Hacı Salahın da qəsdi buymuş ki, Məmməd gedər, ya tilsimə düşər, ya da əjdaha vurar onu öldürər. Bacısı da qalar Hacı Salaha, təzə, gəlirli karvansara da üstəlik.

Məmməd karvansaraya getməmişdən irəli əvvəlcə evə dəydi, bəzi kəm-karastı götürmək istəyirdi. Pərixan xanım soruşdu:

— Nə xəbər var, Məmməd? Hara belə karastıynan? Karvansara uçub yoxsa?

Məmməd başına gələn qəziyyəni qıza danışdı. Pərixan xanım Hacı Salahın bu işindən şübhəyə düşdü. Dalağı sancdı. Axı necə olar ki, tacir tayfası elə gəlirli karvansaraları Məmmədə heç bir şeyin müqabilində, özü də belə ucuz icarəyə verə? Qız hər halda şübhəsini Məmmədə bildirmədən, oğlan qapıdan çıxanda xəncərini gətirib onun qabağına qoydu. Məmməd təəccüblə soruşdu:

— Xəncəri neynirəm, ay qız?

— Nabələd yerə gedirsən, Məmməd! Heç olmasa bir xəncər qurşan, gərəyin olmaz—şükür allaha. Gərəyin olar — əlinin altında olmaz—vaysınarsan, gec olar.

Məmməd gördü ki, Pərixan xanım çox ağıllı söz deyir, xah-naxah xəncəri götürüb belinə bağladı, karastılarını da bir cecim xurcuna yığıb aşırdı çiyninə, düşdü yola. Gəldi çıxdı şəhərin gündoğanındakı köhnə karvansaraya. Xurcunu çiynindən sıyırıb qoydu yerə, köhnə darvazanı bir ənvay-müsibətnən açdı. Elə ayağını həyətə təzəcə qoymuşdu ki, bir fısıltı eşitdi; başında tüklər qabardı. Baxdı ki, vallah, həyətdə bir heyvan yatıb, ilandı, ilan döyül, çayandı-çayan da döyül, qırxbaşlı, yeddibaşlı, üçbaşlı əjdaha da döyül, amma qarnı dam boyda köpüb, hər nəfəs çəkəndə az qalır Məmmədi çəkə kamına, hər nəfəs verəndə az qalır darvazadan da o yana

itələyə. Dəmirçi körüyü bunun yanında oyun-oyuncaqdı. Məmməd ürəyində Pərixan xanıma afərin deyib xəncərini çəkdi, elə əjdahanın bədheybət nəfəsi onu kamına çəkəndə irəli cumub, özünü itirmədi, xəncəri sapladı əjdahanın düz iki gözünün arasına, cəhənnəmə vasil elədi. Sürüyüb saldı qədim bir zağa vardı ora, üstünü də torpaqladı. Gəldi, qayıtdı karvansaraya. Xəncərinin, əllərinin qanını təmizləyib, başladı həyəti səliqəyə salmağa. İndi daha köhnə karvansara düzəltməkdə səriştəsi var idi. Əvvəlcə həyəti, hücrələri zir-zibildən təmizlədi. Axşamacan əlləşdi. Axşam yorğun-arğın qayıtdı gəldi evə. Başına gələn qəzavü qədəri Pərixan xanıma danışıb, qıza bir afərin də dedi. Səhər erkən yenə də durdu getdi xaraba karvansaraya. Hücrələri ağartdı, suvanmalı yerlərini suvadı, hovuzunu suynan doldurdu. Endi ki, içində işartı görünən quyusunu da arıtsın. Quyu çox dərin deyildi. Amma hər yerindən əjdahanın üfunətln izləri görünürdü. Məmməd ödü ağzına gələ-gələ quyunu təmizlədi, arıtdı. Amma adıdanda gördü ki, çeşmənnn gözü açıldı, saf, göz yaşı kimi duru su cari oldu, amma su axan yerdə qəribə parıltılı daşlar var. Elə yumru, hamar daşlardı ki, adamın xoşu gəlir, gözü qamaşırdı. Bir neçə dənə tökdü cibinə ki, «evdə verərəm, Pərixan xanıma qızlarnan beşdaş oynar».

Sonra quyudan çıxdı, arxları təmizlədi, arıtdı; genə axşam olanda qayıtdı gəldi evinə. Yorğun-arğın əyləşib Pərixan xanımın bişirdiyi ləzzətli yeməklərdən yeyəndə, qızı nəynənsə sevindirmək istədi. Yadına daşlar düşdü, əlini cibinə saldı, daşları çıxardıb yanında əyləşən Pərixan xanımın ətəyinə atdı:

— Səninçii gətirmişəm, — dedi, — beşdaş oynarsan.

Qız şah qızı idi, atasının xəzinəsində beləsindən ol-
sa-olsa birini-iksini görmüşdü. Qiymətli almazları o saat tanıdı, gözləri bərələ qaldı:

— Məmməd, bu daşları hardan tapmısan?

— Xoşuna gəlir?

— Çox... Sən allah, hardan almısan?

Məmməd güldü:

— Almaq nədi, ay qız, onlardan su quyusunda doluydu.

— Hansı su quyusunda?

— Köhnə karvansaranı təmizləmirəm? Oranın su quyusunda. Quyunu arıdanda gördüm, xoşuma gəldi. Dedim: bəlkə sənin də ürəyinə yatar, oynadarsan.

Qız Məmmədə daşların dəyərini başa saldı. Səhər hər ikisi xaraba karvansaraya gedib quyudakı bütün qiymətli daşları, almazları, ləl-cəvahiratı çıxartdılar. Gətirdilər evlərinə. Bundan sonra bənna gətirtdilər. Qızın atasının sarayı kimi bir saray tikdirdilər.

Bunlar burada firavan yaşamaqda olsunlar, sizə kimdən deyim, mənim balalarım, padşahın arvadından. Bir gün ağladı-sıdqadı ki, kişi, Pərixan xanım üçün burnumun ucu göynəyir. Ata ürəyi də kövrəldi, vəziri yanına çağırıb dedi:

— Vəzir, hazırlıq gör, gedirik Pərixan xanımı görməyə.

— Şah sağ olsun, hara gedirik?

— Necə yanı hara? Sən bilmirsən qız hansı vilayətdədi?

— Yox, qibleyi-aləm!

— Oğlanın adı nədi? Deyəsən ya Həmid idi, ya Əhməd?

— Qibleyi-aləm, ölkədə yüzlərnən Həmid var, minlərnən də Əhməd.

— Qazını çağır, kəbini o kəsib, hər halda o bilər...

Qazı gəldi. Padşah soruşdu:

—Qazı, Pərixanın kəbinnni kimə kəsdin, adı nəydi?

—Nə bilim, qibleyi-aləm? Sən hirsdi vaxtında çağırdın, əmr elədin kəs kəbini, mən də kəsdim göstərdiyin oğlana. Day adını soruşmadım.

Vəzir dedi:

— Hökmdarım, darıxma! Mən Pərixan xanımı yaxşı tanıyıram, o, çox ağılbənd qız idi. Heç yerdə müft uduzmaz. Gəl təğyiri-libas olub gəzməyə çıxaq, hər halda bir yerdə

onların izinə düşüb tapacayıq.

Dedikləri kimi də elədilər. Paltarlarını dəyişib dərviş libası geydilər, düşdülər ölkəni diyarbadiyar gəzməyə. Gəlib bir axşamçağı çatdılar bir şəhərə. Qaranlıq düşmüşdü, bir sarayın qaraltısı yanında gecələdilər. Səhər yuxudan duranda gözlərinə inanmadılar. Elə bildilər yuxu görürlər, ya da möcüzə olub, padşahın öz sarayının yanına gəlib çıxıblar. Nə isə. Gəlib qapını təqqilbab elədilər. Bir cavan oğlan çıxdı:

— Nə istəyirsiz, baba dərvişlər?

— Allah qonağıyıq, yer verərsən?

— Allaha da qurban olum, qonağına da! Buyurun baba dərvişlər.

«Dərvişlər» həyətə daxil oldular. Gözlərinə inanmırdılar. Həyət də eynilə padşahın sarayı kimi idi. Evlər də tanış gəlirdi. «Dərvişlər»i qonaq otağına gətirib qabaqlarına çaydan-çörəkdən qoydular. Amma Pərixan xanım atası ilə vəzirini görən kimi tanıdı və Məmmədi də məsələdən agah elədi. Sonra da gəldi qonaqların yanına: «Atacan» deyib atasını qucaqladı. Anasını soruşdu. Padşah və vəzir təəccüb içindəydilər. Şah soruşdu:

— Deməli, bu oğlandı mənim kürəkənim? Bəs onda mənə niyə deməyib ki, belə sarayı var?

Məmməd dedi:

— Xeyr, qibleyi-aləm, mən sənin kürəkənin deyiləm. Mən sənin əlli çubuq vurub qapından qovduğun adamam. Pərixanda bu günəcən bu evdə məniynən boyunduruq yoldaşı, bacı olub.

Pərixan xanım bütün olub-keçənləri atası ilə vəzirə danışdı. Padşah tutduğu işdən peşman oldu, Həmidlə Əhməd kimi xain yoldaşlara lənət oxüyub, öz əlini rəncinə arxalanan Məmmədə afərin söylədi. Qazını çağırtdırdı! Qızı Pərixan xanımın razılığıynan onun kəbinini Məmmədə kəsdirdi. Onlara qırx gün, qırx gecə toy vurdurdu. Hamı da Məmmədi tərifledi.

Neyçünki o, xoşbəxtliyini xain yolla, pis yolla yox, düz yolla, öz zəhmətilə qazanmışdı.

Deyirlər ki, padşah öləndən sonra yerinə Məmmədi şah seçiblər, özü də çox ədalətli şah olub. Amma mən inanmıram, nə Məmməd padşah olmağa razılıq verməz, nə də padşahdan ədalət gözləmək olmaz.

SƏDAQƏT

Dünyanın qəribə-qəribə işləri olur. Adam ha çalışır, baş çıxartmır. Deyirlər qədim zamanlarda bu yerlərdə bir zalım padşah var imiş. Elə zalımmış ki, ayağı dəyən yerdə ot bitməzmiş. Nəfəsi eşidilən yerdə quzu mələməzmiş. Kölgəsi düşən yerdə adam yox ha... heç yırtıcı heyvan da cınqırını çıxartmazmış ki, birdən allah eləməmişkən, zalım padşah eşidər. Gördüyündən göz kirəsi alar.

Bir gün bu padşah düşdü öldü. Elin ağsaqqalları yığıldı ki, bəs bunun yerinə kimi padşah qoyaq? Vəzir dedi: oğlunu. Vəkil dedi: qardaşını!.. Amma el-camaat padşahın əlindən elə cana doymuşdular, elə zara gəlmişdilər ki, nə dəvə istəyirdilər, nə də onun südünü. Ağsaqqallar dedilər:

— Yox, gəlin dövlət quşu uçurdaq, kimin başına qondu, onu da özümüzə padşah seçək. Bəlkə allah kərimdi, üzümüzə baxdı, bir əməlli adam balasına rast olduq, canımız dincəldi.

Gün xoşladılar. Bütün vilayətlərə car çəkdirdilər bildirdilər ki, ey camaat, bilin, agah olun, bəs filan gün dövlət quşu uçurdulacaq, hamınız İmarət meydanına gəlin, Dövlət quşu kimin başına qonsa, onu da şah qoyacayıq.

Xoşlanan gündə bütün el-camaat İmarət meydanına yığılışdı. Yaşı yüzü ötmüş nurani bir qoca dövlət quşunu əlinə alıb uçurtdu. Quş havalandı, göydə bir iki dövrə vurdu. Uçdu,

uçdu. Vəzir fikirləşdi: «Pənah allaha, bəlkə mənim başıma qondu». Vəkil düşündü: «Allah qoysa, mənim başıma qonacaq». Münəccim dedi: «Talah gərək mənim üzümə gülə. Ağıl məndə, bilik məndə». Amma dövlət quşu cövlan elədi-elədi, bir xeylaq göydə süzəndən sonra getdi qondu bir kasıb dulusçunun başına. Vəzir-vəkil dövlət quşunu ha burdan qovdular, ha ordan qovdular, amma dövlət quşu elə bil dil oldu: «Ölləm, dulusçudan başqa heç kimin başına qonmaram» dedi. Sizə onu da deyim ki, bu dulusçu da kasıb düşmüşdü, amma əsli ağılbənd bir kişinii oğluydu. Atası onu mollaxanada oxutmuşdu. Əməlli-başlı təlim-tərbiyə vermişdi. Dünyanın keçəcəyiidən, gələcəyindən başa salmışdı. Amma sənəti eləydi ki, dədəsindən sonra əlinə bir qazanc gəlmirdi. Çünki dulusçuluq heç bunun ürəyinə yatmırdı. Elə-belə gün uruzusu qazanmaqçın peşə eləmişdi özunə. Camaat arasında xeyli hörməti-izzəti vardı. Neyçün ki, fağır-füqəraya bacardığından əl tuturdu, divan-dərə yolu bilməyənin ərizəsini yazırdı, yolunu görkəzirdi, dərdinə qalırdı. Nə başınızı ağrıdım, dövlət quşunu vəzirvəkilin təkidiynən düz üç dəfə buraxdılar göyə. Üçündə də heç kimə məhəl qoymadı, getdi qondu cavan dulusçunun başına. Əlac kəsildi. Şahanə libas gətirdilər, dulusçunu geyindirib-kecindirdilər. Başına şahlıq tacı qoydular. Əlinə qılınc verib qoşunu onun qılıncının altından keçirtdilər, ona beyət elətdilər, axund gəldi, quran gətirdi. Padşaha əhd-qəsəm elətdilər, qurana əl basdırdılar, ki, camaatnan, rəiyyətnən xoş rəftar eləyəcək, zülm eləməyəcək.

Dulusçu oldu padşah, Doğrudan da elin dərdinə qalan, ağrısını-acısını duyan bir adamıydı, yaxşı da padşahlıq eləyirdi.

Ay keçdi, il dolandı, bir il bu vilayətlərdə quraqlıq oldu. Yerin damarı da qurudu, bulaqların suyu kəsildi. Şəlalələr axmaqdan qaldı. Çayların dəvə daşları üzə çıxdı. Qurbağalar lil içində bir-birinin belinə mindi. Balıqlar ağızlarını göyə açıb yaradandan aman dilədilər. Amma aman verən olmadı.

Əkinçilər nə əkmişdisə kötüyündəcə yandı, quudu. Taxıl qan qiymətinə qalxdı. Padşah dövlət anbarlarını açdırdı. Hər gün ehtiyacı olan camaata buğdadan, undan paylatdırmağa başladı. Anbarlarda yeddi ilin ehtiyatı var idi. Saray adamına yeddi ilə bəs elərdi, amma bütün ölkənin bircə ilinə gücnən çatdı. İkinci il birincidən də yaman gəldi. Yer çadar-çadar oldu. Göydən, buluddan sıxılan bircə damcı, yerə düşməmiş havada qurudu. Padşah baş vəziri yanına çağırtdırdı, dedi:

— Vəzir anbarlarda nə qalıb?

— Heç bir dən də qalmayıb, qibleyi-aləm! Hamısını paylatmısan, sarayın öz ruzisi də tükənib.

— Xəzinələri açdır, vəzir.

— Hökmdar, xəzinəsiz ölkə nəyə gərəkdir?

— Vəzir, bəs rəiyyətsiz xəzinə nəyə gərəkdir? Əgər ölkəmdə aclıqdan bircə rəiyyət də ölsə — özünü ölmüş bil. Apar xəzinədə olan ən yaxşı ləl-cəvahiratı qonşu Aləmzər padşahın yanına. Onları təkcə dənə dəyiş, satma ha... təkcə dənə dəyiş, buğdaya, arpaya.

Padşah necə demişdisə vəzir elə də elədi. Xəzinədəki ən iri, dəyərli ləl-cəvahiratı yığıb qonşu Aləmzər padşahın hüzuruna gəldi. Aləmzər padşah ləl-cəvahiratı görəndə gözləri ala-bula çaldı:

— Vəzir, bunların qiyməti nədi?

Vəzir qəmli gözlərini gizləyib dilləndi:

— Dən, taxıl, hökmdar. Taxıla dəyişirik...

— Hə... Anlayıram... Ölkənizdə quraqlıq olub...

Qərəz. Vəzir taxılı alıb qayıtdı və padşahın əmrilə taxılı bircə-bircə ev başına, ailə üzvlərinin sayına görə bütün camaata paylatdırdı. Amma yenə də bir mətləb hasil olmadı. Bu dəfə padşah baş vəziri yanına çağırtdırıb dedi:

— Camaatın günü necədi, vəzir?

— Səndən nə gizlədim, hökmdar, təzə taxıl çıxanacan, az adam çıxar.

Padşah barmağından yeddi ilin xəracına alınmış qiymətli almaz üzüyünü çıxartdı və vəzirə verdi:

— Al vəzir, get genə də Aləmzər padşahın yanına. Bu üzüyü də taxıla dəyiş. Bax nə qədər çox versə satma ha... taxıla dəyiş. Bilirəm çoxdan bu üzükdə Aləmzərin gözü vardı, nə qədər bacarsan, çoxlu dən qopart Aləmzərdən. Elə elə ki, el sağ-salamat yaza çıxsın.

Bəli! Vəzir genə də Aləmzər padşahın hüzuruna gəldi. Bu dəfə Aləmzər padşah üzüyü görəndə gözləri məşəldar pişiyin gözləri kimin parıldadı:

— Nə əcəb padşahınız bu qiymətdə üzükdən keçir? Hə?.. Qiyməti nədi?

Vəzir üzgün-üzgün dilləndi:

— Taxıla, dənə dəyişirik, hökmdar! Dənə. Bəs keçən gəlişində apardığın o qədər taxıl bargaha bəs eləmədi?

Vəzir Aləmzər padşahın təəccüblü sualına düz-düznəqulu cavab verməyi salah bildi, dedi:

— Padşahımız dəni bargah üçün aldırmamışdı, hökmdar!

— Bəs kimin üçün aldırmışdı?

— Rəiyyət üçün...

Aləmzər padşah ömründə belə şey eşitməmişdi. Bilirdi ki, rəiyyətdən töycü, bəhrə alarlar, vergi alarlar, dərisini soyarlar. Amma rəiyyət üçün taxıl almaq ağlına da gəlmirdi. Odu ki, bir də soruşdu, elə bildi düz eşitməyib:

— Rəiyyət üçün dedin?

— Bəli, hökmdar, rəiyyət üçün. Padşahımız əmr eləyib ki yaza, göy-göyərti çıxanacan bir rəiyyət ölsə, özümü ölmüş bilim. Odu ki, üzüyü də taxıla dəyişirik, hökmdar.

Aləmzər padşah qəhqəhə çəkib güldü, dedi:

— Apar, apar, mənim anbarlarımda dən çoxdu. Sənin başına hayıfım gəlir. Gərəyi olar boş anbar padşahının.

— Padşahımız deyir rəiyyətsiz xəzinə nəyə gərəkdi?

Aləmzər padşah fikrə getdi.

Vəzir taxılı alıb gətirdi. El ağsaqqallarından nəzarətçilər qoydular. Taxılı bircə dəninəcəi camaata dağıtdılar. Hərə evinə ehtiyacı olan miqdarda dən apardı. Yaza çıxdı. Ölkədə heç kim aclıqdan ölmədi. Amma allahın bəlası gələndə güclü gəlir, tək gəlmir. Bu il də quraqlıq keçdi, əməlli taxıl ələ gəlmədi. Bu dəfə padşah baş vəziri yanına çağırıb dedi:

— Vəzir, anbarlarda buğda, xəzinədə ləl-cəvahirat, barmağımda qiymətli üzük qalmayıb. Gümanım bircə şeyədi. Aləmzər padşah bir vaxt bizdə qonaq olanda gözəl xanəndə qız-kəniz Dilgüşanı çox bəyənmişdi. Doğrudu, cariyə, kəniz qismini qul kimi satmaq mənə ağır gəlir, amma çarə yoxdu. Bundan başqa ayrı əlac bilirsənsə de!

— Bilmirəm, qibleyi-aləm! Bilsəydim, çoxdan deyərdim.

— Onda durma! Dilgüşanı özünlə götür. Aləmzər padşahın yanına get, onu bacardıqca çoxlu taxıla dəyiş!

Vəzir çar-naçar razı oldu. Dəvələrə kəcavə bağlatdı, Dilgüşaya yeddi qələmlə zinət vurub kəcavəyə əyləşdirdilər. Vəzir özü də atına minib Aləmzər padşahın ölkəsinə yollandı.

Aləmzər padşah vəziri və Dilgüşanı görəndə ürəyi yerindən oynadı. Məclis qurdurdu, Dilgüşanın can alan, könül oxşayan nəğmələriiə qulaq asdı. Soruşdu:

— Nə əcəb səndən, vəzir? Bu gözəllər gözəlini nə əcəb gətirmisən?

— Taxıl üçün gəlmişəm, hökmdar! Padşahımız əmr eləyib ki, Dilgüşanı taxıla dəyişim. Ta ki, rəiyyət acından qırılmasın.

Aləmzər padşah heyrətindən donub qaldı. Bu son hədd idi. Düşündü: «Yox. Bu padşahdan xata əskik deyil. Bu ki belə başlayıb, bununla yaxşı rəftar lazımdı. Ay keçər, il dolanar, taxılı yaxşı gələr, rəiyyət onun bir dediyini iki eləməz, onun üçün ölümə də gedərlər».

Padşah öz saf, pak tinətilə Aləmzərə qalib gəlmişdi. Aləmzər padşahı elə bil dəyişmişdilər. Bir söz demədi. Vəzirə istədiyindən də ikiqat artıq taxıl verib yola saldı. Padşahın ölkəsində acından bircə nəfər də rəiyyət ölmədi. Bu xəbər bütün aləmə yayıldı. Bu il taxıl elə

gəldi ki, əvvəlki illərin beş qat artıq əvəzi çıxdı. Ölkədə bolluq, firavanlıq yarandı, xəzinə yenə də doldu, anbarlar zığ verdi. Dəni qoymağa yer olmadı. Bir gün padşah baş vəziri yanına çağırıb dedi:

— Aləmzər padşahın yanına get Əkər satmaq istəsə ona verdiyimiz qiymətli şeyləri, xüsusilə Dilgüşanı nə qiymətə desə geri al.

Vəzir Aləmzərin yanına gəlib mətləbdən onu hali elədi. Aləmzər padşah dedi:

— Vəzir, sənin hökmdarının yanına özüm gedəçəyəm. Alverimizi də orda elərik.

Vəzir dedi:

— Fərman sizinkidi, hökmdar, mən nəkarayam?!

Bəli, Aləmzər padşah qaş-daşı, üzüyü və Dilgüşanı götürüb dulusçu padşahın yanına gəldi. Sarayda onları şahanə qəbul elədilər. Xoş-beşdən sonra Aləmzər padşaha dedi:

— Ey padşah, sən öz əməllərinlə mənə də örnək oldun. Mənə öyüd verdin ki, hökmdar rəiyyətlə necə rəftar eləməlidi. Bacarsam, mən də sənin kimi olmağa çalışacam. İndi, isə mənə verdiklərini əmanət saxlamışam, buyur qaytarıram özünə.

Aləmzər ləl-cəvahiratı, üzüyü və Dilgüşanı, padşaha qaytardı. Padşah da ondan aldıqları taxılların qnymətini artıqlamasıynan ödədi.

Bəli, mənim balalarım, «el üçün ağlayan gözsüz qalar» deyənlər böyük səhv ediblər. Gərək deyələr ki, «el üçün ağlamayan göz nəyə gərəkdi?»

O palşah rəiyyətlə yaxşı dolandı, ömrünün axırınacan da xoş günlə yaşadı, arın-arxayın. Bax, yaxşılığın eşitdiyim padşah deyəsən elə bircə budu. Qalanı həlləm-qəlləm çıxıb.

SALXIM SÖYÜDÜN ƏFSANƏSİ

Dünyamız genişdi, dünyamız böyükdü. İnsan bu dünyaya yaxşı,

savab işlər görməyə gəlib. Təkcə yeyib-içməyə yox. Onu heyvan da bacarır, gəlir dünyaya yeyir, içir, nəsil artırır, ölüb gedir. Nə izi qalır, nə tozu. Amma insandan getdikcə gözəlləşən bu dünyamız, bir də yaxşı əməl, yaxşı ad yadigar qalır: «İgid ölər adı qalar, müxənnətin nəyi qalar?» deyib babalar, nənələr. Bir də deyiblər ki: «Ev yar, amma ev yıxma».

Bax, bu gözəl dünyamızda gözəl bir gəlin yaşayarmış. Bu gəlinin candan əziz bircə-qızı, bircə-balası varmış. Əcəl gəlir, gəlini apara. Ürəyinə damır ki, dünyadan köç karvanını çəkdiyi saat yaxınlaşır. Ərini yanına çağırır, deyir:

—Kişi, səni allaha, balamı da sənə tapşırıram. Bilirəm ki, əri ölən ərə gedər, arvadı ölən arvad alar. Cavansan, qocalmamısan, qarımamısan. Əlbəttə ki evlənəcəksən. Evlən, halal xoşun olsun! Sən bu dünyada məni incitməmisən. Üstümə günü gətirməmisən. Dövrəmizdə iki arvadlı da var, üç arvadlı da olub, dörd arvadlı da. Sənin iki gözün iki gözə baxıb. Çox sağ ol! Gedirəm bu dünyadan. Sənin taxsırın deyil. Alnıma belə yazılıbmış. Can sənin, can balam əmanəti! Bilirəm onu çox istəyirsən. Analığı sənin yanında incidə bilməz onu. Amma sən iş-güc dalıycan evdən çıxanda balamızı döyər, incidər. Bax, sənə vəsiyyət eləyirəm. Mən öləndən sonra sağ əlimi kəs, tik bir kütmül süpürgənin içinə. İlimi verdin-vermədin, təksən, evlən. Evlənəndən sonra arvada deyərsən ki, qızımızı bax bu süpürgəynən döyərsən. Başqa şeynən qoyma döyə. Bu sözləri deyəndən sonra cavan ana gözlərini yumur, yaşı leysan kimi tökür. Qızcığazını yanına çağırıb öpür. Əriynən bir də halal-hümmət eləyib canını tapşırır. Ömrünü qızına bağışlayır. Ay keçir, il dolanır, kişi görür ki, doğrudan da evin işi ağırdı. Xırda qızın da başını, paltarıkı yumaq lazımdı. Axı bu evdi. Çörəyi var, xörəyi var, silib-süpürməsi, səliqə-sahmanı var. Gərəkməz ki, bunları bir görüb bitirən olsun. Kişi arayıb-axtarır. Halını-əhvalını qonum-qonşusundan öyrəndiyi bir dul arvad alır, gətirir evə. Bir-iki gün keçəndən sonra mətbəxdən

arvadının vəsiyyətiynən düzəltdiyi süpürgəni gətirib verir analığa, deyir:

— Bax arvad qızım xırdadı, inək kimi yumşaqdı, zərif uşağdı. Amma bunuynan belə səni incidib-eləsə, bax bu süpürgəynən ver cəzasını.

— Nə danışırsan, əyşi, sənii balan, mənim balamdı. Mən heç onu döyərəm?

Arvad yağlı dilini işə salıb kişiyə elə sözlər deyir ki, atanı lap arxayın eləyir qız sarıdan. Kişi çıxıb gedir işinə. Analıq da bircə fikrə düşür bu evə gələndən. Özü bu evdə doğsun-törəsin. Amma qızın axırına çıxsın. Onu ya döyə-döyə öldürsün, ya da qaçırtsın, başın qurtarsın. Səhərdən axşamacan evin nə qədər ağıryüngül işi varsa, hamısını qıza gördürür. Yorulub dayanan kimi qapır süpürgəni düşür qızın canına. Vur ki, vurasam. Amma süpürgədə nə hikmət varsa, qız günü-gündən böyüyür, Aynan, ilnən yox, günnən böyüyür, qönçələnir, çiçək açır. Gözəlləşir. Dağların maralına, düzlərin ceyranına çevrilir. Çiçəklərdən nəfəsinə ətir qonur. Lalələrdən yanağına rəng çilənir. Qızıl gülnən dodağı bəhsə girişir. Saçları qarğı kimi küləklərnən yarışır. Boyu sərvə sitəm eləyir. Qız bir qız olur ki... Ögey ananın bağrı çatlayır. Arayıb-axtarır, dünya görsə də bir misqal xeyir iş əlindən gəlməyən küpəgirən bir qarı tapır. Dərdini ona açır:

— Qarı nənə, neynəyim, bu qızın əlindən? Məsləhət ver, səni dünya malından doyuzdurram.

Qarı deyir:

— Niyə döyə-döyə öldürmürsən?

Arvad ah çəkir:

— Döyürəm, — deyir, — süpürgəynən o ki var əzişdirirəm. Amma döydükcən də elə bil canına can, qanına qan gətirirəm. Boyu da artır, gözəlliyi də gözümü çıxardır.

Qarı fikirləşir ki, hər nə varsa süpürgədədi. Deyir:

— Sən o süpürgəni mənə gətir.

Analıq evə qayıdıb süpürgəni götürür, qarının yanına cumur. İçəri girən kimi deyir:

— Al, bax budu süpürgə. Ərim tapşırıb ki, qızı bunuynan döyüm. Ha çırpıram yun çırpan kimi, meyidini çul kimi yerə sala bilmirəm.

Qarı soruşur:

— Qarı nənə sənə qurban, şəkilli gəlin, deməli ərin tapşırıb ki, bu süpürgəynən döyəsən qızı?

— Hə, nənəcan, hə!

Qarı barmağını dişləyir:

— Hə, onda səhv eləməmişəm. Qayçını gəti, süpürgəni sök!

Analıq durub taxçadan qayçıynı gətirir. Süpürgəni sökür, görür ki, içinə bir qurumuş əl tikilib. Təəccüblənir:

— Bu nədi, qarı nənə?

— Qarı nənən sənə qurban, elə o qızı böyüdən bu əldi. Bu əl onun anasının əlidi. Doğmaca anasının. Görünür anası vəsiyyət eləyib. Ana əli uşağa xəsarət gətirməz. İndi sən eləcə süpürgəni tik, əli də apar qəbiristanlıqda basdır getsin. Amma genə qızı elə atası tapşıran kimi bu süpürgənən döyərsən. Onda görərsən qarı nənənin ağlını, tədbirini.

Ögey ana qarı nənənin tapşırığını o dediyi kimi yerinə yetirir. Aparıb əln qəbiristanlıqda dəfn eləyir. Süpürgəni də əvvəlki qaydasındaca tikir. Sabahdan kişi ticarət səfərinə gedən kimi başlayır süpürgəynən qızı əzişdirməyə. Qız günü-gündən əriyib çöpə dönür, gözəlliyi solur, boyu da kiçilir, saçları yoluq-yoluq, kol-kol olur analığının əlində. Dünya gözünə dar olur. Allahdan bir ölüm arzulayır,o da gəlib çıxmır. Nə də atası səfərdən qayıdıb gəlmir. Qızın çarəsi kəsilir. Vaxt tapan kimi çayın qırağına gəlir, dərdini şırıl-şırıl axan sulara danışır, göz yaşlarını çaya axıdır. Ürəyini boşaldır, geri qayıdır. Bu minval ilə bircə ay keçməmiş qız əriyir şam kimi, quruyur budaq kimi. Bir gün genə nədənsə analığının ona acığı tutur. Ata-anasını

söyüb xələtdəyə-xələtdəyə, süpürgəni qapıb qıza cumur. Qız qaçır, arvad qovur, qız qaça-qaça çayın qırağına gəlib çıxır. Əvvəlcə istəyir özünü suya atsın, bu barədə çox fikirləşmişdi, çox istəmişdi ki, özünü çaya tullasın. Amma qorxurdu ki, atası gələndə analıq onu böhtanlasın ki, «pis yola düşmüşdü, sənin qorxundan özünü suya atdı» deyib onu el gözündə, ata gözündə murdarlasın. Odu ki, bu işi tutmamışdı. Amma indi, əli süpürgəli ifritə analıq dalıycan gələndə qız qayanın başına çatmışdı, gözünün yaşını axıda-axıda əllərini göyə qaldırdı, göylərə yalvarmağa başladı:

— Axı mənim heç bpr günahım yoxdu, uca tanrı! Xilas elə məni bu bəladan!

Analıq qıza çatanda gözlərinə inanmadı. Qız söyüd ağacına çevrilmişdi. Qolları söyüdün budaqları, saçları salxım söyüdün suya enən saçaqları olmuşdu. Arvad qızın quruyan gövdədə döyünən qəlbini gözüylə görürdü, qorxusundan, heybətindən dondu qaldı, söyüd yanında qanqal kimi.

«Ev yar, ev yıxma» deyiblər, mənim balalarım, insan dünyaya yaxşı əməllər üçün gəlir. Düzdü, bütün analıqlar belə olmayıb, yaxşıları da olub. Amma belə lənətdəməsi də olub. İbrətli dünyadı dünyamız.

YUXUYOZAN

Dünyadakı böyük bəlaların biridə dil bəlasıdı, mənim balalarım! Gərəkdi dilinin sahibi olasan. Söz ki danışdın, yerini, məqamını, qiymətini biləsən gərək. Bir sözü ki dedin, gərək dalında durasan, yoxsa dilindən bəlaya düşənin əlacı yoxdu.

Deyir bundan çox-çox qədim çağlarda bir ölkənin çox harın bir padşahı varmış. Elə damdandüşdü sözlər xəbər alarmış yazıq vəzirindən ki, vəzir gözüynən gedib o biri dünyanı görüb qayıdırmış. Həmişə də padşahın qəfil sorğu-sualına sərvaxt

olarmış.
Günlərin bir günü padşah yuxusundan oyandı. Əlini-üzünü yudu. Yeməyini yedi. Çıxıb taxtında əyləşdi. Əmr elədi ki, baş vəzir hüzuruma gəlsin. Bəli, vəzir qorxa-qorxa bargaha gəldi. Ədəb məqamında dayandı, baş əydi, əlini sinəsinə qoyub əmrə müntəzir dayandı.

Padşah dedi:

— Vəzir bir yuxu görmüşəm, de xeyir olsun!

— Deyir olsun, qibleyi-aləm, xeyir olsun!

— Vəzir, bəs heç soruşmursan nə yuxudu gördüyüm?

— Qibleyi-aləm, özün məsləhət bilsən danışarsan, mənim həddim nədi soruşam.

— Vəzir, gərək yuxumu yozasan, yoxsa hövldən bağrım çatlar. Bu gecə yuxunu görüb ayılandan sonra, day yata bilməmişəm, gözümə yuxu-zad girməyib.

— Buyur, qibleyi-aləm, yuxunu danış, mən də yozum.

Padşah kinayə ilə gülüb dedi:

— Yox, vəzir, yuxunu mən danışsam, təsiri qaçar. Gərək sən özün tapasan görək mən nə yuxu görmüşəm? Özün də onu yozasan.

— Qibleyi-aləm, ədalətinə zor eləmə. Mən nə bilim ki, sən Yuxuda nə görmüsən?

— Yox, vəzir, danışa bilməyəcəm. Gərək özün tapasan ki, mən yuxuda nə görmüşəm.

Qərəz vəzir mat-məəttəl qaldı ki, neynəsin. Padşah dedi:

— Vəzir, üç gün sənə möhlət verirəm, əkər üç günəcən yuxunu tapıb yozdun, yozmusan, yozmadın — cəllad başını bədənindən ayıracaq.

Vəzir kor-peşman saraydan çıxdı. Üz qoydu ayağı gedən tərəfə. Az getdi, çox getdi, hara getdiyini bilməyə-bilməyə gəlib çıxdı bir kəndə. Gördü kəndin qırağında bir kişi əyləşib, çarığını yamayır. Kişi vəziri görəndə əvvəlcə qorxdu, axı bu geyim-kecimdə bu yerlərdə, kənd-kəsəkdə adam nə qayırırdı?

Xah-naxah soruşdu:

— Qardaş, hara adamısan? Axı bu yerlərdən döyülsən.

Vəzir burda özünə gəldi, bir az o yan-bu yanına baxdı, kişinn gözdən keçirtdi, dedi:

— Hə, balam, bu yer adamı deyiləm.

— Çox fikirlisən, deyəsən dərdin var.

— Var.

— Nədi dərdin?

— Əyşi, dərdimə çarə eləyənsən?

— Bəlkə elədim! Kim kimin kefinin lələsidi?

Vəzirin ürəyinə elə bil şam damdı, dedi:

— Əyşi, allahdan gizlin deyil, bəndədən nə gizlin? Belə mən padşahımızın vəziriyəm. İndi padşah bir yuxu görüb. Deyib üç: gün sənə möhlətdi. Tap görüm mən yuxuda nə görmüşəm, özü də həmin yuxunu yozginən.

Kişinin dili dinc durmadı, elə belə dedi:

— Elə bu?

Vəzirin gözləri kəlləsinə çıxdı:

— Neçə yanı elə bu? Üç günəcən yuxuyozan tapmasam başım bədənimdən ayrılacaq. Bu azdı?

Kişi genə elə bildi ki, vəzir zarafat eləyir, axı adam yuxuda nə gördüyünü deməsə, hardan bilmək olar? Nə bilsin ki, padşahın ağlı güc gətirib. Odu ki, genə dili dinc durmadı, dedi:

— Dərdini alım, yuxuyozan mən. De görüm nə verəcəksən?

Vəzir sevindiyindən az qaldı kişini qucaqlayıb öpsün. Cibində nə pulu-parası vardı, çıxartdı tökdü kişinin ətəyinə. Barmağından qiymətli ləl üzüyünü sıyırıb keçirtdi onun barmağına. Kişi, day hay-haray harda köməyinə çatacaq, yalvardı ki:

— Başına dönüm, a vəzir, qoy gedim evdə halalıma deyim ki, yönüm haradı. Nigaran qalarlar balalarım məndən.

Vəzir dedi:

— Yaxşı, sən get evinə! Pul-pənəni ver külfətinə! Mən də

sizin kəndin kattasına at-zad hazırlatdırım ki, tezcə çataq bargaha, padşahın qulluğuna, yoxsa vaxt keçir.

Bəli, kişi burdan durdu kor-peşman «dilim-dilim olasan, a məni bəlaya urcah eləyən dilim!» deyə-deyə gəldi evə. Pulları, üzüyü verdi arvadına. Danışdı ki, bəs hal-əhval belə. Arvad da o ki var vaysındı. Kişi dedi:

— Arvad, sən bu pullarnan üzüyü gizlət bir irağbətli yerdə. Oğulbaoğul balalarımıza bəsdi. Mən gedim. Ölümitim dünyadı, halal elə! Mən nə yuxu yozanam, nə rəmmal. Padşah məni öldürəcək.

Arvad doluxsundu:

— Kişi, get allah amanatı, bilmək olmaz umudunu mıxı mismar eləyənə bağla.

Qərəz, kişi evdən çıxdı. Fikirləşdi ki, cəllad əlində ölənəcən gedib Qannıdərədə Qara ilanların padşahı var deyirlər; gedim ilan məni vursun. Öldürsün. Bu yaxşıdı. Onda heç olmasa deyərlər ki, şahın yanına gedəndə ilan vurub onu. Balalarımı da gözdən salmazlar. Yoxsa cəllad əlində ölsəm arvad-uşağıma zərər dəyər.

Kişi dediyi kimi də elədi. Birbaşa üz tutdu Qanlı dərəyə. Gəldi dərəyə endi gördü burda qara ilanlar vıc-vıc vıcıldayır. Kişini görən kimi hamısı dağıldı getdi. Təkcə biri qaldı. Amma bu bir ilandı, bir ilandı, bir ilandı şəvə kimi qara, par-par dərisinin üstündən yaşıl-pazəri zolaqlar gedir, başında da göydəki ulduz xırdalığında eləcənə də parlaq bir tac yanır. Kişi ürəknən ilana yaxınlaşdı, o yanına keçdi, bu yanına keçdi, gördü yox... heç ilan buna məhəl qoymur, bunu heç vurmaq fikri yoxdu. Canını dişinə tutub ayağını uzatdı ilanın düz ağzına sarı ki, vursun onu. İlan dilə gəldi, insan kimi danışdı, dedi:

— Ey bəni-adəm, məndən nə istəyirsən? Niyə dinc-farağat yolunnan getmirsən? Məni də rahat buraxmırsan?

Kişi dedi:

— Ey ilanların padşahı, allahdan gizlin deyil, məxluqundan nə gizlin? Bil və agah ol, padşah bir yuxu görüb. Nə yuxunu danışır, nə sahmanın deyir, amma istəyir ki, yuxunu tapsınlar da, yozsunlar da. Vəzirinə üç gün möhlət verib, bu gün möhlət tamamdı.

İlan soruşdu:

—Yaxşı, vəzirdən sənə nə var? Sən ki vəzir deyilsən?

Kişi ağlamsındı:

— Düz deyirsən, ey ilanların padşahı, mən nə vəzirəm, nə də yuxuyozan. Dilimin bəlasına düşmüşəm, goplayıb demişəm ki, yuxuyozanam. İndi vəzir məni padşahın qulluğuna aparacaq, yuxunu yoza bilməyəcəm, heç nə yuxu gördüyünü də tapa bilməyəcəm, məni öldürəçək. Getməsəm də vəzir vayımı verəcək.

İlanlar padşahı güldü, dedi:

— Doğrudan da ağılsız başın dərdinn ayaq çəkdiyini eşitmişdim, sən demə uzun dilin də dərdini baş çəkərmiş. Kişi, mənim sənə yazığım gəldi. Get padşahın yanına. De ki, sən yuxuda görmüsən ki, göydən tülkü quyruğu yağır. Bu da o deməkdi ki, yan-yörəsindəki adamlar tülku donuna girib, onun başını əkmək istəyirlər tülkü fitnəsiynən, ayıq olsun heç kimə inanmasın. Amma, kişi, bax, padşah sənə nə versə, tən yarısını mənimçün gətirərsən. Yoxsa aramız dəyər.

Kişi o ki var sevindi, and-aman elədi:

— Ey ilanların padşahı, mal-pul mənə gərək deyil. Vəzirin verdiyi bəsimdi. Hamısını sənə gətirrəm.

İlanlar padşahı güldü; ürəyində «baxarıq» dedi və yuvasına çəkildi.

Kişi də ordan birbaşa kəndə qayıtdı. Sevinə-sevinə kattanın hazırlatdığı ata mindi. Vəzirlə yan-yanaşı kənddən çıxanda, bir tamaşa vardı gəl görəsən. Bütün kənd əhli tamaşaya çıxmışdı.

Vəzir kaşan-kaşannan kişini saraya gətirdi. Şahdan izin

çıxdı ki, bəli yuxuyozan gəlsin hüzura. Kişi dedi:

— Mən yuxunu ancaq şahın özünə təkbətək deyəcəm.

Qərəz taxt otağı boşaldı. Vəzir-vüzəra çölə çıxdı. Padşah taxtın üstündə əyləşib kişinin danışmağını gözlədi. Kişi irəli gəldi, vəzirin öyrətdiyi kimi ədəb məqamında diz çökdü, yeri öpdü, dedi:

— Ey padşah, sən yuxuda görmüsən ki, göydən tülkü quyruğu yağır.

Söz kişinin ağzından çıxan kimi padşah çığırdı:

— Düz deyirsəi, kişi, düz deyirsən. Bəs bunun yozması nədi?

Kişi cavab verdi:

— Şah sağ olsun, yozması budu ki, sənin dövrəni tülkü kimi hiyləgər, tülküsifət adamlar alıb. Onlar tülkü fəndi qurub sənə zəfər toxundurmaq istəyirlər. Özünü hiylələrdən, tülkü fəndlərindən qoru.

Şah əlini-əlinə çalıb vəzir-vəkili, nökər-naibi çağırdı. Dedi:

— Məni istəyən kişiyə xələt versin!

Kişiyə o qədər pul, mal, xələt verdilər ki, bir dəvənin gücü çatmadı, iki dəvəyə yüklədilər. Ovsarını da əlinə verib, yola saldılar. Kişi sevinə-sevinə kəndlərinə tərəf gedirdi, əvvəl fikirləşdi ki, dəvələrii biriii malı, yükü ilə aparıb versii, ilanlar padşahına. Sonra fikrini dəyişdi:

— Ağrım onun ağzına! İlan dəvəni, malı-pulu neynir? Bunlar insana lazımdı. O, ilandı, özü də İlanların padşahı. İstəsə bundan da çox malı olar. Bu mənim qismətimdi. Bir də padşahın mənə işi düşməyəcək ki, ilana da işim düşsün.

Bu fikirlə də kişi əhdini yadından çıxartdı, çıxıb getdi kəndlərinə. Özünə yaxşıca ev-eşik düzəltdi, gün-güzəran düzəltdi, şad-xürrəm yaşadı.

Günlərin bir günü vəzirin nökəri qapını kəsdirdi. Vəzirdən namə gətirdi ki, başuvu orda islat, burda qırx! Bəs padşah genə

yuxu görüb, yuxunu da danışmır, özü də səni istətdirib ki, gəlib yuxunu açasan və yozasan. Durmaq vaxtı deyil. Tez gəl!

Kişinin matı-qutu qurudu. Dedi: «Ey vay mənim günümə! Mən nə qələt idi elədim? Əgəm onda aparıb İlanlar padşahının payını versəydim, bəlkə indi genə yanına getməyə üzüm olardı. Bəs mən neynəynm? Genə yaxşısı budu gedim İlanlar padşahı haqlı-haqqına məni çalıb öldürsün. Öldürməsə, bu xançalı soxacam öz ürəyimin başına».

Bu fikirlə də kişi qasiddən izin alıb Qanlı dərəyə yollandı. Dərəyə çatan kimi İlanlar padşahını yuvanın ağzında gördü, başında tacı ulduz kimi yanırdı. Kişini görcək istehza ilə güldü:

— Hə, kişi, gəlmisən?

Kişi canını dişinə tutub qorxa-qorxa dilləndi:

— Gəlmişəm, başına dönüm, gəlmişəm. Yanında üzüm qaradı. Day ölən günümdü, vur-çal öldür məni.

—Yoxsa padşah genə yuxu görüb?

— Görüb başına dönüm, görüb. Elə ölən günümdü.

Qorxma, kişi, bu dəfə də sənin dadına çatacam. Get padşaha de: yuxusunda görüb ki, göydən canavar quyruğu yağır. De ki, sərvaxt olsun! Ehtiyatını əlindən verməsin, dövrəsini canavar xislətli, qurd niyyətli adamlar alıb.

İlanlar padşahı bu sözləri deyib qurtaranda kişi sevindiyindən az qalmışdı qanad açıb uça. İlan isə deyirdi:

— Amma genə bircə şərtim var ha!.. Padşahdan nə alsan, sənə bargahda nə versələr, tən yarısını mənə gətirərsən.

Kişinin dili gücnən söz tuturdu, dili-dodağı təpiyə-təpiyə dedi:

— Baş üstə, can üstə. Day bu yaxşılıqdan sonra mən, nə versələr gərək canımı da üstünə qoyam verəm sənə. Mənə ötən səfərki bəs eləyər ölənəcən.

İlan genə kinayə ilə gülüb dedi:

— Canın özünə qalsın, malından keçsən bəsdi.

Bu sözlərlə də cəld yuvasına çəkildi. Kişinii ayağı yerə

dəymirdi. Az qalmışdı qarğadan, qırğıdan qanad satın alsın. Tez özünü kəndə çatdırıb bir at mindi, dördəmə çapıb özünü padşahır bargahına çatdırdı. Genə də tələb elədi ki, padşahnan təkbətək qalsınlar. Elə ki vəzir-vəkil saraydan çıxdı, kişi ədəb məqamınacan diz üstə sürünüb, yeri öpdü, dedi:

— Qibleyi-aləm, sən yuxuda görmüsən ki, göydən canavar quyruğu yağır.

Padşah səsləndi:

— Düzdü, doğrudu! Bəs yozması?

Kişi dedi:

— Yozması da budu ki, padşahım, səni dörd tərəfdən canavar xislətli, qurd niyyətli adamlar dövrələyib. Sərvaxt ol, özünü gözlə!

Padşah bu dəfə də əlini əlinə çalıb vəzir-vəkilini, nökər-naibini səslədi:

— Məni istəyən bu kişiyə xələt versin. Düz tapıb və düz də yozub yuxumu. Lənətə gələsiniz, hamınız canavarsınız!

Bu dəfə padşahın hirslənməyinin qorxusundan bütün saray əhli kişiyə o qədər mal-pul, xələt verdilər ki, iki dəvənin gücü çatmadı, dörd dəvəyə yükləyib, ovsarını da əlinə verdilər, evinə yola saldılar.

Kişi sevinə-sevinə evinə qayıdırdı. Yolu Qanlı dərədən keçirdi, ürəyində fikirləşirdi ki, «əşi, qadam o ilanın ağzına, mal-pul onun nəyinə gərəkdi? Adam deyil zər-ziba geyinə, qızıl-gümüş qurşana. Allah döymüşdü onu. Bu dəfə gərək birdəfəlik yaxamı ondan qurtaram. Ona heç bir həb də verən deyiləm».

Bu fikirlə də kişi ilanlar padşahının yuvasına yaxınlaşdı. İlanlar padşahı yuvanın qənşərində özünü günə verirdi. Başındakı qızıl tac aydınlıq gecənin ulduzu kimi par-par yanırdı. Kişini görcək cəld yuvasına çəkilmək istədi, başını yuvaya soxdu, amma quyruğunu gizlətməyə macal tapmadı. Kişi ta bayaq qəməsini çıxardıb İlanlar padşahına tərəf

tolazladı. Qəmə. İlanlar padşahının quyruğunu çapdı. Amma öldürmədi. Kişi dəvələrin ovsarını çəkib ilanların qorxusundan Qanlı dərədən sürüşdü. Çıxdı getdi evinə. Malı-mülkü bir az da çoxaldı. Kef içində yaşayırdı. Yeyirdi, içirdi, hətta ona yaxşılıq eləyənə xəyanət elədiyini yadından da çıxartmışdı. Qəzanın işini bilmək olmaz. Bu dünyada kim nə günah eləyibsə, gec-tez cəzasına çatır. Elə, kişinin kefi yeddinci göydə çırtıq çalan vaxtda padşahın xas nökərləriidən biri qapını kəsdirdi ki:

— Ey yuxuyozan! Padşah təzə yuxu görüb, səni qulluğuna çağırır. Deyir: əlində su da varsa içməsin, qoysun gəlsin, görsün nə yuxu görmüşəm, yozması nədi?

Kişi dərindən bir ah çəkdi: «Ay sağ onu yuxu görməsin» deyib padşaha qarğadı. Ürəyində də özünü danladı ki, bax əgər tamahkirlik eləməsəydim, ötən dəfələrdə İlanlar padşahının payını aparıb versəydim, indi üzüsulu yanına gedərdim. Dərdimi deyərdim, dərman alardım. Amma indi İlanlar padşahının quyruğunu da üzmüşəm, nə üzlə gözünə görünə billəm? O yandan da padşah dərimə diri-diri saman təpdirər. Balalarımı sürgün elər yad vilayətlərə. Ya da mənim acığıma, məni öldürüb ürəyi soyumayanda onları da qırdırar. Nə yaxşıdı gənə gedim ilanın yanına, ilan o padşahdan yaxşıdı. Öldürsə də qoy ilan öldürsün məni. Onda heç olmasa padşah gül-külfətimə dəyməz.

Qərəz, kişi bu fikirlərlə də Qanlı dərəyə gəldi, gördü ki, İlanlar padşahı yuvasının ağzında özünü günə verir, elə kişini görən kimi ucadan bir qəhqəhə çəkdi:

— Hə, kişi,—dedi, — gəlmisən? Bilirdim ki, gələcəksən.

Kişi dili-dodağı təpiyə-təpiyə dilləidi:

— Üzüm qaradı, ilan qardaş! Vur öldür məni! Səndən bundan başqa heç nə istəmirəm.

— İndi qardaş olduq? Dərdini bilirəm. Ulular üçəcən deyib,

bu dəfə də sənə kömək eləyəcəm. Bir şərtlə ki, nə versələr yarısını mənə gətirəcəksən.
Kişi bir az ürəkləndi:
— Vallah, billah, balalarım ölsün ki, mənə heç nə day lazım deyil, hamısı sənin olsun.
— Yox, yarısı. Kişi, get padşaha de ki, yuxuda görüb göydən qoyun quyruğu yağır. Yozması da belədi: daha onun üçün qorxu keçib. Ötə-bərisindəkilər qoyun kimi dinc olub. Heç nədən, heç kimdən çəkinməyə bilər. Bargahında qurd quzu ilə otlayır.

İlan bunu deyən kimi də yuvasında yox oldu. Kişi «sağ ol» deməyə də macal tapmadı. Özünü kəndə çatdırdı. Atını minib saraya çapdı. Dördnala bir çapırdı ki, dalıycan toz duman kimi qalxırdı. Deyirdin toz burulğanıdı. Gəlib saraya çatdı. Padşahla aranı xəlvət elədi, dedi:
— Qibleyi-aləm, sən yuxuda görmüsən ki, göydən qoyun quyruğu yağır.

Padşah səsləidi:
— Əhsən, düzdü! Bəs yozması?

Kişi dedi:
— Yozması da budu ki, sənin sarayında qurd quzuynan otduyur, dinclikdi. Hamı sənə qoyun kimi tabeydi. Heç nədən, heç kimdən ehtiyat eləməyə bilərsən.

Padşah sevindi, əlini əlinə çaldı, vəzir-vəkilini, nökər-naibini çağırdı, əmr elədi:
— Bu kişiyə xələt...

Kişiyə səkkiz dəvə yükü mal, xələt verdilər. Üstəlik də bir gözəl kəniz bağışladılar. Kişi bütün bu pay-püşü götürüb dübbəduz Qanlı dərəyə — İlanlar padşahının yuvasına gəldi. İlanlar padşahının yuvadan təkcə ulduz kimi parıldayan taclı başı görünürdü. Kişi dəvələri də, kənizi də yuvanın qənşərinə qoyub bir qədəm geri çəkildi, dedi:
— Ey İlanların ağıllı padşahı! Sən mənə çox yaxşılıqlar

eləmisən. Məni ölümlərdən qurtarmısan, dilimii bəlasından xilas eləmisən. Amma mən həmişə tamahıma qul olub sənin şərtlərini yerinə yetirməmişəm. Buyur, bu dəfə bütün saraydan gətirdiklirim sənin olsun. Mənə əvvəlkilər də bəs elər.

İlanlar padşahı acı-acı güldü; dedi:

— Kişi, xəzinənə yiyə dur! Mənə nə mal-pul, nə dövlət, nə də kəniz gərəkdi. Neynirəm onları? İnsan deyiləm ki, gərəyim olsun? Amma bil və agah ol ki, şahın yozduğum yuxuları düz, doğru çıxdı. Birinci dəfə tülküyə dönmüşlərin biri də sən idin ki, tülkü kimi daldalardan qaçdın, mənə düşən rəsəti də vermədin, gözümə də görünməyib getdin. İkingi dəfə canavara döndün, quyruğumu çapdın, haqqımı qapdın. İndi sənə bu gözəl sözləri dedirtdirən də sənin öz yaxşılığın deyil, qoyundadı məsələ. İnsan xisləti dəyişib, sən də dəyişmisən. Get, halal xoşun olsun hamısı.

İlan bu sözlərlə də cəld yuvasında qeyb oldu. Kişi dəvələri və kənizi götürüb evinə qayıtdı, ömrünün axırınacan firavan yaşadı. Amma ömrünün axırınacan da tutduğu işin peşmançılığını çəkdi.

Mənim balalarım, dünyada elə yaşayın ki, sonradan tutduğunuz işin peşmançılığını çəkməyəsiz.

ŞƏFA BULAĞI

Ulular deyib ki: «Buğdam var demə — anbara girməmiş, oğlum var demə — bərkdə sınamamış». Boş yerə deməyiblər. Boş yerə deməyiblir, çünki qız var, yüz oğuldan qeyrətli, oğul var, adını çəkməyə utanarsan, atasıyam, anasıyam deməyə xəcalət çəkərsən. Oğulu-qızı bərkdə sına, onda bilinər ər oğul, əsl övlad hansıdı, hansına arxalanmaq olar. Odu ki, atalar «Aslanın erkəyi-dişisi olmaz» — deyiblər. Övlad ata-ana üçün mərd aslan olanda ata yurdunun çırağı olur, mənim balalarım.

Elə bu gün sizə danışmaq istədiyim əhvalat da bərk ayaqda sınanan bir övlad barəsindədi.

Günlərin bir günü çox qədim zamanlarda yurdumuzda dava gedirdi. Elin ən adlı igidlərindən Səfa qoşunun qabağında vuruşurdu. Düşmən çox güclüydü. Amma Səfagil çörəyini yedikləri torpaq üçün vuruşurdular deyin, az sayla, qəsbə gəlmiş çoxsaylıların qabağında duruş gətirib dayana bilmişdilər.

O vaxtlar dava-dalaş indiki kimi deyildi ha. Mərdlik döyüşüydü ondakı. Əvvəlcən bir-birlərinə rəcəz oxuyurdular. Aşıqlar demişkən, hərbə-zorba gəlirdilər. Mərd-mərdana deyirdilər: «Çək qalxanını başına, indi mən sənə zərbəni sağ çiyindən vuracağam». Ya da ki, «At qılıncını, gəl qurşaq tutaq». Hə... Elə. Səfa da düşmənin çox güclü bir pəhlivanıynan üz-üzə gəldi. Günün qızmar vaxtıydı. Göydən günəş torpağa od ələyirdi. Meydan igidlərin qanı kimi qızışmışdı. İgidlərin eyni bir yandan davadan, bir yandan da günəşin istisindən dumanlanmışdı. Səfa ilə düşmən pəhləvan bir-birinə zor gəldikcən gah bu tərəfin, gah da o biri tərəfin qoşununun ürəyindən yanıqlı bir «ohh», «off» nidası qopurdu. Düşmən tərəfin pəhləvanı öz yerlərində çox ad-san qazanmış igid idi. Basqınçıların sərkərdəsi Səfanın bu pəhləvana güc gəlməyini görəndə daha qanunu pozdu. Gizlincə əmr verdi. Səfanın təkbətək vuruşduğu meydana basqınçılar birdən hücum elədilər. Səfanı meydana sel kimi axıb gələn basqınlar içiidə tək görəndə. bizimkilər də köməyə cumdular. Amma gec idi. Səfa bir neçə yerindən — kürəyindən, böyründən ağır yaralanmışdı, atının dırnaqlarının dibinə düşmüşdü.

Səfanın yıxılmağı basqınçıları nə qədər ürəkləndirdisə, qoşunlarımızın içinə bir eylə rəxnə saldı, ara qarışdı, məzhəb itdi. Kim kimi vurduğunu, atını hara sürdüyünü bilmədi. Elə bu dəmdə şəhər tərəfdən səmənd at minmiş bir igid peyda oldu. Göy gurultusuna bənzəyən bir səslə bağırdı.

— Neynirsnz, igidlər?! Özünüzü itirməyin! Tapdalanan kimin namusudu? Aylardan bəri qoruduğunuz el namusunu ayaq altına almayın. Məgər bu yurdu təkcə Səfa qoruyurdu? Qeyrətə gəlin, özünüzə gəlin!..

Bu səs elə bil yatanları oyatdı. Onlar təzə bir sərkərdə tapdıqlarına sevindilər. Səmənd at minmiş igidin dalıycan hücuma keçdilər.

Düşmən gözləmədiyi bu hücumdan özünü itirdi. Ətraf kəndlərdən, şəhərin özündən əli yaba tutan da, bel tutan da, sapand atan da səmənd atlının dalınca özünü dəryayileşkərə vurmuşdu. Basqınçıların başçısı ölənə qədər çalışdı ki, qoşunun səfini düzəltsin, ələ alsın, olmadı. Özünü də fəlakətə saldı. Araqarışda səmənd atlı cəngavərlə üz-üzə gəldi. Atlını bircə qılınc zərbəsilə iki böldü. Basqınçılar arasına çaxnaşma düşdü. Başçısını itirmiş qoşun düzə səpələndi... qaçan canını qurtardı. Qaça bilməyən qılıncdan keçirildi.

Sərkərdə öldükdə, qoşun başıpozuq düzə yayılanda səmənd at minmiş qoçaq qaçanlara baş qoşmadı, meydanın ortasında düşmən meyidlərinin arasında düşüb qalmış Səfanı axtarıb tapdı. Atından endi. Yağı cənazələrindən Səfanı ayırdı. Başını dizinin üstünə aldı, büründəyini parçalayıb igidin yaralarını sarıdı... Səfanın igidləri axırıncı basqınçını da qılıncdan keçirib qayıdanda sərkərdələrinin başını onun dizi üstündə gördülər. O, başını qalxızanda donub qaldılar. Bayaq ildırım kimi çaxan bu səmənd atlı Səfanın bacısı, yaxşıca tanıdıqları Sənubər imiş. Meydan qızışmışdı, başlar dumanlıydı deyin qızı tanımamışdılar.

Sənubər kişi geyimində onu tanımayanların təəccübünü görəndə gülümsədi, ayağa qalxdı, dedi:

— Səfanı evə aparmalıyıq. Qaldırın. Ehtiyatlı olun. Yaraları ağırdı.

Oğlanlar dinməz-söyləməz Səfanı evə gətirdilər. Xəcalət içindəydilər. Axı qız onlara üstün gəlmişdi.

Evə çatanda ananın naləsi ərşə dirəndi. El öz qəhrəman oğlunu xilas eləməkçin məsləhətə əyləşdi. Təbiblər dərman verdi. Qarılar türkəçarə elədilər. Heç bir şey kömək eləmədi. Səfa nə bayğınlıqdan ayıldı, nə gözlərini açdı. Yarımcan kimi düşüb qaldı. Dərdi bilinmədi. Yarları qaysaqlandı, qanaxması dayandı, amma özünə gəlmədi ki, gəlmədi. Eli matəm bürümüşdü. El basqınçılardan xilas olmağına sevinə bilmirdi — igid oğlu ölürdü. Böyük zəfər günü də az qala matəmə çevrilirdi.

Nəslin yumaq kimi yumulmuş qocalarından iri cavanların çiynində Səfanın görüşünə gəldi. Baxdı, düşündü, keçmişlərdən nəyisə yadına saldı, dedi:

— Səfanın sağalmasıyçın Şəfa bulağının suyu lazımdı, balalarım!

Şəfa bulağının adını oturanların hamısı eşitmişdi. Amma özünü görən olmamışdı. Bu yerlərdə bir vaxtlar ən adlı-sanlı qəhrəmanlar Şəfa bulağını axtarmağa getmişdi, qayıtmamışdılar. Qayıdanlardan da «gördüm» deyən olmamışdı. Şəfa bulağı insan ayağı dəyməyən Tərlan meşəsindən o yana, lap meşənin qurtaracağında, Ağuçqun dağının kəlləsində, Pəri qayasının dibindəydi. Uzaqdan baxanda başı ay dumanlı, ağ qar kalağaylı Ağuçqun dağı göyə millənmiş kimiydi. Zirvəsindəki qar köynəyi dələn Pəri qayası da hərdən bir dumandan sıyrılanda qara qartal kimi görünərdi. Səfanın dərmanı o yerdə, o əlçatmaz, ünyetməz məkandaydı. Deyirdilər divlər, əcinnələr yığnağıydı o yerlər.

Sənubər, qocalmış, müdrik dədə olmuş igidin sözlərini diilədi. Bir kəlmə də danışmadı, səmənd atını çəkib yəhərlədi. Yəhər qaşı heybəsinə azuqə yığdı. Ayağını üzəngiyə qoyanda anasının səsini eşitdi:

— Hara gedirsən, bala?

— Şəfa bulağını axtarmağa, ana. Qardaşımın dərmanı ordadı.

Qoca-cavan hamı Sənubəri yoldan saxlamağa çalışdı,

amma olmadı.

Sənubər səmənd atı mindi... Qamçı görməmiş ürkəyə bir acı qamçı çəkdi. Şəfa bulağını axtarmağa getdi. Atı bir gördüm deyən bir də görmədi.

Səmənd at dərə demirdi, təpə demirdi gedirdi. Axşamacan Tərlan meşəsinin güngörməz qaranlıqlarını keçdilər. Ağaclar yolu kəsəndə səmənd döşləyirdi. Budaqlar qızın üzünü, libasını cırdı, səmənd irəliləyirdi. Axşama yaxın Tərlan meşəsini ötüb Ağuçqun dağının ətəklərinə çatdı. Qəfildən elə bil yer ayrıldı. Acı dərədən bir Od atlı çıxdı, yolu kəsdi. Qız yeri-göyü, ərşi-gürşü titrədən bir qəhqəhə eşitdi:

— Ay canına doyan insan! Hələ bu dağlara bir adam oğlu çıxa bilməyib. Quş quşluğuynan bu dağlara uça bilməyib. Quş uçsa qanad salar, qatır gəlsə dırnaq salar, ulaq çıxsa lalan tökər. Ya yolunla düz qayıt, ya da qalxanını başına çək.

Qız ürəyi titrədi, amma qardaş dərdi güc gəldi, qorxu bir anda Sənubərin yadından çıxdı, cəld qılınca əl atdı. Onlar gecəni sübhəcən güştü tutdular, bir mətləb hasil olmadı.

Günəş Ağuçqun dağına işıq saçanda Od atlı döyüşdən əl çəkib Acı dərədə yox oldu. Sənubər fürsəti fövtə verməyib səmənd atı Ağuçqun dağına sürməyə başladı. O qaraplıq gecədə düşmənin kim olduğunu bilməyə-bilməyə sübhəcən vuruşmuşdu. Gün günortaya çatanda qız dağ yolunu yarı elədi. Gün əyiləndə kahalardan birində dincəlmək istədi. Axı gecəni çimir eləməyib qılınc oynatmışdı, sübhün gözü açılanda at sürmüşdü. Yararlı bir kaha tapıb atından enməmişdi ki, genə həmin Od atlı qarşısında peyda oldu. Qəzəbli-qəzəbli bağırdı:

— Nizəni götür, vuruş bitməyib.

Qız nizəni əlinə aldı, amma qardaş nigarançılığıynan dedi:

— Ay atlı, kimsən, yolumdan eləmə məni. Yaralı qardaş şəfa suyu gözləyir məndən. İgidsənsə igid işi gör, qoy qardaşıma su aparım, sonra qayıdım gəlim. Nə qədər desən

vuruşaq. Ya sənə verən allah, ya mənə.

Od atlı oğlan ildırım səsli bir qəhqəhə ilə təzədən güldü. Dedi:

— İnsan oğluna etibar yoxdu. Sözün tutmaz. Nə qədər mən sağam, Şəfa bulağından bir qətrə də su heç kimə-qismət olmayacaq.

Günəş batabatda nizələr parladı. Səhərəcən nizəylə döyüşdülər. Yenə bir mətləb hasil olmadı. Gecə qara örtüyünü yıtıb Günəşdən qaçanda, Od atlı təzədən Acı dərədə qeyb oldu.

Nə Sənubər ona, nə o Sənubərə güc gələ bildi. Vuruşma elə ağır olmuşdu ki, Sənubər səhərin gözünün nə vaxt açılmağını da bilməmişdi. Yorulub əldən düşmüşdü. Amma qardaşı yadına düşəndə yorğunluğunu unudurdu. Gün bir cida boyu qalxanda qız yəhərqaşı heybədəki azuqəsindən bir loğma yedi, sovçasındakı sudan bir qurtum içdi. Gün axşam olanacan mənzili başa vura biləcəyinə sevindi. Səmənd atı mindi «Sübhənallah, köməyim allah» deyib yoluna düzəldi, Ağuçqunun başı sənsənmi gəlirəm?! Bu gün Şəfa bulağına çatacaqdı, qardaşına şəfa suyu aparacaqdı. Qız sevinirdi, Səmənd at da zirvəyə doğru irəliləyirdi.

İki yuxusuz gecə vuruşu, gündüz sıldırımlı dağ yolu keçməsinə baxmayaraq Sənubər hər dəfə dilinə qardaş adı gətirəndə yorğunluqdan, yuxusuzluğundan əsər-əlamət qalmırdı.

Gün günorta yerinə qalxanda elə bil Ağuçqun dağının başında durub qarşı dağların gözəlliyinə heyran-heyran tamaşa eləyirdi. Onun qızılı şüaları altında Pəri qayası xumarlanır, Şəfa bulağı saf, büllur sularını şırıldada-şırıldada bahara, gözəlliklərə nəğmə oxuyurdu.

Sənubər bulağa çatdı. Atından endi. Səməndin cilovunu daşa ilişdirdi. Heybəsindən sovçasını çıxartdı. Şəfa bulağının novuna tutdu. Buz kimi sərin, saf, büllur su sovçaya dolmağa başladı.

Birdən səmənd at təhlükə duydu, sahibini xəbərdar eləməkçin ucadan kişnədi. Sənubər döndü... Qənşərində günəşin parlaq şüalarından gümüşü geyməsi od kimi yanan bir pəhləvan dayanmışdı.

— Sən bu diki tez çıxdın, igid! Adətim xilafına bu gün sənlə gün işığında vuruşmalı olacağam.

Və onlar bir-birinin kəmərinə əl atdılar. İki saatlıq güşdüdən də kar aşmadı. Birdən Sənubər acıqlı bir nərə çəkdi:

— Qardaş məhəbbətini ucuz tutma, igid! Yolumu vaxtından əvvəl yas paltarı geymiş anam gözləyir. Gözünü vaxtsız dünyaya yummalı atam oğlu qardaşım gözləyir... Qardaş məhəbbətinin nə olduğunu bilirsənmi?

Sənubər qardaş məhəbbətini qollarına topladı, igidin ayağını yerdən üzdü. Başı üstündə hərləyib arxasını yerə çırpdı. İgid od saçan gözlərini Sənubərə zillədi «aman» istədi.

— Dayan, igid!.— dedi. — Şəfa bulağının suyu sənə halaldı, sən onu zəfərlə qazandın. Mənə də qıyma.

Sənubər ona dəymədi, qalxdı. O da qalxdı, papağını və qılıncını Sənubərin ayağı altına atdı. Sənubər onun saçlarına və gözəl üzünə baxa-baxa qaldı. Qız dedi:

— Görürsənmi ki, qızam. Əhdim yerini tutmadı. Bu gündən mən sənin həqiqəbəkuş qulunam. Qulluq tanasını qulağıma keçirrəm, nə desən onu elərəm.

Qız Sənubərin qabağında diz çökdü, Sənubər onu ayağa qalxızdı. Dedi:

— Sən mənim qulum yox, bacımsan. Qalx gedək.

Sənubər səməndini daşdan açdı, şəfa suyu doldurduğu sovçanı heybəsinə qoydu. O qız da atını çəkdi, mindilər. Qız, doğulduğu gündən məskəni olmuş dağlara, kahalara,

Şəfa bulağına həsrət-həsrət baxdı, elə bil hər daşnan, qayaynan sağollaşırdı. Yollandılar. Sənubər soruşdu:

— Sənin adın nədi?

— Adım nə gəzir? Anam Sayad könlü xoş olanda mənə

Ağuçqun pərisi deyərdi.

— Bəs burda niyə qalırdın?

— Ayrı yerim yox idi. Anam hələ mən dünyaya gəlməmişdən əvvəl bu yerlərə yaxın bir kənddə yaşayırmış. Anam cavanlığında çox gözəlmiş, kəndin ağasının muzduruynan evlənibmiş, bir gün ağa anamı görüb din-imanını badə verir. Ha pay-püş, cınçıq-mıncıq bağışlayır, dil töküb əlləşirsə bir şey hasil olmur, anamı yoldan çıxarda bilmir. Axırda öz adamlarıynan bir gecə evimizə soxulub anamın gözünün qabağında dədəmi öldürürlər. Ara qarışanda anam qaçıb özünü Tərlan meşəsinə salır. Bir neçə gün Tərlan meşəsində aç-susuz dolanır. Axırda Ağuçqun dağına çıxır. Nənəmin nağıllarında eşitdiyi Şəfa bulağıynan Pəri qayasındakı kahanı tapır. Həmin yerə pənah gətirir. Dağda dolanır, gah da yatır. Beş ay sonra mən dünyaya gəlirəm. Qız doğmağından çox qəmlənir anam. Atamın, dağılan yurdumuzun hayıfını çıxmaqçın oğul istəyirmiş allahdan. Sonra day əlindən nə gələcək. Elə məni oğlan kimi böyüdür ki, bəlkə hayıfını düşmənindən alam. Kişisayağı böyüyürdüm. Bir dəfə Şəfa bulağından su aparmaqçın üç cavan gəldi, mən onları tanımırdım. Anam tanıdı, dedi ki, bu o bamərdin, evimizi dağıdan, əzizimizi öldürən, bizi dağlara-daşlara salan zalımın oğludu. Qocalmış xəstə atasıyçın şəfa suyü aparmağa gəlib. Biz dağlarda o cavanlarla vuruşduq. Oğlan anamın nizəsindən yaralandı, yoldaşları da onu götürüb qaçdılar. Bizi bədheybət cinə-zada oxşatdılar. Şəfa suyunu isə apara bilmədilər. Sən demə, anam da yaralanıbmış. Kahada dincələndə anamın yarası qövr elədi. Çıxdım Şəfa bulağından ona su gətirim, mən qayıdıb gələnəcən canını tapşırmışdı... O gündən sonra çox-çox igidlər Şəfa bulağından su aparmağa gəldilər, cin-şeytan qorxusundan qaçıb dağıldılar. Mənim gümüşü zirehim gün işığı düşəndə onlara od kimi göründü.

O gündən özümə söz vermişdim: «Anama qismət olmayan

Şəfa bulağından heç kəsə də qismət olmayacaq».
İndi düz dörd ildi ki, anasızam. Tək-tənhayam. Dünyadan bir dünyam gedib, ana adında. Təklik mənə güc gəlir, kəndə gedib pənah aparmaq tay-tuşum insanlar kimi yaşamaq istəyirəm, amma anamın vəsiyyəti yadımdan çıxmır. Axı mən anamın intiqamını almaq üçün doğulub böyümüşəm, hayıfını isə o zalımdan ala bilməmişəm. Anamın düşmənini heç tanımıram da. Özü görsəydi tanıdacaqdı. Köçdü dünyadan, tanıtmadı mənə. Hərdənbir xoşuma gələn bir cəngavərə təslim olmaq istəyirdim, amma məni hövül götürürdü: birdən elə anamın düşməni bu olar deyib, daha da qəzəblə, qəsd-qərəzlə doğramaq istəyirdim. Əsl cəngavər, əsl qəhrəman rastıma gələnəcən vuruşmağı özümə söz vermişdim. Sən isə... Sənubər atını tərpətdi:
—Tez ol, Pəri can! Qardaşım yol gözləyir. Mən sənə qardaş məhəbbətinin gücüynən üstün gəlmişəm. Yoxsa elə mən də sənin birinəm...

Pərinin bəlkə də ömründə birinci dəfə üzü güldü, o da atını dəhmərlədi.

İkinci gün axşamçağı hər iki qız obaya çatdı. El onları qəhrəman kimi qarşıladı. Sənubər nəinki qardaşına Şəfa bulağından su gətirmişdi, o həm də insanlara şəfa verən bir yerin üzərindən «cin», «div», «qorxu» kəlmələrini götürmüşdü. Sevincinin həddi-hüdudu yox idi.

Sənubər cəld atından endi, özünü qardaşının yatağı yanına yetirdi, sovçanı yastığı ucunu kəsdirmiş qocaya verdi. Pir-dədə sudan Səfaya bir az içirtdi, bir az da yaralarının üstünə çiləd. Az keçmiş Səfa gözlərini açdı. Anasına, qocaya, Sənubərə baxdı, yığılanları seyr elədi, dağlar pərisinə nəzər saldı. Hər iki cavanın gözləri bir-birinə sancılıb qaldı.

Hamı sevinclə gülümsəyirdi. Obada toy-bayramdı. Dünyagörmüş qoca cavanların baxışlarını tutub dedi:
— Sənubər qardaşına həyat gətirdiyi kimi gəlin də

gətirib. Toy tədarükü gör, ay qarı, toy tədarükü.

Elə bu gündən də elin dilində iki məsəl qaldı: «Buğdam var demə — anbara girməmiş, oğlum var demə — bərkdə sınamamış». Biri də buydu: «Aslanın erkəyi-dişisi olmaz».

DAŞ OĞLAN

Dünyaya çox mərdlər, çox igidlər gəlib mənnm balalarım, amma bir oğlan da gəlib-gedib bu gəlimli-gedimli dünyadan. Adı heç kitaba yazılmasa da igidliyi, qəhrəmanlığı dillərdə dastan olub, ürəklərdə yurd bağlayıb. Heç bir eşidənin yadından çıxmayıb. Elə mənim də yadımdan çıxmır. Hər eşidəndə gözlərimin yaşı quruyur, axı elə igidə ağlamazlar, rəcəz oxuyarlar haqqında.

Deyirlər ki, bir zaman Topal Teymur Şirvan torpaqlarının ətrafında qan-qan deynb keçdiyi zamanlarda baş verib bu danışdığım. Axı o vaxtlar Şirvanşahlığın elə zamanıydı ki, vətənin çox adil bir padşahı var idi. Topal Teymurun ağzını boza verə bilmişdi, el öz var-yoxundan çıxmışdı, amma yurd-yuvasını Teymur qoşunlarının tapdağı eləməmişdi. Müdrik qocalar, ağılbənd nənələr Şirvanşahın başına ağıl qoya bilmişdi.

Bax elə həmin illərdə Küdrü düzündə bir bala çoban qoyun otarırdı. Teymurun bu torpaqlara ayaq basmaq xəbərini qulağı çalmışdı. Keçən karvançılardan eşitmişdn çərçidən, xırdavatçıdan alınmışdı, nəydisə, amma Teymuru görməsə də sorağını eşitmişdi.

Kürdünün düzü. Yaz vaxtı. Ot-ələf dizdən. Çoban da çox cavan idi, lap uşaq deyərdin ona. Atası təzəlikdə ölmüşdü. Onun yerinə bala çobanlıqdan çobanlığa keçib qoyun otarır, anasını, bacısını dolandırırdı.

Sənə kimdən xəbər verim, bala, Topal Teymurdan. Deyir Teymurun qoşunları gəlib çıxır Küdrü düzünə.

Yalandımı, gerçəkdimi bilmirəm, amma belə danışırlar ki, ucu-bucağı görünməyən səhrada bir dəstə qoşun yolu-rizi itirir. Teymur da bunların içində. Hardasa dayanıb dincələn çoxluğuna gedib çatmaq istəyirmiş. Susuzluq bunları əldən salır. Gün təpələrinə şaxıyır, atların dili susuzluqdan bir qarış çıxır, heyvanlar elə ləhləyir, insanlar elə tərləyir ki, çulu, pal-paltarları duz bağlayır. Gözlərinə hər saatda şır-şır şırıldayan çay, zümzüməli bulaq, ləpələnən göl görünür. İlğımımış hamısı da. Küdrünün düzündə çay nə gəzir, bulaq nə qayırır, göl hardadı? Kürdünün bulağı xırda nohurlardı. Çayı da budu, gölü də. Bu nohurlara qışdanqalma qar-yağış suyu dolar yaylağa, getdikcə qoyun-quzu da, insanlar da bu nohurdan içərlər.

Qərəz, Teymur dəstəsinə nohur da rast olmur, olanı da qupquruymuş. Birdən qoşun lap əldən düşə-düşə bala çobana rast olurlar. Görürlər qabağında bir sürü qoyun otarır. Teymur adamlarına deyir:

— Bu oğlan suyun yerini bilməmiş olmaz. Su olmasa qoyunu harda sulayar? Gedin, soruşun.

Dəstədən bir atlı aralanıb özünü oğlana çatdırır. Soruşur:

— Ay oğlan, buralarda harda su var, atları sulayaq?

Oğlan başını qaldırıb atlıya baxır, çomağı ilə yeri eşə-eşə dedi:

— Buralarda su nə gəzir? Çay yox, göl yox, bulaq yox.

Elə bu vaxt Əmir Teymur başının dəstəsiynən birgə özünü yetirdi. Oğlanın sözünü eşidəndə dedi:

— Bəs qoyunlarını hardan sulayırsan?

Oğlan cavab vermədi. Topal Teymur bir də soruşdu:

— Eşitmirsən nə deyirəm? Bəs qoyunlarını nəynən sulayırsan?

Oğlan çomağıpın ucuynan quru nohurlardan birini göstərdi:

— Odey nohurlardan...
— Yalan demə çoban, nohurlarda su yoxdu. Çoxdan quruyub.
Oğlan ürəyində: «Sizi görəndə hər şey quruyur» fikirləşdi. Sonra çarəsizliklə dilləndi:
— Axı qoyunlarımı suvardığım bulaq balacadı, sizin qoşuna çatmaz.
Hökmdar kükrədi:
— Sənə dəxli yoxdu, çoban, sən suyun yerin de! Sənə xələt verərəm. Pul istəsən pul, mal istəsən mal...
Oğlan yenə də çomağı ilə yeri eşələyə-eşələyə dedi:
— Pul-mal mənə gərək deyil. Bulağın da yerini demərəm. Onu da qurudarsız.
— Sən məni tanıyırsanmı?
— Əlbəttə tanıyıram.
— Mən kiməm?
— Teymur...
— Bilirsənmi ki, səni dara çəkdirə bilərəm, diri-diri itlərə paylaram? Hər tikəni qulağıncan elətdirərəm?
Oğlan dik Teymurun gözlərinin içərisinə baxa-baxa dedi:
— Bilirəm.
Ətrafdakı qoşun böyükləri, oğlanı dövrəyə almış Topal Teymurun adamları bala çobanın cürətinə mat qalmışdılar. Uşaqda da bu ürək?
—Göstər bulağın yerini, oğlan, qəzəbimi coşdurma!
— Su da torpaq kimi müqəddəsdi, hökmdar, onu yadlara nişan verməzlər. Biqeyrətlik eləmərəm.
— Bu sənə çox baha oturacaq, çoban, hayıf cavanlığından.
— Mənim yerimə hayıfsılanma. Qoy mən qorxum ki, qanımın bahası gedir...
— Kəsin bunun dilini... Yox dilini kəsməyin, suyun yerini deyə bilməz. Vurun! Suyun yerinn deyənəcən qamçılayın!
Topal Teymurun başının adamlarından ikisi irəli çıxdı,

oğlanı qamçılamağa başladı. İlan kimi qıvrılıb açılan qamçı oğlanın başına, gözünə, çiyinlərinə, kürəyinə dəydikcən daşdan səs çıxırdı, oğlandan yox. Bala çoban cınqırını da çıxartmırdı. Topalın nökərləriysə uşağı hey döyürdülər. Axırı qanına qəltan olmuş oğlandan bir kəlmə də eşidə bilmədiklərini görüb dayandılar.

— Zalım oğlu elə bil daşdı, bədən deyil.

Birdən Topal Teymurun gözləri bala çobanın gözlərinə sataşdı, heyrətindən ağzı açıla qaldı. Qamçısının ucu ilə oğlanın çırım-çırım olmuş geyməsini qaldırdı; Teymurun başının adamları təəccüb içində içlərini çəkdilər: bala çoban daşa dönmüşdü. Dönüb dövrələrinə baxdılar: bala çobanın qoyunları da daşa dönmüşdü.

Topal Teymurun adamlarını qorxu bürüdü. Cin-şəyatin görmüş kimi atlarını dəhmərləyib bu sehrli, əcaib diyardan ayrıldılar, çapıb getdilər. Elə o zamandan bu yerlərdə hara getsən daş qoyundur görərsən, daş heykəldir görərsən. Deyirlər bala çobanın qeyrətidir, hər yerə dağılıb, bütün kəndlərimizə, obalarımıza, hətta qəbiristanlarımıza da yayılub. Yayılıb ki, qoy hamı görsün, bilsin bu torpaq necə oğullar yetirib. İgidlərin nəsli bu diyardan kəsilməsin.

ŞAM VƏ PƏRVANƏ

Şam yanır...

Gülnar baxır...

Pərvanə dolanırdı...

Qız qara gözlərini oddan çevirib nənəsinə zillədi:

— Nənə can, bəs bu gecə mənə nağıl demiyəcəksən?

Ömrünün ikinci əsrini yaşamaqda olan qarı dükçəsini tovlayaraq dedi:

— Daha nağıl qurtarıb bala! Neçə ildir ki, sən nağıl başa düşəli, hər gecə birini deyirəm. Buna nağıl dözər?

Qız hiyləkərcəsinə gülümsədi. Nadinc əllərini nənənin dükçəsinə atdı:

— Nənə-can, bəs sən deyirdin ki, sinəm kitabdı?

Qarının gözləri güldü:

— Elədi bala! Bilirdim. Çox bilirdim, amma daha huşum qalmayıb. Qocalmışam. Axı meşədə də mən yaşda ağac yoxdu.

Gülnar artıq bu gecə qarıdan heç bir şey eşidə bilməyəcəyini görüncə qəmləndi. Başını nənəsinin dizi üstünə qoydu. Yenidən gözlərini şama dikdi. İncə bir pərvanə şamın başına hey dolanırdı. Qız şirmayı əllərini uzadıb onu oddan kənar etdi. Lakin o, alovdan əl çəkmirdi... Zərif qanadları qarsalanırdı.

Qız nənəsindən soruşdu:

— Nə üçün yanır, nənə can?

Qarı dükçəsini yerə qoydu. Qızın ipək telli başını sığalladı. Gözləri bir nöqtəyə zilləndi: uzun müddət düşündü. Baxdı... baxdı... Gülnarın lap səbri tükənmişdi ki, birdən sanki qarının qoca xəyalında nəsə canlandı:

Mən aşiqəm od uzaq,
O cənnətdi o duzax,
Səməndər fikif aşiq.
Olmaz səndən od uzaq! —

deyə pıçıldadı. Gülnar təəccübləndi:

— Bəs bu nə deməkdir, nənə?

Qarı dedi:

— Qulaq as, mənim balam, nənəm mənə bir əhvalat danışmışdı. Ona da özgəsi deyibmiş. Qulaq as! Onda pərvanənin nə üçün yandığını bilərsən.

Qız yeni bir nağıl eşidəcəyini düşünərək sevindi. Başını nənəsinin dizi üstündə rahatlayıb dinləməyə hazırlaşdı.

Qarı gözlərini oda dikib sözünü belə başladı:

—Qədimdə, lap çox qədimdə yer üzündə bir qəbilə yaşayırdı. Bu qəbilədə qızıl gül kimi zərif, günəş qədər işıqlı, mərd ürəkli bir gənc var idi. O, qəbilənin ən birinci igidlərindən sayılırdı. Oğlanın yel kimi at çapıb, küləklə yarışması, ildırım kimi düşmənə şığıması dillərdə deyilirdi. Onun oxundan bir ov yayına bilməz, kamanı gərilində düz-dünya çoxlarının gözündə daralardı. Hələ bir zaman yadlar məbədi uçurmaq istəyəndə o, sinəsinn oda sipər etmiş, elin ibadətgahını qorumuşdu. Lakin o vaxtdan bəri onun ömrü ovda keçirdi. El atəşgaha yıxılıb oda sitayiş edirkən o, çöllərdə cüyür qovardı. Nə isə, mənim balam, o belə oğlandı.

İgidin sevgilisi isə, sabah yeli qədər incə, qonça kimi xoş ətirli, qoşa şahmar hörüklü gözəl bir qız idi. Elə bil ki, allahın lap kərəmi cuşa gələndə bu qızı yaratmışdı.

Qızın adı Qonça, oğlanınkı Səməndər idi, mənim balam.

Adətə görə Səməndər elin kənclərilə birlikdə atəşgaha gəlməli, ovlarından hədiyyə gətirməliydi. Qəbilə başçısından xeyir-dua aldıqdan, sevgisinə, sədaqətinə and içdikdən sonra qıza olan eşqini açmalıydı. Lakin Səməndərin eşqi özü kimi azad idi. O, zümrüd çəmənlərin ala-bəzək çiçəklərindən toplayır, su pərilərriiə məxsus çələnk hörür və Qonçaya gətirərdi. Qız çələngi başına qoyar, hər sabah bülbülün bahar mahnısını andıran sevimli bir səslə öz eşqindən oxuyar, bülbül diiləyəndə susar... uzaq-yaxın ellər bu tərənnümə heyran qalardı.

Qəbilə başçısı qoca Tuğyan da Qonçanı xoşlayırdı. Onun ürkək baxışlarını, ceyran yerişini, məlahətli çöhrəsini görəndə ağlını itirirdi...

Lakin ellər gözəli onun eşqinə qarşı çox soyuqdu. Qız könlünü Səməndərə vermişdi.

Qərəz, mənim balam, bu lətif, işvəkar pəri Tuğyanın tayı deyildi.

Qoca sərkərdə, artıq hicrana dözə bilməyib, sirrini ən yaxın dostuna açdı. Dostu isə igid Səməndərin Qonçanı sevdiyini söyləyib onu bu addımdan saqındırmağa çalışdı... olmadı...

Getdikcə daha artıq bir vəcdlə coşan eşq, Tuğyanın ürəyini budayırdı. O düşünür, Səməndəri aradan qaldırmağa bir çarə axtarırdı... tapa bilmirdi...

El, qəbilə Səməndəri çox sevir, ən yaxın dostları belə Tüğyana kömək edə bilmirdi. Əli hər yerdən üzülən qoca qıvrılırdı.

Elə bu zaman sanki tale özü onun köməyinə gəldi. Xəbər çıxdı ki, yadlar, qəbilənin uzaq yaylaqlarına basqın etmiş, mal-qaranı oğurlamış, gəlinləri-qızları əsir etmiş, bir neçə igidi öldürmüşlər. İndi isə ibadətgahlara hücum edib müqəddəs atəşgahı talamaq istəyirlər. El atəşgaha toplandı...

Hamı həyəcanlı idi. Böyük-kiçik hamı bu xəbərdən qəzəblənmişdi. Tuğyan ibadət mövqeyinə çıxdı. Dəniz kimi coşan xalqın önündə Səməndəri görüncə ürəyi atlandı. Gözləri kin və qəzəblə yandı:

— Nəyə coşursan, ay el?! Sənin önündə Səməndər kimi bir igid durur. O, basqınçıları geri oturdar. Mən onu sizə ordu başçısı təyin edirəm! Gedin, odlar köməyiniz olar!..

El bu sözləri alqışla qarşıladı. İgidlər yaraqlanmaqçın evlərinə dağıldı. Az keçdi. Böyük atəşgahın önündə hamı toplandı. Səməndər, qəbilə gəncləri önündə vüqarla durmuşdu. Arabir qızlarla yanaşı duran Qonçaya və sevgilisinin bir az əvvəl ona bağışladığı üzüyə baxırdı. İgid xatırladı: qız ona «üzüyümün qaşı qızaranda, bil ki, dara düşmüşəm» demişdi. Səməndər düşünürdü. Qız nə üçün belə demişdi? Onu düşüncələrindən, qəbilə başçısının sözləri oyatdı. Qəbilə ağsaqqalları atəşgah önündə döyüşə gedən gənclərə xeyir-dua verdilər. Səməndər atını tərpətdi. Qəbilənin Qonçasını qorumağa yollandı.

* * *

...Gün keçdi, ay dolandı... Uzaqlarda, düşmənlə çarpışmağa gedən igidlərdən, Səməndərdən soraq çıxmırdı. Qonça ayrılıq dərdinə mərdliklə dözür, el isə ürək çırpıntısıyla oğullarından xoş xəbər gözləyirdi. Tuğyan da qıvrılırdı. Taleyin göndərdiyi bu kömək onu çox düşündürürdü. Bu döyüşlərdə Səməndər ölsəydi... ölə bilsəydi... İgidin həlak olması xəbərini daha tez öyrənə bilmək üçüi Tuğyan döyüş yerinə bir qasid göndərmişdi. Orada nə olsaydı, Tuğyan xəbər biləcəkdi. Tuğyan qara fikirlərindən əl çəkməmişdi. Bir neçə dəfə Qonçanı və ya atasını ələ almağa çalışmışdısa da müvəffəq olmamışdı.

Qaranlıq bir gecə idi. Tuğyanın evinə qara bir atlı yanaşdı. Qulağı səsdə olan qəbilə başçısı eyvana atıldı. Bu gələn onun dostu qasid idi. O, Səməndərin böyük bir müvəffəqiyyətlə düşməni məhv etdiyi və bu yaxın günlərdə qəbiləyə qayıdacağı xəbərini gətirmişdi. Tuğyanın qolları vurulmuş kimi yanına düşdü. Nəhayət o, özünü toxdadıb son vasitəyə əl atdı.

Sənə Səməndərdən deyim, qızım, Səməndər doğrudan da qalib çıxmışdı. O, düşməni tamamilə dağıtmışdı. İndi isə quş kimi sevgilisinə doğru uçurdu. Qəzadan, bu gecə, uzun döyüşlərdən və neçə günlük dayanmadan çapdığından atı yorulmuşdu. Odur ki, igid atını çidarlayıb otlağa buraxdı. Kəndə cəmi bir neçə ağaclıq yol qalmışkən Qonçasına çata bilməyib, burda gecələməyə məcbur olduğu üçün o çox pərişan idi. Çarəsiz çəmənzarda yatmalı oldu. Çobanyastığı gülləri onun nazbalışı, lətif bahar çəmənliyi döşəyi, yaz buludları yorğanıydı... Səməndər yatırdı...

...Çox, çox qəribə bir yuxu görürdü. Ona elə gəldi ki, hardasa gül gülü çağıran bir bağçada gəzinir. Görmədiyi bir

bülbülün cəhcəhinə qulaq asır. O, ağaclara göz gəzdirnb sarı bülbülün yerini axtarırdı. Birdən gözü yaxındakı qızılgül koluna düşür. Bülbülün səsi bu koldan gəlir. O, bülbülü axtara-axtara qızılgül koluna yanaşır. Ən yüksək budaqdakı açılmamış bir qonça gözünə dəyir. O, əlini uzadıb qonçanı dərir və həsrətlə iyləyir. Ox... Nə vaxtdan bəri o, qonçaya həsrət idi... Birdən onun qarşısına bir yığın qəzəbli insan çıxır. Onlar qonçanı ondan tələb edirlər. Səməndər vermir. İnsanlar zorla almaq istəyir, Səməndər qılınca əl atıb qonçasını qoruyur. Bu mənim ürəyimdir... Verə bilmərəm—deyə hayqırır... Lakin o təkdir. Səməndəri tutub qollarını bağlayırlar. Ömrü uzunu qolu dalına qatılmayan igid hirsindən boğulur. Lakin Səməndərin gözü önündə od qalayıb əlindən zorla alınan qonçanı oda atırlar. Birdən ona elə gəlir ki, bu qızılgül qonçası deyil, onun ürəyidir yanır. O, ürəyini oddan çıxarmaq üçün çırpınır... Alovlar içində yanan qızılgül qonçası şəkilli ürək isə haraya çağırır...

— Səməndər, sevgilim!..

Ax! Bu ki onun sevgilisinin, Qonçanın səsidir. İgid var qüvvəsilə qolunu bağlayan ipləri çəkib qırır. Oda doğru atılır. Ürəyini alovdan çıxarmaq üçün əllərini uzadır. Alovlu dillər onun barmaqlarını qarsalayır...

İgid hövlnak yuxudan ayıldı. Sabahın ala-toranında gözü barmağına düşdü. Qonçanın üzüyünün qaşı qızarmışdı. Bu doğan günəşin al şəfəqi idimi, ya doğrudan da qan idi. İgid bilmirdi.

Səməndər cəld atını tutub yəhərə sıçradı. Dördnala qəbiləyə sarı çapmağa başladı... Tuğyan isə bu gecə yata bilmədi. Gecə kimi qara, bürüncəyə bürünüb evdən çıxdı. Kölgə kimi sürünüb Qonçanın otağına soxuldu. Gələcək xoşbəxt günlərinin, sevgilisinin qabiliyyətnən qayıdacağı eşqilə körpə yuxusuyla yatan Qonça otağında yad nəfəs duyunca ayıldı.Tuğyanı görürkən titrədi. Qara kölkə dilə gəldi:

— Fəlakət, gözəl pəri. Onlar hamısı məhv olmuşlar. Səməndər elə xain çıxmış, düşmənə satılmışdır...

Qonçanın gözləri qaranlıqda parladı:

— Bəs sən, el başçısı, indi qəbilənnn fəlakətinə yas tutmalıykən, burada nə gəzirsən?

— Mən sənə çox acıdım, Qonça. Xain Səməndərin ürəyinə vurduğu yaranı öz məhəbbətimlə sağaltmaq istəyirəm.

Qız qətiyyətlə səsləndi:

— O, xain ola bilməz, sərkərdə! Qaranlıq gecədə özgə xanimanına soxulan el başçısı xain olmağa daha çox yararlıdır. Rədd ol!..

Tuğyan qəzəbləndi:

— Özünü gözlə, qız!

Dan yeri sökülürdü... Tuğyan gecə kimi günəşdən qorxub komasına çəkildi... Qonça isə sübhü diri gözlə qarşıladı.

Səhərdi...

Baharın lətif, xoş rayihəli bir sabahıydı...

El oyandı... Tələf olan ordunun fəlakət xəbəri qəbiləyə yayıldı. El həyəcana gəldi. Dalğalı ümman kimi coşdu... Kükrədi... Qəbilə başçısının qapısına yönəldi, eli fəlakətdən qorumaq üçün atəşə yalvarmaq dilədi...

Tuğyan elin qarşısına çıxdı:

— Od qurban tələb edir, ay el, qəbilənin ən yaraşıqlı qızlarından biri atəşgaha qurban gətirilməlidir.

Qəbilə ağsaqqalları məşvərətə oturdular. Tuğyan bir başçı kimi ilk söz deməli idi. O, Qonçanı qurban verməyi məsləhət bildi...

Az keçdi... Tuğyanın əmrilə Atəşgahda od qalandı... Şöləsi ətrafı bürüdü... Xalq ibadətgaha toplandı. Hamı həyəcan içində qurbanı gözləyirdi.

...El, Qonçanı görüncə yanıqlı bir nalə çəkdi. Qəbilə bülbülünün susmasını kimsə istəmirdi... Lakin...

...Tuğyan yubanmaqdan qorxaraq həmin dəqiqə Qonçanı

məhv etmək istəyirdi... Ona qismət olmayan pəri, Səməndərə də qalmamalıydı.

Qonça isə məğrur başını dik tutmuş, durduğu yüksəklikdən, bütün gözəlliyi ilə nəzərləri oxşayırdı. Sıx qara saçları çiyinlərinə dağılmış, cəsarətlə köksünü irəli vermiş, gözlərini uzaqlara zilləmişdi... Sabah nəsiminin qopardığı sıx toz aralanır, ona elə gəlirdi ki, toz dumanından Səməndər zühur edəcəkdir. «Ah... bircə son dəfə onu bir anlığa da görə bilsəydim... Vaxtsız ölüm məni bu qədər düşündürməzdi» — deyə pıçıldadı...

—Səməndər xain deyil, ay el! — deyə birdən hayqırdı.

— Bəli o, xain ola bilməz!..

— Gözləyək!.. —deyə el səs-səsə verdi.

...Tuğyan isə tələsik müqəddəs odun şərəfinə bir şeir oxudu. Qəbilənin, elin, igidlərin səlamətliyi üçün allaha yalvardı...

...Od öz qurbanını aldı.

Qonça yanırdı...

Birdən, az əvvəl, Qonçanın həsrət dolu gözləri dikilən yoldan əvvəl bir toz buludu, sonra dördnala qəbiləyə sarı çapan bir atlı zühür oldu. Bu Səməndərdi...

Qonçası yanırdı.

— Səməndər, sevgilim!..

— Gəlirəm, Qonçam!..

İgid çatdı. Atdan yerə sıçrayıb özünü sevgilisinə doğru atdı. Onu dörd bir tərəfdən tutdular. Müqəddəs oda yaxın getməyə qoymadılar.

Qonça yanırdı...

Birdən Səməndər Tuğyanın və dostlarınıp qolları arasından çıxıb, çırpınaraq od ətrafına hərləndi... Yanıqlı nalə çəkib kiçildi, xırdaca bir pərvanəyə çevrildi... Havalanıb uçdu...

Qonça yanırdı...

Pərvanə özünü oda çırparaq, zabanə çəkib şölələnən tonqalın başına fırlanıb uçmağa başladı...

Alovlu dillər onun qanadlarını qarsaladı.

Tuğyan təəccübündən donub qaldı...

Bu halı görən el, qəbilə başçısının xəyanətini anlayıb coşdu...

El gücü, sel gücü...

Qəbilə əhli Tuğyanın cəzasını öz əllərilə verdi.

Qonça şam kimi yandı... Pərvanə isə od aşiqi, şam həmdəmi adlandı...

...Və o gündən el, Səməndər və Qonça xatirinə hər il baharın ilk sabahında meydanda tonqal qalayır... Pərvanə rəqsinə başlayır... od ətrafına fırlanır...

Pərvanə isə hər dəfə tonqal və ya şam yandırıldığını görəndə gəlir... sevgilisini xatırlayıb odun başına fırlanır.

...Odu ki, mənim balam, o vaxtdan bəri bütün pərvanələr şama dolanır, özlərini atəşə çırpır, alovdan yanırlar...

Nənə susdu...

Amma yenə də şam yanır...

Gülnar mürgüləyir, baxır...

...Pərvanə dolanırdı.

«İT KÜÇÜYÜ DOĞAN İDİ»

Dünyadakı böyük bəlaların biri adamlara pis örnək olmaqdır, mənim balalarım. Ulular deyib ki, çalış həmişə gələn nəsillər üçün əngəl olma, pis nümunə olma, yaxşı əməlinlə könüllərdə; dillərdə qal. Elə bu gün sizə danışmaq istədiyim hekayətdə də belə bir iş olub. Deyirlər ki, bir zamanlar bu yerlərdə Hacı Abdulla adında bir kişi varmış. Dövləti başından aşırmış, amma şüşədən su sızmayan kimi bu kişinin də cibindən, əlindən bir həbbə xeyir görən olmayıbmış. Xəsisliyinin qabağında arvad almaqda da tay-tuşunu ötübmüş.

Altı arvadı düzübmüş yan-yana. Qışda qar almaq olmazmış bu dünyagir kişidən. Yazıq arvadlara ev işindən savayı, xalça-palaz toxutdurub satarmış. Özlərini də yarıac-yarıtox saxlarmış. Deyərmiş:

«Dünyada nə ki dərd-bəla var, yeməkdən törəyir, çox yeməyin, azarlamayın — sizin qaydınıza qalıram». Pal-paltar da almazmış. Deyərmiş: «İnsanınkı o dünyalıqdı. Bu beşgünlük dünyada geyinib-bəzənib özünüzü kimə görsədəcəksiniz? Günah yiyəsi olacaqsız? Əriniz mənəmsə, mənə belə xoşdu». Arvadların cındırından cin ürkürmüş. Hacı Abdulla belə Hacı Abdullaymış.

Qəzadan qaçmaq olmaz! Hacı Abdullanın arvadları bir gün kişi səfərdə olanda gedirlər hamama. Çimirlər, çıxırlar bayıra. Pal-paltarlarını, boğçalarını hamamçıdan alıb başlayırlar geyinməyə. Bir də görürlər ki, cavan, gözəl-göyçək bir gəlin bunlara tamaşa eləyir. Utanırlar, axı üst-başları təhərində deyildi. Qısılırlar ki, bu cavan gəlin yəqin bizim təmiz də olsa, paltarımızın yamağını sayır.

Cavanəzən bunlar geyinhageyində yannayır bunları, soruşur:

— A bacılar, kimsiz, nəkarasız? Məni yetiklik öldürdü. Bacısız — oxşamırsız. Yox, günüsüz — o da deyil! Axı bu məhəbbətdə, bu dostluqda günü olmaz.

Arvadların böyüyü cavab verir:

— İkinci sözün düzdü, bacı, biz günüyük, amma qara gün bizi barışdırıb. Dərd-qəm bizi bir-birimizə bacı eləyib.

Cavanəzən soruşur:

— Axı nədi dərdiniz, yoxsa sahibiniz — əriniz ölüb?

— Dünən öləydi, sabah üçünü verəydik! Hardaydı bizdə o bəxt? — deyirlər. — Bir zalım xəsisin əlində əsir-yesirik.

Arvadlar başlarına gələn qəziyyəni cəvanəzənə danınşırlar, deyirlər ki, «xalça-palaz toxutmaq eşqiynən kişi zalım talaq istəyəndə talağımızı da vermir, kəbinimiz halal —

canımız azad deyirik; onu da qəbul eləmir. Bizi bir gün ac, bir gün yalavac allah öyünə saxlayır».

— Bu tanrı zalımı kimdi, ay bəxti qara bacılarım?

— Hacı Abdulladı, — deyirlər, — getdiyi həcc onun belindən vursun.

Cavanəzən bir az fikirləşir, gülümsəyir, deyir:

— Bacılar, məni də üstünüzə alın! Sizi qurtarım bu bəladan.

Deyirlər:

— Nə danışdığındı, ay yazıq? Biz öz gözümüznən görə-görə səni də yanar oda salaq? Heç elə şey olar? Sən bir nəcib gəlinsən, hayıfsan, canına yazığın gəlsin.

Cavanəzən deyir:

— Bacılarım, siz məni tanımırsız, siz mən deyəni eləyin, dalını özünüz görəcəksiniz.

Gəlin o ki var arvadların dərsini verir. Onlara qoşulub gəlir Hacı Abdullanın evinə. Axşam ötüşür, sabah olur, gəlin görür ki, ev-eşik səliqə-sahmanda, tər-təmiz olsa da, amma hər yerdən aclıq kəsafətinin iyi gəlir. Bu birisi gün kişi səfərdən qayıdır, görür: bu nədi? Endə arvadların sayı artıb, özü də birisi üzünü ondan yaşındırır, yaşmaqlanıb yaman. Soruşur:

— Bu kimdi? Kimin külfətidi? Burda nə gəzir? Niyə mənsiz onu evə qoymusuz?

Böyük arvad cavab verir:

— Əyşi, — deyir, — bu, cavan, gözəl bir arvaddı. Hamamda bizə irast oldu. Biləndə ki sənin arvadlarınıq, dedi: «Mənim Hacıda çoxdan gözüm var, məni ona alın, allahın əmri, peyğəmbərin şəriətiynən». Kişi, özü də elə gözəl naxışlar vurur xalıya, beləsini heç kim görmüyüb.

Kişinin gözləri parıldasa da deyir: .

— Çörəyinizi artırmayacam ha!... Öz payınızdan verəcəksiz...

Arvad cavanəzənin öyrətdiyi qaydada deyir:

— Hə razıyıq...

— O da razıdı?

Gəlin yaşmaq altından başını tərpədir ki, razıyam...

Kişi deyir:

— Paltar da almıyacam ha!.. Açın qulağınızı, eşidin!

Arvadlar birağızdan deyirlər:

— Qorxma, əyşi, özünün bir sandıq elə paltarları var ki, qız nəvəsinə də bəs elər, hələ desən bizə də pay çatar.

— Asta yeyin — boğazınızda qalar! Pal-paltarıynan nə işiniz var? Ər mənəm, mən billəm. Göz olun ki, yaxşı toxusun, fikrini saqqız çeynəməyə, çənə vurmağa verməsin.

Arvadlar birağızdan deyirlər:

— Arxayın ol, əyşi, biz özümüz özmüzün düşmanı deyilik ki?

— Özü də razıdı?

Cavanəzən başıynan yenə də razılığını bildirir.

Kişinin çiçəyi çırtlayır, bəs necə, hazır cavan arvad, özü yaxşı xalı toxuyan, özünün varı-dövləti, həm də az yeyən... Bu lap yağ-bal oldu ki?! Amma Hacı Abdulla özünü o yerə qoymur, sevincini bildirmir, deyir:

— Yaxşı, indi ki razıdı, sabah özüm gedib kəbinini qazıya kəsdirrəm.

Böyük arvad deyir:

— Kişi, bu günün işini niyə sabaha qoyursan? Hazırca dur get, qonşumuz Molla Heydərin yanına. Siğəsini oxut, qurtarsın getsin, Qazıdan da az pul alaçaq səndən. Özü də çək-çevirə salmayacaq. Hacı kişisən, naməhrəm zənənnən bir dam altda qalma!

Hacı Abdulla görür ki, arvad çox ağlabatan söz deyir. Durur gedir Molla Heydərin yanına. Gəlinin siğəsini özünə oxutdurub qayıdır gəlir. Görür ki, gəlin başını açıb evdə arvadlara böyüklük eləyir: «Çox yeməyin, dağıtmayın, vurmayın, yıxmayın, cırmayın». Hacının üzü gülür, ürəyi yuxalır, elə ki, cavanəzinin üzünü görür, lap imanı əldən verir.

Səhər olur, köhnə arvadlar sübhün gözü açılmamış, əvvəlki qaydalarıynan yerlərindən dururlar. Xəkə-küllədən manqalı qızardırlar. Samovara od salırlar. Kimi həyət bacanı süpürür, kimi çörək bişirir, kimi Hacının qənşərində oturur. Hamısı ürəyinin içində gözləyir ki, görsünlər nə olacaq? Hacı yuxudan necə duracaq? Kimin dədəsinə, kimin nənəsinə, kimin imanına söyəcək? Heç nə bəyənməyəcək. Kimə qapaz, kimə yumruq, kimə dürtmə, kimə təpik ilişdirəcək? Allah bəlasını vermiş, bundan sonra çayını içib, çörəyini yeyib, çıxıb dükanına gedəcək. Yazıq arvadlar əsim-əsim əsə-əsə işin dalısını gözləyirdilər ki, bir də gördülər cavan gəlin səkinin üstə çıxıb əlini belinə vurdu, həyətə bir hay saldı:

— Ay qız Səlimə, Rübeydə, Həlimə, Tamam, Yetər, Sənəm, ay qırılmışlar hardasız? Hacının əlinin suyunu niyə hazır qoymamısız? Bilmirsiz kişi indi dəstəmaza duracaq?

Yazıq arvadların ürəyinə qorxu çökdü: «Ay gözəgörünməz tanrı! Dərdimiz az idi, biri də üstə gəldi? Deyəsən, bu ondan əzazil olacaq axı!»

Amma cavanəzənin üzünə baxanda başa düşdülər ki, gəlin qəsdən belə eləyir. Gülümsəyib onlara göz vurmasından qırımını, gələyini annadılar.

Hərə bir işə cumdu. Biri aftafaya ilıq su doldurdu, o biri lüleyini hazırladı. İkinci dəsmal gətirdi — əl-üz silməyə. O biri ətirli sabun verdi. Hacı gördü yox... Bu xına o xınadan deyil!.. Təzə arvad o biriləri əməllicə alazlayıb işlədir. Ürəyi bir az da toxtaq tapdı. Əl-üzünü yudu, dəstəmazını aldı, namazını qıldı. Manqal qırağında, maşa üstündə qızdırılmış əppəyini yedi. Sinə yumşaldan sələb içdi. Bir parça sinə aşılayan ağ çuğundurun təndirdə bişirilmiş parçasını yedi, bığlarını eşəndə gördü arvadlar boş-bikar əl-əl üstə durub təzə arvadın əmrini gözləyirlər. Cavan gəlin də bunu görçək çır-çır çığırdı:

— Nə durub kişiyə marıtmısız, adam çörək yeməyini görməmisiz? Çəkilin, itin gedin işinizə! Bu gün xalçanı çevirək

gərək. Əlli tərpənin! Sonra da kişiyə tərəf dönüb naz-qəmzəylə pıçıldadı:

— Fağır kişi, sən bu tənbəlləri necə yola vermisən? Yedikləri haramdı, haram!

Kişi bir az da qürrələndi:.

— Eşitdiz ki! Hamınız ona qurban olasız, di rədd olun işinizə!

Hacı day ürəyində lap arxayın oldu ki, təzə arvad köhnələrin üstündə əməlli-başlı göz olacaq. Kişi evdən getdi, bir az sonra dükan şəyirdiynən bir girvənkə[1] ət alıb göndərdi evə. Arvadlar şəyirddən soruşdular:

— Hacı demədi nə bişəcək?

Uşaq «yox» deyib qaçdı getdi, Böyük arvad dedi:

— Həmişə belədi. Nə bişirsək axşam deyəcək: bəlkə mən bunu istəmirdim? Günümü qara eləyəcək. Bəhanə tapıb döyəcək.

Cavan gəlin dedi:

— İşiniz olmasın! Siz adam tapın göndərin, bax bu pula bir az da ət aldırın. Axşam Hacının ağzını boza vermək mənim boynuma.

Qərəz axşam oldu. Hacı gəldi çıxdı. Gördü: bəli, süfrə hazırdı, özü də bozbaş üçün hazırlanıb. Əl suyu verdilər, əlini yudu. Təzə arvad süfrənin başında, Hacının böyründə əyləşmişdi. O birilər də yanda ayaq üstə durub əmr gözləyirdilər. Bəli, kasa gəldi Hacının qabağına. Əla, yağlı bozbaş, Hacı əvvəlki adətiynən dedi:

— Bəlkə mən bozbaş istəmiyəcəkdim? Dolma istəyəcəkdim. Təzə arvad cəld kasanı arvadlardan birinə verdi:

— Həlimə, ölmüsən? Tez dolmanı bəri elə.

Dolma gəldi, Hacı yenə bağırdı:

— Bəlkə mən qovurma istəyəcəkdim?

---

[1] Дөрд јүз әлли грам.

— Ay qız, Səlimə, qovurmanı bəri elə, kişi acdı, gözlətmə!

Bəli dolma getdi, qovurma gəldi. Hacı təəccübləndi, amma yenə də dedi:

— Bəlkə mən kələm dolması istəyirdim?

— Qız, Tamam, kələm dolmasını bəri elə, kişinin ürəyi keçdi acından.

Qovurma getdi, kələm dolması gəldi. Hacının təəccübdən gözləri kəlləsinə çıxdı, amma genə də özünü o yerə qoymadı, qışqırdı:

— Bəlkə meylim əcəbsəndəl istəyəcəkdi?

— Zübeydə, ciyərin yanmasın, sənin! Kişini öldürəcəksiniz acından? Əcəbsəndəli bəri elə!

Kişi hər sözünün qabağına söz tapıldığından özündən çıxmışdı. Arvadları döyməyə bəhanə axtarıb tapa bilmirdi. Elə Zübeydənin əlində əcəbsəndəli görən kimi qışqırdı:

— Bəlkə mənim meylim təzək istəyəcək-di?

Cavan arvad cəld palazın qırağını qaldırdı, altına qoyduğu bir parça təzəyi göstərdi:

— Dərd eləmə, dərdin qaragülüyə, ay kişi, onun da qaydına qalmışam.

Kişini gülmək tutdu. Arvadları da gülürdü. Cavan gəlin onlara acıqlandı:

—Di sürükün burdan, qoyun, kişi rahat çörəyini yesin! Ac pişik kimi marıtdamayın. İştahı küsər.

Hacı Abdulla gördü ki, arvad deyil, xəzinə tapıb. İştahla xörəklərdən yedi yatdı. Səhər oldu. Kişi çay-çörəyini yeyib dükana yollanmağa hazırlaşdı. O biri arvadlar gözə görünmürdü. Təzə ilə məzələşə-məzələşə elə həyətdən çıxmaq istəyirdi ki, cavanəzən onu səslədi:

— Əyşi, Hacı, bəri dur. Sən olasan o qürbətdə qırılanlarının goru, al bu pulu, bizə bir tay kök al hambalnan göndər. Bunlara mən ət yetirə bilmərəm, bişmiş yetirə bilmrəm. Eləcə hananın

qənşərnndə oturarlar, hazırca kökdən xartdadarlar, qurtarar gedir. Nə xörəyə pul gedər, nə də bişirməyə vaxt. Axşam azanına, sən gələnə bozbaşını özüm bişirrəm.

Hacı Abdullanın sevindiyindən nəfəsi tutuldu: «Bərəkallah, arvad bax, belə olar. Yetirib allah mənimkini!»

Kişinin gözləri pul görəndə pişik gözü kimi parıldadı, aldı, öpüb gözünün üstünə qoydu:

— Baş üstə, can üstə! —deyib bazara yollandı. Aradı-axtardı, bazarda lap xırda, ələzimiş, çəpişyeməz kök tapdı, az qalmışdı yiyəsi müştəri tapmadığından hambala iki şahı verib apartdırıb küllüyə tullatdırsın. Elə Hacını tanrı özü ona yetirdi. Lap heç qiymətinə bir tay gərəkməz kökü aldı, hambala verməyə pula qıymadı. Özciyəzi mal sahibinin köməyinən arxasına yüklədi, gəldi evə.

Darvazadan girəndə cavan arvad onu vaxseylə qarşıladı:

— Bıy başıma xeyir, kişi öldüyün gündü, allah bu fərsizləri öldürsün! Kişi, qan-tər içindəsən ki! Kişi, hambal tapmamısan yovuz?! Neynək, neynək, gətir bura, yox bura... yox ora... əyşi, day keçib, zəhmət də olsa, bax, gətir, o hovuzun qırağına, qoy birbaşa tökək hovuza. Bu avaralar yuyub boğmalansınlar.

Gəlin bunu deyə-deyə kişini yük altında xeyli həyətdə dolandırdı. Arvadlar da içəridən gülə-gülə bu tamaşaya baxıb ləzzət alırdılar Özü də gəlin onların dərsini vermişdi. Neyləyəcəklərini yaxşı bilirdilər. Elə kişi kök çuvalını hovuzun qırağına qoyanda hamısı yaxınlaşdı. Birdən hopp eləyib kişini çuval qarışıq saldılar hovuza. Hovuz xeyli dərin idi. Gəlin nənəvay deyə-deyə kişini çıxartmaq üçün gah bu, gah da o biri əlini uzadır, arabir günülərinə qarğış eləyir, elə çıxaçıxda kişini yenə sürüşdürüb hovuza salırdı. Beləcənə kişinin qarnı o ki vardı suynan doldu. Şişib dəli arvadın nehrə tuluğuna döndü. Qərəz arvadlar köməkləşib kişini gətirdilər yıxdılar yatağa, kişi ufuldadıqca cavan arvad onun qarnını sığallayırdı, su ağzından, burnundan süzüldükcə qarnının kopü yatırdı, birdən təzə arvad

bir vay elədi, bir vay elədi ki, kişinin zəhri yarıldı. Qorxmuş gözləriynən soruşdu:

— Nə oldu, ay arvad?

Arvad çimçəşə-çimçəşə günülərinin ətək altda gətirib bura, kişinin böyrünə qoyduqları, hələ gözləri açılmamış küçüyü qalxızdı, kişiyə göstərib dedi:

— Evin yıxılsın, qarnından küçük çıxdı. Bu nə işdi?

Kişi dedi:

— Arvad, elə şey olmaz, məni qadaya, qəhərə salmayın.

— Əyşi, ay yazıq kişi, biz nöşün salırıq səni qəhərə? Sənə allahın qəzəbi gəlib, küçük doğmusan.

Qərəz Hacı Abdulla özünə gələndən sonra ayağa durdu, dedi:

— Arvad, bu xəbər bazar camaatına çatsa, mən bu yerlərdə qala bilmərəm. Dilinizi dişinizin dalında məhkəm saxlayın, yoxsa ərsiz qalarsız.

— O nə sözdü, əyşi? Biz özümüzə düşmən-zad deyilik ki!

Sabah oldu, kişi yerindən durdu. Həmişəki qaydaynan bazara yollandı. Arvadlar da quzuya dönmüşdü, kişi də onlara bir söz demirdi. Elə bazara çataçatda birdən kim idisə bərkdən bağırdı:

— Ay camaat! Deyirlər Hacı Abdulla it küçüyü doğub.

Kişi bazar ağzındanca qayıtdı. Gəldi evə. Bir az azuqə-dən, puldan götürdü, evi kiçik arvada tapşırıb dedi:

— Mən day bu bazarda dolana bilmərəm. Mən getdim. Bu ev, bu da siz, dolanın! Gözün o birilərin də üstündə olsun. Sənə arxayın gedirəm. Haçan bu söz, bu macəra yaddan çıxdı, inşallah onda qayıdaram.

Kişi getdi, o gedən oldu. Arvadlar şad-xürrəm, qulağı dinc yaşamağa başladılar. Bir atanın, bir ananın evladı, yeddi yetim bacı kimi. Axı onların heç birinin ata-anası, qohum-əqrəbası yox idi. Hacı belələrini qəsdən seçib almışdı. Xalı-xalçalarını toxuyurdular, dəllala verib satdırırdılar,

dolanırdılar. Bir parça halal əl rənciynən qazandıqları çörəyi rahat, dinc qulaqnan yeyirdilər.

Aylar ötdü, illər keçdi, qərib ölkələrdə ticarət eləyib dolanan Hacı Abdulla qocaldı, bir gün öz-özünə dedi:

— Axı mənim şəhərimdə evim var, mal-madarım var, yeddi arvadım var. Haçanacan bu qərib ölkələrdə gözləyəcəyəm?! Qayıdım gedim yurduma. Yəqin o söz-söhbət bazar əhlinin yadından çıxmış olar.

Hacı Abdulla bu fikirnən də doğma şəhərinə qayıtdı. Bazar başında iki cavan kişinin savaşdığını gördü, yaxınlaşdı. Kişilər əlbəttə onu tanımadılar, qocalmışdı. Hacı soruşdu:

— Qardaşlar, neyçün savaşırsız? Bəlkə davanızı mən kəsəm?

Savaşanların biri dedi:

— Baba, o bir olan allaha and olsun, simic Hacı Abdulla it küçüyü doğan ili, bu kişi məndən əlli manat borc alıb. Gör neçə il keçib, ha deyirəm vermir.

Bu sözü eşidəndə az qaldı Hacı Abdullanın ürəyi getsin. Day bazarada girmədi, elə ordanca çıxıb getdi. Elə o gedən oldu, bir də qayıtmadı. Bildi ki, yaman ad ölən günəcən qalar, yaxşı gündə də yaddan çıxmaz, yaman gündə də. Odu ki, çalış, dünyada yaxşı ad qoy, yaman örnək olma insanlara.

KİM GÜCLÜDÜR

Şah Abbasın cavan vaxtı idi. Qılıncının dalı da kəsirdi, qabağı da. Bir gün İsfahan şəhərində taxtı, altında, tacı başında əyləşmişdi. Birdən Nubiyalı qul içəri girib xəbər verdi:

— Qibleyi-aləm, Firəngistandan bir alim gəlib. Sənin alimlərinnən görüşmək, danışmaq istəyir.

Şah buyurdu:

— Çağır gəlsin.

Bəli, bir qapıdan vəzir Allahverdi xan, o biri qapıdan firəng alimi öz dəstəsiynən daxil oldu. Şahın qulluğunda baş əydi, yer öpdü, göstərilən mövqedə əyləşdi. Şah hal-əhvaldan sonra firəng alimindən soruşdu ki:

— Bəs bizim ölkəyə gəlməkdən məqsədin nədi?

Elçi alim təzədən yerindən durdu, qurşağından bürməli bir tuğra çıxartdı, dizin-dizin sürünüb padşahın qənşərinə gəldi. İki əlinin üstündə naməni padşaha təqdim elədi. Vəzir Allahverdi xan naməni elçi-alimin əlinin üstündən götürdü. Hökmdarın izniylə möhürünü qırdı və oxudu. Gördülər ki, firəng padşahı yazır:

«Ey padşah, bizim ölkənin qiymətli alimini sənin ölkənin alimlərinin qulluğuna göndərirəm. Onun verdiyi suallara, sizin alimlər cavab verdi-verdi, vermədi, davaya hazır ol! Vaxtına müntəzir ol! Gəlirəm üstünə!».

Şah Abbas əmr elədi. İsfahan şəhərində nə ki alim-üləma var idi, hamısını yığdılar saraya. Yuxarı başdan taxt quruldu. Padşah, yanında vəzir-vəkil əyləşdi.

Meydan açıldı. Firəng alimi ortalığa çıxıb padşahın izniynən sözə başladı, dedi:

— Sizə, möhtərəm alimlər, üç sualım var:

1. Dünyada hər şeydən yüyrək nədi?
2. Bütün canlılardan ən qüvvətlisi hansıdı?
3. Dünyada ən şirin şey nədi?

Bunu deyib firəng alimi keçib yerində oturdu. Gözləməyə başladı. Amma İsfahan üləmasından səs çıxmadı. Hamının əli üzündə, mat-məəttəl qalmışdılar. İşi belə görən padşah işin içindən çıxmaq rüsvay olmamaq üçün üzünü vəzir Allahverdi xana tutdu, dedi:

— Vəzir, qonaqları apartdır, irahat elə. Qoy bir qədər qonağımız olsunlar. Ölkəmizin görməlisin görsünlər, yeməlisindən yesinlər. Sonra bir gün də yığıllıq, bizimkilərin cavabını eşidərik. Bu gün, onların sualını eşidən kimi.

Vəzir Allahverdi xan əlini əlinə çaldı. Nubiyalı nökər gəldi, qonaqları götürüb apardı. Onlar gedəndən sonra şah Abbas sualların cavabını tapmadıqları üçün dişinin dibindən çıxanı üləmaya dedi. Sonra da hirslə üzünü vəzirə tutdu:

— Vəzir, — dedi, — qırx gün sizə möhlət verirəm. Olarlı, sənli axtarıb sualların cavabını tapın. Mən firənglərin dava-şavasından qorxmuram. Amma istəmirəm desinlər ki, şah Abbas kimi bir padşahın alimləri bizim suallara cavab verə bilmədi. Bax, qırx günəcən sualların cavabını tapdız-tapmısız, tapmasaz — özünüzdən, bəxtinizdən küsün. İsfahanın qırx aliminin boynunu vurdurub kəllədən minarə düzəltdirəcəyəm. Ən başda da, vəzir, sənin kəlləni qoyduracağam. Di sürüşün, gedii buradan!

Bəli, alimlər can qorxusuynan kitablara, dəftərlərə baxmaqda olsun, sənə kimdən deyim, kimdən danışım? Vəzir Allahverdi xandan. Bəli, vəzir çəkdi çarıqların dabanını, qırdı yerin damarını. Kəndbəkənd gəzib müdrik qocalardan, dünyagörmüş ağsaqqallardan sual soruşdu. Biri şir güclüdü, fil güclüdür dedi. O biri bal şirindi, şəkər şirindi dedi. Olmadı. Axı vəzir bilirdi ki, belə cavablar firəng alimlərini razı salmayacaq. Beləliklə, vəzir otuz doqquz gün gəzdi, bir əməlli şey tapmadı. Qırxıncı gün güzarı bir kəndin qırağında alaçığa düşdü. Fikirləşdi ki, qonaq saxlasalar burda gecəni qallam, səhər onsuz da boynum vurulasıdı. Elə qara keçənin qənşərinə çatacaqdı, qabağına 17—18 yaşlı gözəl bir qız çıxdı, gülərüzlə vəzirə salam verdi:

— Xoş gəlmisən, — dedi —əmican, buyur qonağımız ol, görürəm ki, uzaq yoldan gəlirsən, dincini al, qayğılı görünürsən.

Qızın xoş rəftarı vəzirin ürəyinə yatdısa da təkliyi onu tutmadı. Soruşdu:

— Qızım, atan hardadı bəs?

— Dostu düşmən eləməyə gedib.

—Bəs anan hanı?
— Biri iki eləməyə gedib.
— Sən özün neynirsəi, qızım?
— İkini bir eləyirəm.

Vəzir heyrətdə qaldı. Yorğun gözlərindəki dərin bir maraqla qıza baxdı: «Deyəsən, axtardığımı tapmışam? Deyəsən, dərdimin dərmanı bu qızdı axı» — deyib düşündü. Ucadan isə dedi:

— A qızım, mən tapmaca açmağı bacarmıram. Dediklərini bir aydın başa sal mənə.

Qız ürəyində düşündü: «Tanımışam səni, vəzir, bəs bu ağılla, bu qabiliyyətlə o boyda bir məmləkəti necə dolandırırsan?» Amma qonağın xətrinə dəymək istəmədi. Gülərüzlə, mehmannəvazalıqla, özünü bilməməzliyə vurdu, vəziri tanıdığını bildirmədi, dedi:

— Əmican, burda aydın olmayan nə var ki? Dedin: «Atan hardadı?» Dedim: «Dostu düşmən eləməyə edib». Yəni keçən xırmanda bir dostuna borc vermişdi. İndi gərəydi, istəyəcək— düşmən olacaq. Soruşdun: «Anan hardadı?» Dedim: «Biri iki eləməyə gedib». Bil və agah ol! Anam mənim mamaçadı. Qonşuda hamilə qadın var. Gedib uşağı tutacaq, bir iki olacaq. Soruşdun: «Bəs özün neynirsən?» Gördüyün kimi corab yamayıram. İki corabı kəsib birini düzəldirəm. Vəssalam.

Vəzirin üzü güldü. Ürəyində «hə axtardığımı tapmışam» — dedi.

Bir az sonra qızın atası da, anası da evə qayıtdı. Qız süfrə saldı. Çay-çörəklə kasıbın olduğundan ortaya gətirdi. Yedilər, içdilər. Qız süfrəni yığışdırıb alaçığın aşağı başında, ocaq qırağında əyləşdi. Qab-qacağı yuyub silməklə məşğul oldu. Arvad isə alaçığın o biri küncündə cəhrəsini bulamağa başladı. Ev sahibi vəzirdən soruşdu:

— Qardaş, bir de görüm hardan gəlib hara gedənsən?

Vəzir dedi:

— Allahdan gizli deyil, bəndədən nə gizlin? Bəs hal qəziyyə belə. Firəng padşahı alim göndərib bizdən üç söz soruşur — tapmasaq dava olasıdı.

Qızın anası cəhrənin qulpunu buraxdı:

— Buy, allah iraq eləsin!

Qız isə sildiyi qabı yerə qoyub soruşdu:

— Yaxşı, o nə suallardı, əmican? Bəlkə bizdən bilib-eliyən oldu?!

Vəzirə də elə bu lazım idi. Əlüstü dedi:

— Birinci sual belədi:—Dünyada hər şeydən yüyrək nədi?

Qız düşündü və gülümsəyib cavab verdi:

— Dünyada ən yüyrək şey ürəkdi, ürəkdəki xəyaldı, əmican! Bax, budu oturmusan, ürəyin, xəyalın səni bircə göz qırpımında dünyanın o başına aparır. Elə bil gedib şah məclisini, vəzirin boynunu vurmalı olan cəlladı görürsən.

Bu sözdə vəzir Allahverdi xan əlini boynuna sürtdü. Atası qıza göz ağartdı ki, qonağın xətrinə dəyən söz demə ha!

Vəzir isə gözağartmaya-zada baxası halda deyildi. Ona sualların cavabı lazım idi. Odu ki, tez soruşdu:

— Bəs dünyada ən qüvvətli canlı məxluq hansıdı?

Qız heç düşünmədi, sanki cavabı dünəndən hazır idi, dedi:

— At.

— Niyə ki?

— Bax, evimiz kəidin qırağındadı, meşəyə yaxındı. Böyrümüzdən cavanar da, şir də atılıb keçir, anamın cəhrədaşı tərpənmir. Amma lap birağaclıq yoldan kəndə sarı at çapanda cəhrə daşı lərzə gəlir: ding-ding dingildəyir.

— Yaxşı, bəs dünyada ən şirin şey nədi?

— Ağır zəhmətdən sonrakı yuxu dünyada ən şirin şeydi.

Vəzir daha heç gecəni də burda qala bilmədi. Qıza, ata-anasına çox sağ ol deyib yola düşdü. Səhər o vaxt İsfahana gəlib çıxdı ki, gördü meydan qurulub, Şah Abbas qırmızı geyib

taxta çıxıb. Bir tərəfdə firəng alimi dayanıb, o biri tərəfdə İsfahan alimləri boyun-boyuna durublar. Şahın sol çiyninin üstündə cəlladbaşı aybaltasını hazırlayıb.

Vəzir meydana çıxıb sağ əlini yuxarı qaldırdı.

— Şahım aman!

— Amandasan, vəzir!

Vəzir Allahverdi xan aman alan kimi, sualların cavabını firəng aliminə söylədi. Hamı cavabdan razı qaldı. Dağılıb ev-eşiyinə getdi. Firəng alimi də vətəninə qayıtdı. Daha heç bir dava-şava da olmadı.

SALATIN ANA

Bax, bu danışdığım olan söhbətdi, nağıl-mağıl deyil. Özü də o vaxtlar nəinki siz ha, heç bəlkə mənim anam da anadan olmamışdı. Deyirlər kəndimizdə Salatın adında çox gözəl-göyçək bir arvad varmış. Qız vaxtı elə yaraşıqlıymış ki, səsi-sorağı bütün mahala yayılıbmış. Təkcə kişilər yox ha, onu görən arvadlar da deyərmiş: «Ay allah, qüdrət qələmin coşa gələndə xəlq elədiyi bu soyu gözəl», xoyu gözəl qızı mənə qismət elə, ocağıma gəlin gəlsin, çırağıxmı o yandırsın».

Qızın qıt vaxtında Salatın gözəli götürüb qaçmaq üstündə yeddi dəvənin siyiri vurulubmuş, yeddi igid qan-qadaya çıxıbmış. Amma qismət olmuyubmuş.

— Ay nənə, qız niyə qıt idi onda?

— Sözümü kəsmə, şirin meyvəm! O vaxtlar hər kişinin 3—4 arvad almaq ixtiyarı varmış. Bax, qız da ona görə qıtıymış. Hə, sözüm nədə qaldı? Dedim Salatın gözəli almaq üstə cəngi-məğlubə olurmuş. Qərəz, qızın tayfası çox igidmiş. Atası, qardaşları qoçaqmış, Koroğlu soyluymuş. Xana-bəyə «ləbbeyk» deyənlərdən deyilmiş. Salatın gözəli nə xan oğluna, nə bəy oğluna, nə də ağa-qazı oğluna vermiyiblərmiş. Seçib sonalayıb

kəndin sözü ötən, qulluğu bitən külfətlərindən birinin halalsüdəmmiş, boylu-buxunlu, əli iş, ayağı gümüş kəsən bir oğlana veriblərmiş Salatını. Salatının bəxti alnı kimi ağ deyilmiş. Toyundan üç il keçmiş xudavəndi-kərim ona buz baltası kimi iki oğul verib sevindirəndən sonra, tayfa davası düşür, bilmirəm, yer üstə, su üstə, örüş üstə nə baş verir, Zülmlü fələk bircə gecənin içində atasını da, qoşa çinar qardaşını da, gülərüz-şirin söz ərciyəzini də əlindən alır. Bir gündə Salatının qapısında dörd mafə qoyulur. Dörd ehsan qazanı asılır, qarşı təpədəki qəbiristanda dörd təzə qəbir yan-yana qazılır. Salatının ürəyinə dörd yara birdən vurulur. Qırx gün, qırx gecə gözünün yaşı qurumur. Gül yanaqlarının qanı qaysaq bağlaya bilmir. Dırnaq-dırnaq üstən çalır üzünə. Ağını-ağıya qoşur. Qırx gün ötəndən sonra qurşağın çəkib bərk bağlayır, əyri çalmasını düz vurur, bu qırx gündə dən düşmüş burma bircəklərini dingənin altına yığır. Elin hampa kişiləriynən boyunduruq yoldaşı olur. Su vaxtı həngamə girir, dəyirmana dən gedəndə qollaşıb ulağa tay yükləyir. Biçin vaxtı vəri hamıdan qabaq başa vurur, biçdiyi bafalar, bağladığı dərzlər igidlərinkindan geri qalmır. Elə bu vaxt mahalın tanınmış bəylərindən, hampalarından ona elçi düşür: heç kəs man eləmir. «Əri ölən ərə gedər, arvadı ölən arvad alar» deyirlər. Amma Salatın arvad heç kəsə qulaq vermir. «Düşmənli olarsan» deyənə:«Bəzirgan deyiləm bac alarlar, qannı deyiləm əg alarlar — deyir. İki oğlum var: biri qardaşım, biri ərim! Əri neynirəm? Kişi qızı ömründə bir dəfə ərə gedər. Bir dəfə də kora».

Amma gizlincə onun qulağına çatdırırlar ki, «A bədbəxt, elə ötən qırğını da səni almaq istəyəi Alxas bəy düzəldib, onun qurğusuymuş. Qız vaxtı getmədin, elənçik bəla donu biçdilər. İndi də getməzsən iraq-iraq oğlanlarına sədəmə toxundurar».

Ər ürəkli mərd Salatın buna qulaq vermir. Ürəyi uçum-uçum uçunsa da, üzdə özünü o yerə qoymur. Böyük oğlun sol

cınağından, kiçik oğlun sağ cınağından ayırmır. Qırt toyuq cücələrinin üstündə sovutqayan təki qanadlarını qabardıb gəzir. Özünə, balalarına mərd meydanında çörək qazanır... Ürəyində Alxas bəyin qarasına qarğayır: «Bir ilahim, onu görüm qabıq qoysun soyulsun. Canına piltə qoyulsun. Yerin yığıb-salan olmasın. Qohum-qardaş ondan qaçaq düşsün. Mən sənə neynəmişəm, ay tanrı zalımı? Niyə qanıma susamısan? Yaradan allah xoş saatda mənə iki göz verib, niyə kor qoymaq istəyirsən məni? Məgər sonra mən gülə billəm? Sənə ər deyə billəm?»

Beləcə günlər keçdi, oğlanlar böyüyüb bir cüt qoşa çinar oldu, saçları ağarsa da üzü təravətdən, şax gövdəsi qüvvətdən qalmayan analarının üstünə kölgə salmağa başladılar. Elə oğullar böyütdü ki, bircə dəfə dilindən «Südüm dustağı olasan, bala!» sözləri çıxmadı. Hər cəhətdən zəhmət oğlu atalarına, ər tinətli analarına oxşadılar. Salatın arvad ömrünün elə çağındaydı ki, əkdiyi ağacın meyvəsini yemək — oğlanlarını evləndirib nənə olmaq istədi. «Dövlətdə— dəvə, övladda— nəvə» deyiblər. Nənələr nəvəni doğma balasından çox istər. Nənəmdən soruşdum:

— Sən də bizi atamızdan çox istəyirsən?

— Əlbət ki, mənim şirin balam, əlbət ki! Axı ata, ananız əkdiyim ağacdı, siz onun «meyvəsi». Heç görmüsüz ağac yeyilə? Meyvəni yeyərlər, mənim balam, meyvəni! Hə, sözüm harda qaldı?

— Salatın arvad nənə olmaq istədi.

— Elədi, mənim balam. Salatın arvad nənə olmaq istədi. Böyük oğlunun sevib-seçdiyi, sonaladığı gözəl qıza nişan taxdı. Xırman sovrulub qurtarandan, qış xumarı quyulara basdırılandan, dəyirmanda üyüdüləndən sonra aşıqlardan beh aldı, gün xoşlatdı, toy başladı. Azdan-çoxdan varıydı, üç cüt əl işləyirdi, bir biçarə ağız yeyirdi. Allı-küllü toy başlandı, tamaşasına oymaq-oymaq el-oba yığışdı. Salatının qapısında şülən qazanları asıldı. Yaba dırnağında üstünə al kəlağayı

çəkilmiş qaramıq gətirildi. Bəy, damda[1] çimib gəldi, duz-üzərlik yandırıldı, tüstüsü bəyə verildi, boynuna al-yaşıl kəlağay sarıldı. Bu vaxt kiçik qardaş çöldən örüşdən əlavə kəsiləsi əyəcləri seçib gətirirdi. Qara fikirli, qurd arxalı Alxas bəyin əlaltıları oğlanı elə kəndin qırağında doğradılar. «Qoy Salatına dağ çəkilsin. Qoy görək toyu necə vaya çevrilir? Qoy görək toy düyüsündən necə ehsan verir» dedi, Alxas bəy zalım. Kiçik oğlanı palaz arasına qoyub obanın aşağı başından Salatın qarageymişin evinə gətirəndə yuxarı başından aşıq dəstəsi zurna-balabanda, kərənayda Koroğlu cəngisi çala-çala obaya girdi, Salatın arvadın evinə vay xəbərilə oğul cənazəsi, aşıq dəstəsindən əvvəl girdi. Ana kəllə qapıdan istəkli ciyərguşəsini evə qoydurdu. Qırx yalquzaq kimi birdən uladı:

Eləmi qanlıları,
Qan tutsun qanlıları,
Qudurmuş it olaydım,
Tutaydım qanlıları — dedi.

Elə bu vaxt kəllə otaqın böyründə duranların içində gözü qanlıya — Alxas bəyə sataşdı. Üzünə dırnaq atacağı yerdə, yerindən qalxdı. Qapıya çıxdı, aşığı saxlayıb qaytarmaq istəyənlərə, bir sərt baxdı ki, heç kim yernidən tərpənmədi. Xəbərdən xəbərsiz aşıq dəstəsi həyətə çatanda şux oyun havasına keçdi. Salatın ana böyük dərdini ürəyinin içinə. soxdu. Qollarını qaldırıb aşıq dəstəsinin qabağına düşdü. Oğul toyunda oynamağa başladı. Hələ qara xəbərdən faciəli ölümdən, ana dərdindən xəbərsizlər anaya şabaş verdilər, alnına pul yapışdırdılar, şırıqqa tutub əl çaldılar. İllər zəhmətiynən oğul böyüdüb birinci dəfə toy tutan kişi tinətln anaya, fərəhnən baxdılar. «Mərhəba qeyrətinə» dedilər.

---

[1] Бурада ат-мал сахланан јер, төвлə.

İçəridə dal otaqda cənazəsi uzadılmış Eyvaz soyda, Eyvaz gözəllikdə bala itirən Salatının parçalanan ürəyindən xəbərdar olan düşmən də titrəmişdi. Alxas bəy ana qeyrətinin, qadın vüqarının, Salatın ürəyinin qabağında əzilmişdi, üsulluca meydandan çəkilib getmişdi. Dərdini bilən elin ağsaqqalları dodaqaltı deyirdilər: «Halal olsun sənə, Salatın! Halal olsun sənə ananın südü, anamız torpağın çörəyi. Eli sənin kimi mərd anaların vüqarı saxlar».

Oğul toyunda qol götürüb oynayan ana, atasız böyütdüyü o biri oğlunun vayını ürəyində tutmuşdu. Toyu da, vayı da bir günə düşmüşdü. Salatının yeddi dünya dərdini tutmaz, yeddi göydən yağış yağsa göz yaşını yuyub qurtara bilməzdi. Salatın təbiətli analarımız əxlaq mücəssəməsi, həya, ismət heykəli, mərdlik və sədaqət rəmzi olub, mənim balalarım! Bu danışdığım nağıl-mağıl deyil, olan söhbətdi.

İKİ ANA

Gülyaz Küdrünün göy düzündən göy yığırdı. Azacıq aralı buludun yaşıllıqlara saldığı kölgə altında qoyduğu südəmər körpəsi yatırdı.

Birdən azacıq aralıdan qopan gurultu Gülyazın nəzərini cəlb etdi. O döndü... Bir sürü ceyran gurultuynan dərədən çıxıb düzənlik boyu Gülyaza tərəf qaçırdı. Lakin sürü başçısı Gülyazı görəndə bir anlığa dayandı və istiqaməti dəyişdi. Gülyazın həssas qəlbindən ana fəğanı qopdu. Ceyranlar onun südəmər balasını tapdalayacaq... körpə dırnaqlar altında didiləcəkdi. O qaçmağa başladı. Lakin dəstə qundağa çatınca nədənsə birdən-birə durdu. Gülyaz bir bala ceyranın büdrəyib üzüqoylu yıxıldığını gördü:

— Ah... deyə fəryad etdi. Ceyranlar yıxılan balanı və yatan qundağı dövrəyə alıb durdular. Lakin Gülyazın

yaxınlaşdığını görüncə ürküb qaçmağa başladılar. Bala ceyran isə qalxa bilmədi. Başını sürünün getdiyi tərəfə çevirdi. Zərif boynunu uzadıb mələdi.

Sürüdən bir ceyran geri qaldı. O da ana idi. O da balasına səs verdi.

Gülyaz bunu görüncə durdu. İndi hər iki körpə ceyranla Gülyazın arasında qalmışdı. Qadın ceyrana acıdığından bir addım da atmır bala ceyran mələyib çağırır, ana ceyran isə insanı görüb yaxınlaşmağa qorxur, lakin gedə-ayrıla da bilmirdi. Yazıq-yazıq mələyirdi.

Bu aralıq bala ceyran daşa dəyib sıyrılan qıçını güclə sürüyə-sürüyə anasına doğru getdi. Ana ceyran ürəklənib yanaşdı və ürkək baxışlarla ətrafını, Gülyazı nəzərdən keçirərək əziz balasını əmizdirməyə başladı.

Gülyaz da körpəsinə yanaşdı. Gözləri ceyranlarda ikən balasını qaldırdı və oyanan körpəsinə süd vermək üçün yaxasını açdı.

Onlar hər ikisi ana idi...

AŞIMIZIN KİŞMİŞİ

Hökmdar zalım olanda əzabı el çəkər, mənim balalarım, dünyada ədalətsiz zalım padşah da, xan da, bəy də çox olub.

Hə... bu indi sizə danışmaq istədiyim hekayəti çox vaxt şah Abbasla bağlayırlar, amma elə deyil. Bu iş bircə onu bilmirəm ki, Mustafa xanın, ya atasının zamanında baş verib. Bir yüz-yüz əlli ilin söhbətidi. Hayıf ki, yazan olmayıb, dürüstü qalardı... Deyir xan vaxtı Şamaxıda hadıynan Budu adında bir ər-arvad varmış. Çox fağır adammışlar. Bir zəlzələ olubmuş o vaxtlarda. Bu iki bədbəxt həmii vaxt uşaqmışlar. Ata-anaları daş altında qalır, qəza onlardan dünyanın bac-xərcini alır, canlarını Əzrayıla, balalarını da qonum-qonşuya tapşırıb köç

karvanını çəkirlər bu dünyadan. Məhəllənin adamları, adlı-sanlı ağsaqqalları uşaqlara göz olurlar. Onlar böyüyüb ərkən vaxtına gələndə qocalardan biri Hadını çağırır yanına. Razılığını alır. Onu Buduya nişanlayır. Sonra ağsaqqal qarasaqqal yığılışır məsləhətə. Deyir o vaxtlar iki cür toy olarmış: bir adət toyu, bir də hümmət toyu. Adəti toyunu, ata elərmiş: öz atalıq borcunu yerinə yetirib oğlunu evləndirərmiş. Bacardığından heyvan kəsərmiş, aşıq çağırarmış, camaat da yığılışıb yeyib-içər, oxuyub-oynayar və cavanlara xeyir-dua verib dağılışarmış öz evinə. Ata-ana da övlad qarşısındakı vəzifələrini: oxutmaq, sənət öyrətmək, toy vurdurub ev-eşik eləyib borcunu yerinə yetirmiş olarmış. Hümmət toyu başqaymış. Kəndin, şəhərdəsə məhəllənin bir fağır, yetim-yesiri olanda, hünərli, sözü ötən kişilərdən biri ona hümmət toyu elərmiş. Yəni toyun bütün xəracatını özü çəkərmiş. Başqa kim nə bacarırsa ev əşyasından, maldan, qoyun-quzudan toy payı verərmişlər. Aşıq gətirdib çaldırar, gəlinin əlini oğlanın — bəyin əlinə verib xeyir-dua verər: «Yurdunuzda qoşa qarıyasız; oğullu-qızlı olasız, elin hümmətini unutmayın, çörəyiniz isti, suyunuz sərin olsun» deyib gedər, iki tavanasıza arxa durub ev-eşik elədiklərindən fərəhlənərmişlər. Bax, Hadıynan Buduya da beləcə hümmət toyu eləyirlər. Cavanlar Qalameydanın qırağındaca özlərinə balaca bir koma tikirlər, orda yaşayırlar. Çox da mehriban, can-dildən bir-birinə bağlı, üzügülər, qaşqabağı həmişə açıq gün keçirirmişlər. Bir-birinə can deyib can eşidirmişlər.

— Hadı!!

— Can, Budu!..

— Çayın soyudu, gəlsənə...

— Dərdin canıma, versən...

Günləri belə keçirmiş. Onlara baxıb qocaların gözü yaşararmış, qarıların köksü qabararmış, cavanların gözü par-par yanırmış.

Hadıynan Budunun heç bir mal-heyvanı yoxuymuş, Budu

varlı evlərində buyuruq quluymuş, nə tapşırarmışlar, onu elərmiş... Çörək desəymişlər—təndir salarmış, qan qırmızılığında qolac-qolac çörəklər bişirərmiş, üzü xaşxaşlı, ətri bihuşedici... Xörək desəymişlər — manqalı qızardarmış, hər biri bir fındıq boyda Şirvan dolması, üzü darçınlı, gülabətirli firni, kəhrəba rəngli, üzü püstə bəzəkli müşrüfü, qozdan, yaraşıqlı sucuq, plovun qırx iki löyününü bişirərmiş ki, yeyən deyərmiş bir də yeyim. Tamaşa eləyən ətrindən doyarmış, pəncə vuran dadından, tamından həzz alarmış... Hadı da buyuruq quluymuş, tavanlı kişilərçin meşəyə gedəndə əlləri mişara, baltaya çevrilərmiş. Gücüynəi ildırım kəsməyən ağacı kökündən çıxardarmış. Hər qıranda beş arabanın yükünü şələləyərmiş dalına. Ova getsəymiş ağasıynan yarı gətirərmiş əlikdən, cüyürdən, kəklikdən, turacdan... Hər axşam azanından sonra evlərinə qayıdarmışlar çiyin-çiyinə. Hadı günəmuzd aldığını heybəsinə yığıb çiyninə aşırarmış. Budu günəmuzd qazandığını düyünçəsinə bağlıyıb biləyinə keçirərmiş...

Beləcə çiyin-çiyinə Qalameydandakı komalarına dönərmişlər. Yol uzunu danışarmışlar:

— Hadı!..

— Can, Budu...

— Acmamısan?..

— Səni gördüm yadımdan çıxdı...

— Dərdin mənə gəlsin...

— Səndən uzaq olsun...

Bir cüt qumru, bir cüt göy göyərçin kimi yavaş-yavaş, həlim-həlim quğuldaşarmışlar... Elə saf, elə təmiz, elə də yumşaq ürəkləri varmış ki, bir qarışqanı da incitməzmişlər... yollarının üstünə bir böcək çıxsa hərlənib keçərmişlər, ağlayan uşaqla ağlayar, oynayanla gülümsərmişlər...

Ay ötür; il dolanır, yaradan tanrı onlara bir qız payı verir, göz muncuğu kimi... Nəfəsi səhərin həzin mehi, gözlə-ri sübhün parlaq şehi, saçları Qarasugölün qarğısı, əlləri qu

döşünün pərğusu... yanaqları küz alması, dodağının hər biri bir qaysı... Qız demə, közərmiş köz de, deyən dilinə qurban, ondan da artıqmış... Hər gün körpəciyi evdə qoyub, işlərinə-güclərinə gedərmişlər. Qonum-qonşu qızcığaza göz olarmış. İşləyib yığdıqlarını gətirərmişlər. Budu—dadlı ləzzətli aş bişirərmiş, Lahıc aşı mis siniyə çəkərmiş. Üçü də sininin dövrəsində bardaş qurub oturarmışlar. Yeyərmişlər, içərmişlər, sonra da sinini üz üstə çevirərmişlər. Budu ətəkliyini sininin üstünə salarmış. Qızının xırdaca başmaqlarının topuğuyla çıqqada-çıqqo havası çalarmış, ata əl vurarmış. Qızcığaz ortaya düşüb süzərmiş. Ataynan ana da səs-səsə verib oxuyarmışlar:

— Aşımızın kişmişi.

— Aşımızın qaysısı...

Mahnıları da özləri kimi sadə, saf olarmış...

Deyir bizim o vaxtkı xan da Harunərrəşidnən Şah Abbasın yerişini yeriyərmiş. Hər axşam olmasa da, hərdənbir təğyiri-libas olarmış. Məhəllə-məhəllə, küçəbəküçə, evbəev gəzərmiş, qulaq verərmiş, görsün kim onun qəsdinə nə danışır, kim onun barəsində nə söyləyir, nə iş tutur? Səhərisi günü yaman deyənin dili çıxarılarmış, görüm deyənin gözu...

Bir gün qəzadan xanın yolu azır, gəlir çıxır Qalameydanında Hadıynan Budunun küçəsinə. Görür vallah içəridə bir vur çatdasındı ki, gəl görəsən. Heç xanın da, bəyin də, lap istəsən şahın da sarayında bu xoşbəxtlik, bu dəm-dəsgah, bu can-qadanalım, bu toy-bayram yoxdu. Bu ağız ləzzətinə xanın dalağı sancır. Qapını döyür, salam-əleykdən sonra içəri girir, allah qonağıyam, yadam, qəribəm deyib yer istəyir. Verirlər. Yemək meyli olur. Xörəyini çəkirlər, gətirirlər. Uşağın oynamağına baxmaq istəyir, mis sinini çevirib başmaq topuğuynan çalırlar. Hadıynan Budu, lap elə balaca qız da, qonaqdan utansalar da, bir arzusunu yerdə qoymurlar, bir xahişini ötürmürlər, bir istəyindən keçmirlər. Xan düşünür ki, «heç Harun da o dövlətiynən belə kef

çəkməyib». Hadıdan işini-gücünü soruşur. Hadı da olanı deyir. Xan soruşur:

— Birdən xan sabah nökər, qulluqçu saxlamağı adamlara qadağan elədi, onda neynərsən?

— Qardaş, allah kərimdi, sınsın iki əl ki, bir başı saxlamaya, şil olsun iki əl ki, bir ağızı doyura bilməyə... Nə qədər canımda can var, baş yoldaşımın çörəyi, qızımın xörəyi əskilməz... İşində ol.

Xan gecəni yatır, səhər tezdən özünü sarayına çatdırıb əmr verir ki, bu gündən etibarən bir evdə nökər-qulluqçu, günəmuzd işçi olsa, o evin əhli qılıncdan keçəcək, ev də dibindən, özülündən uçurulacaq. Hadı və Budu həmin gün iş tapmayıb kor-peşman qalırlar. Hadı Buduya deyir:

— Budu!

— Can, Hadı!!

Canının sadağası özüm ollam. Sən get evə qızın yanına. Mən bir-iki saata qayıdıram. Bazarlıq eləyib gəlirəm.

— Hadı!..

— Can, Budu...

— Allah uğuruna xeyir gətirsin...

— Ağzın həmişə xeyirə açılsın...

Hadı özünü meşəyə verir, bir bağarası odun qırır, cavana dəymir, güclünü endirmir, qocalıb-qartımış, ildırım vurmuş, küləkdən yıxılmış nə rastına düşürsə toplayıb bazara gətirir. Satır. Puluna düyüdən, ətdən nə lazımsa alıb külfətinə çatdırır. Arvadıyla qızı onu komanın qənşərində qarşılayırlar:

— Hadı!

— Can, Budu...

— Gəldii?...

— Gəldim də, gətirdim də...

Budu kişmişli-qaysılı aş bişirir, siniyə çəkir, ortalığa gətirir. Yeyirlər, içirlər, mis sinini üzüqoylu çevirib ətəkliyi üstünə atırlar, balaca dikdaban başmağı əllərinə alıb çalırlar.

— Aşımızın kişmişi...

— Aşımızın qaysısı.

«Aşımızın kişmişi» oynamağa başlayır, məhəllə ağsaqqalları sevinir ki, Hadıynai Buduya bugünkü fərmanın zərəri dəyməyib. Bir parça çörəkləri, xörəkləri var.

Xanın isə kürkünə birə dolubmuş, qaş qaralan kimi özünü Qalameydan məhəlləsinə çatdırır, komaya çatmamış ev yiyələrinin şırıqqasını, sadə mahnısını qulağı alır.

— Sübhanallah, bu nə işidi? — deyə qapını açıb içəri girir. Mahnı yarımçıq kəsilir, qız dayanır... Xan günahkarmış kimi dillənir:

— Siz allah, məni bağışlayın! Dünən dilimdən bir söz çıxdı, bu gün meydanda carçının çəkdiyi carı eşitdim, elə pərt oldum ki!

Hadı deyir:

— İşində ol, qardaş! Sən neynəyəsən. İşdi olub. Xandı deyib. Neynəmək olar?

Xan maraqla soruşur:

— Yaxşı, bəs neynədin bu gün? Səni ruzudan qoydu xan axı...

— ƏH, qadam onun əmrinə! O öz bildiyində, mən də öz bildiyimdə. Getdim meşədən odun yığdım, gətirib satdım... Mərd əl, mərd başı ac ğoymaz.

Xanın yadına Hadının dünənki sözləri düşdü. «Sınsın iki əl ki, bir başı saxlamaya».

Qərəz xan bu gecəni də Hadıgilə qonaq olur, səhər evdən çıxanda soruşur:

— Qardaş, birdən bu gün xan odunçuluğu qadağan elədi, onda neynərsən?

— Allah kərimdi, bir iş taparam, təki canda təpər, başda ağıl, bədəndə qeyrət olsun.

Xan saraya çatar-catmaz əmr verdi o gün bazara odun

gətirən bütün odunçuların odununu biyar hesab eləyib saray ətrafında qazılmış xəndəyə tökdürdülər. Axşam qaş qaralandan sonra xan pal-paltarını dəyişib Qalameydanına üz tutdu. Elə meydanın ətəyindəki komaya çatmamış qulağına mahnı səsi gəldi:

— Aşımızın kişmişi... Aşımızın qaysısı...

...Şırıqqa səsi altında mis üstündə cingildəyən ətəkliyin çıqqada-çıqqo havasına «aşımızın kişmişi» qol açıb süzürdü. Komanıp dəlməsindən bunu görən xanın qəzəbindən və təəccübündən gözləri kəlləsinə çıxdı, hövlnak özünü içəri saldı:

— Qardaş, mənim dilim qurusun, kaş sənə o sözü deməyəydim! Bu gün bazarda eşitdim ki, odunları odunçuların əlindən aldırıb xan. Yaxşı, bəs nə neynədin? Görürəm ki, maşallah, namxuda, çarə tapmısan deyəsən...

Hadı güldü, gözlərini bəxtiyarlıqla gülümsəyən Budunun qolları arasına sığınmış qızına dikdi:

— İşində ol, özünü yeyib-tökmə, qardaş! Qeyrətli əl sahibini ac qoymaz.

— Neynədin axı?..

— Heç nə, getdim yovşan yığdım, süpürgə düzəltdim, küçələri süpürən carubkeşlərə[1] satdım, vəssalam! Evə qayıdanda əyər-əskiyi aldım...

— Birdən xan süpürgə satmağı da qadağan elədi?

— Eləsin də... Balamın qadası onun əmrinə!

Xan gördü ki, bu zəhmətkeş kişiynən elə-belə bacarmayacaq. Sabahı gün saraya gəlib taxta çıxan kimi əmr verdi.

— Gedin, Qalameydanın ətəyindəki komada Hadı adında kişi var, onu tutun gətirin mənim yanıma!

Hadını tutub xanın yanına gətirdilar. Xan onu görən kimi dedi:

— Kişi, deyirlər sən çox qoluzorlu adamsan. Əlindən də hər

[1] Süpürgəçilər.

bir iş gəlir. Səni özümə baş cəllad eləyirəm. Bu gündən sən mənim sağ çiynimin üstündə duracaqsan. Əmr verən kimi dediyim adamın boynunu vuracaqsan!

— Allah sən saxla...

— Nə allah sən saxla? Yoxsa...

— Xan, mən ömrümdə toyuq başı da kəsməmişəm... Ovu da iraqdan vurmuşam...

— Neynək! Mənim ovumu yaxından vurarsan... Cəllad!

Hadı elə bildi ki, xan cəlladı çağırır ki, onun boynunu vurdursun, balası üçün, Budu üçün ürəyi titrədi, amma xan cəlladı görən kimi dedi:

— Buna qılınc ver, belinə bağlasın. Bu gündən o mənim sağ çiynimin cəlladıdır.

Belə də elədilər. Cəllad Hadıya cəllad paltarı geydirdi, belinə qılınc bağladı. Yerini işinin təhərini öyrdib getdi. Hadı bütün günü xanın böyründə dayanmışdı. Axşam düşəndə evə nə aparacağını düşünürdü. Güman eləyirdi ki, gedəndə xan ona muzddan-zaddan verəcək, amma belə olmadı, axşama.yaxın onu əliboş yola saldılar. Xan düşünürdü: «Hə, bütün günü çiynimin üstündə olmusan. Qazansın görüm sənin o əllərin bir başı necə saxlayır? Heç yerə getmək macalın da olmayıb. Görüm bu gecə nə hava oxuyacaqsan, aşınızın kişmişi nə yeyəcək, hansı havanı oynayacaq?»Gecə düşcək xan təğyiri-libas olub özünü Qalameydanına çatdırdı. Marağından ölürdü. Heç komaya çatmamış eşit di ki, «Aşımızın kişmişi, aşımızın qaysısı» mahnısı Qalameydanını başına götürüb. Ürəyinə ilanlar yol saldı: «Yox, burada bir iş var».

— Qardaş, şükür allaha sağ-salamatsan, səhər sənin saraya sürükləndiyini gördüm... indi....

Hadı da, Budu da, «Aşımızın kişmişi» də qonağı gülərüzlə qarşıladılar, altına döşəkcə, kürəyinə püştü, dirsəyinin altına mütəkkə-dirsəyaltı qoydular. Qabağına süfrə saldılar. Qonağın payı-haqqın payıdır» deyib qarşısına mis piyalədə südlü,

kişmişli-qaysılı, üstü quru balıqlı südlüplov gətirdilər.

Xan yeyib-içməyi də gözləyə bilmədi.

— Sən allah, qardaş, bircə məsələdən məni hali eləməsən, bir qurtum suyunu da içmərəm.

«Qonaq kafir də olsa əzizdir», sözün qaytarmazlar, istəyin rədd etməzlər. Hadı ev yiyəsi idi, qonaq haqında, qonaqpərəstlik haqqını yerinə yetirməliydi:

— Üzülmə, qardaş,— dedi, xan xanlığında durur, biz bizliyimizdə. Allah onun qəzəbini söndürsün, xeyir işini bol eləsin! Bütün günü məni böyründən heç yana buraxmadı, qaldım naəlac. Neynim? Vaxt azdı, axşamçağı, əlim hər yerdən üzüldü, vermədiyi günəmuzd hesabına xanın mənə verdiyi xəncərin tiyəsini çıxartdım dəmirçiyə satdım, cəld axşambazarında bazarlığımı elədim, olanı budu...

— Birdən səhər, xan birinin boynunu vurdurmağı tələb elədi, onda?

Hadının da, Budunun da gözlərində qorxu görünmədi. Məhəbbətlə bir-birinini üzünə baxıb gülümsədilər, hər ikisi birdən «uzaq olsun» dedilər.

— Çarəsi tapılar — dedilər...

Səhəri gün xan taxtına əyləşmişdi. Hadıya tərəf baxmırdı da. Hadı onun sağ çiyni üstündə dayanmışdı. O gün xanın yanında şeir oxumaq günüydü. Şairlər, şeirsevərlər yığılmışdı, Noxudlu kəndindən bir təzə şair də gəlmişdi. Sən demə, xanın adamları ona sataşmaq üçün kələk qurublarmış. Süfrəyə xörək gələndə hamının qabağına bir xonça üstü sərpincli cücə qızartması gəlir. Noxudlu şair öz sərpincini qalxızanda görür nə? Bunun qabağına bir sinidə suda qaynadılmış şırdan qoyublar. Xanın solunda ahıllaşmış şair Allahi qaragünlü şairə deyir:

Təbxi təbbaxi qəza mətbəxdə mətbux əylədi,
Qismət oldu ol zaman büryan mənə, şırdan sənə.

Gözünə döndüyüm Noxudlu şair tezcə deyir:

Mən zümürrüdxislətəm tülküsifət Allahi, sən,
Xişm ilə baxsam əgər gözdən dəyər nöqsan sənə!

Xanın xəzəbi tutur şairə ki, niyə sən mənim baş şairimi təhqir elədin, sözün qaytardın? Odu ki qışqırır:

— Cəllad, vur bunun boynunu!

Yazıq şairin ta bayaq ürəyi üzülür. Hadı görür iş şuluqdu. İrəli gəlir. Şairin başı üstündə dayanıb bir günahsız bədbəxtə baxır, bir də zalım xana baxır, qılıncın qəbzəsindən tutub deyir:

— Xan sağ olsun, əgər bu kişiiin günahı yoxdursa, qoy qılıncım taxtaya dönsün.

Qılıncı dartır, hamı görür ki, qılıncın polad tiyəsi dönüb olub taxta. Xanı gülmək tutur, məsələni başa düşür. Sən demə, dünən Hadı qılıncın tiyəsini dəmirçiyə satandan sonra yerinə taxtadan tiyə qayırıbmış ki, qəbzə yerində dura bilsin.

Xan qəşş eləyənəcən, gülür, sonra da Hadını azad eləyib deyir:

— Get kişi, mən sənnən bacara bilmədim. Get ömrünün axırınacan necə bacarırsan elə də yaşa!

Hadı evinə qayıdır, Budu ilə «Aşımızın kişmişi» sevinir. Ay keçir, il dolanır, «Aşımızın kişmişi» böyüyüb ərkən vaxtına çatır. Qızlar bulağından su içib gözəllər gözəli olur. Ay onu görəndə pəncərəsinə boylanır: yarəbbim, mənmi gözələm, taxtın üstündə yatan bu qızmı gözəldi? Gün onu görəndə xəcalətindən buludda gizlənir, Hadıynan Budunun qızının gözəlliyinə rəqib çıxmaq istəmir. Şır-şır axan bulaqlar, qızın nəğməsini eşidəndə səsini qısır. Güllər, çiçəklər qız çəmənə çıxanda ətrafı ətirlə doldururlar. Küləklər qarğı saçlarını darayır, yağışlar yollarına su çiləyib tozunu yatırır ki, Hadı ilə Budunun qızı keçəndə üstüdə toz qonmasın... Ən xoş günlərdən

birində Qalameydana bir cüt erkək gətirib satmaq istəyən Ayxan adlı oğlan qızı görür, aşıqlayır. Çəməndəki güllərin ən gözəlini dərib öz kəndlərinə aparır. Kəndlərindəki dağların zirvəsində laçın yuva bağlayan qayalardan o yana, buludlarla əlləşən, dumanlardan don geyən təpələrdən birinin döşündə.... ağ keçədən, qara keçədən qurulmuş alaçıqlar... çayır çəmənli, qənşəri küz almalıqlı, böyrü quzu dolu zağalar...

Gəlin köçəndən bir ay sonra ata-ana qızları üçün qəribsəyirlər:

— Hadı...

— Can, Budu...

— Gəlsənə gedək «Aşımızın kişmişi»ni bir görək...

— Gedək, niyə getmirik ki...

Hadıynan Budu «Aşımızın kişmişi» qızçın bir Basqal kəlağayısı, bir də bir buyurtdurma «sarğı başmaq» alıb qız-görməsinə gedirlər. Yolun ağına düşürlər.

Şəhərdən çıxaçıxda bir də görürlər ki, bir qızı qabaqlayıb xan sarayına aparırlar. Bilmirlər ki, günahı nədi? Niyə, nədən ötəri aparırlar? Amma görürlər ki, qızın başı açıq, ayağı yalındır, utandığından qısıla-qısıla gedir. Heç yana baxa bilmir.

— Hadı!

— Can, Budu...

— Necə də «Aşımızın kişmişi»nə oxşayır...

— Başı açıq...

— Ayağı yalın...

— Yəqin üşüyür, yazıq yəqin utanır yazıq...

Ataynan ana bunu deyə-deyə sözləşiblərmiş kimi, «aşımızın kişmişi» üçün aldıqları başmağı bu qızın qənşərinə qoyub, ayağına geydirirlər, kəlayığını da başına salırlar. hamı heyrət içində qalır, axı hamı Hadıynan Budunu tanıyır, hara getdiklərini, niyə getdiklərini bilirdilər. Kimsədə söz deməyə bir cürət olmur.

Onlar da heç kimə baxmadan dağlar qoynundakı o kəndə

yol gedirlər. Dağ döşündə əlvan çiçəklər gördülər, hər gül budağından bir qönçə döşürdülər, əlvan dəstə bağladılar, «Aşımızın kişmişi»nə gətirdilər. Alaçığın qabağında onları qoyun əmişdirən Ayxanla gəlini qarşıladı:

— Xoş gördük, dədə!

— Xoş gəlmisən, nənə!

— Xoş günlər görəsiz, balalarım!

Görüşdülər, öpüşdülər, gələcəkdən, keçəcəkdən danışdılar. Axşam oldu, şam yedilər, gecə düşdü, gəlinlə Ayxan pərdənin o biri üzündə, Hadıynan Budu da bu biri üzündə salınmış yerlərinə girdilər.

— Hadı!..

— Can, Budu!..

— Qıza paydan-ülüşdən də gətirmədik...

— O qız yazıq idi...

— Başı açıqıydı...

— Ayağı da yalınıydı...

— Bizimkinin...

— Səs salmayaq, uşaqlar yatıb...

Pərdənin o biri üzündə «uşaqlar» yatmamışdı. Ayxan gəlinin əlini oxşaya-oxşaya xısıltıyla deyirdi:

— Dədənlə nənəni qoyma getsinlər bir də şəhərə, onlar sənsiz qala bilməzlər...

Gəlin dərindən bir köks ötürdü, bu ah dərddən deyildi, çoban Ayxan onu da, ata-anasını da başa düşmüşdü, sevinc ahıydı bu ah.

— Düz deyirsən, onlar bizsiz qala bilməzlər...

— Nəvələri olar...

— Hadıynan Budu...

— Babalarına, nənələrinə əvəz...

...Hadıynan Budu tapındığı ilahəsinə qovuşmuşdu bu gecə. Kişmiş kimi şirin yuxu görürdü ikisi də.

GÜN GÜNƏŞ OĞLUNUN NAĞILI

Biri var idi, biri yox idi, allahın bəndəsi çox idi. Qəndahar vilayətində bir padşah var idi. Bu padşahın bir cüt əkiz oğlu var idi. Oğlanlar böyüyüb boya-başa çatanda, padşah arayıb-axtarıb bir cüt əkiz bacı tapdı, oğlanlarını bu əkiz bacılara evləndirdi.

Günlərin bir günündə padşah, əcəl şərbətini içməyin yaxınlaşdığını başa düşdü. Oğlanlarını yanına çağırıb onlara vəsiyyət elədi, dedi:

— Balalarım, ömür karvanım yolu başa vurub, gedəriyəm. Məndən sonra bir-birinizdən muğayat olun:

O, üzünü vəzir-vəkilinə tutub dedi:

— Siz allah yanında şahid olun: bütün *ar-dövlətimi bu iki balama qoyub gedirəm. Bacardığımı onlardan əsirgəməmişəm. Nadir oğlum qılınc vurmaqda nə tökmüşəmsə, onu götürüb — onu özünüzə padşah tikin. Qadir oğlum fikrini kitaba-dəftərə verib, ağıl-kamal yiyəsi olub, onu da vəzir qoyun.

Vəzir, vəkil və sərkərdələr padşaha əhd-peyman verdilər, qılıncından öpüb, Nadirə beyət elədilər. Sonra da padşah oğlanlarına dedi:

— Bir-birinizə can deyib, can eşidin. Bir-birinizdən muğayat olun. Bir olsaz, heç kim sizi yeyə bilməz.

Bundan sonra padşah ömrünü balalarına tapşırıb, dünyaya göz yumdu. Vəzir, vəkil və oğlanları padşahı yudurtdular, kəfn-dəfn elədilər, qırx gün, qırx gecə yasını tutdular. Bütün rəiyyət qara geyindi. Ələmlər qara boyandı. Qırx günün tamamında cavan Nadir padşah atasının tacını başına qoyub, ölkəni qardaşı Qadir vəzirlə birlikdə dolandırmağa başladı.

Ay ötdü, illər keçdi. Hər iki qardaş can bir qəlbdə ömür sürdü. Bunlardan dünyaya övladlar gəldi. Nadir padşahın yeddi oğlu,

Qadir vəzirin yeddi qızı oldu. Uşaqlar bir yerdə bacı qardaş təki böyüyür, dayədən mollaya, molladan lələyə keçirdilər. Oğlanlar kimi, qızlar da hər bir işdə əmiləri oğlanlarından geri durmayıb, qılınc vurmaq, əmud, şeşpər atmaq öyrənirdilər.

Nadir padşah oğlanlarına baxıb fərəhlənirdi. Hər gün sübh vaxtı həyətə çıxanda, qardaşı Qadir vəzirə rast olan kimi onu zarafatla belə salamlayırdı:

— Salam əleyküm, yeddi qancıq atası!

Qadir vəzir bir söz deməsə də, qardaşının ürəyinə dəyməsə də, bu sözdən çox geri düşürdü, inciyirdi. Amma üzə vurmurdu:

Qadir vəzir günü-gündən saralır, qəm dəryasına qərq olurdu. Onun yeddi qızından ən kiçiyi Sahibə-Soltan adında çox mazarat bir qız idi. Bütün elmləri tamama yetirmişdi. Çox hazırcavab, bilikli qız idi. Gözündən tük də yayınmazdı. Axır vaxtlar atasının qəm dəryasına qərq olduğunu görürdü. Bir səhər yenə də qardaşından «Salam əleyküm yeddi qancıq atası» sözlərini eşidən Qadir vəzir, qanıqara halda evə qayıtdı. Divanxanaya gedə də bilmədi. Evə girəndə Sahibə-Soltan atasını çox bikef görüb soruşdu:

— Ata can, niyə bikefsən, nə dərdin var?

Ata dedi:

— Dedim nə faydası, ay qızım?

Qız bic-bic gülüb dedi:

— Atayi-mehriban, özün demisən ki, ağıl ağıldan üstün olar. Kim bilir, bəlkə allah-taala ağlıma elə bir fikir gətirdi ki, dərdinə əlac eləyə bildik?!

Oğulsuzluq dərdi kişinin belini əymişdi. Ürəyi qana dönə-dönə dərdini qızına açıb danışdı.

— Əmin hər gün mənə tənə vurur bala, — dedi, — yaman incimişəm ondan.

Sahibə-Soltan gülümsədi:

— Ata can, — dedi, — əmimdən incimə. O çox dərinə gedən adam deyil. Qılınc işlədər, ağıl işlətməz. Bəs sən öz

böyük ağlınla bu hasand şeyi niyə çətinə salmısan?

Qadir vəzir təəccüblə qızına baxdı:

— Day bunun harası hasand oldu? Oğlum yoxdu da.

Qız genə də güldü:

— Ata, sən bir ölkənin ağılbənd vəzirisən, dünya görmüsən, əmimdən incimə! Bu dəfə o sənə elə deyəndə, sən də cavab ver, de ki: «Əleykəssalam, yeddi köpək atası». Dalıynan işin yoxdu.

Səhər oldu, üzünüzə xoş səhərlər açılsın. Qadir vəzir divanxananın həyətinə yol aldı. Elə qapıdan girhagirdə Nadir padşah onu salamladı:

— Salam əleyküm, yeddi qancıq atası!

Qadir vəzir də əlüstü cavab verdi:

— Əleyküməssəlam, yeddi köpək atası!

Qardaşından bu sözü eşidən kimi Nadir şah duruxdu, bir söz demədi. Day o gündən qardaşı Qadir vəzirə sataşmağı da qatlayıb qoydu bir yana. Qardaşlar şad-xürrəm yaşadılar.

Ay keçdi, il ötdü. Bir gün Nadir padşah azarladı. Həkimlər ona nə qədər dava-dərman verdilərsə də əlac olmadı. Qadir vəzir ölkəyə car çəkdirdi, dedi:

— Hər kim padşahımızın dərdini tapsa, ona əlac eləyə bilsə, onu dünya malından qani eləyəcəm.

Həkimlər, türkəçarəçilər, həcəmətçilər, əttarlar saraya ayaq açdı. Sarayın darvazası bağlanmadı. Kim gəlib desə həkiməm, o saatdaca Qadir vəzirin yanına aparırdılar. Amma genə də padşahın dərdini tapıb, əlacını eləyən olmadı. Bir gün saraya dünyagörmüş bir qoca gəldi. Padşahın rənginə, dırnaqlarına, göz qapaqlarına baxıb dedi:

— Bu dərdin dərmanı narıncnan turuncun suyudu. Qəndahardan iki aylıq yolda Yanan dağlar diyarı var. O diyarın Gün Günəş oğlu adında cavan bir padşahı var. Həmin padşahın başı buluddan, ayağı dəryadan nəm çəkən sarayının dalında iki bağı var. Birində qızılgüllər bitir. O birisində narınc-turunc yetişir. Hərgah bir igid çıxsa, gedib narınc-turunc gətirsə,

padşah sappasağ sağalacaq. Azarı-bezarı qalmayacaq. Amma nə işsə Gün Günəş oğlu bağından hələ heç kimə bir dənə də narınc, nə də turunc verib. Hələm o bağın barısı buluda, özülü dəryaya söykənən hasarını aşa bilən olmayıb.

Qoca bu sözləri deyəndə Nadir padşahın oğlanları yanındaydı. Əvvəlcə böyük oğlan gəlib Ədəb məqamında durdu, qollarını qul kimi sinəsində çarpazladı:

Atayi-mehriban, izin ver, gedim səninçin Gün Günəş oğlunun bağından narınc-turunc gətirim.

Atası zarıya-zarıya dedi:

— İzindi.

Oğlan başdan geyindi, ayaqdan qıfıllandı, ayaqdan geyindi, başdan qıfıllandı. Tamam cılxa poladdan zirehə qütəvvər oldu. Əmud, qılınc qurşadı, nizə-şeşpər götürdü. Atını yəhərlətdirib mindi. «Ağamı allah saxlasın» deyib Gün Günəş oğlunun diyarına tərəf üz qoydu. Oğlan getməkdə olsun, sizə kimdən deyim, Qadir vəzirdən. Qadir vəzir, qardaşı oğlanlarının boş adam olduğunu bilirdi. Özünün yaşı qılınc qurşanmaq yaşı deyildi: odur ki, qardaşı Nadir padşahdan xəlvət vəzir-vəkilə, sərkərdələrə xəbər elədi, «padşahı istəyən getsin, Gün Günəş oğlunun bağından dərman gətirsin» dedi. Bəlkə bir igid çıxa bu qorxulu xətərli yoldan istəkli qardaşı üçün dərman gətirə.

Vaxt tamam oldu, Nadir padşahın böyük oğlu səfərdən gəlib çıxmadı. İkinci oğlu atasının yanına gəlib, ədəb qaydalarını yerinə yetirdi. Qardaşının dalınca getməyə, narınc-turunc gətirməyə izin istədi. Padşah izin verdi. Bu da getdi, genə vaxt ötdü, bundan da xəbər-ətər çıxmadı. Belə-belə padşahın yeddi oğlunun yeddisi də bir-birinin dalınca səfərə yollandı. Yeddisi də xəbərsiz-ətərsiz itdi. Heç birindən səs-soraq çıxmadı.

Nadir padşahın halı gün-kündən pisləşirdi.

Oğlanlarının itməyi də ona üstəlik bir dərd olmuşdu. Gecə-

gündüz ah-zarından, sızıltısından ürək oycalanırdı. Qadir də qardaşına baxırdı, amanı kəsilirdi. Bu dəfə o, camaata car çəkirdi: «hər kim gedib şahzadələrdən bir xəbər gətirsə ənam alacaq».

Bir gün səhər vəzirin qızı Sahibə-Soltan cangəvər libasına qütəvvər olub, qılıncını belinə taxdı, əmisinii hüzuruna gəldi, ədəb salamını yerinə yetirib dedi:

— Əmiye-mehriban, izin ver, gedib Gün Günəş oğlunun bağından sənə narınc-turunc gətirim. Əmim oğlanlarından da bir xəbər tutum.

Padşah zarıdı:

— Ay bala, — dedi, — əmin oğlanları kişi xeylağı ola-ola gedib bir iş qayıra bilmədilər. Özləri də xəbərsiz-ətərsiz itiblər. Sən bir tikə qız uşağı gedib neynəyəcəksən?

Qız sözünün üstündə durub dedi:

— Yox, əmi, gedəcəyəm. Yaxşısı budu, öz xoşunla razılıq ver, xeyir-dua ver mənə. Yoxsa bu səfərdən öldü var, döndü yoxdu.

Qızın atası Qadir vəzir də burdaydı. Qızının tündlüyünü, mazarratlıqını, sözündən dönməyəcəyini bilirdi. Dedi:

— Qardaş, Sahibə-Soltan şahzadə əmisi oğlanlarından artıq deyil ki! Allah mənə oğul övladı vermədi ki, sənin yolunda ağır səfərə göndərəm. Neynim, qız uşağıdı. Atan-vuran olsa da adı qızdı. Amma izin ver, qoy getsin. Allahın gözü üstündə olsun.

Nadir padşahın çarəsi kəsildi. Dedi:

— Yaxşı, qızım, get! Tanrı səfərini xətərsiz eləsin. Sağ get, salamat qayıt!

Sahibə-Soltan uzun, qulac saçlarını başına dolayıb, üstündən də bir, dəbilqə geydi. Atını yəhərlətdirdi. Cəngavər paltarını qaydaya saldı, niqabını üzünə çəkib atlandı. Yola düşdü. Ayaq üzəngidə, diz qabırğada günə bir mənzil, teyyi-mənazil eləmədi, gecəni gündüzə qatdı. Yol üstündəki şəhərlərdə əmisi oğlanlarından gah birinə, gah da o birinə rast

oldu. Şahzadələrin əllərindən bir iş gəlməmişdi, atalarına dərman tapa bilmədiklərinə görə, xəcalət çəkib vətənlərinə qayıtmamışlar. Biri dərziyə, biri papaqçıya, biri aşpaza, biri pinəçiyə, qərəz hərəsi bir ustaya şagird olub, bu şəhərlərdə qalmışdılar. Qız şahzadələrin yerini bəlləyib yoluna davam elədi. Günlərin bir günündə Gün Günəş oğlunun vilayətinə çatdı.

Əl altıycan Gün Günəş oğlunun xasiyyətini, ev-eşiyini, bağ-bağatının təhərinin öyrənib, bir gün özünü bazara verdi. İndi o bilirdi ki, Gün Günəş oğlu qəribdost adamdı, bu gün də onun bazara tamaşaya çıxan günüdü. Elə atın cilovunu qoluna keçirdi, bir az bazar başında dolanmamışdı ki, Gün Günəş oğlu bazara çıxdı. Gəzdi, dolandı, almalısını aldı, buyurtdurmalısını buyurtdurdu. Birdən gözü, bazar başında at yedəyində gəzişən cavana sataşdı. Gördü ki, vallah bu bir elə cavandı ki, Yeməyəsən, içməyəsən, xətt-xalına, gül camalına tamaşa eləyəsən. Niqabını dəbilqə üstündən başına atıb şəhla gözləri can alvır. Sahibə-Soltanın qaşları kaman kimi dartıldı, iki qaşının arasından bir ox çıxıb Gün Günəş oğlunun ürəyinə sancıldı. Gün Günəş oğlunun quşu bu cavana qondu. Həlbət ki, onun qız olmağını bilmədi. Yaxınlaşdı. Bacısı-qardaşı yox idi. Elə bildi ki, ürəyində oyanan məhəbbət qardaş tamarzısı olmağındandı. Gəlib «oğlanın» bərabərində durdu. Salam-əleykdən sonra soruşdu:

— Adın nədi, qardaş, kimsən, nəkarasan?

— Adım Rüstəm pəhləvandı, özüm də Qəndahardan gəlmişəm, qəribəm. Allah qonağıyam.

— Allah qəriblərin dayağıdı. Allaha da qurban olum, onun qonağına da. Buyur bizə gedək. Qonağım ol.

Qızın istəyi də bu idi. Öz-özünə dedi: «Ay allah, nə yaxşı oldu? Nə yoğurdum, nə yapdım, hazırca kökə tapdım. Bu nə şirin oğlandı, namxuda, göz dəyməsin».

Bir-birinə qoşulub Gün Günəş oğlunun sarayına yola

düşdülər.

İçəri girən kimi atları nökərlərə verib evə keçdilər. Gün Günəş oğlu «Rüstəm»i anasının yanına gətirdi, dedi:

— Ay ana, tanış ol, bu mənim təzə qardaşlığımdı. Qəribdi, irast olub gətirdim, amma məhəbbəti ürəyimə elə düşüb ki, elə bil bir saat deyil, anadan olandan tanıyıram onu.

Arvad qərib qonağa xoşgəldin, elədi, sonra da oğluna dedi:

— Allah qardaşlığınızı başacan eləsin, bala.

Göydə ağ daş.
Yerdə ağ daş,
Ağ daş, qara daş
Siz olduz siğə qardaş.

İndi keçin, oturun, allahın verdiyindən, bəndənin bişirdiyindən yeyin-için, könlünüz həmişə şad, damağınız da çağ olun.

Sahibə-Soltan dil-tavazlı arvadın əlindən öpdü, qayıdıb-döşündən öpdü, dedi:

— Ana, həmişə süfrəniz açıq olsun, nənəm demişkən suyunuz sərin, çörəyiniz isti olsun.

Onlar keçib oturdular, yedilər, içdilər. Nərdtaxta aralığa gəldi. Sahibə-Soltan xanım həmişə atası ilə, şahzadə əmioğlanları ilə nərd oynamışdı. Yaxşı bacarırdı. Nərdii leylacını axtarırdı, əlinə keçmirdi. Elə Gün Günəş oğlu da öz vilayətində yaxşı nərd oynayanlardan biri idi. Amma indi əli gətirmirdi. Gözü-könlü təzə dostu «Rüstəm»də qalmışdı. Əməlli oynaya bilmirdi. Odu ki, bir-iki tas uduzandan sonra dedi:

— Qardaş, yol gəlmisən, yorğunsan, gecə də keçir. Tənbəl deyib: «Yatmaq da ibadətdəndi». Gəl yıxılıb yataq.

Onlar yerlərinə girib yatdılar. Səhər Gün Günəş oğlu yuxudan oyandı. Gecəni o ki, var o üz-bu üzə çevrilib əməldi

yatmamışdı. Onun ürəyində nəsə bir şübhə baş qaldırmışdı. Nərd oynadıqca qərib qonağın əlinə fikir vermişdi. İndi oyanan kimi dostunun yatacağına baxdı. Onu yerində görməli, cəld geyinib anasının yanına gəldi:

— Ana can, qardaşlığım hanı?

Arvad dedi:

— A bala, qardaşlığın nə yaxşı sübhviz—yuxudan tez duran cavanmış. İt qurddan seçilməzdən durub əl-üzünü yuyub keçib bağa, gəzir özüyçüi.

Gün Günəş oğlu şübhələrini anasına açdı:

— Ana can, qonağa bir yaxşı fikir verdinmi? Deyəsən, o, qızdı axı!

Arvad təəccübləidi:

— Nə danışırsan, ay bala?! Elə iş olmaz! Oğlandı.

— Yox, ana, vallah.

Barmağı üzük yeridi,
Qolu bilərzik yeridi.
Ana can, qonağım qızdı.

Anası cavab verdi:

Neynək, oğul! İndi ki ürəyinə gəlib, yoxla! Gedin bu gün narınc-turunc bağında nişangah qoyun, ox atın! Oxu səninkindən uzağa getsə, mən haqqam. Səninki uzağa getsə—sən haqsan.

Nahardan sonra Gün Günəş oğlu dedi:

— Rüstəm qardaş, gəlsənə bu gün gedək narınc-turunc bağında bir nişangah qoyub, ox ataq. Görək kim hünərlidi.

Qız ta bayaq razılaşdı. Bağı görmək, narınc-turuncun yerini bəlləməkçün əlinə fürsət düşmüşdü. Qız məsələsinə arif idi, əlüstü başa düşdü ki, Gün Günəş oğlu ondan şübhələnib, sınamaq istəyir. Amma özünə də arxayın idi. Odu ki, cavab verdi:

— Neynək, ox ataq deyirsən, gedək ataq.

Onda narınc-turunc bağına gəldilər. Nişangah qoyub ox atdılar. Gün Günəş oğlu baxıb gördü ki, nə? Rüstəm qardaşının oxu onunkundan da bir yarım ağac uzağa düşüb.

Evə qayıdan kimi anası soruşdu:

— Necə oldu, ay bala, kimin oxu uzaq düşdü?

— Onunku, qardaşlığımınkı, ay ana!

— Gördün, bala, demədim oğlandı?

Gün Günəş oğlu fikirli-fikirli cavab verdi:

Yox, ana, vallah, barmağı üzük yeridi,
Qolu bilərzik yeridi.
Qonağım qızdı.

Arvad bir az fikirləşib dedi:

— Bilirsən nə var, bala? Bu gecə yerinizi gül bağında salacağam. Yatarsınız. Səhər onun yatdığı güllər soluxmuş olsa—qızdı, tərtəzə qalsa—oğlan. Qız canı hərarətli olar, gülü tez soluxdurar.

Ana-bala razılaşdılar. Gün Günəş oğlu ilə qardaşlığı axşamacan seyrəngahları gəzdilər, ov ovladılar, quş quşladılar, hər atanda da «Rüstəm» qardaşın oxu boşa getmirdi. Axşam düşdü. Onlar evə qayıdıb şam elədilər. Anası dedi:

— Balalarım, cavan adamsız, bürkü otaqda yatmayın. Yerinizi gül bağında salmışam. Döşəklərinizə qızıl gül ləçəkləri səpmişəm. Ətirli behiştdi indi bağ. Gedin yatın özünüzçün.

Sahibə-Soltan xanım əlüstü məsələni başa düşdü. Bildi ki, oxu uzaq getməynəm şübhədən çıxmayıb. Genə də onu imtahana çəkirlər. Ağılbənd qız idi axı! Belə şeylərdə onu xam salmaq olmazdı. Bağa gəldilər. Yerlərinə girib yatdılar. Gün Günəş oğlu dünən gecəni pis yatmışdı deyə bu gecə yerinə girən kimi xurt düşdü, yuxuya getdi. Amma qız yatmadı. Ağılbənd qız bildi ki, bundan yaxşı fürsət , olmaz. Odur ki,

barını aşıb, narınc-turunc bağına keçdi. Səhər bələdlədiyi narınc-turuncdan dərib heybəsini doldurdu, bəlli yerdə gizlətdi. Sonra da qayıdıb yorğanına büründü; deşəkcəsinin böyründə mürkülədi. Səhərəcən döşəyinə səpilmiş güllərin üstündə uzanmadı. Sübh üzünüzə xeyirə açılsın, səhər olan kimi Gün Günəş oğlundan da əvvəl geyinib-kecindi, siqə qardaşlığını da oyatdı:

— Dur, ay qardaş, gün üstünə düşür.

Onlar bağdan çıxaçıxda arvad özünü yetirdi, yorğan-döşəyə baxıb oğlunu xəlvətə çəkdi:

— Bir bax, ay bala? Onun yerinə səpdiyim güllər sənindən də tərtəzə qalıb.

Gün Günəş oğlu yenə də dediyini dedi:

— Gördüm ana, amma vallah:

Barmağı üzük yeridi,
Qolu bilərznk yeridi,
Ana, qonağım qızdı ki, qızdı!

Bu dəfə anası dedi:

— Oğul day, bircə çarə qaldı. Götür qardaşlığını get hamama. Deynən gecə bağda yatmışıq, toz-torpaq olmuşuq, gedək yuyunaq. Sənnəm getsə, oğlandı, getməsə qız.

Gün Günəş oğlu qardaşlığının yanına gəlib dedi:

— Qardaş, bu gecə bağda açıqlıqda yatmışıq, toz-torpaqa batmışıq. Gəlsənə bir hamama gedək.

Qız fəndinin baş tutduğunu görüb ürəyində sevindi «Yaxşı ki, gecə hazırlığımı görmüşəm». Oğlana dedi:

— Lap yaxşı fikirləşmisən, qardaş! Elə mən də hamama getmək istəyirdim, amma üzlü qonaq olub sənə zəhmət verməyə utanırdım.

Qardaşlığının belə danışmağı Gün Günəş oğlunu lap arxayınlaşdırdı. Onlar analarının hazırladığı boğçanı götürüb

hamama getdilər. Amma, qız ürəyində allaha yalvarırdı ki, bir vəsilə salsın, canını qurtarsın. Hamamın qənşərində qərib bir kişi görən kimi qız, boğçasını qardaşlığına verib dedi:

— Qardaş, sən gir içəri soyun, mən də bu saat gəlirəm. Bu kişi bizim elliyə oxşayır. Onunla vətənə ismarış eləyim, ata-anam məndən nigaran qalmasın, bir az sizdə çox qalım.

Bu sözlər Gün Günəş oğlunu day da inandırdı. O boğçaları götürüb hamama girdi. İçəri girən kimi camadarlar onu soyundurub xəzinəyə saldılar. Sonra da kisə çəkməyə başladılar.

Gün Günəş oğlu hamamda qalsın, sənə xəbəri kimdən deyim, Sahibə-Soltan xanımdan. Qız canını qurtaran kimi qələmi alıb bir kağız yazdı, həmin qənşərinə gələn kişiyə verib dedi:

— Əmi, zəhmət olsa da, bu kağızı hamamçıya ver. Mənim işim tələsikdi.

Sonra kağızın birini hamamın qapısına yapışdırdı. Tələsik evə gəldi, bir kağız da darvazaya yapışdırdı. Gün Günəş oğlunun anasına dedi:

— Ana, əməyini halal elə. Gün Günəş oğlu yol üstündə yolumu gözləyir, məni yoluzaq eləyəcək. Elə indicə yerlimizə rast olduq. Dedi ki, əmim bərk naxoşdu, atam ismarlayıb, məni istəyir.

Arvad bir söz deyə bilmədi. Nökəri çağırdı, töyləni açıb atı ona verdilər. Sahibə-Soltan xanım arvaddan ayrılıb özünü bağın barısına tərəf verdi. Axşamdan pünhan yerdə qoyduğu heybəsini atın tərkinə bağladı və «Ağamı allah saxlasın» deyib yola düşdü.

Dərələrdən sel kimi, təpələrdən yel kimi, badeyi-sərsər kimi yel oldu əsdi, yolun damarın kəsdi. Çox getdi, az dayandı, nə özünə dinclik verdi, nə atına. Amma yol üstündəki şəhərlərdən əmisinin oğlanlarını — Qəndahar ölkəsinin yeddi şahzadəsini də—pinəçinin pinəçi yanından, aşpazı aşpaz

yanından, papaqçını papaqçı yanından, dərzini dərzi yanından götürdü, əyin-başlarını düzəltdi. Hərəsinə bir köhlən at alıb verdi, götürüb özüylə apardı: Günlərdən ən xoş günün birində gəlib Qandahara çatdı. Elə o yerdə çatdılar ki, əmisi ölhaöldədi. Atası qarnını tutub gəzir. El camaat qara geyib yas tutub. Axı yeddi şahzadə itmişdi, bir dərd idi, gözəl göyçək, ağıllı-kamallı, dilli-tavazlı Sahibə-Soltanın getməyi də bir dərd olmuşdu. Çək ki, çəkəsən.

Şəhərə çataçatmayada saraya muştuluqçu getdi ki, gözünüz aydın, şahzadələr də tapılıb, Sahibə-Soltan xanım da. Hələ üstəlik narınc-turunc da gətirib. Padşahın gözlərinə işıq gəldi. Zarafat deyil, yeddi oğlu birdən tapılıb. Üstəlik namus məsələsiydi qız-xaylağının getməyi. Deyirlər namusu itə atıblar, it də yeməyib. Qərəz nə başınızı ağrıdım! Təbil-nay vuruldu, bir kos-nağara çırpıldı ki, gəl görəsən. Qadir vəzir başının atlılarınan qızının qənşərinə çıxdı. Vəzir-vəkil, naib-sərkər də şahzadələri və Sahibə-Soltan xanımı dövrəyə alıb saraya gətirdilər. Toy bayram başlandı. Sahibə Soltan əmisinin yanına gəlib. Heybəsindəki narınc-turuncu ona verdi:

— Dərmanın bucuğaz olsun, əmi, ye! — dedi.

Padşah narınc-turuncdan yeyən kimi o saat sappasağ oldu. Qızdan əhvalatı soruşdu. Sahibə-Soltan xanım başına gələn əhvalatları əvvəlindən axırına kimi, mən sizə nağıl elədiyim-təki əmisinə, atasına danışdı. Əmisi oğlanlarını harda, necə tapıb-gətirdiyini də oğlanlar özləri danışdılar.

Axırda Sahibə-Soltan xanım dedi:

— Əmi, ürəyinə dəyməsin! Kam almaq yaxşı şey deyil, amma sən bir vaxtlar mənim atamın ürəyinə dəymisən. Oğulsuz atamı kövrəltmisən. Amma indi özün də gördün ki, yeddi köpək bir iş görə bilmədi, yeddi qızın ən kiçiyi sənə narınc-turunc da gətirdi, yeddi oğlunu da.

Nadir padşah bu sözlərdən pozulmadı, dedi:

— Doğru deyirsən, qızım! Allah mənə cəza verdi. Mən pis zarafat eləmişəm. İstəkli qardaşımın ürəyinə dəymişəm. Neynək, təki hər

şeyin axırı xoşbaxtlıq olsun, necə də ki oldu. Qardaş, sən də məni bağışla.

Onlar hər ikisi Sahibə-Soltanın alnından öpüb dedilər:

— «Aslanın erkəyi, dişisi olmaz» deyənlərə min rəhmət. İndi də gəlin toy-bayramımızı eləyək.

Bəli... Bütün Qəndahar, şahzadələrinin tapılmağını, padşahın sağalmağını bayram eləməkdə olsun, sənə kimdən deyim, kimdən danışım, Gün Günəş oğlundan!

Camadar bunun başına bir-iki qab su töküb xəznədən çıxardıb kisəçiyə vermişdi, canına kisə dəyən kimi narahatlığı artmağa başladı. Öz-özünə dedi: «Ey dili-qafil, mən elə onun oğlan, ya qız olmasını bilmək üçün hamama gətirmişdim, bəlkə elə allanmışam». Kisəçiyə dedi:

— Əyşi, çıx bir gör mənim qardaşlığım niyə yubandı, soyunub gəlmədi? Qərib qonaqdı, inciyər-elər ha!

Kişi kisəni onun kürəyində qoyub hamamın qənşərindəki paltarsoyunulan yerə keçdi, az keçmiş qayıtdı, dedi:

— Vallah, ay Gün Günəş oğlu, qardaşlığını tanımıram, paltar soyunulanda qərib adam görmədim. Boğça saxlayandan soruşdum, dedi: «Gün Günəş oğluna çatası bir kağız var. Bir qoca kişi gətirib verdi...»

Gün Günəş oğlu kisəçinin sözünün dalını eşidə bilmədi. Elə bil onu qaynar sudan çıxardıb soyuq suya saldılar. Cəld yerindən qalxıb başılovlu boğça saxlayanın yanına cumdu. Naməni alıb oxudu, baxdı gördü «qardaşlığı» yazıb:

Qız gəldim, qız getdim, Gün Günəş oğlu!
Hamıdan tez getdim, Gün Günəş oğlu!
Narınc-turuncunu apardım, Gün Günəş oğlu!
Dalımcan gələsən, Gün Günəş oğlu!

Gün Günəş oğlu naməni oxuyub qurtardı, day necə geyindiyini bilmədi. Haray hara çatacaq!

Hamamdan çıxanda, gördü qapının ağzına həmin kağızdan vurulub.

Qız gəldim, qız getdim, Gün Günəş oğlu!
Hamıdan tez getdim, Gün Günəş oğlu!
Narınc-turuncunu apardım, Gün Günəş oğlu!
Dalımcan gələsən, Gün Günəş oğlu!

Gün Günəş oğlu başıalovlu özünü evə çatdırdı. Darvazalarının da qənşərində həmin namədən birini gördü. Qopardıb içəri girdi.

— Ana can, qız hanı?

— Hansı qız, ay bala?

— Qardaşlığım qız imiş ana can! Axı mən sənə dedim ki:

Barmağı üzük yeridi;
Qolu bilərzik yeridi,
Ana, qonağım qızdı.

— Nə danışırsan, ay bala? Elə indicə sənin qənşərincə xəbər verdi ki, sən onu yolda gözləyirsən. Əmisi azarlıdı, ismarlayıblar onu.

— Yox, ana! Bunlar hamısı kələkdi. Bunu al oxu.—deyib naməni anasına verdi. Arvad alıb oxudu, gördü yazılıb:

Qız gəldim, qız getdim, Gün günəş oğlu!
Hamıdan tez getdim, Gün Günəş oğlu!
Narınc-turuncunu apardım, Gün Günəş oğlu!
Dalımcan gələsən, Gün Günəş oğlu!

— Ana, mən getdim, ev-eşikdən muğayat ol.

Arvad dedi:

— Ay bala, sən onu hardan, necə tapacaqsan? Nə mazarat qız imiş!

— Elə mənə də xoş gələn mazaratlığıdı. Mənim bağıma quş quşluğu ilə səkə bilməsin. İndi bir qız xeylağı gəlsin, məni tovlaşdırıb, boynuma da deyin qoysun getsin? Onda mən gərək Gün Günəş oğlu olmayam. Onu tapmasam, ləçəyi başıma olsun!

Gün Günəş oğlu bu sözləri deyib hazırlandı. Altdan geyinib üstdən qıfıllandı, üstdən geyinib altdan qıfıllandı, köhlən ata suvar oldu, nə qılınc qurşadı, nə qalxan götürdü, dedi: «Ay qız, nə adını, nə kimliyini bilmirəm. Bağımdan təkcə narınc-turunc aparmamısan, ürəyimi də ovlayıb aparmısan, ay zalım! Sən kələknən gəlmişdin, mən də səni kələknən axtarıb tapam gərək. Yoxsa dilim yanında gödək olar».

Oğlan ata mindiyini gördü; at yeldən qanad taxdı, seldən axar götürdü. Sürdü atın çaparını, qırdı yerin damarını. Bir də gözünü Qəndahar şəhərində açdı.

Gəlib bir karvansarada özünə, adına layiq hücrə tutdu, nökər tutdu. Sonra da nökərini göndərib bir dənə xırdavatçı çantası aldırdı, bir dəst də köhnə libas. Öz-özünə fikirləşdi ki, «o mənə kələk gəlib, mən də kələk yolu ilə onu tapmalıyam. Yoxsa nə öz adını bilirəm, nə atasının adını. Evlərini tanımıram. Kimin qapısını döyüm? Kimliyini kimdən soruşum? Yaxşısı budu şəhərə çıxıb qızlara xırdavat sataram. Bir-bir həyətləri gəzərəm. Bəlkə allah rəhm elədi, tapa bildim. Bəs üzünü də görə bilməyəcəyəm axı! Eh, xırdavatçıdan kim yaşınır? Birdən heç xırdavat alan olmadı?». Oğlan çox fikirləşdi, çox götür-qoy elədi. Dedi: «Hə, mən onu bircə gülüşündən tanıyaram, gərək elə xırdavat satam ki, çağıranda eşidənlər gülsün». Belə fikirləşəndən sonra köhnə paltarı əyninə geydi, xırdavat çantasını boynundan asdı, küçəyə-çıxdı, şəhəri gəzib xırdavat satmağa başladı.

Küçələri gəzdikcə, evlərə, imarətlərə, qapı-pəncərələrə tərəf boylanıb gözəl səslə oxuyurdu:

İynə alan, sancaq alan,
Gülüşün, qızlar, gülüşün!

Onun əcaib-qəraib xırdavat satmağını eşidənlər doğrudanda gülüşürdülər.

Bir gün belə, beş gün belə. Günlərdən xoş günün birində Gün Günəş oğlunun yolu vəzir Qadirin imarəti qabağına düşdü. Bu vaxt Sahibə-Soltan xanım külafirəngidə əyləşib şəhərə tamaşa eləyirdi. Birdən tanış bir səs eşitdi:

İynə alan, sancaq alan,
Gülüşün, qızlar gülüşün!

Qızın ürəyi atlandı. Külafirəngidən əyilib aşağı baxanda nə gördü? Gördü ki, o igid Gün Günəş oğlu köhnə paltar geyib əyninə, boyundan da bir xırdavatçı qutusu asıb, gözlərini imarətlərin dər-divarına gəzdirib, məzəli səslə oxuyur:

İynə alan, sançaq alan,
Gülüşün, qızlar gülüşün!

Qız o saat annadı ki, oğdan onu axtarır, onu deyib gəlib. Bu zəhmətlərə də onun xətri üçün qatlaşır. Amma Gün Günəş oğlunun geyimi, kecimi doğrudan da gülməliydi. Qız həm bu-səbəbə, həmi də özünü sevgilisinə tanıtmaq üçün ürəkdən, bərk bir qəhqəhə çəkdi. Gün Günəş oğlu bu qəhqəhəni eşidən kimi başını qalxızıb, külafirəngiyə tərəf baxdı. Sahibə-Soltan xanım cəld bürüncəyini üzünə çəkdisə də, oğlanın ovçu gözü onu aldı, nə aldı! Qız otaqda qeyb oldu. Gün Günəş oğlu yaxından keçən şəhərlilərdən birindən soruşdu ki, bu imarət kimindi. Ona Qadir vəziri nişan verdilər.

Gün Günəş oğlu xırdavat qutusunu həmin adama

bağışlayıb, cəld karvansaraya daban aldı. Gəlib cırım-cındırı əynindən çıxartdı. Hamama getdi, yuyunub arındı, faxir libas geyindi. Bur sini içinə ləl-cəvahirat yığılmış xonçanı nökərinin başına qoyub vəzirin sarayına yol aldı. O zaman padşahların, vəzirlərin qapısında iki daş kürsü olardı: biri elçi daşı, o biri də yolçu daşı. Pay istəyənlər yolçu daşını, pay gətirənlər elçi daşını süpürüb oturardılar. Gün Günəş oğlu da gəlib elçi daşını süpürüb oturdu. Oğlan burda oturmaqda olsun, sənə xəbəri kimdən verim, Sahibə-Soltan xanımdan.

Sahibə-Soltanın bacıları çoxdan ərə getmişdilər. Kimisi şahzadəyə, kimisi vəzirzadəyə, kimisi vəkilzadəyə, kimisi də xanzadə, bəyzadə, ağazadədən birinə verilmişdi. Ev-eşik sahibi olmuşdu. Amma atası nə qədər eliyirsə də, Sahibə-Soltan elçi daşının üstündə oturub, onu istəyənlərdən birinə də könül vermirdi. Axırda-atasına demişdi:

— Ata can, incimə, vaxtı gələndə özüm sənə deyəcəyəm.

Ata da qızını çox istədiyindən onun qəlbinə toxunmurdu. İndi qız Gün Günəş oğlunun gəlməyini görən kimi içəri keçib atasının yanına gəldi:

— Ata can, vaxtdı. Bir azdan sonra sənin qapında-elçi daşını süpürüb bir oğlan oturacaq. O cavan—məşhur pəhləvan Gün Günəş oğludu.

Atası da başa düşdü:

— Nə deyirəm ki, qızım? Xoşbəxt ol! Elə ağılda da, igidlikdə də bir-birinizə layiqsiz. Allah sizə yar olsun.

Bu vaxt nökər gəlib Gün Günəş oğlunun elçi daşının üstündə oturduğunu xəbər verdi. Vəzir əmr elədi. Gün Günəş oğlunu imarətin ən lətif bəzənmiş otaqlarından birinə apardılar. Xonçasını qəbul elədilər. Sonra vəzir özü onunla görüşüb danışdı, yanına salıb qardaşı Nadir padşahın qulluğuna apardı. Onun da razılığını alıb, Gün Günəş oğlu ilə Sahibə-Soltan xanımın kəbinini kəsdirmək üçün gün xoşladılar. Qazı gəldi, kəbini kəsdi. Nadir padşah onu ölümdən, oğlanlarını itkindən

qurtaran istəkli qardaşı qızı üçün qırx gün, qırx gecə toy vurdurdu. Qul azad elədi. Sadağa verdi. Sonra da atası qızın cehizlərini qırx dəvəyə yükləyib, onları Gün Günəş oğlunun diyarına yola saldı. Burda da Gün Günəş oğlunun anası cavanlara toy busatı qurdurdu. Gün Günəş oğlu ilə Sahibə-Soltan ömürlərdən kam aldılar. Göydən üç alma düşdü: biri mənim, biri nəvəmin, biri də qulaq asanların.

AY DOĞDU, O DA PARA

Nağıl danışanlar belə deyir ki, Şirvanşah Fərruxzadın zamanı idi. Saraya padşah üçün qırx incəbel kəniz gətirilmişdi. Hamısı da bir-birindən gözəl: aydan arı, sudan duruydu. Amma bu qırx qızın içində bir kəniz vardı, bir kəniz vardı... aya deyirdi sən çıxma—mən çıxım, günə deyirdi sən baxma—mən baxım! Gözlər xumarlıq piyaləsi, dodaqlar qızılgülün qönçəsi, yanaqlar almanın parası, hörüklər bir cüt qarğı—topuğunu döyür. Qərəz yemə, içmə, elə əlini üzünə qoy oturub gözəlin xəttü-xalına; gül camalına tamaşa elə. Böyük yaradan, qüdrəti coşa gələndə, həvəsli vaxtında yaradıb. Adı Paraxanım[1] idi. Padşah qırx kəniz içində bircə bunu sevdi-seçdi. «Getmə gözümdən, gedərəm özümdən» oldu. Bir saat kənizsiz dura bilmirdi. Elə divan-divanxana vaxtı işini-gücünü tələm-tələsik yoğur-yumrula elədir, hansı işdən yapışsa tezcə əlqap eləyir, əlüstü xəlvətə çəkilib kənizi Paraxanımı yanına çağırtdırırdı. Qızın qənirsiz gözəlliyinə tamaşa eləyirdi. Padşah Fərruxzad özü də kifir kişi deyildi. Yaraşıqlıydı, atan-vuran idi. Paraxanımdan da canını əsirgəməzdi. Amma neynəyəsən ki, qızın könlünə heç yatmırdı. Qızın gözü şah bağının qırxillik bağbanının oğlu Qansunu tutmuşdu. Qansu çinarboylu, şahinqürrəli oğlan idi. Hər dəfə Şah bağına atasına köməyə

[1] Qədimdə Para eyni zamanda pul demək idi. İndi də bəzən yanaşı işləyir. Pul-para şəklində.

gələndə təkcə kənizlər yox, şahzadə xanım-qızlar, bəyimlər, sultan xanımlar da pəncərələrə doluşub pərdənin dalından Qansunun işləməyinə, yerişinə, duruşuna, qartal baxışına tamaşa elərdilər. Bir az cürətli olanlar bir bəhanə tapıb bağa enər, qoça bağbanla söhbətləşərdi. Qansu bağda olmayanda onun yerini atasından alar, tez-tez gah gül üçün, gah ətirli bir reyhan, ya da süsənbər üçün qocanın yanına qaçar, başına dolanardılar.

Qansu bağda işləyəndə onun enli kürəyinə, canlı biləyinə tamaşa eləmək ayrı ləzzət verirdi. Oğlan qüvvət, qüdrət heykəli idi. Beli torpağa hər sancanda başqasının götürdüyünün iki-üç misliycən belin ağzında torpaq götürüb çevirirdi. Dirsəyəcən çırmadığı qolları, boynu, üzü mis rənginə çalırdı.

Qansu da gözaltı kəniz Paraxanıma baxır, onun ədəbini, kamalını, camalını bəyənirdi. Əgər Paraxanım kəniz olmasaydı, soltan-xanımlardan, bəyimlərdən biri olsaydı, Qansu o tərəfə heç gözünün ucuynan da baxmazdı. Qansu yerini-yurdunu bilən oğlan idi. Şahzadə məhəbbətini belindəki xəncərin tiyəsiynən əlindəki bel-kürəyin ucuynan qazıb ürəyindən çıxarda bilərdi. Qansu belə oğlan idi. Amma axı Paraxanım kəniz idi. Bəyəm az belə iş olmuşdu ki, padşah xoşuna gələn bağbanına, mehtərinə kənizini ərə versin.

Əlbəttə, olmuşdu. Odu ki Qansu da bağda əvvəl atasına kömək eləyirdisə, indi indən belə həm də Paraxanımın eşqinə can-dildən çalınşıb əlləşirdi. Axır vaxtlar bağ elə olmuşdu, elə olmuşdu ki, heç ruzgarın gözü bəlkə beləsini görməmişdi. Bağda gül bülbülü, bülbül gülü çağırırdı. Güllərin ətrindən, quşların cəh-cəhindən bağa gələn bihuş olurdu.

Paraxanım bağa gəlib Qansudan aralı durar Soltan xanımlar üçün gül dərən əli havada asılı qalar, elə hey oğrun-oğrun oğlana baxırdı. Arabir istəklilərin gözləri bir-birinə sancılırdı. İş elə gətirdi ki, Qansu gecələr də evdə duruş gətirə bilmədi. Yatağına elə bil qar doldu. Yata bilmədi. Yerindən durdu. Bağa gəldi, gəzdi-dolandı. Kənizlərin yatdığı otağın

pəncərəsinə baxdı... baxdı... Keçib sevdalı başını gül kolunun dibinə qoydu, uzandı. Gözlərini pəncərəyə zillədi. Elə beləcə də yuxu tutdu onu. Bir gecə-beş gecə belə keçməkdə, Qansu bağda yatmaqda olsun, xəbəri sənə Paraxanımdan verim. Paraxanım da oğlanın eşqindən dinclik tapa bilmirdi. Ürəyi uçum-uçum uçunurdu. Hər dəfə şah onu yanına çağırtdıranda ödü ağzına gəlirdi.

Əslində Fərruxzad nə qədər zalım padşah olsa da Paraxanıma böyük məhəbbət bəsləyirdi. Amma Paraxanımın onu görən gözü yox idi. Atasından-anasından, doğma el-obasından, yurdundan ayrılan, kəniz edilən qızın üzü gülməzdi axı! Odu ki, ürəyində hey padşaha-qarğıyırdı. Elə ki Qansunu gördü sevdi, bir tərəfdən qəlbində ümid oyandı ki, bəlkə bu igid onu kənizlikdən xilas elədi. O biri tərəfdən də şahdan qorxurdu. Bilirdi ki, şah bu məhəbbətdən xəbər tutsa Qansulu da yox elər, Paraxanımı da. Fərruxzad onların böyük tikəsini qulaqlarıycan elər, hər tikəsini də bir quduz itə atdırar. Amma neynəyəsən ki, bir eşqə, bir ölümə hökm yoxdu. Eşq Paraxanımın ürəyinə güc gətirdi. Otaqlar ona dar gəldi. Yatağı od oldu, yandırdı onu. Göz oldu canına yapışdı. Qız xəlvətcə yerindən qalxdı, sərinləmək, yanğısını söndürmək üçün bağa çıxdı.. Gəzdi, dolandı. Qansunun əkdiyi; güllərdən iyini aldı. Gəlib hovuz yanındakı qızılgül koluna çatdı. Birdən nə görsə yaxşıdı? Qansu sağ əlini yanağının altına qoyub, üzü saraya tərəf uzanıb, yuxuya gedib. Paraxanım ayaq saxladı. İstədi otursun, oğlanın odlu başını dizinin üstünə qoysun. Axan göz yaşları ilə onun üzünü-gözünü yusun, sərinlətsin, ürək eləmədi. Bir xeyli baxandan sonra qayıdıb getmək istədi. Ayağı kötüyə ilişdi. Ufuldadı. Ufultusuna səksəkəli yatmış Qansu oyandı. Sarmaşıq təzə pöhrəyə sarılan kimi, həsrətlisinə sarıldı. Beləcə onlar hər gecə görüşə çıxdılar. Hər gecə ayın hilalından bədrinəcən kölgələrdə daldalandılar. Ay qaranlıq gecələrdə hovuzun başında oturub dərdləşdilər. Necə, nə təhər, kimin əliylə bir-

birinə qovuşmaqları haqqında düşündülər. Amma mətləbi dillərinə gətirmədən baxışdılar, Paraxanım ürkək ceyrandan da səksəkəli olurdu. Qansu onu nə qədər sakitləşdirməyə çalışırdısa da bacarmırdı. Axı qız ona Fərruxzadın məhəbbəti haqqında söz deyib qısqandırmaq istəmirdi. Özü isə qorxudan gündə bir parça ölürdü.

Axır vaxtlar şah Fərruxzad kənizi Paraxanımın axtartdıranda hey bağda tapdırır, eşitcək özü də bağa enirdi. Bağın gözəlliyi, qızın gözəlliyinə qarışıb şahı heyran qoyur, padşah bu iki qənirsiz gözəllikdən ləzzət alırdı. Amma sevənin gözü heç nədə olmasa da, rəqibi görməkdə iti atar. Odu ki, Fərruxzad kəniz Paraxanımın ona yox, bağban oğlu Qansuya baxdığını hiss elədi. Gözləri həmişə güldü onların. Bir gecə şah nakam məhəbbətdən, bir də xoşbəxt rəqibə paxıllıqdan yata bilmədi. Şah olanda nə olar? Cavabsız məhəbbətə o da düçar ola bilir! Yerinə ilan-çayan doldu, çaldı onu. Durub bağa çıxdı. Ayın qaranlığı idi. Qansu ilə Paraxanım kölgədə gizlənmədən hovuzun böyründə gül kolunun yanında açıqlıqda dayanmışdılar. Şah Fərruxzad həniri aldısa da kimliklərini yəqin bilmək istədi. Hovuza tərəf addımladı. Ehtiyatla gedirdi. Birdən gecəyarısından sonra ay buluddan çıxdı. Sevgililər şahı bir neçə addımlıqlarında gördülər. Paraxanım fəryad qoparıb, Qansunun qolları arasına düşdü. Qorxudan bayaq canını təslim eləmişdi. Bunu görən Qansu, qızı hovuzun kənarına qoydu. Üzünü təzəcə doğub dünyaya işıq saçan aya tutdu, dedi:

Qarşıda odu-Para!
Ay doğdu o da para,
Vardı bir odu sönmüş,
Canımdan od apara?!

Eşqin gücündən, Paraxanım ölümündən Qansunun da ürəyi partladı. Başını Paraxanımın ayaqları üstünə qoyub canını

tapşırdı.

Fərruxzad qəzəblə sevgililərə yaxınlaşdı. Gözünü qan örtmüşdü. Cavanların heç birinin ölməyinə inanmırdı. Odu ki, xəncəri Qansunun kəmərindən çəkdi, hər iki aşiqin sinəsini yardı, «Göstər mənə odunu, aparram odunu» deyib, ürəklərini çıxartdı və qolu gəldikcə şah bağının hasarından o yana, çölləməyə tulladı. Hər iki ürək yerə düşən kimi şölə çəkib yanmağa, işıq saçmağa başladı.

Qan iyinə yaxındakı meşədən ac qurdlar, çaqqallar, başqa vəhşi heyvanlar çıxdı. Ürəklərə yaxınlaşdılar. Amma heç birisi odun işığınamı, məhəbbətin gücünəmi ürək eləyib yaxın dura, ürəklərə ağız uzada bilmədilər. Səhərəcən şölə saçan ürəklərin dövrəsində durdular, dəymədilər, uladılar ac qurdlar.

Səhər üzü tamaşaya yığılanlar içindən nurani bir dərviş peyda oldu. Hər iki ürək üçün yamyaşıl təpə üstündə kiçik bir qəbir qazdı. İki sevən aşiqin ürəyini o balaca qəbirdə yanaşı basdırdı. Əbədi birləşdilər. Həmişəlik bir-birinə qovuşdular. Yan-yana yatdılar aşiq ürəkləri. El zalıma lənət oxudu: iki nakam cavanı həmişə məhəbbətlə yad elədi.

DEŞİKLİ DAŞIN NAĞILI

Mustafa xanın zamanıydı. Qılıncının dalı da kəsirli, qabağı da. Sözünün üstündən söz deyən yoxuydu. Kəsdiyi başa rəhmi gələnin dilini gödəldirdilər. Amma sarayında bir neçə şair varıydı, bu şairlərin də başçısı Kərbəlayı Arif Allahiydi. Hər cümə günü namazdan sonra Fit dağındakı sarayda yığışırdılar, verirdilər özlərini manqalın dövrəsinə ya da kürsünün başına, Lahıc işi mis məcməyidən xuşkəbar — püstə, badam içi, ləbləbi, çətənə küncüt qatılmış qovurğa, bal, ədviyyat qatılmış qovut yeyirdilər. Ta axşam namazınacan. Günləri belə keçirdi. Xanın şeir məclisinə başqa-başqa

şəhərlərdən, kəndlərdən də qonaqlar gəlirdi. Xanlığın kefcil vaxtı idi. Gündə fağırın birini tutub gətirir, xanın yanında gülünc yerinə qoyur, şəbədə eləyib gülür, ələ salırdılar. Sonra da ya bir paydan-zaddan verib yola salır, ya da qanıqara söyülüb-döyülmüş halda buraxırdılar gedirdi. Baxırdı o gün xanın kefinə.

Sizə sarayın hansı işindən danışım, bir fağır tərəkəməni gətirib, «Üsüli-din neçədir?» soruşublar. Saray əhlindən biri xanın çiyni üstündən o görməsin deyə fağıra on barmaq göstərir. Tərəkəmə «ondur, xan, başuva dönüm» — deyir. Xan qəzəblənir kəndlini döydürür. Tərəkəmə fağır and-aman eləyir ki: «Xan başına dönüm, mən on iki demək istəyirdim, sənin o vəzirin on görkəzdi, aman günüdü, günah onda, məni nəyşə döydürürsən? Balalarının başına çevir məni, burax gedim işimə». Xanı gülmək tutur və tərəkəməni azad edirlər. Bundanmı danışım? Qərəzim budu ki, Şirvan xanlığının kefcil vaxtıydı. Gündə şeir məclisi, gündə qonaqlıq, gündə bayram. Belə bir vaxtda xanın sarayında onun dörd arvadından beş-on övladı böyüyurdu. Oğlanların günü ovda, dağlarda təkə, əlik, qayalarda xınalı kəklik, Küdrüdə ceyran-cüyür ovlamaqda keçirdi. Qızlarıysa... Qızların günü evdə analarının, nənələrinin, dayələrinin dizinin dibində nağıldan, tapmacadan eşidib, qovurğa yemək, saqqız çeynəmək, arabir də mollabacıdan quran dərsi almaqnan keçirdi. Xanım soltanlarıp gözəlliyi dillərə düşmüşdü. İranı, Turanı, Dağıstanı başına götürmüşdü. Urnsiyətəcən gedib çıxmışdı. Kitablarınızda oxumuşsunuz axı. Elə ondan, bax sizə indi danışacağam əhvalatdan azacıq sonra Puşkin Şamaxı sultan qızlarının gözəlliyindən nağıllarında yazıb. Qərəz xanın qızları çox gözəliydilər. Suya «axma!» desəydilər axmazdı. Şırşır bulaqlar güzgüləriydi, yaşıl yamaclar seyrəngahlarıydı. Tut ağaclarına yelləncək asıb gülə-tülə bürənər, yellənərdilər. Zarafata salıb ağızlarına ləb-ləbi ata-ata qulluqçu qızların böyrüycən bulaq

başına gedərdilər. Xanım sultanların içində biri vardı, biri vardı, yemə, içmə gül camalına tamaşa elə. Deynən ki, ay bunu yaradan tanrı, telini daradan tanrı, mənə cümlə cahanın nemətlərindən elə bircə bu qızı — Zeyvənisə sultanı qismət elə. Bir qızdı — qızıl parçası; xəbəri yox oğlanların, dərdi çox oğlanların. Dərbənddi Dorbəndbəyin qızı dünyagözəli Qızxanım kimi gözəldən dünyaya gəlmişdi. Xanın istəkli hərəmiydi deyin ondan doğulan qızı da xan o biri qızlarından çox istəyirdi. Getdiyi yollara su səpdirərdi ki, Zeyvənisə sultanımın ayağına toz dəyməsin, nəfəsinə yolların qubarı qonmasın. Üstüycən buluddan kölgəlik gəzdirmək istərdi ki, yaz günü, dağ havası şümşad əllərini, pənbə yanaqlarını, süd üzü kimi bəyaz alnını qaraltmasın, xurmayı saçlarının rəngini avazıtmasın... Xanın düz-dünyada ürəkdən sevdiyi, ürəkdən bağlı olduğu bircə məxluq varıydısa Zeyvənisə sultanım idi. Amma Zeyvənisə sultan da əzizlənməyinə baxmayın, a!.. Ərköyün-zad deyildi. Quşlara qoşulub uçmaq, bulaqlara dolub axmaq, səhər nəsimiynən güllər üstündə əsmək, qumrularla yollara qonmaq, qartallar kimi firuzəyi göylərdə cövlan eləmək, dağ çayları, coşğun şəlalələr təkin şaqqıldayıb oxumaq, bülbüllə birlikdə cəh-cəh vurmaq istəyən nncədən incə, sevimlidən sevimli bir qız idi.

Fit dağının döşündə qoyun otaran bir çoban da var idi. Mustafa xanın ətlik qoyunlarını otarardı. Yayda Baba dağında, qışda Kürdüdə olardı. Qoyunlar təzə otlardan xırpa-xırpla yeyib ətə-cana gəldikcən, çoban da tütəyinə dəm verərdi. Şirvan şikəstəsini, Sarıtorpaq şikəstəsini, onun kimi çalıb-oxuyanı ruzgarın gözü görməmişdi, qulağı eşitməmişdi. Çoban boylu-buxunlu, qara şəvəbığlı, qara şəvəqaşlı, top qarabircək oğlan idi. Qara, badamı gözlərindən baxanın ürəyinə məhəbbət, mehribançılıq süzülərdi. İl-müdam qara yapıncı çiynindən, şobbu çomaq əlindən düşməzdi. Qumral kərə qoyunun dərisindən öz əlciyəziynən tikdiyi saçaqlı şiş papaq boyunu bir

az da uca göstərirdi. Yanındakı yannığında Küdrüdə Qarasu qamışından kəsdiyi tütəyi, dələmə çalmaqçın mayası, çörəyi əskik olmazdı. Adı Səməndəriydi, elə Səməndər quşu təkin də yanırdı, yandırırdı dağları, düzləri. Çəmənlərin təkəsaqqalı, şüyütkən yemlikləri, qazayağı, quzuqulağı, şomu, quşəppəyi əppəyinin qatığı idi. Amma adamlar onun adını da unutmuşdu; neyçün ki, çaldığı şikəstələrə elə şirin, elə dadlı, elə ürəyəyatımlı bayatılar qoşardı ki, eşidən deyərdi bir də eşidim. Odu ki, adını da Bayatı Çoban çağırardılar.

Dindirirdin bayatı deyirdi. Bayatıynan cavab verirdi. Az qalırdın sən də onu eşidən kimi dönüb bayatıynan cavab verəsən. Harda görüşmüşdülər, harda tapışmışdılar... demək çətindi. Xan qızı Zeyvənisə sultanımnan Bayatı Çoban bir-birini aşıxlamışdı. Demə görmədim, Leyliynən Məcnun, heç uzağa getmə Fərhadian Şirin. Qədir mövlam onları xasiyyətdə də tutaş yaratmışdı. Düz-dünyamızın, əlvan çiçəklərimizin, zümrüd yaylaqlarımızın, ötüşən quşlarımızın, mələşən quzularımızın, başı dumandan çalmalı dağlarımızın vurğunuydular. Elə bil yaradan onları əkiztay yaratmışdı — bu dağlarda daşdandaşa səkən kəkliklər kimi!.. Görüşürdülər. Gözdən oğurlanan kimi qız özünü Bayatı Çobanın sürüsünə çatdırırdı. Qoyun itləri də tay qızı tanımışdılar. Yanından keçəndə quyruq bulayırdılar. Kölgəsi düşən səmtə yatırdılar.

Qız görüşə gəlməyəndə Bayatı Çoban tütəyinin yanıqlı səsiylə elləri-obaları, dağları-daşları, göy üzündə uçan quşları yaxıb-yandırırdı:

Mələ, ay quzum, mələ,
Çörəyim, duzum, mələ!
Mən mələdim, gəlmədi,
Sən mələ, bəlkə gələ.

— deyəndə dağlar duman örtüyündən sıyrılıb çıxar, qulaq

kəsilərdi.
«Bu sevdadan əl çək!». deyənlərə bayatıynan cavab verirdi, deyirdi:

Şirvanı seçəmmirəm,
Sevdadı, keçəmmirəm.
Könlüm ipək yumağı
Dolaşıb—açammıram.

Günlərlə dağdan-daşa yar həsrəti ilə dolanıb-gəzəndə dərdini gömgöy ot gətirmiş, üstünə min arzu, minbir dilək daşı qoyulmuş yosunlu qayalara deyirdi:

Şirvanın kədikləri,
Heyvadı yedikləri,
Yadıma bir-bir düşər,
Yarımın dedikləri.

Qız da vədsindən qalmazdı, gözdən oğurlanıb daldalarda yer tapar, vaxtına, vədəsinə hazır olar, əhdinə-peymanına dürüstlər kimi dillənərdi. Oğlanın çoban, fağır, kasıb olmağı, özünün xan evindən, xanın ən ərköyün övladı olmağı onu qorxutmurdu. Sevirdi oğlanı, onuynan dünyanın axırına da gedərdi:

Qoy mənə Kür desinlər,
Kürdən də kür desinlər,
Əlini əlimə versinlər,
Şirvandan sür desinlər.

— deyərdi. Sürgün olmağa da, cəlayi-vətən olmağa da razıydı Zeyvənisə sultanım. Təki əlini yarının əlinə verəydilər. Amma düzələn iş deyildi. Bu sözü, bu sorağı paxıl çuğul, xana qandırdı. Qulağına çatdırdı: «Nə durmusan? — dedi. —

Sürülərini otaran Bayatı Çaban qızına sahıblanıb. Dərə bilmir, təpə bilmir, aləmə car çəkib. Səni el içində rüsvay eləyir bu dərənin dəli-qudurmuşu.

Xan sağ olsun, hələm yerri-yataqlı da deyib:

Piyalələr qannıdı,
Toxunma dərmanlıdı,
Burda bir qız sevmişəm
Xan soylu, Şirvanlıdı.

Bir də deyib ki:

Şirvanın şirin narı,
Yeməyə şirin narı,
Sovqatı sizin olsun
Göndərin bizim yarı.

İşə bax, bir də lap açıq-aşkar deyib:

Şirvanın torpağıyam.
Xan qızının sağıyam.
Al yanaqda gül açmış
Mən onun yarpağıyam.

Xan bir soruşmadı da ki, bu bayatıların sultanıma nə dəxli var axı? «Aşıq ağzı — el ağzı, kərə də çağırır, kürə də». Qəzəb gözlərini elə örtmüşdü ki, qızının adı-sanı, namusu üçün elə əsirdi ki, məna yadına düşən təhərdə deyildi.

Xan qəzəb atını mindi, dəmir yedi, göyə fınxırdı, bığlarını çeynədi, ən yaxın məsləhətçisi şair Allahini yanına çağırdı:

— Dərənin dəli qudurmuşunun biri Zeyvənisə sultanıma aşiq olub deyirlər. Tədbir tök! — dedi.

Şair dedi:

— Yazıya pozu, təqdirə tədbir yoxdur, sultanım! Onlar haqq aşığıdı, haqq aşığına toxunma.

— Sən də belə? İndi mən o yazını pozum, sən də tamaşa elə. Mən o haqq aşığına bir sitəm eləyim ki, anadan əmdiyi burnundan gəlsin. Zeyvənisə yox ha!.. Bir də ayrı arvad, qız-gəlin adı tutanda dili damağına yapışsın.

— Etmə, xanım, eləmə, sultanım, o, haqdan yaranmış bülbüldü. El deyib, dədələr deyib: «Bülbül yuvasını dağıdanın yuvası dağılar».

Şair ha yalvardı-yaxardı, ha dil tökdü, xan sözündən Dönmədi ki, dönmədi.

Əmr elədi, Bayatı Çobanı tutub salsınlar Fit dağından aşağıda qayalıqlarda qurulmuş zindana. Bu zindan elə bir yer idi ki, içdən kahaydı, mağaraydı, dərin quyudan dərin, zülmət gecədən qaranlıq... Nə nəfəsliyi vardı, nə işıq düşən yeri. Bir-birindən sal daşlarnan ayrılmış xırdaca gözləriydi. İçinə sürünüb girəndən sonra dəlmənin ağzını iri dəyirman daşıycan daşnan qapayırdılar. Qurtarıb gedirdi. Bir səhər bir də günortanı keçəndə üç qolugüclü, süysünü qüvvətln pəhləvan gəlirdi, daşı diyirlədirdi, dustağa sudan, caddan verirdilər, sonra da genə o pəhləvan oğlanlar qapağı yerinə qoyurdu. Dustağın dünya üzündən səs-sorağı kəsilirdi.

Xanın nökərləri o yerdə özlərini sürüyə çatdırdı ki, Bayatı Çoban sevdiyinin eşqiynən oxuyur:

Şirvanın gecələri,
Banlaşır beçələri,
Sənsiz mən necə yatım
Bu uzun gecələri?

Nökərlər Çobanın səsinə, nəfəsinə qulaq verdilər, gördülər heç özündə-sözündə deyil Çoban, fikri onlardan çox uzaqlardadı, sevdiyindən deyib danışır:

Bu yol Şirvan yoludu.
Piyalələr doludu,
Çiynimə kölgə düşdü
Dedim ki, yar qoludu.

Çobanın səsində, sözündə həsrət var idi, yanğı var idi. Nökərlər nəyə gəldiklərini yadlarından çıxardıb ot üstündə oturmuş, dirsəklərini çobanyastığı çiçəklərinə söykəyib qulaq asırdılar huş-guşnan:

Şirvanın sucaqları,
Od tökər ocaqları,
Hamı yara qovuşdu,
Mən gəzdim bucaqları.

Şirvanın yolu həşəm.
Ağlamaq olub peşəm.
Hardadı mənim yarım?
Üç gündü görməmişəm.

Nökərlər necə vardı, eləcə qoyub qayıtdılar, heç Bayatı çobana: nəyə gəldiklərini də deyə bilmədilər. O yandan Zeyvənisə sultanım xəbər tutdu ki, xan babası Bayatı Çobanı zindana saldırmaqçün adam göndərib. Ürəyini əlinə aldı, qorxu-hürkü yadından çıxdı. Yola baxmadı, dağ görmədi, dərə bilmədi, sürülər otlayan döşə tərəf can atdı. Gedirdi, deyirdi:

Şirvanın dağları var.
Meyvəli bağları var.
Rəhm elə, zalım yağı.
Dalıycan ağları var

Bu zalım yağı qızın doğmaca dədəsiydi. Balasına da, onun sevgisinə də yağı kəsilmişdi.

Qız gəlməyində olsun, o yandan çuğul deyici özünü Bayatı Çobana yetirdi. Birinin üstünə beşini qoydu: Gəl, — dedi, — səni xandan, xan qəzəbindən özüm qurtarım. Gedək mənim evimdə gizlən. Yoxsa xan nökərləri qanına susayıb, su yerinə qanını içəcəklər. Yerikləyirlər sənin qanına»— dedi. Çoban deyiciyə bir baxdı, amma onun gözlərini görə bilmədi, iki baxdı, genə də çuğul gözünü ondan gizlətdi. Çoban başa düşdü ki, əsl qannısı elə budu, namərddi bu. Çomağımın başına söykəndi, dedi:

Şirvanım düz hasarı,
Yollardan üz hasarı,
Mərdin ağac kölgəsi
Namərdin yüz hasarı.

Ayrı söz demədi, çuğul onu öz əlilə tutub xan nökərlərinə əlinə vermək istəmişdi, arzusu gözündə qaldı. Çomağın qorxusundan geri qayıtdı. Amma xayın xəbis gedə-gedə çobana yanıq da verdi:

Qara çadır his tutmaz,
Qızıl nimçə pas tutmaz,
Çoban oğlan ölməynən
Xanın qızı yas tutmaz.

Amma gözü yollardaydı. Bir də nə görsə yaxşıdı? Xanım qız, xan qızı Zeyvənisə sultanım budu gəlir. Gözü dörd oldu, yavaşca, kollar daldasıycan qızın izinə düşdü, görsün neynəyəcək. Bayatı Çoban qızı görcək çuğul da, namərdi də yadından çıxartdı dedi:

Şirvana paşa gəldi,
Gör nə tamaşa gəldi?!
Şükür, gördüm üzünü,
Hər arzum başa gəldi.

Zeyvənisə sultanım Bayatı Çobana çatmamış dilləndi, nə dilləndi:

Şamaxı bazarımış,
Mirzələr yazarımış,
Nə duman var, nə də çən
Yar yardan azarımış!

Duman da gəldi, çən də... Sən demə, Xan könlünün qəmini dağıqmaqçın ova çıxıbmış. Yolunu burdan salıb görsün Çobanı aparıblarmı? Bir də gördü budu ha... qızı çölün çoban-çoluğuynan bayatılaşır. Qan xanın beyninə vurdu. Əmr elədi, qızın da qollarını qanırdılar, oğlanın da. Zeyvənisə sultanım əllərdə çırpına-çırpına gözü Bayatı Çobanda, atasına bircə dəfə baxmadı, bayatı çağırdı:

Şirvanın yastı yolu,
Su gəldi, basdı yolu,
Gəlirdim səni görəm,
Yağılar kəsdi yolu.

Xanın fikri buydu ki, qızını evə aparsın, tənbehini evdə eləsin. Amma bir aləm kişinin gözü qabağında qız ona yalvarmadı, Zeyvənisə sultanım üzr diləmədi, aman istəmədi. Gözünü yarına dikdi. Sözünü yarına dedi. Eşqini aləmə bildirdi. Xanın qəzəbi bir az da coşdu. Yam-yörəsindəki yaxşıların da sözünü məsləhətini eşitmədi:
— Aparın, — dedi,—zindana salın! İkisini də! Hərəsini

kahanın bir gözünə salarsız. Əgər doğrudan da haqq aşığıdılarsa, haqq səslərini eşidər.

Bayatı Çoban da Zeyvənisə sultanımdan geri qalmadı. O da xana yalvarmadı. O da aman diləmədi. Axı o da sevgisindən özgə heç nəyi, heç kəsi görmürdü burda. Xan nökərlərinin əlində çırpınmadı da, dedi, nə dedi:

Şirvandı, xan yeridi,
Fit dağı can yeridi;
Sağıma bir ox dəydi
Solumnan qan yeridi,

Zeyvənisə sultanım cavabını qaytardı:

Şirvanın boz dağları.
Basıbdı toz dağları,
Yadına düşər ağlar
Hərənii öz dağları.

Bayatı Çoban bir də geri qanrıla-qanrıla, gözü sevdiyində qala-qala, qolu xan buyruqçularının əlindəykən dedi:

Uzaqdan gördü səni,
Şirvandan sürdü səni,
Sən bir məsum quş idin
Bir namərd vurdu səni.

Zeyvənisə sultanım da cavab verdi:

Şamaxı dağ içində,
Gülü bardağ içində,
Bu yerlərdən qız sevən
Yanacaq yağ içində.

Qərəz, nə başınızı ağrıdım, ürəyinizi sıxmayım, Bayatı Çobanı nökərlər kahanın bir gözünə, Zeyvənisə sultanımı da o biri gözünə saldılar. Ağzını da iri, heç iki adamın da gücü çatmayan daşla qapadılar. Dünya işığı düşməyən bu zindanda quru torpağın üstündə iki haqq aşığı qaldı. Amma zindana salınanda görmüşdülər ki, bir-birinə qonşu gözdədirlər, aralarında sal qaya daş-var. Hər ikisn də qara zülmət dünyasına düşən kimi bu ara daş divara pənah gətirib sığınmışdılar. Elə bil ikisinin də ürəyi bu soyuq qayanı isindirmişdi. Bayatı Çoban o yanda əllərini divara söykəyib oxuyurdu ki, bəlkə yarı eşidə, deyirdi:

Şirvana binə gəlləm,
Gedərəm, genə gəlləm,
Bir də üzünü görsəm,
İmana-dinə gəlləm.

Bu yandan Zeyvənisə sultanım hıçqıra-hıçqıra qaya divarını göz yaşlarıynan yuyurdu. Üzünü yarının ürəyinin istisiylə isinmiş daşa söykəyib deyirdi:

Şirvanda xan olmuşam,
Çində xaqan olmuşam,
Əlim yardan üzülüb
Yernən yeksan olmuşam.

Bayatı Çoban:

Şirvandan karvan gedir,
Qabaqda sarvan gedir
İntizar gözlərimdən

Laxta-laxta qan gedir.

Zeyvənisə sultanım:

Şirvanın ağ alması,
Yeyilir ağ alması,
Qiyamət günə qaldı
Yaramın sağalması.

Bayatı Çoban:

Tüfəngim dolu saçma,
Gül yarım, məndən qaçma!
Yeddi yerdən yaram var,
Bir yara da sən açma!

Gün ötdü, gecə keçdi, genə səhər oldu. Zindanban onlara su verdi dəymədilər, çörək verdi, toxunmadılar. Qara qaya divara sarmaşıb durdular. Qız bu yandan, oğlan o yandan söz qoşdu, söz dedi:

Bayatı Çoban:

Şirvanın boz dağları,
Basıbdı toz dağları,
Arxam köməyim olsa,
Aşaram tez dağları.

Zeyvənisə sultanım:

Şirvanın aşığı var,
Sazı var, aşığı var.
Belə qara günlərin

Həlbət bir işığı var.

Onlar hər dəfə göz yaşı tökə-tökə əllərini qara qaya divara sürtdükcən, elə bil, qara qaya — sal daş oyum-oyum oyulur, una çevrilir, yağa dönür, əriyirdi. Zindanban bunu görüncə qorxusundan ürəyi əsir, cavanlara yazığı gəlirdi.

— Şükür sənə, tanrı, daş əriyir, ata ürəyi ərimir, yumşalmır! Ata yox, xan ürəyi...

Həsrət isə oğlanı elə qovururdu ki, dilindən bayatısı, əskik olmurdu. Hər kəlməsində Zeyvənisə sultanıma yana-yana yalvarırdı:

Şirvanın biyanı var,
Otu var, biyanı var,
Barı gəl yuxuma gir
Desinlər hayanı var.

— Çaşma oğlan, mənim yuxum hardaydı? Sənin yuxun da varmış ki, mən o yuxuya girim?

Divar elə yuxalmışdı ki, indi onlar bir-birinin giley-güzarını da eşidirdilər. Bir-birinin ərkinə, nazına dəm tuturdular. Qoşa, həsrətli, ayrı-ayrı qəfəsə salınmış nakam bülbüllər kimi oxuşurdular. Göz yaşları hər dəqiqə, hər saat qayadan bir lay yuyub aparırdı. Bir də onda özlərinə gəldilər ki, tara qaya divarın tən ortasında oyuq açılıb. Elə bir oyuq ki, bir az çətinliklə də olsa Bayatı Çoban bu oyuqdan keçib Zeyvənisə sultanın yanına gələ bildi. İki həsrətli aşiqlə məşuq görüşdü, sarmaşdı, Bayatı Çoban dilə gəldi:

Şirvandan təhərim var,
Altımda kəhərim var,
Əyil üzündən öpüm,
Bir ağır səfərim var.

Oğlan bilirdi ki, xanın qəzəbinə düçar olacaq, xan onu bəlkə də öldürtdürəcək, ya da sürgün elətdirəcək. Hər halda axırı ağır səfərdi, axırı ölüm ayrılığıdı. Dedi:

Şamaxı vətənimiz,
Durmadı yatanımız,
Əl-ələ verdi getdi,
Dili söz tutanımız.

Zeyvənisə sultanım da bu ayrılığı yəqin bilmişdi: odu ki; qız da oğlana deməlisini dedi:

Göy bulud, Şirvan ayaz,
Yaz məni, Şirvana yaz,
Günün yad eldə keçər,
Dərdini Şirvana yaz.

Zindanban bu qəribə əhvalatı öz gözləriylə gördü, su-çörək gətirmişdi. Gördü ki, divar deşilib, iki həsrətli aşiq qovuşub bir-birinə. Dəlmənin ağzını qapamağı da yadından çıxardıb, hövlank özünü yetirdi xanın qulluğuna dili topuq çala-çala nə görmüşdüsə hamısını bircə-bircə xan qulluğuna ərz elədi. Xan da, başının adamları da heyrətə gəldilər. Heç kəs inanmadı. Dərhal atlanıb zindana gəldilər. Gördülər ki, qapı açıqdı iki həsrətli aşiq bir-birinə necə qovuşubsa, eləcə də gözlərini dünyaya yumub. Xanın da, adamlarının da gözlərindən yaş cari oldu. Mustafa xan özünü dar-dar danladı ki, niyə ağıllı adamlarının məsləhətinə qulaq asmadı, iki pak insanın günahsız qanına bais oldu. Hər iki cavanı saraya gətirtdi. Yudurtdurub, kəfn-dəfn elətdirdi. Zindandakı o deşikli divarı yerindən çıxartdırıb Şamaxıya gətirtdi. Bir təpə üstündə nakam cavanların qəbri üzərində başdaşı kimi qoydurdu. Həm

özünə görk olsun, həm başqalarına.

Elə o vaxtdan el arasında həmin qayaya «Deşikli daş» deyərlər, hörmətlə qoruyarlar. Sevgisinə əngəl çıxan cavanlar həmin deşikli daşdan keçərlər, keçəndə də Bayatı Çobannan Zeyvənisə sultanımı yada salıb bayatı çəkərlər:

Eləmi gül duyumu,
Açılsın gül düyümü,
Mən o yara qovuşsam
Görərlər güldüyümü.

Deyirlər kim o daşdan keçə bilsə, məhəbbətinə qovuşur, kim keçə bilməsə nakam qalır. Nağıl deyil, inanmasanız Şamaxıya yolunuz düşəndə, soruşun «Deşikli daş»ın yerini.

MODA QARIYNAN MÜDƏ QARININ NAĞILI

Badi-badi giriftar, hamam hamam içində, xəlbir saman içində, dəvə dəlləklik eylər köhnə hamam içində, Şah Abbas cənnətməkan, tərəziyə vurdu təkan, iki qoz, bir girdəkan. Sizə kimdən deyim, kimdən danışım... biri var idi, biri yox idi, allahın bəndəsi çox idi... Bitlis vilayətnndə Adil şah adında bir padşah var idi, adı kimi özü də adil idi. Dünyada dost desən dostu, dövlət desən var-dövləti, torpaq desən gözəl-gözəl ölkələri, pul desən xəzinələri var idi... dünyaya sığmayan. Nəyi desən var idi Adil şahın, bircə övladı yox idi. Yaman bikef dolanırdı Adil şah. Günlərnn bir günündə Məhəmməd Nəsir tiniidə bir rəmmal-dərviş peyda oldu. Elə bu vaxt Adil şah külafirəngidə oturub beht içində qəm dəryasına qərq olmuşdu. Birdən eşitdi ki, bir səs gəlir küçədən:

— Fala baxanam, rəml atanam... Fala baxanam, rəml atanaa...a...m...

Adil şah əmr elədi, nökər-naib gəlib rəmmal dərvişi padşahın hüzuruna çağırırlar. Padşah dərvişə diqqətnən baxdı. Gördü, vallah, heç indiyəcən gördüyü dərvişlərdən döyül. Elə bil allah könlü olanda yaratdığı bu bəndəsinə bir dərya ağıl verib. Ağlı bir-cüt nur kimi gözlərində parıldayır. Adil şahın quşu dərvişə qondu ürəyi nədənsə telləndi, dedi:

— Ağa dərviş, rəml at, gör allahın qulluğulda günahım nədi?

Dərviş Adil şahın üzünə xeyli matdım-matdım baxandan sonra dedi:

— Şahım, sənin dərdin övlad dərdidi...

Adil şah daha da qəmləndi, dərindən bir ah çəkdi:

— Elədi, ağa dərviş! Dəli-dərdim övlad dərdidi. Bax gör qismətimda övlad varsa, səni dünya malından qəni eləyəcəm. Nə istəsən verəcəyəm...

Dərviş dedi:

— Hökmdarım, mən pay alan dərvişlərdən deyiləm, pay verən dərvişlərdənəm. Bəyəm dərdini bir baxışla tapıb deyəndə bunu başa düşmədin?

— Düşdüm, ağa dərviş, çarəsini de!..

— Çarəsi asandı, padşahım! Saraydakı xanımlardan sənə övlad yoxdur. Sən çilləyə düşmüşsən, gərək arvadlarından əl çəkib Bitlisin lap qırağında kasıb bir çoban daxması var, orda hamınıp əl üzdüyü fağır bir külfətin fağır bir qızı var. Sən gərək onu alasan. Qismətindəki övlad o qızdadı...

Padşah hə-hə eləyənəcən dərviş bu sözləri deyib gözlərdən qeyb oldu. Nəinki Adil şah, heç nökər-naib də bilmədi ki, haçan, hansı qapıdan çıxdı getdi... Qərəz, Adil şah çox sevindi. Elə o saat əmr elədi, at, araba, nökər-qulluqçu hazırlandı, padşah özü də ata mindi, Bitlisin qırağına çıxdılar. Gəlib burda doğrudan da bir uçuq daxma gördülər. Daxmaya bir neçə qədəm qalmış içəridən zəif zarıltı səsi eşitdilər. Nökərlər, qulluqçular içəri girib, burada yırtıq mitil içində xəstə yatmış bir qız

gördülər. Padşahın əmriylə qızı xərək üstünə götürüb arabaya qoydular, saraya gətirdilər. Hamamladılar, geyindirib-keçindirdilər. Həkim, dava-dərman elədilər. Bir neçə gündən sonra qızın rəngi durulub özünə gəldi. Bir qız oldu, bir qız oldu day nə deyim. Gül qönçəsi kimi açıldı, tuti dilli, şəkər sözlü, şirin-duzlu qız Adil padşahın çox xoşuna gəldi. Amma Adil padşahın vəkil-vəzir qızlarından olan arvadları bu kasıb qızına paxıllıq eləyirdilər ki, neyçün Adil şah hamını yadından çıxardıb, bir payyığan qızını gətirib özünə arvad eləyib. Heç bir neçə ay keçməmiş məlum oldu ki, qız hamilədi. Day qızın hörməti birə-beş artdı, Adil şah qıza deyirdi ki, ayağını yerə qoyma canım çıxar, gəl sinəmin üstən yeri. Hər gün beş vaxt namazını qılırdı, allahına dua eləyirdi ki, onu yada salıb, ona varis verəcək. Qərəz, nağıl dili yüyrək olar, doqquz ay, doqquz gün, doqquz saat, doqquz dəqiqə, doqquz saniyə başa çatdı, Adil padşahın arvadının ağrısı tutdu, O, bari-həmləni yerə qoymağa hazırlaşdı. Adil padşaha xəbər getdi. Sarayda bütün vəzir-vəkil qızları bir-birinə dəydilər ki, necə ki, necə? Bir payyığanın qızı gəlib padşaha arvad olmağı bəs deyil, hələ bir varis anası da olacaq? Padşaha oğul-qız doğacaq? Day ondan sonra bizim sarayda bir köpüklük miqdarımız olmayacaq. Qab qaba dəyən kimi arvadlar bir-birinə dəydilər. Baş hərəm ikinci hərəmi də yanına çağırdı. Sözləşdilər, məsləhətləşdilər, hər ikisi də Adil padşahın qulluğuna gəldilər, dedilər ki:

— Ey böyük padşah! Sənin sonsuzluğun bizim də ürəyimizi ağrıdırdı. Şükür olsun xudavəndi-aləmə ki, sənə övlad verir. Gözlərimiz aydın olsun! İzin ver, biz sənin sədaqətli bəndələrin, neçə ilin baş yoldaşı olmuşuq səniilə, sənin gəlininə özümüz quluq eləyək. Onun sarayda kimi-kimsəsi yoxdu. Allaha da xoş gedər, bəndəyə də.

Adil şah xoşhal oldu, arvadların sözlərinə inandı. Sən demə, qurğu ayrıymış. Baş hərəmnən ikinci hərəmin, hərəsinin bir dayəsi var idi, bu dayələr iki əkiz bacı idi. Biriiin adı Moda

qarı, birinin adı Müdə qarı. Hər ikisi də kələkbazlıqda şeytana papış tikərdi. Qədim nağılçılar deyər ki, qarılar bir neçə cür olur: qarı var ipək qarı, qarı var köpək qarı... bax bu qarılar köpək qarılardan idi. Bəlkə elə şeytan anası idilər. Qərəz. Baş hərəm cariyəsini göndərdi, dayəsi Moda qarını, bacısı Müdə qarı ilə birlikdə qulluğuna çağırdı. Moda qarı ilə Müdə qarı bir su içimdə baş hərəmin hüzurunda hazır oldular:

— Hökmün nədir, mələkə? — deyə soruşdular.

Baş hərəm onların dərsini verib özü ilə birlikdə zahı yatan otağa gətirdi. Bəli, qarılar hazırlıqlarını görüb gəldilər. İçəri girən kimi biri zahının arxasına keçdi, biri önünü kəsdirdi. Baş hərəm qalan kənizi qulluqçunu otaqdan qovdu. Bir qədər keçmiş Adil şahın təzə arvadı əkiz uşaq doğdu: biri oğlan, biri qız. Hərəsi bir ay parçası, gün xırdası, buz baltası, gül qönçəsi... Moda qarınan Müdə qarı tezcə uşaqları əski-üsküyə büküb gizlətdilər. Zahının yanına ətəklərinin altında gətirdikləri bir cüt it küçüyü qoydular. Qapıda duran muştuluqçuya da xəbər elədilər ki, bəs hal-qəziyyə belə: padşahın arvadı it küçüyü doğub, özü də bir cüt... Bəli... qab-qaba dəyən kimi vəzir-vəkil, nökər-naib bir-birinə dəydi ki, ay aman, bu qara xəbəri kimin dili varacaq, padşaha xəbər aparacaq? O yandan Adil şah taxt-tac otağında oturub xəbər gözləyirdi. Tez-tez qapıya, pəncərəyə boylanırdı. Nədimi xəlvəti göndərib xəbər bildirirdi. Nə başınızı ağrıdım, birdən şahın qoca vəziri içəri girdi, yeri öpdü, ərz elədi:

—Qibleyi-aləm, deməyə dilim gəlmir. Amma ayrı əlac yoxdu. Bəs sənin arvadın bir cüt it küçüyü doğub...

Adil şahı elə bil ilan çaldı bu xəbərdən. Amma birdən nə fikir elədisə heç nə büruzə vermədi, dedi:

— Neynək, allah məni onunlasa da yada salıb, şükür kərəminə! Gedin, o it küçüklərinn yanıma gətirin. Amma onları doğan arvadı tez gəldiyi yurda qaytarın, bir də gözlərimə görünməsin.

Baş hərəm qapının dalındaca dayanıb qulaq asırdı, elə bu xəbəri eşidən kimi, tezcə özünü zahının otağına çatdırdı, heç əməlli-başlı özünə gəlməmiş biçarə zahını nökərlərin əlinə verib, şəhərin kənarında həmin o uçuq daxmaya atdırdı.

O yannan küçükləri padşahın yanına gətirdilər. Adil şah ürəyində hərdən-hərdən fikir eləyirdi ki, burda nəsə var, o dərviş yalan deməzdi. Amma bir çarə tapa bilmirdi. Baş hərəm, Moda qarıynan Müdə qarı işləri elə qurmuşdular ki, şah bir sudur anlaya bilmirdi. Elə dərvişin xatirinə, ya ürəyinə gəlmişdisə it küçüklərini özündən ayırmırdı. Birini taxtın bu qıçına, o birinn də taxtının o biri qıçına bağlatdırmışdı. Hər dəfə xörək vaxtı padşaha üç nimçədə xörək gəlirdi, birini şahın qabağına, birini bu küçüyün, birini də o biri küçüyün qabağına qoyurdular. Belə-belə küçüklər böyüyüb bir neçə ayın içində iki yekə it oldular, amma padşah onları taxtından ayırmadı, elə yanında saxladı.

Padşah burda, zahı köhnə xarabalıqda, it küçükdəri taxt-tac otağında qalsın, Moda qarıynan Müdə qarı baş hərəmdən aldıqları bəxşişlərlə burda, hərəmlər də sarayda kef-damaqda olsunlar, sizə kimdən deyim, kimdən danışım uşaqlardan.

Bəli... Moda qarıynan Müdə qarı uşaqları evlərinə gətirdilər. Baş hərəmin əmrinə görə kiçik bir sandıqçaya qoyub dəryaya atdılar. Yel qova-qova sandıqçanı götürüb apardı.

Sandıqça dəryada üzməyində olsun, sənə xəbər verim Əşəs divdən. Əşəs div divlərin padşahı idi, divlər diyarının hökmdarıydı. Cavanlığında göy üzüylə uçan vaxtı Bitlis padşahının qızı Reyhan xanımı görüb aşıqlamışdı, götürüb öz sarayına gətirmişdi, özünə arvad eləmişdi. Reyhan xanım ağılbənd gəlin idi, bilirdi ki, Əşəs divin əlindən heç cür yaxa qurtara bidməyəcək, taleyinə boyun əymişdi. Yaxşı rəftarına görə-birtəhər Əşəs divin sarayında dolanır, divlərin ölkəsini Əşəslə birlikdə ağılınan dolandırırdılar. Amma övladları

yoxuydu. Beləcə ömürləri yarıya çatmışdı, möhnət, qəriblik, hicran dərdi Reyhanı qocaltmışdı. Amma onu da deyim ki, Əşəs div onun hər bir nazıynan oynayırdı. Nə istəsə yerin deşiyinda olsa, göyün yeddi qatında olsa tapıb gətirirdi. Bircə evlərinə qayıtmaqdan başqa hər arzusuna əməl eləyirdi. Bir gün div genə dövri-aləm səyahətinə çıxmışdı, göyün üzüynən uçurdu. Bir də gördü ki, dəryanın üzündə bir sandıqça üzür, yel qova-qova aparır. Əşəs div bir az aşağı endi, sandıqçanı caynaqlarına alıb göyə qalxdı: «Apararam Reyhan xanım üçün, bəni-insan əməlidi, baxar-sevinər» — dedi. Cəld yolundan qayıtdı, sandıqçanı Reyhan xanıma gətirdi, Reyhan xanım onu eyvandaca açdırdı; İlahi, bir də nə görsə yaxşıdı: sandıqçanın içində qüdrətin kərəmindən iki körpə yatıb, baş barmaqlarını ağızlarına soxublar, əmcək kimi sorurlar, cəhənglərindən süd cari olur. Reyhan xanımı ağlamaq tutdu. Əşəs div dedi:

Mehribanım, Reyhan xanımım, day neyçün ağlayırsan? Allah bizimkini verib. Biri oğlumuz, biri qızımız olar.

Reyhan xanım ürəyində uşaqlara acıyan divə minnətdarlıq, amma divlərdən də yaman olub körpələri suya atan divxislət adamlara nifrət lənət yağdıra-yağdıra körpələri qucağına aldı. Yaxasını cırdı, hər iki qundağı yaxasından keçirib, övladlığa götürdü, analıq borcunu yerinə yetirməyə başladı. Oğlanın adını İbrahim, qızın adını Mahcamal qoydular.

Daha əsl məşğuliyyətini tapmışdı. Əşəs div inək tapıb gətirdi; südünü körpələrə verirdilər. Körpələr aynan ilnən yox, günnən, saatnan böyüyürdülər. Reyhan xanımın dərdi-zadı yadından çıxmışdı, mehrini uşaqlara salmışdı. Bircə an da onlardan ayrılmırdı. Uşaqlar böyüyüb on səkkiz yaşa çatanda bir gün Əşəs div azarladı. Başını yerə qoyan kimi anladı ki, ömür karvanı bu dünyadan köçməyə hazırlaşır. Odu ki, Əşəs div arvadı Reyhan xanımı xəlvətcə yanına çağırıb, uşaqlardan gizlin ona vəsiyyət elədi, dedi:

— Reyhan xanım, mənim ömür karvanım köç başlayır bu

dünyadan. Mən öləndən sonra heç kimə bildirmə. Qulağımın dalında qırx açar var. O qırx açarı götürərsən, sözümə diqqətnən qulaq ver: mənzilimizin altında bir qapı görəcəksən, əvvəlcən onu aç, iç-içə qırx otaq qapısı açacaqsan, hərəsində bəni-insana gərək olan min cür şey var. Birində pal-paltar, birində bəzək-düzək, birində ev avadanlığı, birində qızıl gümüş, pul-para, lap axırıncıda tövlədə qırx gözəl at var. Biri boydan balaca, çiyiilərinin üstündə al qanad, qarakəhər atdı. Bax, məndən sonra qohum-əqrabam divlər padşahlıq üstündə sənə də, uşaqlarımıza da əziyyət verərlər. Odu ki, bəni-insan içində olmalısız. Nə qədər var idim, sizə zaval yox idi, mən ölən kimi uşaqları da götürüb həmin otaqları gəzərsiz, könlünüzə nə yatarsa, halal xoşunuz olsun. Onları mən ömrüm uzunu adamlar içindən yığmışam, götürərsiz. Məni öz əlinlə kəfənləyəndən sonra da bax, o balaca qanadlı atı yükləyib, özünüz də minərsiz. Nə qədər hay-küy eşitsəz də dala baxmazsız, at sizi lazımı yerinə— insanlar içinə aparacaq. Amma bax, nəbadə-nəbadə birdən tamahsılanıb başqa göyçək atlara minərsiz ha! Onda uşaqlar da, sən də bad-fənaya gedərsiz. Bir də oğlumun nə çətin işi olsa köhlənə məsləhət eləsin.

Reyhanın gözləri yaşla doldu, nə qədər olsa neçə illərin ömür yoldaşı dünyadan gedirdi, div də olsa onuynan yaxşı rəftar eləmişdi. Son nəfəsində də onuynan uşaqların qeydinə qalırdı. Elə bunlar da Reyhanın zərif qəlbini kövrəltmişdi. Nə isə... Div vəsiyyətini tamam elədi, İbrahimlə, Mahcamalı yanına çağırdı, uşaqlar gələndə onların alnından öpdü, dedi:

— Balalarım, bütün yaşayanların son ucu—ölüm gəlib. Gedirəm bu dünyadan. Daha yes-yekə adamlarsız. Ananızın sözünə qulaq asın, sizə birinci axırıncı vəsiyyətim budu: o nə dedi, eləyəsiz gərək.

İbrahimlə MaHcamal atalarının bu sözündən ağlamağa başladı. Div sözünü deyib gözlərini dünya işığına yumdu.

Reyhan Əşəsin vəsiyyətinə əməl eləyib cəld əlini onun qulağının dalına apardı, açarları çıxarıb kəfən hazırlığı görmək istəyəndə gözüyaşlı bacı və qardaş heyrətlə analarına baxıb dedilər:

— Sən neynirsən, ana! Əmilərimizə xəbər verək...

— Reyhan tələsik dedi:

— Yox, balalarım! Atanızın məsləhəti belədi, dalımcan gəlin!

Reyhan Əşəs divi mafi-qaydaynan kəfənlədi, yerində irahladı və İbrahimlə Mahcamalı da özüynən götürüb sarayın zirzəmisinə endi. Əvvəlinci qapını açdı. Burada ev əşyası bəs deyincən idi. İkinci otaqda ipəkdən, məxmərdən, iy nəbatmaz-qayçıkəsməzdən, zərxaradan, gendədurdan, atlazdan, kimxadan, şəmsüqəmərdən top-top, tay-tay yığılmışdı. Üçüncü otaqda yaxalığına, qolbaqlarına, sinəsinə inci-mirvari, qaş-daş düzülmüş, güləbətin tikilmiş paltarlar: çuxa, əba, tuman, köynək, arxalıq, ürəyin istəyənəcən idi. Dördüncü otaqda bəzək şeyləri: qolbaqlar, bilərziklər, sırğalar, silsilələr, gərdənbəndlər, bazubəndlər, üzüklər, telbasanlar, beşinci otaqda əşrəfilər, tümənlər, müxtəlif ölkələrin gümüş, mis və qızıl pulları tay-tay yığılmışdı. Altıncı otaqda almaz, ləl-cəvahirat, firuzə, zümrüd, yaqut sandıqlar dolusu qalanmışdı. İbrahimlə Mahcamal əlbəttə, bütün bunlardan bixəbər idilər. Heç birisini də nə tanıyır, nə də qiymətini bilirdilər. Amma Reyhan xanım padşah qızıydı, cavanlığı insanlar arasında keçmişdi. Odu ki, vəzndən yüngül, qiymətdən ağır, onlara oğulbaoğul çatası qədər ləl-cəvahirat götürdü, xurcunlara doldurdu. Uşaqlara gərəkli pal-paltarından da az miqdarda xurcuna yığdı, axırıncı-qırxıncı otağa gəldilər. İbrahim atları görcək həvəsidi:

— Ay ana can, — dedi, nə gözəl heyvanlardı?! İndi ki gedirik, gəlin hərəmiz birini minək, birinə də yükümüzü çataq.

Reyhan Əşəs divin sözləriii yadına saldı:

—Yox, — dedi, — atanızın vəsiyyətinə əməl eləyək gərək.
O, tövlənnn dib tərəfinə getdi, burada baş axurda boydan bapbalaca, qara bir at vardı. Demə görmədim, lap dayça. Cınaqlarının da üstündə bir cüt odlu al qanad yanır. Hə, nə başınızı ağrıdım. Reyhan xanım İbrahimlə Mahcamalı yanına çağırdı, dedi:
— Balalarım, atanız vəsiyyət eləyən at budu. Buna minəcəyik. Yükümüzü də buna çatacayıq. Ayrı atların bizə dəxli yoxdu. İndi minin, amma nəbadə-nəbadə dala qayıdıb baxasız, bax, nə səs-küy eşitdiz, işiniz olmasın ha!.. Yoxsa badfənaya gedərik... Divlər dalımızcan düşəcəklər:
Reyhan xanım, cəld atı yüklətdirdi. İbrahim qənşərdə, Reyhan xanımla Mahcamal da tərkində yola düzəldilər. Atın od qanadları onları havalandırdı, onlar göyə qalxdılar. Elə bu vaxt dallarıycan səs ucaldı: «Ay qoyma, ay tutun, ay dayanın!» Kimdi dayanan? Dəlidi dala baxan!.. Asta qaçan namərddi... Bu minvalnan bir gecə-gündüz yol getdilər. Onlar alov qanadlı atın belində göynən, biz nağıl diliynən... Gəlib çatdılar bir şəhərin qırağına. Atdan düşdülər, Reyhan xanım dayçaynan burda qaldı. İbrahimi bazara göndərdi. Bir çadır aldırdı, gətirib şəhərin kənarında çadır qurdurdu. İçinə təpildilər. Sonra usta çağırdılar, tez-tələsik çoxlu pul verib yaxşıca bir ev tikdirdilər. Yığıldılar içinə. Bir tövlə tikdirib, atı da bağladılar o tövləyə, durdular qulluğunda. Günlərin bir günündə Reyhan xanım fikirləşdi ki, İbrahimi göndərsin padşahın hüzuruna, bəlkə bir vəsilə-düşdü, yaxşı bir işə-gücə düzəldi. Cavan oğlandı, boş-bikar gəzməyəcək ki!

Nəysə... Reyhan bir nimçəyə şaha-layiq xeyli ləl-cəvahirat yığıb İbrahimi şahın hüzuruna yolladı. Oğlan saraya getməkdə olsun, sən demə, bu yer elə Adil şahın məmləkəti, bu şəhər də onun paytaxtı Bitlis imiş. Adil şah da o zamandan bala dağlı sinəsini əykələyə-öykələyə yanıb yaxılırmış. O iki küçük də böyüyüb hadağadan çıxıbmış. Amma Adil şah onlardan

ayrılmırmış. Elə hər ikisini taxtının bu qıçına, o qıçına bağlayıb, öz əlilə də yeməklərini verirmiş. Özgə ölkələrdən bu vilayətə gələn elçilər də bu işə haqq təəccüblənirmiş. Qərəz İbrahim saraya çatdı, elçi daşını silib oturdu. Az keçmiş nədim gəlib onu Adil şahın hüzuruna apardı. İbrahim dalda nədim qabaqda, əlində də orlanın xonçası içəri girəndə təəccüblü bir iş baş verdi. İtlər yerlərindən qımıldanmadılar, həmişə şahın taxt-tac otağına qeyri adam girəndə yerlərindən qalxıb bir ağız hürərdilər. Amma bu dəfə heç tərpəşmədilər də. Adil şah oğlanın üzünə baxanda ürəyindən nəysə elə bil isti bir su axdı. Çırpındı ürəyi, amma bir söz demədi. Oğlanı çox mehribanlıqla qəbul elədi. Payını-parçasını götürüb baxdı, yanına qoydu. Oğlana da qulluğunda ən yaxşı, hörmətli yeri — sağ əlinin altını göstərdi. Sağ əl vəzirinii yeriydi. Adını-sanını soruşdu. İbrahim də Reyhan ana öyrədən kimi cavab verdi. Cavablar da Adil şahın çox xoşuna gəldi. Oğlanı xeyli müddət yanından buraxmadı, onuynan birgə nahar elədi. Axşam düşənəcən yanından getməyə qoymadı. Qərəz Adil şahın könlünün quşu qondu İbrahimə. Hər gün gəlməyəndə darıxırdı, nədimi göndərib yanına çağırtdırdı. Saray iş-güc, hərəmxana yadından çıxmışdı elə bil. Bir gün sağ əl vəziri qızıynan söhbətində qəziyyəni ona danışıb dedi ki, bəs belə-belə «saraya bir oğlan dadanıb, şah onu mənim yerimdə oturdur. Qorxuram ki vəzifəmi də verə ona. Oğlan nə desə şah onun bir sözünü iki eləmir». Baş hərəm (axı o sağ əl vəzirinin qızı idi) bir söz demədi, tezcə dayəsi Moda qarını yanına çağırtdı. Əlbəttə, Moda qarı əkiztayıynan — ikinci hərəmin dayəsi Müdə qarıynan birlikdə gəldi saraya. Hərəmlər onları öyrətdi ki, gedin görün bu İbrahim kimdi? Əvvəlcən Moda qarı işə kirişdi: Taxt-tac otağının pəncərəsindən içəri baxan kimi diksindi. Ürəyinə nəsə damdı. Səksəkəliydi axı! Cəld bir əlində imanı, bir əlində tumanı özünü xanımların hüzuruna çatdırdı:

— Ay xanımlar! Nə yatmısız indiyəcən? Onda mən sizə deyəndə ki, gəlin bu körpələrin başını batıraq—qoymadaz, indi cəzanızdı çəkin! Bax, bu oğlan həmincə Adil şahın payyığan qızından dünyaya gələn oğludu. Sağ yanağında xalı var idi,

özüm bəlləmişdim. Oğlanın da qızın da...

Müdə qarı dedi:

— Sənin gözün qorxudan böyüyüb, qorxan gözə çöp düşər, biri iki görər. Qoy bir mən də gedim baxım.

Müdə qarı da gedib pəncərədən baxan kimi elə bil onu ilan çaldı. Axır gününü əvvəlcədən gördü. Bildi ki, bu iş açılsa padşah onları ayğır quyruğuna, dəli qatırın quyruğuna bağlatdırıb, çöllərə buraxacaq. Canına vicvicə düşdü. Əl-ayaqı titrəyə-titrəyə özünü hərəmxanaya çatdırdı:

— Bəli, ay xanımlar! Moda bacım baxdı. Oğlam həmənki oğlandı. Amma lap şübhədən çıxmaq üçün onun evinə getməliyik görək bacısı varmı? !Əgəmləri bacısı da varsa, onun da sağ yanağında həmən bu xaldan varsa, onda bu elə allahın qəzəbidi ki, biz düçar olmuşuq. Onların başını batırmaq lazımdı.

Qərəz... Müdə qarı gözətlədi. Axşamçağı, oğlan saraydan çıxıb evlərinə gedəndə dalıycan düşdü, qarabaqara onuynan getdi, gördü ki, evə çatanda qapıda iki zənən xaylağı İbrahimin qabağına çıxdı. Biri ona «Can bala, gəlib çıxdın?», o biri də «Can qardaş, nə gec gəldin» dedilər. Elə qız qollarını açıb qardaşının boynuna sarılanda Müdə qarı gördüyünü gördü: Mahcamalın da sağ yanağında qara xal var idi. Özü də qardaşıynan elə bil bir almaydı, iki bölünmüşdü.

Müdə qarı gördüklərini gəlib hərəmxanada xanımlara danışdı. Müdə qarının sözlərnnə diqqətlə qulaq verən Moda qarı dedi:

— Ay xanımlar, ürəyinizi yeməyin, sabah allahın köməkliyiynən mən onu bir gedər-gəlməz səfərə göndərim ki, siz də afərin deyəsiz. Səhər oldu, üzünüzə xeyirli sabahlar açılsın. Moda qarı başına qara çarşab saldı, əlinə səddanə təsbeh götürdü. Əsasına söykəyə-söykəyə özünü İbrahimgilin evlərinə çatdırdı. Elə onda çatdı ki, nədim gəlib İbrahimi saraya aparmışdı. Reyhan xanımla Mahcamal qız oğlanı yola salıb

içəri qayıdaqayıtda qarını gördülər. Bu şəhərdə tanış tunuşları yox idi. Gülərüz, mehriban bir arvadnan tanış olmaqlarına sevindilər. Arvadı içəri gətirdilər, ona yeməkdən-içməkdən verdilər. Moda qarı hər yeri gəzdi, baxdı, dedi:

— Nə gözəl eviniz-eşiyiniz var... Dərdiniz qara günlüyə gəlsin, bu həyətin bircə yaraşığı kəmdi: nə olaydı dərya atları bu tövlənizə bağlanaydı. Yeyəydilər arpadan kişnə-şəydilər. Hərdən-hərdən minib seyrə çıxaydınız, hamının gözü sizdə olaydı...

Moda qarı bu sözləri deyib getdi. Reyhan xanım bikeflədi. Əkər Əşəs div sağ olsaydı, onunçun dərya atlarını gətirərdi. Bircə arzusunu yerdə qoymamışdı Reyhanın. Axşam oldu, İbrahim saraydan qayıtdı, gördü ki, anası bikefdi. Soruşdu:

— Nə olub sənə, ana can?

Mahcamal dedi:

— Sənə nə var ki... Özün gündə saraya gedirsən, kef-damaqdasan. Amma biz analı-balalı tək-tənha, bağrımız çatlayır. Heç olmasa dərya atlarını gətirsəydin, bizim də könlümüz açılardı...

İbrahim dedi:

— Elə bu? Bundan ötəri qəmlisiz? Belə mənim bax bu qara gözlərim üstə. Çalışaram, taparam sizinçün dərya atlarını, təki qəmli olmayın.

Oğlanın yadına atasının vəsiyyəti düşdü, tez gedib tövlədə od qanadlı atın axuruna yanaşdı, dərdini ona danışdı. At insai kimi dil açdı, dedi:

— Fikir eləmə oğlan, İbrahim! Bu hələ ağır iş deyil, ağır imtahai qabaqdadı. Get bazardan qırx dənə keçə al, bir pud da qırnan qatran, gətir. Onları mən öyrətdiyim qaydaynan mənnm belimə yapışdır. Min üstümə, sabah sübh tezdən min məni, gedək dəryanın kənarına. Atan Əşəs divin xatirinə dərya atlarını səninçün gətirrəm.

İbrahim bazara gedib qırx dənə keçə, bir pud da qatrannan qır

aldı gətirdi, bunları o al-od qanadlı atın dediyi qaydada qatbaqat onun belinə, böyürlərinə yapışdırdı. Sabahı günü gün qalxmamış yerindən qalxdı, atı tövlədən çıxartdı. Üstünə minib dərya kənarına gəldi. Burada atdan endi, at ona dedi:

— İbrahim indi mən dəryaya baş vuracağam. Sən suyun üzünü gözdən qoyma! Mən suyun dibində dərya atları ilə vuruşacağam, suyun üzünə üç rəng köpük gələcək. Birinci dəfə sarı köpük tutacaq suyun üzünü, bil ki, davanı başlamışam. İkinci dəfə ağ köpük gəlsə bil ki, mən qazanmışam. Tez özünü bax, o yekə qayanın daldasına ver! Mən sudan çıxıb qırx dərya atını dalımcan evimizə aparacağam. Sən də gəl evə! Yox, elə ki, gördün suyun üzünü qırmızı qanlı köpük tutdu — bil ki, mənə üstün gəliblər, mən ölmüşəm. Onda çıx qayıt get evinə!

İbrahim burda bildi ki, al-od qanadlı ata nə ağır iş buyurub. Onun gözlərindən öpdü. At özünü dəryaya vurdu. İbrahim bir az gözlədi, gördü hə budu dəryanın üzünü sarı köpük aldı... Ürəyi döyünməyə başladı. Xeyli intizar içində gözlədi... Bir də gördü ləpələr ağappaq qağayı kimi ağ köpüklərə büründü, çalxandı duruldu, duruldu çalxandı. Dəryadan at kişnərtisi eşidildi. Elə bil göy guruldadı, ildırım çaxdı. Sulardan kişnərti-kişnərti dalınca eşidildi, İbrahimin az qala hər şey yadından çıxmışdı. Elə al-od qanadlı atın kişnərtisini eşitcək özünü nəhəng qara qayanın dalına verdi... Bir də nə gördü: qabaqda balaca boylu al-od qanadlı at... Dalıycan da qırx dərya atı kişnəyə-kişnəyə, oynaşa-oynaşa sulardan çıxıb götürüldülər... İbrahim qırx gözəl at gördü ki, bunların tayı-bərabərinə ancaq atası Əşəs divin saray zirzəmisindəki qırxıncı otaqda görmüşdü. Heç bir padşahın sarayında beləsi yox idi. Ürəyi sevinclə, fərəhlə çırpındı. Atlar elə xoşuna gəlmişdi ki, elə xoşuna gəlmişdi ki... day nə deyim... Ürəyində atlara, onları yaradana, onun üçün gətirənə min afərin deyib evinə yollandı, gəldi gördü atlar al-od qanadlı

atın tövləsində axurlara bağlanıblar. Bacısı Mahcamal, anası Reyhan xanım da atların gözəlliyinə tamaşa eləyirdilər.

Anası onu görən kimi dedi:

— Oğul, İbrahim! Bu iki gündə saraydan dönə-dönə adam gəlib sənin dalınca. Padşah səni istətdirib. Tez özünü saraya çatdır!

İbrahim buradan birbaşa saraya, Adil padşahın yanına yollandı, onu tezcə şahın taxt-tac otağına apardılar. Şah bir sevindi ki:

— Bala, İbrahim, hardaydın bu neçə vaxtı?

Padşah İbrahim üçün bərk darıxmışdı, onun söhbətlərinə mail idi. Elə bu zaman baş hərəmə xəbər getdi ki, bəs İbrahim gəlib şahın yanındadı. Baş hərəmlə ikinci hərəm dayələrini çağırtdırdılar. Moda qarınan Müdə qarı gəlib çıxdı. Baş hərəm dedi:

— Nə oldu bəs, dayə, sən İbrahimi gedər-gəlməzə yollamışdın? Odey şahın qulluğunda kef-damaqdadı.

Müdə qarı tez sözə qarışdı:

— Darıxmayın, ay xanımlar!. Sabah mən onu bir gedər-gəlməzə yollayım ki, hər ikiniz mənə afərin deyəsiz.

Bəli, səhər oldu, üzünüzə səhər həmişə xeyrə açılsın. Müda qarı yerindən qalxdı, çadrasını başına saldı, İbrahimgilə yollandı. O vaxt gəldi ki, İbrahim dərya atlarını yemləyib şahın hüzuruna yollanmışdı. Reyhan xanımla Mahcamal qız Müdə qarını sevinclə qarşıladılar, qarıya ehtiram göstərdilər. Müdə qarı bir az dincəlib ev-eşiyi gəzdi, atları bəyəndi:

— Yaxşı atlardı, amma atdan arvada nə fayda? Qəribsiz, darıxırsız, nə yaxşı olardı, oğlun gedib oxuyan Narıncnan, gülən Turuncu gətirəydi, qoyaydınız qəfəsdə, bax, birini o kəlləyə, birini də bu kəlləyə. Səhərdən axşamacan Narınc oxuyaydı, Turunc güləydi siz də baxıb fərəhlənəydiz.

Bəli, axşam İbrahim saraydan qayıdanda gördü ki, anasıynan bacısı bikefdi, soruşdu:

— Nə olub sizə, ay mənim əzizlərim, niyə qəm bürüyüb üzünüzü?

Mahcamal dedi:

— Qardaş, sən gedirsən bütün günü sarayda kefdə-damaqda olursan. Biz qərib ölkədə, heç kəsi tanımırıq, heç yana getmirik. Darıxa-darıxa qalırıq. Nə olaydı gedəydin oxuyan Narıncnan gülən Turuncu da bizimçin gətirəydin... ürəyimiz açılaydı...

İbrahim gülə-külə dedi:

— Elə bu?! O belə mənim bax, bu gözlərim üstə... Təki siz fikir eləməyii, a mənim əzizlərim!

İbrahim yenə atası Əşəs divin tapşırdığı kimi özünü tövlədə al-od qanadlı atın hüzuruna yetirdi. At onu fikirli görcək soruşdu:

— Nədi İbrahim, nə olub? Sənə nə lazımdı?

İbrahim dedi:

— Anamla bacım oxuyan Narıncla gülən Turunc istəyirlər...

At dedi:

— Hə, bu bir az çətindi, amma düzələn işdi. Darıxma. Sabah səhər tezdən çıxarıq. Atan Əşəs div hörmətinə oxuyan Narıncla, gülən Turuncu da gətirərik. Təki ananla bacın darıxmasın... Təkcə anan Reyhan bilmədən o qırx açarı götür özünnən. İki dənə də qəfəs al götür.

İbrahim saraya qayıtdı, padşahdan bir-iki günlük səfər üçün rüsxət istədi Padşah dedi:

— Axı hara, nə üçün gedirsən? De, mən düzəldim. Sənsiz darıxıram, İbrahim!

İbrahim neyçün getdiyini padşaha demədi:

— Onu gərək özüm düzəldəm, şahım! Başqası düzəldən iş deyil.

Qərəz Adil şah oğlanı heç buraxmaq istəmirdi. Ürəyi ona deyirdi ki, oğlan qorxulu səfərə gedir. Amma naçar qaldı,

rüsxət verdi.

Səhər oldu, İbrahim üsulluca atası Əşəsdənqalma qırx açarı xəlvətcə götürdü. Al-od qanadlı atın üstünə süvar olub qəfəsləri qancığabağıya bağladı, səfərə çıxdı. Yolda at ona dedi:

— İbrahim, indi sənin ata yurduna gedirik. Həmin oxuyan Narıncnan gülən Turunc sənin atan Əşəsin bağındadı. Amma sənin div əmilərin gəlməyini bilsələr hər tikənn qulağıncan eləyərlər. Odu ki, gərək gecə, divlər yuxuya gedəndən sonra gedək. Mən bağa girə bilmərəm. Atlar hənirimi alıb kişnərlər. Divlər ayılar. Sən gir həyətə. Həmin açarlarla qapıları aç. Biri bağa girən qapınındı, aç bağın qapısını. Bağda dürlü meyvə görəcəksən. Hər biri ağaclardan sənə «gəl-gəl, məni dər gəl-gəl, məni apar» deyəcək. Nəbadə birinə də tamahsılanasan! Tez bağın ortasındakı əbrüşüm çinara yaxınlaş. Oxuyan Narıncnan gülən Turunc həmin əbrüşüm çinardadı. Hər ikisini götür, ayrı-ayrı qəfəsə qoy dalına baxmadan geri, yanıma qayıt! Sən Narıncnan Turuncu götürəndə, bağda hay-küy qopacaq, «Apardılar! Kim apardı? Narınc-Turuncu apardı. Məni də apardı. Səni də apardı.. Qoyma getdi» səsi bağı bürüyəcək, fikir vermə! Dala baxma ha!.. Birdən dönüb-dönüb doğma yurduna, keçmiş ev-eşiyinizə baxarsan... Nəbadə ha!.. Yoxsa divlər oyanar; ikimiz də məhv olluq...

İbrahim ata «baş üstə» dedi. Sözlərini sırğa elədi, qulağından asdı. Könül arzusu elədi — ürəyinə yazdı. Ata öyüdü kimi beyninə qazdı...

Axşamtərəfi gəlib ata yurduna çatdılar, İbrahimin ürəyi atlandı. Bildi ki, bu istək ata yurdunun qüssəsindən gəlir... Gecə düşənəcən at, İbrahim ata yurdunun mərzində saxladı, tərpəşməyə qoymadı. Elə ki gecə düşdü, at dedi:

— Hə, İbrahim, divlər yatdı. İndi yeddi yuxuya gediblər, qəfəsləri də götür, qırx açarı da. Talahın sənə yar olsun, düş yola!.. Atan Əşəs div hörmətinə...

İbrahim qəfəsləri yəhərin qancıqabağından açıb cibindəki qırx açarı yoxladı. İstəkli al-od qanadlı atının gözlərindən öpüb ata yurduna, körpəlikdən əmrazaya çatanacan yaşadığı evlərinə tərəf yol aldı... Gəlib həyətlərinə çatdı, ürəyi uçunurdu. «Burda atam bizi oynadardı. Burda Reyhan ana bizə qum evciklər düzəldərdi. Burda Mahcamal bacımla evcik-evcik oynardıq»... Bildi ki, onu yurd məhəbbəti sehirləyir. Al-od qanadlı atın sözləri yadına düşdü. Ürəyinə daş bağladı, qırx açarı çıxardıb zirzəmiyə endi, bir-bir qapıları açdı. Otaqlardakı gözəl əşyanı, ləl-cəvahiratı, geyim-kecimi gördü. İndi o bütün bunların qədir-qiymətini bilirdi. Axı insanlar arasında yaşayırdı... Əlini bir şeyə uzatmaq istəyəndə al-od qanadlı atın sözləri yadına düşdü. Bildi ki, tamah ona qalib gəlmək istəyir. Tez özünü ələ aldı. Heç nəyə baxmadı. Bağın qapısını açdı. İlahi, nə gözəl idi atası Əşəs divin bağı!?.. Nə gözəl meyvələr yetişmişdi ağaclarda... Hər biri də ona «gəl-gəl, məni dər...» deyirdi. İbrahim nəfsinə də «dur» dedi. Bağın ortasında göylərə dirənən əbrüşüm çinara yaxınlaşdı. Al-od qanadlı atın öyrətdiyi qaydaynan əvvəlcə oxuyan Narıncı götürüb qəfəsə qoydu. Sonra da gülən Turuncu aldı onu da qəfəsə qoydu, «Ağamı allah saxlasın» eləyib bağdan çıxmaq istədi. İlahi ağacdakı meyvələr bir şivən qopardılar gəl görəsən! İbrahimin ürəyinə qorxu doldusa da, al-od qanadlı atın sözlərini yadına salıb, qorxuya da qalib gəldi. Tapıya tərəf üz tutdu, hay-küyə qulaq vermədi. Dala baxmadı. Bağdan çıxıb özünü ata yurdunun mərzində onu gözləyən al-od qanadlı ata yetirdi. Onda çatdı ki, at intizardan yorulmuşdu, az qala dalınca gedəcəkdi.

— Nə, gecikdin, İbrahim? Səhərin açılmasına az qalıb.

— Məni qınama, ata yurdu şirin olur... Ayrıla bilmirdim...

Qərəz İbrahim ata süvar oldu, qəfəsləri də götürüb hərəsini bir tərəfdən yəhər qaşına bənd elədi, yola düşdü. Sübhün gözü təzəcə açılmışdı ki, gəlib Bitlisə çatdı. Özünü

evlərinə çatdırdı. Qəfəsləri anası ilə bacısına verdi. Al-od qanadlı atını tumarladı, gözlərindən öpdü, aparıb tövlədəki axuruna bağladı, qabağına kişmiş-səbzə tökdü. Gəlib yatağına girib div yuxusuna getdi. Axı bütün gecəni yatmamışdı. Cavan yuxusu şirin olar...

Reyhan xanımla Mahcamal qız qəfəsləri qonaq otağına apardılar. Birini o başda, birini bu başda kəllə pəncərələrin üstünə bərkitdilər. Oturub heyran-heyran Narıncın oxumağına, Turuncun gülməyinə qulaq asmağa başladılar. Elə bu vaxt nədim gəlib özünü onlara yetirdi. Soruşdu: «İbrahim gəlibmi? Şah onu soruşur». Reyhan ana ilə Mahcamal qız dedilər: «Baş üstə, canımıza minnəti var. Şaha de ki, İbrahim gəlib, sağ-salamatdı; amma yorulub yatıb, duran kimi şahın qulluğuna gələcək».

Nədim getdi. O yandan baş hərəm xəbər tutdu ki, İbrahim sağ-salamat gəlib çıxıb, ikinci hərəmlə birlikdə qarıları hüzura tələb elədilər. Moda qarıynan Müdə qarı saraya hərəm otağına gələndə İbrahimi gördülər, İbrahim də yatıb doyub Adil padşahın yanına — taxt-tac otağına gedirdi. Qarılar baş hərəmlə ikinci hərəmin yanına gəldilər. Baş hərəm Müdə Qarının başına bir kök qapaz salıb dedi;

— Nə oldu, ay ifritə, bəs sən İbrahimi gedər-gəlməzə yollamışdın?

Moda qarı tez özünü irəli verdi:

— Qurbanın olum,—dedi, — darıxma onda olmadı, indi olar. Vallah, sənə verdiyim südümə and olsun, elə bir kələk qurmuşam ki, bu dəfə daha onun üzünü bir də nə Adil şah görəcək, nə də başqa birisi...

— Moda qarı elə buradanca özünü İbrahimgilə çatdırdı. İçəri girdi. Day indi köhnə tanış kimi gəlirdi. Ərknən hər yerə göz qoydu. Tərifledi:

— Bəh, bəh, maşallah, nə gözəl atlarınız var!.. Dərya atlarıdı ki... Mən deyənlərdi... Kim gətirdi bunları sizə, qızım?

Reyhan xanım fərəhlə dedi:

— Oğlum İbrahim gətirib, ay ana!

— Bıy, allah saxlasın!.. A bala, bəs bu oxuyan Narıncnan gülən Turuncu hardan almısız?

Mahcamal güldü:

— Qarı nənə, elə şey bazarda satılır ki, alaq? Onu da, göz dəyməsin, qardaşım İbrahim gətirib ki, qəriblikdə darıxmayaq.

— Olsun, olsun...

Elə bu vaxt Narınc oxumağa başladı... Turunc güldü. Qarı da, Reyhanla Mahcamal da qulaq asdılar, doymadılar... Qarı dedi:

— Yaxşıdı, söz yox! Bu gözəl evin, bu yaraşıqlı atların, bu Narıncnan Turuncun bircə əskiyi var...

— Nədi, nənə?

— Nənən qurban, şirin qız, qardaşın gedib Dilaram cəngini gətirsəydi day bu evin heç bir əyər-əskiyi olmazdı.

Moda qarı bunu deyib qoydu getdi...

İbrahim evə gələndə gördü ki, bacısı çox fikirlidi, qızın çənəsindən tutdu, alnından öpdü, gözlərindən öpdü, dedi:

— Ay atam qızı Mahcamal bacım, sənin ay üzünə nə qubardı gəlib, nə dərdin var? Atam Əşəs yerinə qardaşın ölməyib, dərdin nə olsa, əlac elərəm...

Can qardaş, canım qardaş, sənin də evlənən vaxtındı. Deyirəm gedib Dilaram cəngini gətirəsən. Deyirlər dünya gözəlidi. Bir baxan, bir də baxım deyir... Bizə də qulaq yoldaşı olar...

İbrahim bacısına «baş üstə, can üstə» deyib tövləyə — al-od qanadlı atın yanına yollandı. At onu fikirli görən kimi soruşdu:

— Nədi, İbrahim, dərdin nədi?

İbrahim Dilaram cənginin adını çəkən kimi, al-od qanadlı atın canına elə bil titrətmə düşdü, elə bil atı ilan çaldı, dedi:

— İbrahim, hər kimdisə bu adam, səni ölümə, gedər-gəlməzə

göndərir. Bax əsl qulluq, əsl çətin iş budu! Amma atan Əşəs div hörmətinə... Get, ananla-bacınla görüş, qırx gün möhlət al. Özünlə heç nə götürməyəcəksən. Sabah gün çıxmamış evdən çıx, yola düşək...

İbrahim gəlib saraya getdi. Adil şahdan qırx günün səfərinə möhlət istədi, Adil şah onu buraxmadı:

— Oğul, İbrahim, — dedi, — özün görürsən ki, mənim oğul-övladım yoxdu, varisim yoxdu. Sən də mənim ürəyimə yatmısan. Getmə, qal yanımda. Səni özümə varis eləyim, lap istəsən elə indidən şahlığı sənə verim. Özüm sənin qoca dostun kimi yanında qalım ölənəcən. Amma getmə! Ürəyim qoymur... səni buraxa bilmirəm...

İbrahim qoca şahın əlindən öpdü, dedi:

— Çox sağ ol, mənim hökmdarım! Amma mən bacıma söz vermişəm, gərək gedəm. Qırx günün möhlətinə... İnşallah qayıdaram, sən nə istəsən onu elərəm. Söz verirəm ki, bu axırıncı səfər olaçaq. Bir də heç yerə getmərəm...

Qərəz, İbrahim qırx dilnən Adil şahdan izin aldı. Evə gəldi, anasıynan, bacısıynan görüşüb halallaşdı, səhər olcaq gün çıxmamış, evdən çıxdı. Al-od qanadlı atını tövlədən bayıra çəkdi, tellərin daradı, gözlərindən öpdü, yəhərə qalxdı, yola rəvan oldu. Dərələrdən sel kimi, təpələrdən yel kimi, badeyi-sərsər kimi, ayaq üzəngidə, diz qabırğada, iyirmi gün gecə demədi, gündüz demədi yolun damarını qırdı, az getdi, üz getdi, iynə yarım yol getdi, gəlib Dilaram cənginin məmləkətinin sərhədinə çatdı. Al-od qanadlı at nıx dayandı, dedi:

— Mən day burdan o yana gedə bilmərəm, sərhədi keçsəm daşa dönnəm! İbrahim, sən düş! Bax, bu gördüyün dirəklər dirək deyil, sənin kimi cavan oğlanlardı ki, Dilaram cənginin gözəlliyini eşidib, onu aparmaq eşqinə bura gəliblər. Hamısını da Dilaram cəngi daşa döndərib. Bax, o gördüyün qəsr Dilaramındı. Mən onun xasiyyətlərini bilirəm, sənə öyrədim,

get! Qalanı sənin cəldliyindən, bacarığından asılıdı. Dilaram hər gün azan vaxtı iş-gücünü qurtarır. Aşı balaca bir qazanda dəmə vurur. Həyəti çalğılayır. Qumunu təpəcik kimi ortaya yığır. Əlindəki sehrli qamçını bir dəqiqəliyə sancır o qum təpəciyinin üstünə. Keçib şam eləmək üçün əlini yuyur. Bax, o əlini yuyanda fürsət tapıb, bir dəqiqənin içində qamçını ələ keçirib «Sın sehr, sın!» deyə bildin, sehr sınacaq. Bütün bu daşlar adam olacaq, Dilaram cəngilikdən çıxıb sevimli bir qız olacaq, sən də gətirib onu kamına çatacaqsan. Yox, əgər fürsəti fövtə verdin, səndən qabaq o səni gördü, batdın! Sən də, mən də. Səni də bu gördüklərin kimi daşa döndərəcək... Qərəz, taleyin, sənə yar olsun, atan Əşəs hörmətinə...

İbrahim al-od qanadlı atın dediklərini sinədəftər elədi, atın gözlərindən öpdü, Dilaram cənginin qəsrinə tərəf yola düşdü. Axşam azanınacap qəsrin barısından qıza göz qoydu. Elə ki, qaş qaraldı, Dilaram cəngi qazanı dəmə qoydu. Həyəti yovşan süpürgəynən çalğılayanda qamçısını belinə sancdı. Qum təpəcəyi düzəltdi, qamçını belindən çıxarıb təpəciyin üstünə sancdı. Döndü ki, əllərini yusun, İbrahim ildırım kimi barıdan aşdı. Özünü qum təpəciyinə yetirdi, elə əli qamçıya dəyər-dəyməz Dilaram cəngi geri döndü. İbrahimi gördü. Amma oğlanın gözəlliyi ona elə təsir elədi ki, özünü saxlaya bilməyib dedi:

— Ol qurşağacan daş!

İbrahim qurşağacan daş oldu. Qız belə eləmişdi ki, hərdənbir onun gözəlliyinə tamaşa eləyə bilsin. Bunlar burda qalsın, eşit atdan.

Qərəz... Al-od qanadlı at xeyli gözlədi, gözlədi, gördü ki, İbrahim gəlmədi. Bildi ki, Dilaram cəngi oğlanı daşa döndərib. Amma yerindən tərpənmədi. Ac-susuz, mərzdə dayandı, gündüz onu gün yandırdı, gecə küləklər üşütdü, yağan yağış islatdı, qar dondurdu. At yerindən tərpənmədi. Zığa-palçığa batıb durduğu yerdə durdu, İbrahimin yolunu gözlədi gedər-gəlməz

səfərindən. Qış qurtardı. Novruzun topu atıldı, təzə il yaxınlaşdı. Günlərin bir günündə atın dayandığı yerə yaxın daş dirəklərdən birinin üstünə üç göyərçin qondu.
Bunlar Dilaramın bacıları pəri qızları idi. At onları görən kimi tanıdı. Yavaşcadan kişnədi. Göyərçiilərdən böyüyü onu gördü:
— Bacılı-bacılı!
— Can bacılı!
— O atı görürsüz?..
— Kimdi ki?..
— Əşəs divin qardaşıdı... Onun burda nə işi var?
Pəri qızları cildlərini dəyişdilər. Atın yanına gəldilər. Al-od qanadlı at başına gələn qəziyyəni başdan ayağa qızlara danışdı. İbrahimin də qəsrdə daşa döndüyünü söylədi. Qızlar gileyləndilər:
— Daha bu Dilaram ağını çıxardıb. Biboğlu Əşəsin də oğlunu daşa döndərib...
— Bəlkə tanımayıb.
Qızlar al-od qanadlı atı yuyub təmizlədilər. Ot verdilər. Cildlərini geyib qəsrə uçdular. Dilaram onları görcəyin dedi:

— Nə gecikdiz, bacılarım? Bayramınız mübarək, baharınız xoş gəlib...
Qızlar küskün-küskün dayandılar. Dilaram soruşdu:
— Mənnən niyə öpüşüb bayramlaşmırsız, qızlar, a mənim dəcəl bacılarım?
Böyük qız dedi:
— Səninçün bayramdı... Amma, biboğlu Əşəsii külfətiyçin qarabayram.
Onlar həyətdə qurşağacan daşa çevrilmiş İbrahimi göstərib dedilər.
— Sən də day ağ eləmisən.
Dilaram soruşdu:
— Bu Əşəs biboğlunun oğludu? Bilməmişəm. Amma

gözəlliyi xoşuma gəldi, yarıyacan daş elədim ki, hərdən-birdən işarası tamaşa eləyim. Yaxşı bunun canı sizə bayramlıq olsun, ol adam!.. — deyib qamçısı ilə İbrahimə toxundu, İbrahim daşdan azad oldu. Göyərçinlərin kiçiyi dedi:

— Siz işinizdə olun, mən bibinəvəsini mərzəcən ötürüm...

Qərəz pələşov qız oğlanı götürüb qəsrdən çıxartdı, barının dalında gizlətdi, dedi:

— Bax, axşam olan kimi Dilaram bizimnən şam yeməyinə əyləşəcək. Biz onun başını qatacağıq. Sən cəld tərpən, qum təpəciyin üstündən qamçını götür, içəri gir, de: «Sın, tilsim, sın!» Qorxma! Biz sənə zərər verməyə, qoymarıq onu.

Qız İbrahimi o ki var öyrətdi. Axşam oldu, İbrahim göz-göz elədi, elə ki qızlar yemək süfrəsinin başında əyləşdilər, Dilaram qamçısını götürmək istəyəndə qızlar qoymadılar «neynirsən ey, biz burda, day bəsdi». İbrahim bu sözləri eşidən kimi həyətə endi. Qamçını götürdü, tez qapıya çatdı. İçəri girib gördü ki, qızlar Dilaramı süfrə başında elə əyləşdiriblər ki, qapını görə bilməsin, arxası qapıya olsun. İbrahim lap arxayınlaşdı, girdi içəri. Qamçını Dilaram cənginin çiyninə, kürəyinə vurub dedi: «Sın, tilsim, sın!» Bir hay-küy qopdu, elə bil yer lərzəyə gəldi. Bütün düz-dünyanı tutmuş daş dirəklər dönüb cavan oğlan oldu. Hərəsi öz ölkəsinə dağılışdı. Al-od qanadlı at başa düşdü ki, day qorxmaya bilər, tilsim sınıb. Dilaram da cəngilikdən çıxıb, gözəl Dilaram olub. Qərəz, qəsrin yanına gəldi. Gördü ki, İbrahim qızlarla plovu yeyib, səfər hazırlığı görür. Yığıldılar, yığışıldılar. Dilaram vəzndən yüngül, qiymətdən ağır nəyi vardısa götürdü, qəsrini bağladı, bacıları ilə öpüşdü, görüşdü, İbrahimlə birlikdə al-od qanadlı ata minib Bitlisə yol aldı.

Qırx gün əvəzinə səfər bir iləcən çəkmişdi. Reyhanla Mahcamal intizar içindəydi. Adil şahdan gündə adam gəlib İbrahimi soruşurdu. Padşah bərk xəstələnmişdi. Birdəm qapı açıldı, əvvəlcə Dilaram, dalınca da İbrahim içəri girdilər. Ana-

bala, bacı-qardaş öpüşdülər, görüşdülər. Reyhan xanım Dilaramın üzündən-gözündən öpdü, dedi:

— Bala, sən bu evə xoş gəlmisən, qədəmin mübarək! Mahcamal da qızın boynuna sarıldı:

— Qardaşımın deyiklisinə də, özünə də qurban olum. Reyhan xanım dedi:

— Oğul, İbrahnm, Adil şah da sənin intizarındadı, tez saraya get.

İbrahim həyətə çıxdı. Al-od qanadlı atının gözlərindən öpdü, tellərnni daradı. Belinin yəhərini alıb tumarladı, aparıb qırx dərya atının bağlandığı tövlədə axuruna bağladı. Qabağına kişmiş tökdü. Bundan sonra saraya yollandı. Sarayda padşah qəm dəryasına batıb xəstə yatırdı, İbrahimdən ötəri burnunun ucu göynəyirdi. Əvəzində vəzir-vəkil, xüsusilə baş hərəm İbrahimin axırına çıxdıqlarına, onu gedər-gəlməzə yolladıqlarına görə şad-xürrəm yaşayırdılar. Moda qarıynan Müdə qarı da kef-damaqda, aldıqları pul, qızıl içində yaşayırdılr. Qəfil sarayda aləm bir-birinə dəydi. Xəbər çıxdı ki, Adil şahdan muştuluq alın, İbrahim gəlib çıxıb. Adil şah bu xəbəri eşidən kimi cana gəldi. Durub yerində oturdu. Oğlan içəri girən kimi onu qucaqlayıb bağrına basdı.

Bunlar burda dursun. O yandan Dilaram xanım, Reyhan anadan bütün əhvalatı soruşdu. Reyhan ana da Əşəs divin onu oğurladığından bu günə kimi başlarına nə gəlmişdisə, hamısını nağıl elədi. Divin uşaqları tapmağını, ölməyini, atları, Narınc-Turuncun gətirildiyini danışdı. Sonra da İbrahimni Dilaramın dalınca getməyini söylədi. Bu zaman Dilaram dedi:

— Hə, Reyhan ana, şükür elə ki, İbrahim sağ-salamat gəlib çıxıb! Sənin dediyin o Moda qarıynan Müdə qarı! İbrahimi həmişə düz ölümə göndəriblər. İndi mən bilərəm onlara neynərəm.

Bu vaxt pəncərədən küçəyə tamaşa eləyən Mahcamal dedi:

— Odey, ikisi də bir əlində imanı, bir əlində tumanı gəlirlər bura, başılovlu.

Reyhan .xanım dedi:

— Görəsən, genə nə pəstəha açacaqlar, qov getsinlər.

Dilaram dedi:

— Yox, qovma! Lazım olacaqlar. Burda bir sirr var ki, onlar İbrahimi ölümə göndərirlər. Bilək görək.

Əvvəlcə Moda qarı içəri girdi. Dilaram ona salam verməyə macal vermədi. Qamçısı ilə çiyninə toxunub dedi:

— Ol tövlə süpürgəsi!

Qarı o saat dönüb bulaşıq, kütmül süpürgəyə çevrildi. Reyhanla Mahcamal bir söz soruşmağa macal tapmamış, Müdə qarı içəri girdi. Dilaram qamçısı ilə onun da çiyninə toxunub dedi:

— Ol ayaqyolu süpürgəsi!

Bu imansız qarı da o saat dönüb murdar, kütmül bir süpürgəyə çevrildi.

Axşam düşdü, İbrahim saraydan qayıtdı. Hərə yatağına çəkiləndən sonra Dilaram yerindən qalxıb həyətə çıxdı. Qamçısı ilə binaya toxunub dedi:

— Ol mənim qəsrim kimi bir qəsr.

Ev dönüb qəsrə çevrildi. Hərə də öz otağında yatmışdı, səhər durub evi tanımadılar. Şahanə bir qəsrdə oyandılar. O yandan Adil şah da yuxudan durub pəncərədən baxanda şəhərin qırağında iri bir imarət gördü. Tez adam göndərib xəbər bildirmək istəyəndə ona dedilər ki, qəsr İbrahimin evinin yerində düşüb. Nigarançılıq padşahın ürəyinə elə əsər elədi ki, yerindən durub başının adamları ilə birlikdə İbrahimin görüşünə yollandı. Qabaqca nədimi göndərildi ki, xəbərdarlıq eləsin. Şahın gəlməyindən xəbər tutan Dilaram, gözəl bəzənmiş qonaq otağına keçdi, Mahcamala dedi ki, tövlə süpürgəsi ilə ayaqyolu süpürgələrini gətirin bu otağın cəhənglərindən assın. Qız onun xahişini yerinə yetirdi. Balaca bir qazançanı

Mahcamala verib həyətdə oturdu və dedi:

— Qonaqlar gələndə bu qazandan plov tökərsən, qazan boşaldıqca «dol, qazanım, dol» deyərsən, dolacaq, qorxma ha! Hamıya xörək çatar.

Padşahın adamları gəlib çıxdı, şah Mahcamalı balaca qazança ilə görüb narahat oldu ki: «İbrahimin xörəyi çatmayacaq, vəzir-vəkil oia güləcəklər». Amma qızın qardaşına oxşarlığı onu da heyran qoydu. Padşahı İbrahim qarşıladı, onu qonaq otağına dəvət elədi. Padşah içəri girəndə murdar, pis qoxulu süpürgələrn görüb təəccüb elədi, əbasının ətəklərini yığışdırıb çimçəşə-çimçəşə içəri girdi, əlbəttə, qara köpəklər də onun sağında və solunda idi. Əyləşdilər. Vəzir, vəkil padşahın sağında-solunda oturdu. İbrahim qapı qabağında ayaq üstündə, əl əl üstə da yanıb padşahın və pərdə dalında anası, bacısı ilə birlikdə əyləşmiş Dilaramın əmriii gözləyirdi. Dilaram pərdə dalından soruşdu:

— Hökmdarım, sarayımızı necə gördün? Bəyəndin?

Adil şah dedi:

— Hər şey yaxşıdır, amma bircə bu süpürgələri başa düşmədim...

— Başa düşərsən, şahim! Onlar adi süpürgə deyil, sənin ən yaxın adamlarının adamıdır.

Hamı təəccübdə qalmışdı. Süpürgə nədi, adam nədi? Bu vaxt Dilaramın göstərişiyiən Mahcamal pərdənin dalından çıxdı, əlindəki qamçını tövlə süpürgəsinə vurub dedi:

— Ol Moda qarı!

Sonra da qamçını ayaqyolu süpürgəsinə toxundurub dedi:

— Ol Müdə qarı!

Hər iki süpürgə dönüb Moda qarıynan Müdə qarı oldu. Adamların ağzı açıla qalmışdı. Qara köpəklər qarıları görcəyin dartındılar, acıqla hürməyə başladılar. Adil şah təəccüb içində dilləndi:

— Bu nə deməkdir?

Pərdənin dalından Dilaram dilləndi:

— Hökmdarım, əmr elə Moda qarıynan Müdə qarı özləri nə ki var, əhli-məclisə danışsınlar.

Qarılar padşahın əmriylə nə ki törətmişdilər, İbrahimlə Mahcamalın doğulduğu gündən bu günəcən necə mən sizə nağıl elədim, eləcə də danışdılar. Axırda da dedilər:

— Ey Adil padşah, bil və agah ol! İbrahimlə Mahcamal sənin o gecə dünyaya gələn əkiztay balalarındı. O itlər isə biz qoyduğumuz küçüklərdir. Bizi baş hərəmlə sənin ikinci hərəmin bu işə məcbur elədi.

Qərəz, qəsrə bir hay-küy düşdü gəl görəsən! Adil şah oğlu İbrahimlə qızı. Mahcamalı bağrına basdı, üzlərindən, gözlərindən öpdü. Sonra da Reyhan xanım pərdənin o üzündən uşaqların necə tapıldığından, onların bu günəcən Əşəs divi ata, Reyhanı ana bildiklərindən danışdı. Adil şah dedi:

— Oğul, gərək ananız saraya gələ.

Moda qarıynan Müdə qarı tez xəbər verdilər ki, uşaqların anası, çoxdan aclıqdan, dərd-qəmdən, başına gətirilən qəzavü-qədərdən ölüb. Ömrünü balalarına bağışlayıb. Şahın əmriylə Moda qarıynan Müdə qarını, baş hərəmnən ikinci hərəmi hərəsnni bir dəli qatırın quyruruna bağlayıb çölə buraxdılar. Şah qırx gün qırx gecə İbrahimlə Dilarama toy vurdurdu. Adil şah İbrahimi yerində şah qoydu. Həmin gündən «bacımsan» dediyi Reyhanı və qızı Mahcamalı əzizlədi. Əcəl gəlib onu aparanacai şən-şatir yaşadılar. Mən də sizə iağıl eləməyə gəldim.

BALQABAQ OĞLANIN NAĞILI

Dünyanın qəribə işləkləri var. Olubmu-olmayıbmı bunu da bilməzsən. Amma hər halda nəsə buna bənzər bir şey olub, yoxsa adamlar, ulu babalar-nənələr boş yerə, göydən-düşmə heç

nə qoşmayıblar, düzməyiblər, deməyiblər. Belə rəvayət eləyirlər ki, yer üzündə çox-çox qədim zamanlarda quşlar ağaclarda oxuşanda, ceyranlar düzlərdə qaçışanda bir kənddə çox mehriban bir ərnən arvad yaşayırmış. Dünyada heç bir dərd-qəmləri yoxuymuş, övlad dərdindən savay. Arvad hara baxırmış, yanıbalalı ana görürmüş. Üzünü göylərə tutub deyirmiş: «Ay gözəgörünməz, nədi günahım?! Qoyunun quzusu var, toyuğun cücəsi. İnəyin buzovu var, camışın kəlçəsi. Dəvənin köşəyi var, atın dayçası. Keçinin çəpişi var, itin küçüyü... Dağlarda tək ağac da pöhrə verir, qara qayalar yosun bitirir. Bəs mənim balam hanı? Nədi günahım, ay gözəgörünməz, nədi günahım? Bəs mənim balam hanı? Niyə mənim körpəm yoxdu? Çiynimi bala ağzı islatmadı. Əllərim körpə qundağı bələmədi. Qulağım uşaq qığıltısı eşitmədi... Nədi günahım?!»

Arvadın yanıqlı naləsi adamların ürəyini soymuşdu; az qala şır-şır axan bulaqları qurutmuşdu, ağacları yandırmışdı, göy-göyərtini, gül-çiçəyi soldurmuşdu. Elə bil bütün dünya: güllər də, quşlar da, ceyran-cüyür də geylərə baş qaldırmışdı, bu fağır arvada qismət-bala arzulayırdı... El alqışı güclü olar. Arvad hamilə oldu. Əri onun başına dolandı, ağırı-yüngülü özü elədi. Arvadın qarnı gündən-günə böyüdü, böyüdü... Biri dedi «əkiz doğacaq», biri dedi «üçəm»... ...Qərəz, doqquz ay, doqquz gün doqquz dəqiqə başa gələndə arvad yükünü yerə qoydu, bir oğlan doğdu. Oğlan qaşda, gözdə, surda-suratda atasıydı durmuşdu. Günbəgün yox ha, saatbasaat böyüyürdü. Ata da sevinirdi, ana da... Amma uşaq böyüdükcə görürdülər ki, bədən böyüyür; əl-ayaq yerində durub. Ağıl böyüyür, amma qol-qıç böyüyürəm demir. Ağzıgöyçəklər oğlana «Balqabaq oğlan» adı qoydular. O doğrudan da balqabağa oxşayırdı. Amma ata-anasının yanında qədir-qiyməti, dünyanın ən adlı igidlərindən, ən gözəl oğlanlarından artıq idi. Bircə dərdləri vardı: Bu uşaq niyə belə bədbəxt oldu? Niyə balqabağa oxşadı? Bir gün oğlan anasına dedi:

— Ay ana, dərd eləmə! Mən sənincin bir oğlan olum ki, görən desin yüz oğlum olsaydı buna dəyişərdim... Sənin də, atamın da ağır zəhmətini yüngülləşdirəcəm. Darıxma...

Ana güldü:

— Təki sən sağ-salamat ol, ay bala! Verənin kərəminə şükür, fağırı dərdsiz-qəmsiz yaratmır. Təki sən sağ ol, qalanı keçər gedər...

Qərəz... başınızı nə ağrıdım. Xoş günlərin birində ərlə arvad çöldə xışa qoşulub çöldə yer əkirdilər. Balqabaq oğlan da onların suyunu, yeməyini gətirib verir, özü də boşbikar durmur, uşaq bacarığıynan əlindən nə gəlirdi, ata-anasına kömək eləyirdi. Birdən xışın ağzı nəyəsə ilişdi. Ərnən arvad ha güc elədilər, ha zor vurdular bir şey eləyə bilmədilər. Kişi dedi:

—Ay oğul, deyəsən xışın ağzı daşa bərk ilişib. Qorxuram zora salaq sındıraq. Get Hüsən əmingildən bellərini al gəti, görək nə bəlaya düşmüşük.

Hüsən kişi onların qonşusu idi. Mərzdən o yana o da öküzləriynən yer şumlayırdı. Oğlan kişinin yanına gəlib beli istədi. Hüsən beli verdi, amma canı da Balqabaq oğlangilin yanında qaldı. Görəsən yerdən nə çıxardırlar, nə var? Qərəz öküzləri dincə buraxdı, oğluna da bərk-bərk göz olmağı tapşırdı. Dabanbasma Balqabaq oğlanın dalıycan özünü yetirdi.

Balqabaq oğlanın atası beli əlinə alıb xışın ilişdiyi yeri qazmağa başladı. Arvad da, oğlan da əllərinən kömək eləyir, torpağı eşirdilər.

Kişi xeyli tər tökdü. Hüsən də əllərini belinə vurub tamaşa eləyirdi. Birdən belin ağzı nəsə elə bil dəmirə dəydi, cingildədi. Hüsən çığırdı:

— Əyşi, nə qayırdığındı? Belin ağzını əyərsən!

Qərəz bir xeyli qazandan sonra gördülər ki, yerin altında xışın ağzına ilişən daş deyil, bir mis dəbbədi. Ər-arvad sevincək dəbbənin ağzını açdılar, gördülər ki, içi ağızbağız dolu qızıl pul, ləl-cavahiratdı heç bəlkə padşahın xəzinəsində

də bunlardan yoxdu. Üstündə də bir dənə toyuq yumurtasından kiçik, göyərçin yumurtasından böyük ləl var ki baxanın gözün qamaşdırır, demə görmədim, bapbalaca günəşdi, bərq vurur.

Hüsənin gözləri məşəldar pişiyin gözü kimi alışıb yandı. Dedi:

— Kişi, kasıblığın daşını atdın! Amma mənim belimnən qazıb çıxartmısan, sənə şərikəm.

Ər-arvad qızıl pullardan bir sıxma ona verdilər, dedilər:

— Ay Hüsən, allahın olsun, bir belnən qazmağa da yarılıq olar? Bu sənin belinin artıqlamasıycan haqqıdı. Yer bizimdi axı...

Hüsən pulları göydə qapdı. Çıxıb ayağını sürüyə-sürüyə getdi, hey fikirləşdi: «Necə ki, necə? O qədər mal-dövlət mənə yox, başqasına qismət olsun? Bu dərd məni öldürər. Qoymaram təkcə sahiblənə o dövlətə! Səhər gedib padşaha xəbər verərəm, xəbər haqqı da allam, üstəlik». Qonşusuna paxıllıq eləyib onu quru yurdda qoymaq istədi Hüsən. Namərd adamıydı çünki. Amma atalar deyib: «Qonşunu bir inəkli istə ki, özün də iki inəkli olasan». «Allah adamı yaman qonşudan saxlasın», «Qonşun pisdi, köç qurtar», «Ev alanda, daş-divarı alma, qonşunu al»... Nə başağrısı verim sizə. Ərnən arvad tapdıqlarına sevinib, mis dəbbəni də götürüb şad-xürrəm evlərinə yönəldilər. Oğlan da atıla-düşə onların dalınca gəlirdi. Sevinirdi ki, daha ata-anası yoxsulluğun daşını atacaq. Öküz əvəzinə xışa qoşulub yer şumlamayacaq. Yaxşı öküzlər alacaqlar, inəkləri olacaq.

Bunlar burda sevinməkdə olsun, xəbəri sənə kimdən verim, Hüsəndən. Paxıl qonşu sabahacan gücnən gözlərini yumdu. Sübhün gözü açılmamış göz açdı, yerindən durduq Fətirini yeyib, südünü içdi. Elə ala-torandan şəhərə tərəf yol aldı. Özüynən padşahın verəcəyi pay üçün qab, torba, heybə də götürmüşdü. Yel kimi gedirdi. Gün bir cida boyu qalxanda özünü şəhərə çatdırdı. Padşahın imarətinin qənşərinə gəldi. Hə,

də... demişəm ayrı nağıllarda sizə ki, padşahın qapısında iki daş səki olar, birinə elçi daşı, birinə yolçu daşı deyərlər. Kim ayrı ölkədən, ayrı padşahın diyarından iş-güc üçün gəlib, ya padşahın qızını istəyir, ya tacirdi, ticarət izinə gəlib, ya ayrı diləyi var, onda o, elçi daşını süpürüb oturur. Şahın nədimi də gəlib kimliyipi soruşur, sonra da gəlib padşaha xəbər verir. Nə buyursa əməl eləyirdilər. Görüşməlidisə görüşdürür, fərman almalıdırsa-fərmanını alırdı. Yox, əgər gələn adam pay istəməyə gəlibsə, day padşaha demirdilər. Üst-başına baxıb bir az sadağadan-zaddan verirdilər, çıxıb gedirdi. Hüsən gəlib elçi daşını süpürdü, oturdu üstündə. Qarovullar nədimə xəbər elədilər ki, bəs elçi daşı süpürülüb.

Nədim darvazaya çıxdı. Gördü geyimindən elçiyə oxşamayan elat adamıdı. Elə bildi ki, daşı səhv salıb, qolundan tutub onu yolçu daşına tərəf itələdi. Hüsən şiniyib getmədi, dedi:

— Mən elçiyəm, payyığan deyiləm.

Nədim güldü, onu ələ salıb soruşdu:

— Əyşi, yoxsa padşahın qızını oğluna elçiləməyə gəlmisən?

Hüsən yazıq-yazıq boynunu bükdü:

— Yox, dərdin alım, sadağan olum, padşaha xəzinə yeri deməyə gəlmişəm.

Nədim inanmadı:

— Yox, bir xəzinə! Tapmışdın — özün gətirəydin də!.. Görəsən bu dilnən məni alladıb, padşahdan nə dilənəcəksən.

Hüsən and-aman elədi, dedi:

— Bıy mənim nə həddimdi, padşahın torpağından çıxanı özümə götürəm?! O yer üzünün allahıdı! Mənə də nə bağışlar, ona qaneyəm. Amma oğlum ölsün ki, yalan demirəm, ay qardaş, ay ağa, neyçün mənə inanmırsan?

Nədim fikirləşdi ki, əcəb axmaq adam əlimə keçib, xəzinənin yerini özüm öyrənnəm, buna da bir tulapayı verrəm.

Odu ki, sözünün təhərini dəyişdi:

— Yaxşı, yaxşı, deyək ki, inandım, hardadı xəzinə?

— Sənə demərəm, padşah canına qurban olduğumun özünə deyəcəm.

Nədim nə qədər çalışdısa Hüsən sözündən dönmədi. Elə dediyini dedi ki: «Qırxdı, bir əskik deyil, padşaha deyəcəm vassalam». Nədim kişini döydü, söydü, genə olmadı, Hüsən dedi: «Toyuq birqıçlıdı, elə padşahın özünə deyəcəm, vəssalam». Axırı nədimin əlacı kəsilib dedi:

— Kişi, sənin zəncirin üzülsün. Mən səni imtahana çəkirdim ki, görüm padşahın vaxtını boş yerə alıb başını ağrıtmayacaqsan ki? Hə indi dur gedək padşahın qulluğuna.

Nədim Hüsəni elə o cilddə padşahın hüzuruna gətirdi. Padşahın yolçu-yolaqçıdan zəhləsi gedərdi. Burnuna qan, saman, his iyi dəydi. Hüsəndən üzünü o yana tutub nədimə qışqırdı:

— Nədim, haçandan şah hüzuru yolçu-yolaqçı yeri olub?

Nədim dili topuq çala-çala dedi:

— Eh padşahi-aləmpənah, bu payyığan deyil, deyir ki, xəzinə tapıb səninçin.

Xəzinə adı eşidəndə padşahın gözləri parıldadı. Çoxdandı ki, xəzinəni xərcləyib bir xoruza yük eləmişdi. Elə bu günlərdə xəzinədar ona demişdi ki:

— Hökmdarım, xəzinədə qızıl, cavahirat azalıb, təzə vergi qoymaq lazımdı...

Padşah təbəələrindən təzə vergi yığmağa hazırlaşırdı ki, bu yandan Hüsən gəlib ona xəzinə xəbəri verir. Padşah da olsa sevinər həlbət ki... Odu ki, tez soruşdu:

— Hanı xəzinə, kişi?

Hüsən içərn girəndə nədim onun boynunun ardından itələyib üzüqoylu yerə sərmişdi. Hüsən yeri öpüb, ədəb məqamınacan padşahın qədəmlərinə tərəf dizin-dizin süründü:

— Qurbanın olum, sadağan gedim, yesirin olum! Xəzinəni

mən tapmamışam. Amma mənnm torpaq qonşum elə bu gecə tapıb apardı evinə. Dedim: «Torpaq da padşahındı, çıxan xəzinəsi də». Dedi: «Yox bu yer mənə ata-babamdan qalıb». Dedim: «Yer də, göy də, ata-babamızın qəbirləri də padşahındı...» Dedi...

— Bəsdi kişi!.. Nağıl açma! Hardadı o kənd, tez dur düş qabağına nədimin, gedin, gətirin!..

Sonra nə fikirləşdi... nə fikirləşmədi, düşündü ki, birdən sözləşnb nədim də, başımın adamlarıynan xəzinəni xəkrriz eləyəllər, mənə də deyərlər ki, olanı bu idi. Hamısı oğrudu nacins uşaqlarının. Ucadan nədimə dedi:

— Mehtərlərə deyin atları hazırlasın. Bu kişiyə də bir yabı versiilər. Özüm gedəcəyəm.

Padşah ata mindi, nökər-naib də, ölüvay bir yabıya süvar olmuş Hüsən də yorta-yorta onların dalıycan düşdü. Gəlib kəndlərinə çatdılar. Hüsən Balqabaq oğlangilin komasını padşaha nişan verdi.

Padşahın adamları Balqabaq oğlangilin komasını əhatə elədilər. Atanı da, ananı da tutub padşahın qulluğuna gətirdilər. Padşah qəzəblə bağırdı:

— Kişi, bəyəm sən bilmirsən ki, bu ölkə, onun yeri də, göyü də, yerin üstü də, altı da, üstündəki də, altındakı, qurdu-quşu da, adamları-təbəələri də hamısı padşahın malıdı? Niyə tapdığın xəzinəni padşahından gizləmisən?

Elə bu vaxt padşahın başı üstündən bir səs ucaldı:

— Torpaq bizim dədə-baba malımızdı! O yerin altında, üstündə nə var, bizimdi...

Padşah başını qaldırıb gördü ki, oturduğu ağacın budaqlarında əcaib-qəraib, balqabağa oxşayan bir oğlan uşağı budaqdan sallanıb. Əmr elədi:

— Oxlayın o bədəncərəni...

Ataynan ana padşahın ayaqlarına yıxılıb ağladılar:

— Oxlatma, padşah! Qəzəbinə güc vermə, bizi mərhum-

sonsuz eləmə...

Padşah qəhqəhnən güldü:

— Sən bunların sonuna bax... Yaxşı! Heyvərənizə dəymərəm, xəzinəinn yerini deyin!

Ana yerindən dik qalxdı:

Kətçn babayıq, ay padşah! Biz heç onu işlətməyi də bilmərik. Xəzinəni neynirik, nəyimizə yaraşır? Xərcləməyi də bacarmırıq. Apar! Halal xoşun olsun, amma balama dəymə!

Arvad içəri cumub dəbbəni yerli-yataqlı gətirib padşahın qabağına qoydu, heç içindən bircə qızıl dinar da götürmədi.

Padşah ləl-cavahiratı, qızıl pulları görüb sevindi, razı qaldı, xüsusilə toyuq yumurtasından xırda, göyərçin yumurtasından irihal yaqutu görəndə, günəş kimi bərq vurmağına baxanda hamı dedi ki, heç padşahın xəzinəsində beləsi nə yoxdu, nə də görən olub.

Padşah nədimə dedi:

— Hüsən kişinin xəbərpayını ver, hesabı çürüt onuynan.

Nədimin Hüsəndən zəhləsi gedirdi. Əlindən yanıqlıydı. Çünki xəzinənin yerini ona deməmişdi. Odu ki, xəlvətcə öz yaxın adamlarına dedi ki, bu kişini elə ilim-ilim itirərsiz ki, padşah bir də iynə axtaran təki axtardırtsa da tapa bilməsin. Nökərlərin içindən nədimin ən yaxın adamları onun əmrini yerinə yetirib, Hüsəni hop götürdülər. Hara apardılar, neynədilər, yeri heç indi də bilinmir. Elə belə yaxşıdı. Xəbərçinin, qonşuya xain çıxanın cəzasıdı çəksii.

O yandan padşah dəbbəni yəhərqaşı heybəyə qoydurdu, heç kimə ürəyi qızmadığıyçün öz yəhərinin qancıqbağısına bərkitdirdi, yola düzöldilər. Ağacdan Balqabaq oğlanın səsi eşidildi:

— Padşah, atamın qızıllarını aparma, qaytar, yoxsa səni dünyada biabır eləyəcəm!

Padşah başının adamlarına əmr elədi:

— Oxlayın bu it küçüyünü...

Amma nə qədər ox atdılarsa, hamısı boşa getdi. Biri də oğlana dəymədi. Dəyənlər də elə bil polada dəyirdi, əyilib yerə düşürdü. Padşahın adamları da naəlac qalıb şahın dalınca atlarını səyridib şəhərə yollandılar. Dallarıycan Balqabaq oğlanın səsi eşidilirdi:

— Ey padşah, atamın qızıllarını qaytar... ar... r!..

Oğlanın ata-anası komanın qapısında oturub ağlaşırdı. Oğlan ağacdan düşüb onların yanına gəldi, hər ikisinin əlindən öpdü, dedi:

— Ana, ata, ağlamayın! Qızıllarınızı qaytaracam.

Anası gözünün yaşını tökə-tökə dedi:

— Ay oğul, kətçi babayıq, qızılı neynirik? Təki sənə dəyib-dolaşan olmasın. Sən bizim bircə madarımızsan.

— Qorxma ana! Mənə heç nə olmaz.

Oğlan bunu deyib ayağa qalxdı, yola düzəldi, birbaşa şəhərə gəldi. Arayıb-axtarıb padşahın sarayının yerini öyrəndi. Gedib tapdı. Sonra da padşahın taxt-tac otağının pəncərələrinin qabağında bir ağaca dırmaşdı, oturdu. Həmin gün İsfahan hakiminin elçisi saraya qonaq gəlmişdi. Padşahın qızını elçiləmək qərəzi var idi. Odu ki, padşah ona çox qulluq elətdirirdi. Məclis qurulmuşdu, su yerinə şərab axırdı, çörək əvəzinə külçə yeyilirdi. Çalan kim, oxuyub-oynayan kim... Hava istiydi deyin pəncərələri açdılar. Elə bu vaxt qənşərdəki ağacdan Balqabaq oğlanın səsi gəldi:

— Ey padşah, atamın qızıllarını qaytar!..

Padşah, əlbəttə, elçilərin yanında biabır olmaq istəmədi, xəlvətcə vəzirinə dedi:

— Aparın o gic oğlu gici salın xəzinəyə, qabağına bir-iki qızıl atın, başı qarışsın. Qonaqlar çıxıb gedəndən sonra xəzinədən çıxarıb cəzasını verərik. Amma indi elə eləyin ki, səsi kəsilsin. Özü də qonaqlar görsün mən neçə varlı və ədalətli padşaham. Lütün birini də xəzinəyə buraxıram ki, nə qədər istəyir götürsün,

Qonaqların gözü qabağında Balqabaq oğlanı aparıb xəzinəyə saldılar. Oğlan içəri girən kimi bərkdən bağırdı:

— Hap qarnım, hup qarnım, bu xəzinəni ud qarnım.

Elə bu sözlər oğlanın ağzından çıxan kimi xəzinədə nə vardısa hamısı Balqabaq oğlanın qarnında yox oldu. Xəzinədarnan vəzir mat-məəttəl qaldılar. Başılovlu padşahın qulluğuna yüyürdülər. Dedilər:

— Evin yıxılmasın, şah, Balqabaq oğlan xəzinəni uddu.

Padşahın gözləri kəlləsinə çıxdı:

— Nə??

Vəzirlə xəzinədar bircə-bircə nə olmuşdusa hamısını padşaha danışdılar. Padşah dedi:

— Aparın o it küçüyüiü atın dəryaya, boğulsun sonra da qarnını yırtın, çıxardın xəzinəni! Amma elə aparın ki, qonaqlar xəbər tutmasın.

Vəzirlən xəzinədar gəlib Balqabaq oğlanı tutdular. Aparanda oğlan qışqırdı:

— Ey padşah, atamın qızıllarını qaytar.. r... r..!..

Oğlanı birbaşa dərya kənarına gətirib itqussu[1] eləyib atdılar. Balqabaq oğlan suya düşən kimi çığırdı:

— Hap qarnım, hup qarnım, bu xəzinəni ud qarnım.

Elə vəzirnən xəzinədarın gözünün qabağında dərya qətrəsinəcən Balqabaq oğlanın qarnında yox oldu. Oğlan qaldı çapalayan balıqların arasında. Vəzirnən xəzinədar oğlanın qollarından tutub birbaşa padşahın hüzuruna gətirdilər. Dedilər:

— Hökmdar, oğlan dəryanı da qətrəsinəcən uddu.

Balqabaq oğlan da ucadan çığırdı:

— Ey padşah, atamın qızıllarını qaytar!

Padşah qəzəbindən titrədi, əmr elədi:

— Gedin, beş bağ odunun tonqalını qalayın, oğlanı, atın tonqala.

---

[1] İ t q u s s u e l ə m ə k — əl-ayağından yapışıb tullamaq.

Elə də elədilər. Vəzirnən xəzinədar nökərlərə, odunçulara əmr verdilər. Onlar beş bağ odun daşıyıb gətirdilər. Yekə bir tonqal qaladılar. Od zəbanə çəkəndə oğlanı itqussu eləyib atdılar odun içinə. Balqabaq oğlanın ayağı oda çatanda qışqırdı:

— Hap qarnım, hup qarnım, dəryanın suyunu burax, qarnım!

O dəqiqədə dəryanın suyu tonqalın üstünə axıb, odu söndürdü. Balqabaq oğlan sağ-salamat qaldı. Elə tonqalın sönmüş közlərinin arasında üzünü padşahın sarayına tərəf tutub bərkdən qışqırdı:

— Ey padşah, atamın qızıllarını qaytar!.. Yoxsa səni biabır eləyəcəm.

Padşah gördü ki, oğlana ox batmır, su batırmır, od yandırmır, əlacsız qalıb, taxtının altında gizlətdiyi dəbbəni oğlana qaytardı, dedi:

— Sən də mənim xəzinəmi qaytar, rədd ol get!

Oğlan dəbbəni qucağına alıb padşahın xəzinəsini qaytarmaqçın dedi:

— Hap qarnım, hup qarnım, padşahın xəzinəsini qaytar, qarnım!

Həmincə saatda padşahın xəznnəsi dinarınacan geri qayıtdı.

Balqabaq oğlan dəbbəni götürüb kəndlərinə döndü. Sevinirdi ki, indi daha ata-anası dərd çəkməyəcək, onlar öküz alacaqlar. Özləri xışa qoşulmayıb öküzlə yer sürəcəklər. Çörəkləri də bol olacaq.

PALAZQULAĞIN NAĞILI

Nağılların başı mən, kirpiyi mən, qaşı mən. Günlərin bir günündə atı mindim yola düşdüm, az getdim, üz getdim, dərə-təpə düz getdim, at nıx dayandı, dedi: «Tanrı mənəm yağmaram, kəs başımı — getmərəm». Kəsdim atın başını, gönündən tikdim bir cüt çarıq, çarıqları çəkdim ayağıma düşdüm yolun ağına. Bir az getmişdim ki, yolun üstündə gördüm bir parça quyruq. Quyruğu çəkdim çarıqlara. Birininki az düşdü, birininki çox, savaşanlar çıxdılar ayağımdan, qaldım ayaqyalın. Genə düzəldim yola, gördüm bir zəmi, zəmidə var idi bir əmi. Dedim: «Əmi, məni biçinçi tutarsanmı?» Dedi: «Niyə tutmuram, sən zəmini biç, mən də əppək gətirməyə gedim». Kişi getdi evinə, düşdüm zəminin dəminə, bir də gördüm zəmiyə bir donuz girdi, çini atdım, donuza, donuz qaçdı, oraq biçdi, donuz qaçdı, oraq biçdi. Qurdum bir yekə taya. Canım üşüdü. Göydən bir qığılcım düşdü, taya od aldı, oldu bir yekə tonqal. Sabahacan qızındım onun istisinə. Səhər-səhər gülü eşələdim, içindən çıxdı bir yekə palan, palanı cırdım, içindən çıxdı bir kəlam, kəlamı açıb oxudum, gördüm bütün bunlar hamısı yalan...

Hə... nədən deyim, nədən danışım... Gəncə vilayətində bir padşah yaşayırdı. Bu padşahın arvadı hamilə idi. Doqquz ayın tamamında bari-həmlini yerə qoydu. Arvad bir tuluq doğdu. Həkimlər, loğmanlar gəldi, mamaçalar yığıldı, bundan baş çıxardan olmadı. Bu tuluq nədi? Bilmədilər. Xəbər gedib padşaha çatdı. Durub gəldi arvadın doğduğu otağa. O da tuluğa baxıb bir sudur anlamadı. Bir bıçaq istədi, tuluğu kəsdi. Gördü, ilahi, burda yeddi xırdaca oğlan uşağı yatıb! Hamının təəccübdən ağzı açıla qaldı. Padşah özünü itirmədi. Mamaçalara, dayələrə əmr elədi, uşaqları pambığa bükdülər, beşiyə qoydular. Uşaqlardan tək bircəsinin əlləri belində idi.

Padşah həmin uşağa ayrıca göz olmalarını tapşırdı. Ölkədə şadlıq, toy-bayram başladı. Bəs necə?! Axı bu padşahın oğul övladı yox idi. İndi birdən-birə yeddi oğul atası olmuşdu.

Uşaqlar günbəgün deyil, saatbasaat böyüyürdülər. Əlləri belində doğulan oğlan hamısından tez böyüyürdü. Qədd-qamətdə də o birilərindən böyük görünürdü.

Uşaqlar dayədən lələyə, lələdən məktəbə keçdi. Nağıl dili yüyrək olar. Padşahın yeddi oğlu gəlib on altı yaşa çatdı. Onların oyunda da, dərsdə də, qılınc vurub, əmud atmaqda da başçıları həmin əli belində doğulmuş qardaş idi. Padşah bunun adını Bahadır qoymuşdu.

Bir gün padşah oğlanlarını evləidirmək xəyalına düşdü. Bahadırı, qardaşlarıynan birgə yanına çağırıb dedi:

— Balalarım, vəzirdən, vəkildən, xandan, bəydən hansınız kimin qızını istəyirsə, deyin. Canıma minnətdi, sizi evləndirim. Nəvə görüm, sonra dünyaya arxayın göz yumum.

Bahadır dedi:

— Atayi-mehriban, biz istəyirik ki, özümüz kimi tuluqda doğulmuş yeddi bacıya evlənək.

— Ay bala, dünyayi-aləmdə belə işlər tək-tək olur. Hələ belə söhbəti, belə qəribə əhvalatı nə görən, nə də danışan olub. Məni bitməz işə buyurmayın. Mən elə yeddi bacını hardan tapım?

Bahadır dedi:

— Atacan, onda izin ver, dünya səyahətinə çıxaq, harda rastımıza düşdü, tapıb gətirək, toyumuzu elə. Tapmasaq, bir ilin tamamında qayıdırıq, sən də öz könlün istəyən kişinin qızını bizə alarsan.

Padşah vəzirin üzünə baxdı, vəzir padşahın. Axırda şah əlacsız qalıb dedi:

— Neynək, gedin, izindi. Bir il dediz, bir il sizə vaxt verirəm, amma bax sözümüz sözdü, bir ilin tamamında qayıdırsız ha!..

Oğlanlar əllərini gözlərinin üstünə qoyub: «Göz üstə» dedilər və hazırlaşdılar, yaraqlandılar, atlarını minib yola düzəldilər. Düz altı ay günçıxan səmtə yol getdilər. Atları düzdə süzdürdülər, dəryalarda üzdürdülər. Çin-Maçin diyarına sürdülər. Gördülər ki, düz-dünyanı qaramal tutub göy bulud kimi çəmənlikdə otlayır. Bir tərəfdə iri pəzəvəng bir kişi tonqal qalayıb, üstünə bağraya bağlı yoğun şiş uzadıb. Bir əldən özüklərdən, cöngələrdən kəsir, soyur, həmin şişə taxır, tonqalın üstündə bağranı fırıldadıb qızardır. Ala-çiy, qara-çiy eləyib yeyir. Təzəsinn kəsib bişirənəcən bar-bar bağırır:

— Allah, öldüm acından, allah, öldüm acından!..

Qardaşlar durub bu qəribə macəraya baxanda Bahadır təəccüblə səsləndi:

— Sübhanallah, iştahaya bax! Hheç belə əcaib şey görməmişəm.

Xaşalqarın işinə ara verməyib dedi:

— Burda əcaib nə var? Əcaib odu ki, Gəncə hökmdarının bir tuluqda yeddi oğlu dünyaya gəlib. İgidlərin biri Bahadırdı. Rastıma düşsəydi, ona qardaş olardım.

Bahadır gülüb dedi:

— O elə bizik də!

Xaşalqarın əlini işdən çəkdi, cəld Bahadırın üstünə cumub onu qucaqladı:

— Xoş gördük, qardaş! Mən sənin sorağındayam neçə vaxtdı. Razı olsan, sənə qardaş ollam.

Bahadır yenə güldü:

— Amma mən səni doyura bilmərəm.

Xaşalqarın qarnını yığışdırıb qurşağının altında bərkitdi:

— İndi mən də sizin biriniz.

Qardaşlar burda azdan-çoxdan yeyib-içdilər, bir az dincəldilər və təzə qardaşlıqlarını da götürüb yola düzəldilər. Oldular səkkiz.

Bir qədər getmişdilər ki, gördülər adam boyu otların içində

bir kişi uzanıb. Kişinin iki palaz qulağı var, birini altına sərib — döşək kimi, birini üstünə sərib — yorğan kimi. Uzanıb, huş-guşnan nəyəsə qulaq asır. Bahadır soruşdu:

— Qardaş, burda neynirsən?

Palazqulaq cavab verdi:

— Sıess... Səs salmayın! Otların cücərməsinə qulaq asıram.

— Bir şey eşidirsən?

— Həlbəttə.

Bahadır və qardaşları heyrətləndilər. Bahadır dedi:

— Sübhanallah, qulağa bax! Heç belə əcaib şey görməmişəm.

Palazqulaq dedi:

— Əcaib bu deyil. Əcaib odu ki, Gəncə padşahının bir tuluqda yeddi igid oğlu dünyaya gəlnb. Hamısından da qoçağı Bahadırdı. Əgər onu görsəm, onunla qardaş ollam.

Xaşalqarın dilləndi:

— Bahadır elə budu sənnən danışır. Biz də onun qardaşlarıyıq.

Palazqulaq sevinmiş yerindən qalxdı, qulaqlarını qatlayıb yerinə qoydu. Oldu onlar kimi, adicə adam. Cəld Bahadırı qucaqlayıb dedi:

— Hara gedirsən?

— Özümüzə özümüz kimi dünyaya gələn yeddi qız axtarmağa.

O məndə! Dünyanın hər yerindən səs eşitmək, məndə. Məni də özünüzə qardaş desəniz qardaş, yoldaş desənnz yoldaş götürün.

Bahadır dedi:

— Həm yoldaş, həm də qardaşımızsan! İstəyirsən, buyur bizimlə gedək.

Palazqulaq da onlara qoşuldu. Oldular doqquz. Düzəldilər yola. Bir qədər yol gedib, gəlib bir dəryanın qırağına çatdılar. Gördülər dəryanın qırağında bir kişi oturub ağzını dayayıb ləpədöyənə. Ləpə yaxınlaşanda «üff» eləyib suyu kamına çəkir. Dəryanın az qala dörddə birini içir. Su xeyli quruyur. Balıqlar

atılıb-düşür, su yaxına gələnəcən kişi bar-bar bağırır:

— Allah, yandım susuzluqdan! Allah, yandım susuzluqdan.

Qardaşlar təəccüblərindən donub qaldılar. Bahadır dedi:

— Sübhanallah, bu yanğıdı? heç ömrümdə belə əcaib şey görməmişəm.

Kişi təzə gələn ləpəni gözləyə-gözləyə heç başını da bunlara tərəf döndərmədi. Yanğı çığırtısına ara verib dedi:

— Burda əcaib nə var? Əcaib odu ki, Gəncə padşahının bir tuluq içində yeddi cəngavər oğlu dünyaya gəlib. Hamısından da igidi Bahadırdı. Bax, o rastıma düşsə, ona qardaş ollam. Həlbət ki əgər götürsə.

Palazqulaq dedi:

— Bahadır elə budu da. Biz də onun qardaşlarıyıq.

Dəryanı kamına çəkən kişi day ləpəni gözləmədi, qarnına necə əməl elədisə «fuff» eləyib udduğu suyu geri qaytardı. Ləpədöyəndə atılıb-düşən balıqlar həvəsnən suya cumdular. Kişi də ayağa qalxdı, qarnını qurşağının altına yığıb Bahadırı qucaqladı:

— Can, qardaş! Neçə vaxtdı sənin yolunu gözləyirəm. Hara gedirsən bu getməknən?

— Gedirik özümüz kimi bir tuluqda doğulan yeddi qız tapıb evlənək.

— Məni də yoldaş götürün.

— Yoldaş desən yoldaşımız, qardaş desən qardaşımızsan.

Bu kişi də onlara qoşuldu. Oldular on.

Bir qədər getmişdilər ki, gördülər bir kişi yel kimi yanlarından ötür, heç ona çata bilmirlər. Bahadır qışqırdı:

— Qardaş, hara qaçırsan, bir dayan.

Kişi cəld yerdən iki yekə daş götürüb, iri çəkmələrini halqa-torbasına atdı, yerişi yavaşıdı, soruşdu:

— Nə istəyirsiz?

Bahadır dedi:

— Sübhanallah, heç belə yeyin gedən adam görməmişəm.
Ayağına daş bağlayan dedi:
— Burda təəccüblü nə var? Təəccüblü budu ki, Gəncə padşahının bir tuluqda yeddi oğlu olub! Rastıma düşsələr onlara qardaş ollam.
Palazqulaq dedi:
— Bunlar elə həmin yeddi qardaşdır, gedirik onlara nişanlı tapaq.
Ayağına daş bağlayan sevindi:
— Ay qardaşlar, məni də özünüzə qardaş götürün.
— Buyur.
Bu da bunlara qoşuldu, oldular on bir. Düşdülər yola. Bir az getdilər. Gördülər nə bir quş, nə də bir heyvan görünməyən səhrada bir ovçu dayanıb oxunu kamanın çilləsinə qoyub atmaq istəyir. Bahadır onun qolundan tutub soruşdu:
— Ay qardaş, oxu nəyə atırsan?
Ovçu dedi:
— Sərəndib adasında Günbəzi-dəvvarın üstünə quş qonub, ona atıram.
Hamı təəccübləndi, Bahadır səsləndi:
— Afərin bu gözə! Heç ömrümdə belə əcaib şey görməmişəm.
Ovçu cavab verdi:
— Burda əcaib nə var? Gözdü də! Əcaib odu ki, Gəncə padşahının bir tuluqda yeddi oğlu dünyaya gəlib! Hamısı da igid, amma onlardan Bahadır addısının igidlikdə tayı-bərabəri yoxdu. Bax, ona irast olsam, qardaş ollam.
Palazqulaq dedi:
— Bahadır elə budu qabağında durub.
Ovçu sevincək Bahadırı qucaqlayıb dedi:
— Hara gedirsizsə, məni də özünüzə yoldaş götürün.
Bahadır cavab verdi:
— Qardaş desən qardaş, yoldaş desən yoldaşın olluq,

gözümüz üstə yerin var.

Ovçu oxunu sadağa qoydu, kamanını çiyninə aşırdı. Onlarnan birgə yola düzəldi. Oldular on iki. Düşdülər yola. Seçdilər düzün hamarını, kəsdilər yolun damarını, bir də gördülər ki, dümdüz yerdə bir kişi əyləşib, saz çalır. Qabağında da daşdan uşaq evciyi kimi iki topa daş evcik qurub. Sazçı sazda çaldıqca evciklər dingildəyə-dingildəyə, oynaya-oynaya yerləriii dəyişirlər. Bu evcik onun yerinə keçir, o evcik bunun...

Qardaşlar genə də təəccüb elədilər, dayanıb baxdılar. Bahadır dedi:

— Sübhanallah, məharətə, ustadlıta bax! Çalğı daşı yerindən oynadır! Heç ömrümdə belə əcaib şey görməmişəm.

Sazçı çalmağına ara verdi, salam-kalamdan sonra Bahadıra dedi:

— Burda əcaib nə var? Amma mən eşitmişəm ki, dünyada doğrudan da əcaib iş olub. Gəncə padşahının bir tuluq içində yeddi oğlu dünyaya gəlib! Hamısı da gözəl-göyçək, ağıllı-kamallı. Amma içlərində Bahadır adlı bir qardaş hamısından igiddi. Bax, o rastıma düşsə ona qardaş ollam.

Palazqulaq dedi:

— Bahadır elə budu, biz də onun qardaşları.

Sazçı sazını öpüb çiynindən aşırdı, Bahadırı qucaqlayıb dedi:

— Neçə illərdi sorağını eşitmişəm, həsrətini çəkmişəm. İzin versən, razı olsan sənə qardaş ollam.

Bahadır dedi:

— Səndən gözəl qardaşı kim tapar? Gözümüz üstə yerin var.

Sazçı sevinib soruşdu:

— Yaxşı ay qardaşlar, bəs yolumuz hayanadı?

Palazqulaq dedi:

— Mənim qulağım alıb ki, Maçin hökmdarının bir tuluqda yeddi qızı dünyaya gəlib, ərkən vaxtlarıdı; amma padşah çox şərt qoyub. O şərtləri heç kim yerinə yetirə bilmir. Bahadır

qardaşımız da elə belə nişanlı axtarır özləriyçin. Gedirik Maçinə, o qızları alaq.

— Mən də sizə yoldaş, allah işimizi xeyir eləsin.

Oldular on üç, düşdülər yola. Dərədən keçdilər, təpədən aşdılar, on üç bulaqdan su içdilər, on üç mənzildə çörək kəsdilər, on üç qardaş bir-birindən bir gülcən inciməmdi. Günlərin xoş günündə, uğurunuza xeyir gəlsin, gəlib çıxdılar Maçin padşahının şəhərinə. Şəhər nə şəhər? Evlər, ala buluda baş verib, qülləsi buluddan, özülü dəryadan nəm çəkir. Soraqlaşıb padşahın imarətini tapdılar. Gedib elçi daşını süpürüb oturdular üstündə. Padşaha xəbər getdi ki, Gəncə deyilən qərib-qürbət diyarın şahının yeddi oğlu altı qardaşlığıynan birgə elçi daşının üstündə əyləşib, sənin yeddi qızını almağa gəliblər. Padşah vəkil-vəzirini başına cəm eləyib məsləhətə başladı. Maçin padşahının atasından bixəbər bir hiyləgər vəziri var idi. Şah qızlarının bir-ikisiii öz oğlanlarına almaq istəyirdi. Odu ki, dedi:

— Şah sağ olsun! Gəncə deyilən qərib-qürbət diyarda bizim qızların nə işi var? Şahzadə qızlar onların dilini bilmir, dinini bilmir. Verməyək, rədd edəyək, çıxıb getsiilər.

Padşah dedi:

— Sözüm yoxdu. Amma birbaşa rədd eləməyək. Bəhanə tapaq.

Vəzir dedi:

— Gəl onları adlarına, adımıza layiq qonaq eləyək. Sonra da kələk quraq, yol gəlmisiz deyək, hamamı qızdıraq. Gedin çimin — deyək. Onlar hamamda çimində tulambarçıya tapşıraq, odu çox qalasın, yanıb bişsinlər hamamda. Sonra da deyərik ki, buxar vurub.

Palazqulaq bu məşvərəti başdanqayağa eşitmişdi, gözlərinin yaşını töküb ağladı. Bahadır soruşdu:

— Qardaş, nə olub, niyə ağlayırsan?

Palazqulaq padşahla vəzirin məsləhətini onlara danışdı.

Dəryadan suyu qurudub kamına çəkən qardaş gülüb dedi:
— Ay qardaşlar, bəs mən neyçünəm? Heç fikir-zad eləməyin.

Maçin padşahının adamları onları hörmətlə saraya dəvət elədilər, yuyunub-arınmaq üçün hamama göndərdilər. Amma vəzir tulambarçını çağırıb dedi;

— Odu əməlli qala, vallah, hamamdan sağ çıxsalar, dədəni dalına sarıyacam.

Hamam xidmətçiləri əldən-ayaqdan düşdülər. Əlli odunçu odun daşıdı, hamamın qazanxanası cəhənnəm kimi zəbanə çəkdi. Dərya qurudan qardaş xəlvətcə özünü dəryanın kənarına verdi, qurşağını açdı, ağzını ləpədöyənə dirəyib bir nəfəsə dəryanın yarısını kamına çəkdi. Qayıdıb gəldi, qardaşları ilə birgə hamama girdi. Hamamda buxar əlindən göz-gözü görmürdü. Bir isti vardı ki, gəl görəsən. Dərya qurudan qardaş, qurşağını açıb kamına çəkdiyi dərya suyunu boşaltdı, hamam soyudu. Bir az keçmiş camadarlar, hamamçılar gəldilər ki, vəzirin əmrilə qonaqların «ölüsünü» çıxardıb aparsınlar, gördülər ki on üç qardaş tir-tir titrəyir:

— Allah, öldük soyuqdan! —deyib zikrik vururlar.

Padşahla vəzir bu işə heyran qaldı. Vəzir pıçıldadı:

— Qibleyi-aləm! Onlara deyək ki, şərt qoyuruq: yeddi pud düyünün aşını gərək bir oturuma yeyəsiz. Yeyə bilməsələr rədd edərik, gedərlər.

Padşah razılaşıb baş aşpazı yanına çağırdı:

— Elçilər üçün yeddi pud düyünün aşını bişir, bir misqal da əskik olmasın.

Aşpaz bayıra çıxanda vəzir ona pıçıldadı:

— Aşpaz, on dörd pud bişir, bir misqal da əskik olsa boynunu vurduraram.

Aşpaz xörəyi bişirməyə getdi. Palazqulaq əlbət ki, bu söhbətləri eşitmişdi. Odur ki, genə də gözlərinin yaşını leysan kimi tökdü. Bahadır soruşdu:

— Qardaş, nə xəbər var?

Palazqulaq dedi:

Evimiz yıxıldı, padşah yeddi pud düyünün aşını demişdi, heç onu öhd eləyə bilməzdik. Vəzir namərd aşpaza on dörd pud düyünün aşını bişirməyi tapşırdı. Bu vəzirin biznən qərəzliyi var.

Xaşalqarın döşünü qabağa verdi:

— Növbət mənimdi, qardaşlar! Bəs mən nəyə görəyəm? Heç narahat olub eləməyin? Bax, siz məclisdə süfrənin başında əyləşərsiz, hərənizin qabağına bir sini aş qoyulacaq. Bala-bala yeyərsiz özünüz üçün. Qalanıynan işiniz olmasın. Qalanı lələşinizindi. Əlimin suyunu görərsiz. Amma mən yedikcə siz elə bir qarala qışqırarsız: «Allah, öldük acından!»

Günorta oldu. Onları böyük bir otağa gətirdilər. Nökərlər süfrə döşədilər. Xaşalqarın qardaş qapının sol cəhəngində yer tutdu. On nökər bir-birinin dalıncan sinilərə çəkilmiş plovları otağa daşımağa başladılar. On iki qardaşın hərəsinin qabağına bir sini qoydu. Qalanını bir ucdan daşıyıb gətirdikcə Xaşalqarın qardaş qapıdan nökərlərin əlindən alıb siniqarışıq, məcməyiqarışıq içəri ötürürdü. Qardaşlar hamısı ağız-ağıza verib bir qarala qışqırırdılar:

— Allah, öldük acından! Allah, öldük acından!

Mətbəxdə təzə qalmadı, bayat qalmadı, hamısını xaşalqarın qardaş həzmi-rabedən keçirdi. Baş aşpaz əlimyandı özünü padşahın hüzuruna yetirdi;

— Oğlun ölsün, bu nə qəziyyədi başıma gətirdin? Sən yeddi demişdin, vəzir on dörd tapşırmışdı. Mən qorxudan iyirmi dörd pud bişirdim ki, başımdan rədd eləyim bu xətanı, indi neynim? Təzə qurtarıb, bayat qalmayıb, nə verirəm, hələ qardaşlardan birciyi ötürür içəri. O, biri on ikisi də «allah, öldük acından» deyib çır-çır çığırırlar.

Padşah bilmədi ki, neynəsin. Vəzir yenə irəli gəlib ədəblə yeri öpdü, dedi:

— Qibleyn-aləm! Təsəddüqün olum, heç ürəyini qısma!

Onlarla bir şərt kəs. Bu dəfə de ki, Hind dəryasında filan adada Həzrət Süleymanın xalçası düşüb qalıb, gedin gətirin. Özü də bircə gecə-gündüz möhlət ver. Həlbət ki, gedib gətirə bilməzlər, başımızdan olarlar.

Padşah şad oldu. Vəzirə razılıq elədi. Söz yox ki, aşpaz padşahın yanına gedəndə Palazqulaq qulaq asırdı. Əlilə dostlarına sakitlik işarəsi verib, sarayla danışanları dinləyirdi. Birdən yenə gözlərinin yaşı bahar buludundan ələnən kimi ələndi. Bahadır soruşdu:

— Sənə nə oldu, ay qardaş, genə də kələk qurdular orda?

Palazqulaq ağlaya-ağlaya dedi:

— Evimiz yıxıldı. Şərt kəsdilər ki, gərək gedib Hind dəryasının, ortasındakı bir adadan Həzrət Süleymanın xalçasını gətirək.

Ayağına daş bağlayan qardaş güldü, özünü irəli verdi, dedi:

— Ağlama, can qardaş! Bəs mən nəyəm burda? İndi də kömək növbəti mənimdir! Heç fikir eləməyin, bir göz qırpımında gedərəm də, gətirrəm də!

Qardaşlar şad oldular. Elə bu dəmdə nökər gəlib padşahın şərtini onlara çatdırdı. Bahadır əlini gözünün üstünə qoyub dedi:

— Göz üstündə. İtaət etmək borcumuzdur.

Ayağına daş bağlayan qardaş sübh tezdən qarnını bərkitdi. Şəhərin qırağına çıxdı. Ayaqlarına bağladığı daşları açıb atan kimi bir göz qırpımında qardaşlarının gözündən qeyb oldu. Qardaşlar şəhərin qırağında bir çəmənlikdə süfrə açıb ovçunun ovladığı quşdan, cüyürdən kabab eləyib yeyir, kef-damaqla qardaşdarının yolunu gözləyirdilər. Axşam düşdü, amma ayağına daş bağlayan qardaşdan soraq çıxmadı. Palazqulaq hərdənbir qulaqlarını açıb yerə uzanır, əli ilə qardaşlarına sakit olmağı tapşırır və gedən qardaşın addım səslərini diiləyir, amma heç bir səs-səda eşitmirdi. Gecə düşdü, yenə də ayağına

daş bağlayan qardaşdan xəbər çıxmadı. Onlar çox narahat oldular; bilmədilər neyləsiilər. Sabahı gün bir cida boyu qalxanacan gərək saraya gedib, Süleymanın xalçasını tapıb ona verəydilər. Odu ki, gözlərinə yuxu-zad getmədi. Sübh açılanacan oyaq qaldılar. Sabah olanda Palazqulaq qulağını yerə dayadı. Birdən çır-çır çığırdı:

— Vallah, bu namərd hardasa başını atıb yatıb. Xoruldayır özüyçun. Xornasını eşidirəm.

Onda ovçu qardaş hündür bir ağaca dırmaşdı, əlini gözünün üstünə qoyub dörd tərəfə baxdı, nəsə gördü, dedi:

— Hə, görürəm! Altı ağaclıqda bir ağacın dibində yatıb. Xalça da yanındadı.

Ovçu qardaş kamanını çiynindən endirdi, sadağından ox çıxartdı, Bahadır bunu görəndə səsləndi:

— Neynəmək fikrindəsən, ovçu qardaş?

Ovçu dedi:

—O yatan ağacın başına bir sərçə qonub. Fikir eləməyin, indi növbə mənimdi. Sərçəni vuraram, düşər başına, oyanar, gələr. Özünü bizə çatdırar.

Hamı rahat oldu. Oxu kamanın çilləsinə mindirib, yayı çəkdi. Yayın vıyıldamağıynan oxun süzməyi bir oldu. Elə bu vaxt qulağını yerə qoymuş Palazqulaq bağırdı:

— Durdu, gəlir! Addımlarının səsini eşidirəm.

Birdən ayağına daş bağlayan qardaş qaranəfəs özünü onlara yetirdi, ovçu qardaşı qucaqlayıb öpdü, dedi:

— Çox sağ ol, qardaş! Sən olmasaydın, elə yatmışdım ki, allah bilir, nə vaxt oyanacağdım. Sən də məni bağışla, Bahadır qardaş! Azq almışdı işləri korlayam.

Bahadır dedi:

— Neynək, təki hər işimizin axırı belə xeyirli qurtarsın.

Onlar ayağına daş bağlayan qardaşın gətirdiyi xalçanı da götürüb padşahın sarayına gəldilər. Xalçanı nədimə verib padşaha göndərdilər. Padşah xalçanı alıb vəziri yanına çağırdı,

dedi:

— Ay vəzir, gəlsənə day qızları verək? Bu şərti də yerinə yetirdilər. Camaat da bizi qınayar. Özləri şah oğlu, bizim qızlara tay doğulublar. Bəlkə allahdan belədi.

Vəzir ilan quyruğu dişlədi, dedi:

— Sən nə danışırsan, qurbanın olum? Hələ bu günəcən bu elçiləri qəbul eləməmisən, hallarına-xasiyyətlərinə bələd deyilsən. Bir çağır, qəbul elə, gör necədilər, nəçi-nəkaradılar? Ağıl-kamalları nədi?

Padşah dedi:

— Nə deyirəm ki! Amma, vallah, vəzir, mənə belə gəlir ki, bu elçilər irəlikilərdən deyil. Deyəsən axı qızların qismətidilər. Nə kələk qurursansa, içindən çıxırlar.

Vəzir xəlvətcə baş aşpazın yanına gəldi. Dedi:

— Bax, aşpaz, bu gün padşah elçiləri qəbul eləyəcək. On üç onlardı, on üç də bizdən adam olacaq. Onların xörəyinə zəhər qat! Manşırlı sinidə göndər qabaqlarına. Bizimkinə yox. Bax, çaşbaş salma ha!!

Qardaşlar day öyrəncəli idilər. Hər tapşırığı yerinə yetirən kimi Palazqulaq qardaş qulatlarını açıb içəridəki danışıqlara fikir verirdi. Bu dəfə də belə. Palazqulaq padşahın sözlərini eşidəndə sevindi, amma vəzirin aşpaza tapşırdığını eşidəndə yenə də onu ağlamaq tutdu. Bahadır soruşdu:

— Qardaş, indicə dedin padşah razılaşantəhərdi, bəs niyə ağladın?

Palazqulaq dedi:

— Necə ağlamayım? Bizim xörəklərə zəhər qatacaqlar.

Bu yerdə sazçı qardaş irəli durdu, dedi:

— İndi də növbət mənimdi, qardaşlar! Bəs mən niyə görəyəm? Heç qorxub-eləmə, Palazqulaq, hər şey yaxşı olacaq.

Nədim gəldi, xəbər verdi ki, «padşah sizi yanına günorta yeməyinə dəvət eləyir». On üç qardaş ayağa durdu. Əl-üzlərini yuyub, əyin-başlarını təzələdilər. Padşahıp qonaq otağına

getdilər. Padşah onları xoş üzlə qarşıladı. Hal-əhval soruşdu. Ortaya süfrə gəldi, qabaq-qənşər əyləşdilər. On üç onlardan, on üç bunlardan. Nökərlər manşırlı sinilərdə on üç qab plov gətirdilər, elçilərii qənşərinə düzdülər. Padşah «bismilah» deyib əlini sərpinclərə atmaq istəyəndə Bahadır dedi:

— Şah sağ olsun, bizim ellərin sazını eşidib, sonra yeməyin ayrı ləzzəti var. İzin ver, mənim bu qardaşım bir saz çalsın, sonra yeyək.

Padşah dedş

— İzindi.

Sazçı qardaş sazını çiynindən aşırdı, sinəsinə basdı. Bir oynaq hava çaldı. Elə saz çalınmağa başlayan kimi sinilər lərzəyə gəldi, dingildəyə-dingildəyə padşah adamlarının siniləri Bahadırgilin qabaqlarına, Bahadirgilin siniləri padşahgilin qənşərinə keçdi. Sazçı qardaş çalmağı kəsib sazı öpdü, çiyninə aşırdı. Bahadır gülə-gülə bu qəribə oyuna tamaşa eləyən padşaha dedi:

— Şah sağ olsun, indi bismillah!

Vəzirin rəngi-ruyu üzündən götürüldü, gözləri kəlləsinə çıxdı. Əlini sərpincə uzadan padşahın qolundan yapışdı. Heybətli səslə çığırdı:

— Yox, təsəddüqün olum, yox!

Padşah təəccüblə:

— Niyə, vəzir?

Vəzirin dili topuq çaldı, söz deyə bilmədi. Onda Bahadır dedi:

Şah sağ olsun, bütün bu oyunları bizim başımıza bax bu vəzirin açıb! Xörəklərimizi də o zəhərlətdirib. İnanmırsan, əmr elə, bizimçün tökülən yeməkdən özü bir tikə yesin.

Vəzirii ürəyi keçdi, qorxudan ta bayaq tirtap yerə yıxıldı. Onu sürüyüb apardılar. Qardaşların fərasəti, təmkini padşahın xoşuna gəlmişdi, dedi:

— Onsuz da bir qız bir oğlanındı, yeddi qız, yeddi

oğlanın. Allah mübarək eləsin.

Hamı sevindi, zəhərli siniləri götürdülər. Yerinə təzə təam gəldi. Yedilər, içdilər, sonra padşah yeddi gün, yeddi gecə toy vurdurdu. Cehiz elədi. Məşşatələr qızları bəzədi-düzədi, kəcavələrə mindirdilər. Gəncəyə sarı yola saldılar.

Qardaşlar yola düzəldi. Bir neçə gündən sonra düzənlikdə sazçı qardaşı tapdıqları yerə çatdılar. Sazçı qardaş evciklərinin dağıldığını görüb bir ah çəkdi, Bahadıra dedi:

— Qardaş, sağ-sağalamat gedin, mənə də izin verin öz yerimdə qalım.

Sazçı ilə halal-hümmət edib getdilər. Sazçı da elə o saat evcimlərini düzəltdi, sazı çiynindən aşırıb döşünə basdı, çalmağa başladı, evciklər də oynaya-oynaya yerlərini dəyişdilər.

Bahadırgil az gedib çox dayandılar gəlib səhraya çatdılar. Gördülər, düz-dünyanı ceyran-cüyür, kəklik-qırqovul başına götürüb. Ovçu qardaş bunları görəndə dərindən bir ah çəkdi. Bahadır himi başa düşdü:

— Ahın dağlara, qardaş, deyəsən gözün ovlarda qalıb.

Ovçu utana-utana dedi:

— İzin versən...

— Çox sağ ol, qardaş, izindi.

Ovçu da onlarla öpüşüb-görüşdü, halallaşıb ayrıldı. Oxunu kamana qoyub ova atdı.

Bahadırgil bu getməklə xeyli yol getdilər, gəlib elə bir yerə çatdılar ki, burda ayağına daş bağlayan qardaş yel kimi onların yanından qaçmışdı. Qardaşlıqları bura çatan kimi nıx dayandı, dedi:

Siz allah, məndən inciməyin qoyun, qalım öz yerimdə. Salamat gedin!

O ayağının daşını açıb yel kimi harasa cumdu, gözdən itdi. Bahadırgil yola düzəldilər, xeyli gedəndən sonra gəlib dərya kənarına çatdılar. Gördülər ki, dəryanın suyu mövc vurur;

ləpələr ləpədöyəndən də aşıb bu üzə. Dəryanı kamına çəkən qardaş bunu görən kimi qurşağını açdı;

— Allah, yandım susuzluqdan!—deyib ağzını suya dirədi, halallaşmağa da macalı olmadı. Bahadırgil bunu da burda qoyub yol aldılar. Bir o qədər getməmişdilər ki, adam boyu hündür otların içində Palazqulağa rast olduqları məskənə çatdılar. Palazqulaq Bahadırı qucaqlayıb o üzündən, bu üzündən öpdü: Qardaş, — dedi, — gedin, kamınıza çatın, xoşbəxt olun! Mən qalası oldum. Oğulluqızlı, nəvəli-nəticəli olasız.

Bunu deyib qulaqlarını açdı. Birini döşək kimi altına, birini də yorğan kimi üstünə sərib uca otların arasında uzandı. Onların necə cücərməsinə həzzlə qulaq asmağa başladı.

Bahadırgil bir neçə gün mənzil kəsəndən sonra böyük düzəngaha yetişdilər. Burada çoxdan əl dəyməmişdi deyin, malqara çoxalıb aləmi tutmuşdu. Xaşalqarın qardaş göy otlardan yeyib səmirimiş, sağrısını piy bağlamış cöngələri görən təki ağzının suyu dabaq dəymiş mal kimi dabanını islatdı. Qurşağını açdı:

— Allah, Öldüm acından! — deyib nərə çəkdi. — Nə aşıraram sizi? — deyə-deyə cöngələrdən birini yerə aşırdı. Kəsdi, soydu, şişə çəkdi, ala-çiy, qara-çiy elədi, yeməyə girişdi...

Bahadır bu qardaşından da burada ayrıldı, köç-karvanını çəkdi, yeddi qardaş, yeddi bacı Gəncəyə tərəf üz qoydu. Gəncənin bir ağaclığına çatanda yer şumlayan bir qoca gördülər. Bahadır:

— Baba, — dedi, — al bu xələti, min bu atı, özünü Gəncə padşahının sarayına çatdır! De ki, muştuluq istəyirəm, yeddi oğlun yeddi gəlininnən qulluğuna gəlir.

Kişi şahzadənin verdiyi atı minib özünü Gəncə padşahına çatdırdı, elə aralıdan çağırdı:

— Şahım, gözün aydın, balaların, gəlinlərinnən gəlirlər.

İlin tamamına azca qalmışdı. Padşah intizardaydı. Sevindi, dedi:

— Məni istəyən bu kişiyə xələt versin.

Padşahın adamları kişiyə o qədər xələt verdi ki, yığıb apara bilmədi.

Sonra, da padşah, vəzir-vəkilnən cavanları pişvaza çıxdılar. Onları xeyir-duaynan şəhərə gətirdilər. Yeddi gün, yeddi gecə toy vurdurdular. Padşah Bahadırı öz yerinə padşah tikdirdi. Onlar arzu-kamına çatıb bu dünyadan köçdülər. Siz də kamınıza çatıb dövrə keçin, xoşbəxt olun, balalarım!

KİTABIN İÇİNDƏKİLƏR

ƏCƏL MACAL VERSƏYDİ... 3

ÇÖRƏK..... 8

İLDƏ BİR YALAN DANIŞAN 10

YUMURTA ƏHVALATI 17

ƏN BÖYÜK DƏRD 20

ÜÇ ÖPÜŞ 23

YAXŞI QONŞU 32

PONZABIĞIN NAĞILI 35

ARTIQ TAMAH BAŞ YARAR..... 46

SƏDAQƏT 60

SALXIM SÖYÜDÜN ƏFSANƏSİ 65

YUXUYOZAN 69

ŞƏFA BULAĞI 79

DAŞ OĞLAN 88

ŞAM VƏ PƏRVANƏ 91

«İT KÜÇÜYÜ DOĞAN İDİ» 99

KİM GÜCLÜDÜR 108

SALATIN ANA 113

İKİ ANA 117

AŞIMIZIN KİŞMİŞİ 118

GÜN GÜNƏŞ OĞLUNUN NAĞILI 130

AY DOĞDU, O DA PARA 147

DEŞİKLİ DAŞIN NAĞILI 151

MODA QARIYNAN MÜDƏ QARININ NAĞILI 166

BALQABAQ OĞLANIN NAĞILI 192

PALAZQULAĞIN NAĞILI 203

75 гәп.